**Ixtisas :** Məktəbəqədər təhsil

**Kafedra :** Psixologiya ,pedaqogika və sosial fənnlər

**Fənn:** İnklüziv təhsil

**Müəllim :** Məmmədli K.E.

## I Mövzu: İnklüziv təhsilin ümumi nəzəri məsələləri.

**Plan:**

1. Azərbaycanda və dünyada əlilliyi olan uşaqlarla bağlı məlumatlar. Əlilliyi olan uşaqlar üçün mövcud təhsil xidmətləri: inklüziv, inteqrativ, xüsusi və evdə təhsil.
2. İnklüziv təhsilin əsas anlayış və terminologiyası. İnklüziv təhsil fənninin mahiyyəti, məqsədi, movzusu, vəzifələri, prinsipləri və əhəmiyyəti.
3. İnklüziv təhsilin fəlsəfəsi.
4. İnklüziv təhsil müasir strukturunun təşkili. İnklüziv təhsildə inteqrasiya.

**Ədəbiyyat:**


1. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019.
2. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019
3. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. İnklüziv siniflərdə təlimin təşkili. Bakı 2018
4. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
5. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 2020
6. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020
7. İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması. Texniki kitabça 1. Bakı, UNİCEF, 2020
8. Hacımuradova L.N. İnklüziv təhsil baxdığınız güzgüləri dəyişir. // Gəncə Dövlət Universitetinin elmi xəbərləri. Gəncə 2019, № 3; səh.240-243
9. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika. Texniki kitabça 12. Bakı, UNİCEF, 2020

**10.** Loreman T., Deppeler J., Harvey D. İnklüziv təhsil. Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Bakı, İdeal Print, 2020

**1. Azərbaycanda və dünyada əlilliyi olan uşaqlarla bağlı məlumatlar. Əlilliyi olan uşaqlar üçün mövcud təhsil xidmətləri: inklüziv, inteqrativ, xüsusi və evdə təhsil.**

- Dünya təcrübəsi göstərir ki, əlilliyi olan uşaqlar təhsildən təcrid olunan əhali qrupları arasında çoxluq təşkil edir. Azərbaycanda təhsildən kənarda qalan əlilliyi olan uşaqlarının sayı dəqiq bilinmir. 2020-ci ilin Rəsmi statistikasına əsasən Azərbaycanda təqribən 62951 əlilliyi olan uşaq qeydiyyatdadır. UNİCEF-in apardığı araşdırmalar nəticəsində məlum olub ki, əllilliyi olan uşaqların ailələrinin yalnız bir qismi əlillik dərəcəsinin müəyyənləşdirilməsi üçün müvafiq dövlət orqanlarına müraciət edir və nəticədə qeyd etmək olar ki, Azərbaycandakı əlilliyi olan uşaqların sayı daha çoxdur.

Azərbaycanda əlilliyi olan uşaqlar 2015-2016-cı tədris ilində xüsusi məktəblərdə 3148 uşaqtəhsil alırdı, internat məktəblərində 2468 uşaq təhsil alırdı,ümumtəhsil məktəblərinin əlilliyi olan uşaqlar üçün xüsusi siniflərində 659 nəfər uşaq təhsil alırdı.

- Əlillik çox zaman gender və ya coğrafi yerləşmə ilə müqayisədə təhsildən təcrid olunmaya səbəb olan daha önəmli amildir və yoxsulluq içində yaşamaq, əlilliyi olan valideynə malik olmaq da uşağın məktəbə getməmə ehtimalını artırır.
- Əlilliyi olan uşaqların məktəbə getməməsinin digər səbəblərinə isə aşağıdakılar daxildir, lakin bununla məhdudlaşmır: valideynlər öz uşağının təhsil hüququndan xəbərsizdir, valideynlərin öz uşağından gözləntiləri aşağıdır, ailələr əlilliyi olan uşaqlarından xəcalət çəkir, onların potensialına inanmır, uşaq müəssisədə yerləşdirilib və məktəbin binasına giriş mümkün deyil.
- Bu vaxta qədər ibtidai təhsil yaşında olan məktəbə getməyən uşaqların sayı ilə bağlı tədqiqatlarda əlilliyi olan uşaqlar adekvat səviyyədə nəzərdən keçirilmirdi. Buna görə də, məktəbə getməyən əlilliyi olan uşaqların sayı ən yaxşı halda çox təqribi bir rəqəmdir.
- Əlilliyi olan uşaqlar təhsillə əlaqəli önəmli siyasətlərdən kənarda qalır.
- Ayrı-seçkiliyə yol verən qanunvericilik çox zaman əlilliyi olan uşaqların nəzərə almır və ya onların təhsil almasına imkan vermir.
- Məlumatların toplanması işinin zəifliyi və siyasətçilərin əlilliyi olan uşaqların təhsilə necə cəlb olunması ilə bağlı biliklərinin olması səbəbindən milyonlarla əlilliyi olan uşaqlar təhsil sektoru üzrə planlardan kənarda qalır.
- Əlilliyi olan uşaqlar "Hamı üçün Təhsil" təşəbbüsünün (HÜT) məqsədləri və 2-ci Minilliyin İnkişaf Məqsədlərinin təşviq etdiyi ibtidai təhsilə universal çıxış imkanına nail olmaq üçün göstərilən səylərdən nisbətən kənarda qalıb.

Günümüzün aktual problemlərindən biri də əlilliyi olan uşaqların təhsil məsələsidir. Bəzən valideynlər “xüsusi təhsil”dən xəbərsiz olduqları üçün övladlarını təhsildən kənarlaşdırırlar. Xüsusu Təhsil nədir? O əhaliyə necə xidmət göstərir? Hansı formaları var? və digər bu tip suallara aydınlıq gətirməyə çalışacam.

Xüsusi təhsil- əlilliyi olan uşaqlara göstərilən təhsil formasıdır.Azərbaycanda əhaliyə defektoloji xidmətinin göstərilməsi 3 nazirlik tərəfindən həyata keçirilir: Azərbaycan Respublikası Təhsil Nazirliyi, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi və Əmək və Əhalinin Sosial Müdafiəsi Fondu. Əhaliyə göstərilən xüsusi pedaqoji xidmət isə Təhsil Nazirliyi tərəfindən idarə olunur. Şagirdlərin uyğun təhsil formasına seçilməsi üçün xüsusi tibbi-psixoloji-pedaqoji komissiya yaradılıb.

Bəs xüsusi təhsilin hansı formaları var?

-inkluziv təhsil

-inteqrativ təhsil

-evdə təhsil

Bundan başqa Yardımçı məktəblər də fəaliyyət göstərir. Yardımçı məktəb ümumtəhsil uşaq müəssələrinə daxildir, yalnız öz vəzifələrinə görə kütləvi ümumtəhsil məktəblərindən fərqlənir.

İndi isə xüsusi təhsilin növləri ilə daha yaxından tanış olaq:

**İnkluziv Təhsil**-ümumiyyətlə dünya təhsil sistemində əlilliyi olan uşaqların ayrıca, xüsusi təhsil almaları vacib hesab olunmur. Çünki bu cür yanaşma uşaqların cəmiyyətə adaptasiyasına, sosiallaşmasına mənfi təsir edir. Halbuki Xüsusi Təhsilin (Special Education) əsas məqsədi əlilliyi olan uşaqların yenidən cəmiyyətə bağışlanması, özü və cəmiyyət üçün lazımlı şəxs olmasıdır. Məhz bu cür problemlərə görə 1 çox yeni təhsil proqramları işlənib-hazırlanmışdır.Onlardan biri də " İnkluziv Təhsil"dir. İnkluziv Təhsil haqqında qanun Azərbaycanda 2004-cu ildən etibarən qüvvəyə minib. 2005-ci ildən etibarən isə tədbiqi davam edir. İnkluziv təhsil dedikdə əlilliyi olan uşaqların, öz sağlam həmyaşıdları ilə birlikdə eyni sinifdə təhsil alması nəzərdə tutulur. İnkluziv sinif üçün uşaqların sayı sinifdəki uşaqların ümumi sayına əsasən qiymətləndirilir. Yəni bir sinifdə maksimum 4-5 əlilliyi olan uşaq təhsil ala bilər. Bu zaman həmin uşaqlara "köməkçi müəllim", "koreeksion pedaqoq" təyin olunur. Bu dərslərin daha səmərəli keçməsi üçündür. İnklüziv təhsil uşaqların müstəqil bir fərd olduğunu və təhsil zamanı onların hər birinin öz ehtiyacları olduğunu qəbul edən metodologiyaları inkişaf etdirməyə yönəlib. İnklüziv təhsil tədris zamanı müxtəlif ehtiyacların ödənilməsinə yönəlmiş yanaşmaların formalaşdırılmasına çalışır. İnklüziv təhsil istər sağlam, istərsə də əlillərin bərabər təhsil alma hüquqlarını təmin edir və bu cəmiyyətdə sosial bərabərliyin qorunmasına, əlil uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaratmış olur.

**İnteqrativ təhsil** dedikdə əlilliyi olan uşaqların ümumtəhsil məktəbə getmələrinə icazə verilməsi, lakin özlərinin tipik həmyaşıdları ilə eyni sinifdə dərs keçmələri nəzərdə tutulur. Onlar ayrıca sinif otaqları və müəllimlər ilə təmin olunurlar. Hansısa bir növ əlilliyi olan uşaqlar ümumi məktəb kurikulumu əsasında təhsil alırlar. Sadəcə olaraq onların dərs proqramı bir qədər yüngülləşdirilmiş şəkildə olur. İnteqrativ təhsil əsasən Bakı şəhərindəki məktəblərdə tədbiq olunur.

**Evdə təhsil**-təhsil qanunu və ümumtəhsil məktəblərinin nümunəvi əsasnaməsinin müddəalarına uyğun olaraq uzunmüddətli xəstə olan, səhhətinə görə məşğələlərdə iştirak edə bilməyən uşaqların evdə fərdi təhsili təşkil olunur. Evdə fərdi qaydada təhsil alan şagirdlər həmin təhsil müəssəsinə xəstəxanaların, dispanserlərin, poliklinikların göndərişi ilə rayon (şəhər) tibbi-pedaqoji-psixoloji komissiyaların qərarına əsasən qəbul olunur. Evdə fərdi məşğul olan şagirdlərin dərslərinə sinif rəhbəri, proqram materiallarının yerinə

yetirilməsinə və həmin prosesdə tədbiq edilən metodik işə təlim-tərbiyə işi üzrə direktor müavini məsuliyyət daşıyır. Şagirdlərin biliyi sinif jurnalında qeyd olunur. Sinifdən-sinifə keçirilməsi, məktəbi bitirməsi də müvafiq qaydada jurnallarda öz əksini tapır.

Əlilliyi olan uşaqlar üçün fəaliyyət göstərən xüsusi təhsil müəssələri aşağıdakılardır:

1. Dayaq-hərəkət aparatı pozulmaları olan uşaqlar üçün məktəbəqədər müəssələr/məktəblər
2. İntelektual çatışmazlığı olan uşaqlar üçün məktəbəqədər müəssələr
3. Görmə qüsurlu uşaqlar üçün məktəbəqədər müəssələr/məktəblər
4. Ağır nitq qüsurları olan uşaqlar üçün məktəblər
5. Yardımçı məktəblər
6. Ümumtəhsil məktəbləri nəzdində loqopedik məntəqə və ya kabinetlər.

Çox təəssüf hissi ilə qeyd etmək lazımdır ki, bu cür xüsusi təhsil növləri yalnız məktəbəqədər və orta təhsil pillələri üzrə nəzərdə tutulub. Əllilliyi olan gənclərin növbəti təhsil pillələrində (bakalavr,magistr və.s) hansı şərtlər və qaydalar əsasında təhsil almalarına dair heç bir xüsusi qanun qüvvədə deyil.

Ənənəvi xüsusi təhsil uşağın diqqətini onun əqli və fiziki əlilliyinə yönəldir. Onlar digər uşaqlarla ünsiyyətə girməkdə çətinlik çəkir və özlərini bir növ cəmiyyətdən təcrid olunmuş kimi hiss edirlər. Tipik uşaqlar da eyni zamanda, bu və ya digər məkanda əlilliyi olan uşaqla rastlaşdıqda ona təəccüblə baxır, sanki o tamam başqa bir dünyadan gəlib, bəzən isə gülür və ələ salırlar. Bunun əsas səbəbi isə onlar arasında ünsiyyətin, əməkdaşlığın olmaması, məlumatsızlıq və ya əlilliyi olan şəxslərlə bağlı təcrübələrin olmamasıdır. Nəticədə isə, onlar bir-birilərini dərk etmir və nə hiss keçirdiklərini başa düşmürlər.

Halbuki biz əgər bötüv və sağlam bir cəmiyyət istəyiriksə, bu, hər şeydən əvvəl təhsilin tamlığından keçir. Təhsilin tamlığını təşkil etmək və qarşıya çıxan əskiklikləri tamamlamaq üçün daim dünya təcrübəsi araşdırılır, milli sistemə tətbiqi labüd olan yeni variantlar tapılır və onların ölkəmizdəki efffektivliyi məsələsi dəqiqləşdirildikdən sonra əməli işlərə start verilir. Böyük hədəfləri olan inklüziv təhsil də əlilliyi olan uşaqlar üçün geniş imkanlar açır. Bəs, bu imkanlar necə cilalanır?

İlk öncə ümumtəhsil sistemi bütün uşaqları əhatə etməli, bütün uşaqların bərabər imkanlara malik olmasını təmin etməli və hər birinin fərdi nailiyyətlərinə dəstək verməlidir. Belə bir imkanı inkluziv təhsil yarada bilər. İnkluziv (fransızca-inclusive "özünə daxil edən", latınca-inkludə "nəticəyə gəlmək" mənasını verir) təhsil əlilliyi olan insanların ümumtəhsil müəssisələrində digər həmyaşıdları ilə birlikdə təlim prosesinə cəlb olunmasıdır. İnkluziv təhsil istər əlilliyi olan və ya olmayan şəxslərin bərabər təhsil alma hüquqlarını təmin edir və bu, cəmiyyətdə sosial bərabərliyin qorunmasına, əlilliyi olan uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaratmış olur.

BMT-nin Azərbaycan Respublikası tərəfindən 2008-ci ildə ratifikasiya edilmiş Əlilliyi olan şəxaslərin hüquqları haqqında Konvensiyası (UNCRPD) dövlətlərin üzərinə İnklüziv təhsilin həyata keçirməklə bağlı aşkar öhtəliklər qoyur. Konvensiya bütün uşaqların, o cümlədən əlilliyi olan uşaqların yalnız öz şəhər, rayon və kəndlərində təhsil almaq imkanı ilə deyil, həmçinin öz potensiallarını tam ortaya qoya bilmək üşün müvafiq təhsil imkanları ilə təmin olunmasını tələb edir.

Azərbaycan Respublikası tərəfindən UNCRPD-nin və BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının həyata keçirilməsi istiqamətində atılmış vacib addımlardan biri

Azərbaycan Respublikası Prezidentinin "2018-2024-cü illər üçün Azərbaycan Respublikasında inklüziv təhsilin inkişafına dair" Dövlət Proqramını təsdiq etməsi olmuşdur.

Bununla yanaşı**,** keçmiş Təhsil naziri Ceyhun Bayramov "İbtidai təhsil səviyyəsi üzrə inklüziv təhsilin tətbiqi" layihəsinin ümumi orta təhsil səviyyəsi üzrə davamlılığının təmin edilməsi barədə əmr imzalayıb.

Bütün bunlar isə əlilliyi olan uşaqların keyfiyyətli təhsilə cəlb edilməsi onlar üçün daha çox imkanın yaradılması, daha yaxşı işəgötürülmə perspektivləri və keyfiyyətli təhsil almış əlilliyi olan yetkinlik yaşına çatmışlar arasında asılılığın azaldılması, əlilliyi olan uşaqlar və yeniyetmələr arasında sosial bacarıqların artırılması və əlilliyi olan insanlara qarşı ayrıseçkiliyin aradan qaldırılması vasitəsilə milli inkişafa uzunmüddətli olaraq müsbət təsir göstərəcək ki, bu da daha böyük sosial uyğunlaşmaya gətirib çıxaracaq.

Ötən il UNİCEF-in sifarişi ilə Azərbaycanda əlilliyi olan uşaqlarla bağlı tədqiqatlar aparıldı. Bu, 2018-ci ilin aprel ayında təqdim olunmuş nəticələri bölüşməyə imkanı verir.

- Azərbaycanda əlilliyi olan uşaqlarla bağlı dəqiq məlumatlar əldə etmək çətindir.
- Azərbaycanda əhalinin 5.6%-ni əlilliyi olan şəxslərin təşkil etdiyi təxmin edilir. Onlardan 2.6%-i uşaqlardır. Bu göstəricilər beynəlxalq səviyyədə qəbul olunan hesablama göstəriciləri ilə müqayisədə aşağıdır. Beynəlxalq səviyyədə qəbul olunan hesablamaya 6 əsasən ümumi əhalinin (orta və ağır dərəcəli əlilliyi olan) 15%-ə, uşaqların isə 5.1%-ə qədəri ola bilər.
- Məlumatların qeyri-dəqiqliyi məsələsi qismən əlilliyi olan şəxslərin müəyyənləşdirilmə sistemi ilə bağlıdır. Belə ki, bu sistem əlilliyin tibbi modelinə əsaslanır.
- Bəzi valideynlər sosial damğalama ilə əlaqədar olaraq diaqnostikadan çəkinirlər.

Məlumatlarla bağlı məsələlər yalnız Azərbaycanda problemli deyil. Əlilliyi olan uşaqlarla bağlı dəqiq statistik məlumatların əldə edilməsi qlobal məsələdir. 2015-ci il üzrə Qlobal Monitorinq Hesabatının əsas nəticələrinə görə, orta gəliri aşağı olan ölkələrdə əlilliyi olan uşaqlara dair əksər məlumatlar təqribi hesablamalara əsaslanır. Bunun səbəbi əlilliyin tibbi modelinə əsaslanan qiymətləndirmədir. Hazırkı beynəlxalq tendensiya Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatından istifadədir. Burada qiymətləndirmə zamanı orqanizmin funksiyaları, quruluşu, fəaliyyətlər, iştirak və ətraf mühit amilləri nəzərə alınır. Bəzi ölkələrdə əlilliyi olan uşaqların 90%-i məktəbə getmir. Əlil olmaq uşağın məktəbə getməmək ehtimalını iki dəfə artırır. Əlilliyi olan uşaqların məktəbi yarımçıq tərk etmək və ya ayrı-seçkiliklə üzləşmək ehtimalları ikiqat yüksəkdir. Son onilliklər ərzində dünyada inklüziv təhsilə yönələn nümunəvi təcrübələr yaranmışdır. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları" haqqında Konvensiyası tam inklüziv təhsilin dəstəklənməsi üçün müfəssəl istiqamət vermişdir, bir çox ölkələr öz siyasətlərini inklüziv təhsilin təməl prinsiplərinə uyğunlaşdırmışdır və fasiləsiz olaraq uyğunlaşdırmağa davam edir. Lakin bu müsbət proseslərə baxmayaraq hələ də çoxsaylı çətinliklər qalır. Əlilliyi olan uşaqlar üçün bir nömrəli maneə insanların əlilliyə qarşı mənfi münasibətidir. Bu isə əlilliyi olan uşaqların davamlı olaraq kənarlaşdırılması, ayrı-seçkiliyə məruz qalması və təcrid olunması ilə nəticələnir.

**2. İnklüziv təhsilin əsas anlayış və terminologiyası. İnklüziv təhsil fənninin mahiyyəti, məqsədi, movzusu, vəzifələri, prinsipləri və əhəmiyyəti.**

- Bu gün təhsil sahəsində dövriyyədə olan anlayışlardan biri **"inklüziya"** terminidir. **İnklüziya (inclusion – daxiletmə)** – bütün vətəndaşların, ilk növbədə, əlilliyi olan bütün insanların cəmiyyətdə iştirak səviyyəsinin artırılması prosesidir. **İnklüziv təhsil** isə ümumi təhsilin elə bir inkişaf mərhələsidir ki, burada hamının, ilk növbədə, əlilliyi olan şəxslərin təhsilə ehtiyacı təmin edilir. Söhbət bütün vətəndaşların, o cümlədən müəyyən səbəblərdən fiziki və əqli inkişafında çətinlikləri olan şəxslərin ictimai həyatda aktiv iştiraka qatılmağından gedir. Təhsil sahəsi istisnasız olaraq bütün uşaqların və böyüklərin akademik və ictimai həyatda bərabərhüquqlu iştirakını təmin etməldir. **"İnklüziv təhsil"** anlayışının geniş çərçivədə izah edilməsinə ehtiyac o səbəbdən yaranmışdır ki, təhsil işçiləri, idarəedici və digər orqanlar, təhsil siyasətini hazırlayan şəxslər qarşılıqlı əməkdaşlıq və dialoq üçün ümumi diskursiv sahəyə (diskursiv sahə intellektual və sosial səhələrin qarışığıdır ki, burada sosial əlaqələr müəyyən bir təcrübəyə çevrilir) malik olsunlar.

Beynəlxalq ictimaiyyət **"inklüziya"** terminini ictimai həyata aktiv qatılma kimi izah edir. Təhsil mühitinə inklüziv yanaşma zamanı ümumilikdə məktəbin şagirdləri və onların valideynləri əlilliyi olan uşaqları cəmiyyətin üzvü kimi qəbul etməyə başlayırlar. Əlilliyi olan insanların baxışları da ətraf mühit üçün əhəmiyyət kəsb etməyə başlayır, hər şeydən öncə isə, onlar artıq korreksiyaedici xüsusi məktəblərdə olduğu kimi, evdən təcrid olunaraq yaşamırlar. İnklüziya həm də insan hüquqlarının qorunması mexaniminin elementi, hamının təhsilinin təmin olunması prosesi və hamı üçün məktəbin təşkili kimi nəzərdən keçirilir. İnklüziv təhsil xüsusi məktəblərdən imtinaya və ya onların sayının azalmasına gətirib çıxaracaqdır.

Müasir cəmiyyətdə əlilliyi olan insanlara dəstək ictimai səviyyədə maarifləndirici, məlumatlandırıcı işlərin görülməsini də tələb edir. Çünki ictimai şüurun formalaşdırılması inklüziv təhsil sahəsində siyasətin dəstəklənməsində böyük əhəmiyyət daşıyır. Yalnız əlilliyi olanlara münasibətdə ictimai fikir dəyişdiyi, həmçinin əlverişli və təhlükəsiz müht yaradıldığı zaman uşaqların və böyüklərin iştirakına imkan yaranacaqdır. İnklüziya sahəsində araşdırmalar qeyd edir ki, cəmiyyət əlilliyi olan uşaqların assimilyasiyasına neytral və ya passiv-mərhəmət mövqeyi nümayiş etdirir: belə uşaqların problemi ətrafdakılar tərəfindən mühitin öhdəliyi kimi deyil, uşaqların öz çətinlikləri kimi qəbul edilir. Cəmiyyətdə əlilliyi olan uşaqları əhatə edən əksəriyyət onlara qarşı passiv tolerantlıq göstərir. Buna görə də inklüziv təhsil bu gün yalnız hamı üçün təhsil sisteminin möhkəmlənməsi prosesi kimi deyil, həm də əlilliyi olan insanların diskriminasiyasının aradan qaldırılmasının səmərəli vasitəsi kimi qəbul edilir. İnklüziv təhsilin məktəb həyatına gətirdiyi dəyişikliklərin nəticəsində yalnız sağlamlıq imkanları məhdud uşaqlar deyil, bütün uşaqlar qazanacaqlar.

Müasir cəmiyyətdə əlilliyi olan insanlara dəstək ictimai səviyyədə maarifləndirici, məlumatlandırıcı işlərin görülməsini də tələb edir. Çünki ictimai şüurun formalaşdırılması inklüziv təhsil sahəsində siyasətin dəstəklənməsində böyük əhəmiyyət daşıyır. Yalnız əlilliyi olanlara münasibətdə ictimai fikir dəyişdiyi, həmçinin əlverişli və təhlükəsiz müht yaradıldığı zaman uşaqların və böyüklərin iştirakına imkan yaranacaqdır. İnklüziya sahəsində araşdırmalar qeyd edir ki, cəmiyyət əlilliyi olan uşaqların assimilyasiyasına neytral və ya passiv-mərhəmət mövqeyi nümayiş etdirir: belə uşaqların problemi

ətrafdakılar tərəfindən mühitin öhdəliyi kimi deyil, uşaqların öz çətinlikləri kimi qəbul edilir. Cəmiyyətdə əlilliyi olan uşaqları əhatə edən əksəriyyət onlara qarşı passiv tolerantlıq göstərir. Buna görə də inklüziv təhsil bu gün yalnız hamı üçün təhsil sisteminin möhkəmlənməsi prosesi kimi deyil, həm də əlilliyi olan insanların diskriminasiyasının aradan qaldırılmasının səmərəli vasitəsi kimi qəbul edilir. İnklüziv təhsilin məktəb həyatına gətirdiyi dəyişikliklərin nəticəsində yalnız sağlamlıq imkanları məhdud uşaqlar deyil, bütün uşaqlar qazanacaqlar. Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərində təhsili bir çox ölkələrin, eləcə də Azərbaycanın cəlb olunduğu inklüziv təhsil sisteminin qanunauyğun inkişaf mərhələsidir. Bu inkişaf sxematik olaraq aşağıdakı mərhələlərdən keçmişdir:

I mərhələ - diskriminasiya (əlilliyi olan uşaqlar ümumiyyətlə təhsildən kənarda qalır)

II mərhələ - seqreqasiya (əlilliyi olan uşaqlar ya xüsusi məktəblərdə oxuyur, ya da evdə təhsilə cəlb olunur)

III mərhələ - inteqrasiya (əlilliyi olan uşaqlar ümumtəhsil məktəblərində tipik uşaqlarla birlikdə, lakin ayrı siniflərdə xüsusi proqram əsasında oxuyur)

IV mərhələ - inklüziya (əlilliyi olan uşaqlar ümumtəhsil müəssisələrində tipik uşaqlarla eyni siniflərdə təhsil alır).

Əlilliyi olan uşaqların təhsilinə belə yanaşma həyatda müxtəlif xarakterli səbəblərlə əlaqədardır. Ümumilikdə bu səbəbləri iqtisadi, hüquqi inkişaf baxımından müəyyən səviyyəyə nail olmuş cəmiyyət və dövlətlərin sosial tələbləri kimi müəyyənləşdirmək olar. Son mərhələ cəmiyyət və dövlətlər tərəfindən əliliyi olan şəxslərə münasibətin dəyişdirilməsi, yalnız hüquqlarının tanınması deyil, təhsil də daxil olmaqla, həyatın müxtəlif sahələrində onlara digər insanlarla bərabər imkanların yaradılması ilə xarakterizə olunur.

YUNESKO-nun sorğusu əsasında (1989) ölkələrin 3/4-nün (sorğuda iştirak etmiş 58 ölkədən 43-ü) əlilliyi olan uşaqların inklüziv təhsilini qəbul etdiyi müəyyənləşdirilmişdir. İnklüziv təhsil uşaqyönümlü pedaqogikanı inkişaf etdirməyi hədəf götürür və bütün uşaqların – fərdlərin təhsildə müxtəlif ehtiyclara malik olduqlarını qəbul edir.

**İnklüziv təhsilin prinsipləri:**

1.İnsanın dəyəri onun qabiliyyət və nailiyyətlərindən asılı deyildir;

2.Hər bir kəs hiss etmək və düşünmək qabiliyyətinə malikdir;

3.Hər kəs ünsiyyət hüququna malikdir və o dinlənilməlidir;

4.Bütün insanlar bir-birinə lazımdır;

5.Həqiqi təhsil yalnız real münasibətlərin kontekstində mövcud ola bilər;

6.Bütün insanlara öz həmyaşıdlarının dəstək və dostluğu lazımdır;

7.Bütün şagirdlərin inkişafı onların bilik və bacarıqlarından asılıdır;

8.İnsanların müxtəlifliyi həyatın bütün sahələrini inkişaf etdirir.

İnklüziv təhsil məktəbəqədər, orta, peşə və ali təhsil mərhələlərini ehtiva edir. Bununla o, əlilliyi olan insanların davamlı təhsilinin və inkişafının təmin olunmasına xidmət edir.

Beləliklə, **İnklüziv təhsil** "təlim, mədəniyyət və icmalarda iştirakın artırılması və təhsil sistemi daxilindəki və ondan qaynaqlanan təcridolunmanın azaldılması yolu ilə bütün təhsilalanların ehtiyaclarının müxtəlifliyinin nəzərə alınması və cavab tədbirlərinin görülməsi prosesidir. İnklüziv təhsil müvafiq yaş aralığına daxil olan bütün uşaqları əhatə edən gələcəyə ümumi baxış və dövlətin bütün uşaqlara təhsil vermək öhdəliyi əsasında məzmuna, yanaşmalara, struktur və strategiyalara dəyişiklik və modifikasiyaların edilməsini ehtiva edir."

**3. İnklüziv təhsilin fəlsəfəsi.**

İnklüziv təhsil uşaqların fənlər üzrə müxtəlif təlim ehtiyaclarının təmin edilməsi üçün daha səmərəli olan yanaşmaları işləyib hazırlamağa cəhd edir. İnklüziv təhsilin əsasında aşağıdakı istiqamətləri əsas götürən ideologiya durur:

-Bütün insanlara eyni münasibəti təmin edərək hər cür diskriminasiyadan uzaq durmaq;

-Xüsusi təlim ehtiyacları olan uşaqlar üçün ümumtəhsil müəssisələrində şərait yaratmaq.

**İnklüziv təhsilin üstünlükləri:**

- Dostluq;
- Ümumi təhsilə böyük çıxış;
- Başqaları ilə münasibət qurmaq imkanları;
- Akademik, sosial və davranış bacarıqlarının formalaşması;
- Artan sosial təşəbbüsləri, münasibətləri və şəbəkələri;
- Gələcək mühitə qoşulmaq, cəmiyyətin yararlı üzvü olmaq imkanları;
- Gələcək həyatlarına müstəqil davam etmək bacarıqları;
- Həyata, yaşamağa artan inam və ümidləri.

**İnklüziv təhsilin çətinlikləri:**

- Bütün müəllimlər inklüziv sinifdə dərs deməyə hazır deyillər;
- Şagirdlərin çoxu kütləvi sinifdə olarkən daha çox diqqət və kömək tələb edirlər;
- Şagirdlərin bəziləri sinifdə inklüziv şagirdləri qəbul edə bilmirlər.

**4.İnklüziv təhsil müasir strukturunun təşkili. İnklüziv təhsildə inteqrasiya.**

- İnklüziv təhsilin mahiyyəti nədən ibarətdir? Pedaqogikada inklüziv yanaşmaların tətbiqi əsas demokratik prinsip və dəyərlərə tam cavab verməklə, xüsusi qayğıya ehtiyacı olan uşaqların tipik yaşıdlarının təlim aldıqları şəraitə maksimum yaxın olan şəraitdə təhsilinə tam və fəal şəkildə cəlb olunması kimi təyin olunur. İnklüziv sinif mühitində təlim hər bir uşağın başqaları ilə birlikdə tədris prosesində iştirak etmə hüququnu nəzərdə tutur. İrqi, cinsi fərqlər, eləcə də, xüsusi fərqlər və müxtəlif qabiliyyətlər bu hüquqa təsir göstərmir. Öz qabiliyyət və ehtiyaclarından asılı olmayaraq, uşaqların hamısı sinfin tam hüquqlu üzvü sayılır. İnklüziv təhsilin bu konsepsiyası bütün uşaqlar dəyərli və cəmiyyətin fəal üzvləridir kimi demokratik ideyalardan birini əks etdirir. Belə ki, uşaqlar sağlam və xüsusi qayğıya ehtiyacı olanlara bölünmürlər, öz fərdi xüsusiyyətləri, ehtiyacları və istedadları olan ayrı-ayrı şəxsiyyətlər kimi nəzərdən keçirirlər və daim təlim prosesində dəstək alırlar.

Sağlamlıq imkanları məhdud olan uşaqlar da digər uşaqlar qədər bacarıqlı, qabiliyyətli ola bilir. Artıq bunu şahidi dəfələrlə olmuşuq. Odur ki, onları cəmiyyətdən ayırmaq olmaz. Onlar da digər yaşıdları kimi məktəbə getməli, təhsil almalı, yaşıdlarıyla bir yerdə vaxt keçirməli, müxtəlif fəal tədbirlərə, oyunlara cəlb olunmalı və cəmiyyətə qazandırılmalıdır. Əks halda, onları bir fərd kimi itirmiş oluruq. Xüsusi qayğıya ehtiyacı olan uşaqların ümumtəhsil məktəblərinə uğurlu inteqrasiyası məktəb mühitində və bütövlükdə təhsil sistemində mühüm dəyişikliklər tələb edir. Həmin dəyişikliklər məktəblərdə xüsusi şəraitin yaradılmasını, xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün təlim proqramları və

materiallarının işlənib hazırlanmasını, təlim metodları və strategiyalarının diferensiallaşdırılmasını və hətta qiymətləndirmə prosesində müxtəlif yanaşmalardan istifadə edilməsini tələb edir.

1970-ci illərdən başlayaraq xaricdə əlilliyi olan şəxslərin təhsil imkanlarının genişləndirilməsi ilə bağlı normativ aktların hazırlanmaına başlanılmışdır. Müasir təhsil siyasətində ABŞ və Avropa bir neçə yanaşmanın inkişafına nail olmuşdur:

1.təhsilin əlçatanlığının genişləndirilməsi (widening participation);

2.hakim tendensiyaya çevrilmə (mainstrreaming);

3.inteqrasiya (integraton);

4.inklüziya (inclusion).

İnklüziv təhsil sahəsində durumun ölkə qanunvericiliyi və beynəlxalq standartlara uyğun səviyyədə təşkili üçün aşağıdakı işlərin görülməsi vacibdir:

1. İnklüziv təhsil üzrə qanunvericilik, əlilliyin sosial modelini təsbit edən hüquqi baza yaradılmalı və intensiv fəaliyyət planı hazırlanmalıdır.

2. Təhsilə cəlb olunmuş və təhsildən kənarda qalan əlilliyi olan uşaqları müəyyən edə bilmək üçün vahid məlumat bazası yaradılmalı, onların sağlamlıq və reabilitasiya, təhsil inkişafı müvafiq qaydada izlənilməli, zaman keçdikcə proqramın uşağa uyğun olmadığı müəyyən edilərsə, müdaxilə edilməlidir.

3. Ölkə ərazisində regionlar da daxil olmaqla rayonlar üzrə əlilliyi olan uşaqların sayı nəzərə alınmaqla inklüziv məktəbəqədər tərbiyə müəssisələri və məktəblər müəyyən edilməli və həmin bağça və məktəblərdə sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi şərait yaradılmalıdır(pandusların qoyulması, ayaqyolunda və idman zalında müvafiq dəyişikliklər edilməsi). Həmin inklüziv bağça və məktəblər haqqında məlumatlar ictimaiyyətə açıq olmalıdır.

4. Maddi çətinlikləri olan valideynlərin uşaqlarını məktəbə aparıb-gətirmək üçün inklüziv məktəblərə nəqliyyat vasitəsi təyin olunmalıdır.

5. Uşaqlarda əlilliyin qarşısının alınması üçün pulsuz erkən müdaxilə proqramları həyata keçirilməlidir.

6. Əlilliyi olan uşaqlar üçün dərsdənkənar fəaliyyət növlərini əhatə edən dövlət hesablı mərkəzlərin sayı artırılmalıdır.

7. Əlilliyi olan inklüziv təhsil alan uşaqlar üçün xüsusi proqram, dərslik, qiymətləndirmə metodları müəyyən edilməlidir.

8. İnklüziv təhsil ölkəmizdə illərdir hələ də təhsilin ibtidai pilləsini əhatə etdiyi üçün, əsas təhsil pilləsinə keçməli olan əlilliyi olan uşaqların təhsili ilə bağlı layihələr və proqramlar həyata keçirilməlidir.

9. Əlilliyi olan uşaqların yuxarı təhsil pillələrində inklüziv təhsilə cəlb edilməsi ilə bağlı tədbirlər planı hazırlanmalıdır.

10. Əlilliyi olan uşaqlarla işləyə bilən yetərli sayda kadr hazırlanmalı, artıq onlarla işləyən müəllimlər əlavə ixtisasartırma kurslarına cəlb olunmalı və onların maddi cəhətdən həvəsləndirilməsi məsələsi nəzərə alınmalıdır.

11. İnklüziv təhsilə cəlb edilən xarici qrantların qeydiyyatsız (sadəcə, məlumatlandırmaqla) fəaliyyətinə icazə verilməsi bu sahənin daha intensiv inkişafına kömək edər.

12. İctimaiyyəti inklüziv təhsil barədə məlumatlandırmaq üçün ictimai vəkillik kampaniyaları, valideynlərin inklüziv təhsil, proqram və qiymətləndirmə metodları haqqında maariflənməsi üçün təlimlər keçirilməlidir.

13. Hökumət ölkədə olan əlilliyi olan insanlar haqqında şəffaf şəkildə statistika təşkil etməlidir.

Meynstriminq hesab edirdi ki, əlilliyi olan uşaqlar öz yaşıdları ilə bayramlarda, məktəbdənkənar proqramlarda ünsiyyət saxlamalıdır.

İnteqrasiya məktəbdə heç bir dəyişiklik olunmadan, məktəbi əlilliyi olan uşaqların imkanlarına uyğunlaşdırmadan xüsusi siniflərin təşkilini nəzərdə tuturdu. Azərbaycanda "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunun 12-ci maddəsinin tələblərinə əsasən, sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində təhsil almalarının təmin etmək üçün "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili qaydaları" təsdiq olunmuşdur. Həmin qaydalara əsasən, inteqrasiyalı təhsil sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində xüsusi təhsil proqramları ilə xüsusi siniflərdə təhsilinin təşkili ilə bağlı məsələləri əhatə edir.

İnklüziya isə məktəbin istisnasız bütün uşaqların ehtiyaclarına cavab verəcək reformasiyasını və yenidən planlaşdırılmasını nəzərdə tutur. "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanununda xüsusi təhsil, evdə təhsil və inteqrasiyalı təhsilin təşkil olunması ilə bağlı normaların nəzərdə tutulmasına baxmayaraq, inklüziv təhsilə dair müddəalar yer almamışdır.

## II Mövzu: İnklüziv Təhsilin hüquqi bazası

**Plan:**

**1.** İnklüziv təhsilin inkişaf mərhələləri.

2. İnklüziv təhsil bütün uşaqların keyfiyyətli təhsil almaq hüququna əsaslanır.

3. Beynəlxalq və Azərbaycana dair hüquqi sənədlər:

- Millətlər Liqasının Uşaq Hüquqlarının Bəyannaməsi (Cenevrə Bəyannaməsi) (1924)
- İnsan Hüquqları haqqında Ümumi Bəyannamə (1948);
- BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası (1989);
- BMT-nin "Təhsil hüququna dair Salamanka Bəyanatı" (2001);
- BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası (2006);
- Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reablitasiyası və sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu (1992);
- Azərbaycan Respublikasının Konstitusiyası (1995);
- "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunu (2001);
- "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu (2009);
- Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005 - 2009-cu illər):

- “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı” (2015);

- “2018–2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” (2017).

**Ədəbiyyat:**


1. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz “İnklüziv sinifdə təlimin təşkili” mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019.
2. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019
3. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. İnklüziv siniflərdə təlimin təşkili. Bakı 2018
4. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
5. Qasımov S.Ə. Azərbaycanda xüsusi məktəblərin inkişaf tarixi (1916-1990). Bakı: Çaşıoğlu, 2002
6. Hüseynova N.T. İnklüziv təhsil. Dərs vəsaiti. Bakı, 2014.
7. Mərdanov M. Azərbaycan Təhsil tarixi. II cild. Bakı, 2011
8. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 2020
9. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020
10. İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması. Texniki kitabça 1. Bakı, UNİCEF, 2020
11. Hacımuradova L.N. İnklüziv təhsil baxdığınız güzgüləri dəyişir. // Gəncə Dövlət Universitetinin elmi xəbərləri. Gəncə 2019, № 3; səh.240-243
12. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika. Texniki kitabça 12. Bakı, UNİCEF, 2020
13. Loreman T., Deppeler J., Harvey D. İnklüziv təhsil. Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Bakı, İdeal Print, 2020


**1. İnklüziv təhsilin inkişaf mərhələləri.**

- Ümumilikdə cəmiyyətdə və pedaqogikada xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili mürəkkəb bir inkişaf yolu keçmiş və aşağıda göstərilən mərhələlərlə təsvir oluna bilər:

✓ XI-VIII eramızdan əvvəlki əsr. – XII əsr. Cəmiyyət onlara qarşı aqressiya, dözümlü olmamaq və qəbul etməməkdən onlara mərhəmət hissi ilə yanaşmaq səviyyəsinə gəlmişdir.

✓ XII-əsr – XVIII əsrin 70-80-ci illəri. Cəmiyyət sosial qayğıya ehtiyacı olan uşaqlara qarşı mərhəmət hissini deyil onların öyrənmə bacarıqlarını önə çəkmişdir.

✓ XVIII əsrin 70-80-ci illəri – XX əsrin əvvəli. Cəmiyyət xüsusi qayğıya ehtiyacı olan insanların öyrənmə bacarıqları ilə yanaşı həmçinin onları öyrətmək zərurətini də dərk etmişdir.

✓ XX əsrin əvvəli – 1960-cı illərin ortası. Cəmiyyət müxtəlif kateqoriyaya aid olan xüsusi qayğıya ehtiyacıolan uşaqları təlimləndirərək onlar üçün mütəşəkkil xüsusi təhsil sistemini yaratmağa nail olmuşdur. Xüsusi təhsil sistemi pedaqoji nəzəriyyədə tibbi yanaşmaya əsaslanır ki, bu da tibbi diaqnoza görə uşaqların təhsilinin təcrid olunmasına gətirib çıxardır. Tibbi yanaşmaya görə xüsusi qayğıya ehtiyacı olan uşaqlar xəstə uşaqlardı, onların müalicəyə və xüsusi qayğıya ehtiyacı var. Məhz bu səbəbdən də onların təhsili qapalı təhsil müəssisələrində həyata keçirilməlidir. Tibbi modelə görə insanları sistemə uyğunlaşdırmaq üçün dəyişmək lazımdır.

✓ 1960-illər – 1980-ci illərin ortası. Təcrid olunmuş təhsildən inteqrativ təhsilə doğru inkişaf gedir. İnteqrasiya yeni bir model olun sosialmodelə əsaslanır. Bu model xüsusi qayğıya ehtiyacı olan uşaqlara fərqli bir nəzər salır və belə uşaqların yaşadıqları cəmiyyətin mədəni ənənələrinə uyğun tərbiyəsini vacib duyur. Sosial modelə görə cəmiyyətin əlilləri qəbul etməsi üçün cəmiyyətin əlillərə münasibətini və bütövlükdə cəmiyyəti dəyişdirmək lazımdır.

✓ 1980-ci illərin ortası – indiyədək.İnklüziya daxil etmə modeli. Bu modelə görə insan və uşaq ailənin, cəmiyyətin həyatında iştirak etmək üçün, təhsil müəssisəsində təhsil almaq üçün və ya işləmək üçün heç də hazır olmamalıdır.

Həmçinin, əlilliyi olan uşaqların təlim və təhsil prosesinin dövrləşdirilməsinə başqa bir yanaşma da var və şərti olaraq üç mərhələyə ayrılır:

I. XX əsrin əvvəlləri və 60-cı illərin ortaları -"tibbi model" → seqreqasiya.

II. XX əsrin 60-cı illərinin ortalarından 80-ci illərin ortalarına qədər - "normallaşdırma modeli" → inteqrasiya

III. XX əsrin 80-ci illərinin ortalarından hazırki dövrə qədər - "sosial model" → inklüziya.

Bu dövrləşdirməyə əsasən əlilliyi olan uşaqların xüsusi təhsili seqreqasiya hesab olunur. Xüsusi təhsil xüsusi təhsil müəssisələrində, xüsusi təhsil bölmələrində, xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş formalarda həyata keçirilir.

**a. Evdə təhsilin təşkili -** Sağlamlıq vəziyyətinə görə təhsil müəssisəsində təhsil almaq imkanı olmayan şəxslərin təhsili müvafiq təhsil müəssisəsi vasitəsilə evdə təşkil edilir.

- Evdə təhsil almaq hüququ verən xəstəliklərin siyahısı və evdə təhsilin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**b. Stasionar müalicə müəssisələrində təhsilin təşkili -** Sağlamlıq imkanları məhdud şəxslər tibb müəssisələrində uzunmüddətli (21 gündən artıq) stasionar müalicədə olarsa, müvafiq icra hakimiyyəti orqanı psixoloji-tibbipedaqoji komissiyanın qərarı əsasında onların müvafiq ümumi tədris proqramlarına uyğun təhsil almalarını təşkil edir.

- Stasionar şəraitdə təhsilin təşkili qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

**c. Ümumi təyinatlı təhsil müəssisələrində xüsusi təhsilin təşkili -** Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq sağlamlıq imkanları məhdud şəxslərin

psixoloji-tibbi-pedaqoji və ya tibbi-sosial ekspert komissiyasının qərarına əsasən xüsusi şərait yaradılan ümumi təyinatlı təhsil müəssisələrində təhsil almaq hüququ vardır.

- Təhsil müəssisəsinin rəhbərliyi sağlamlıq imkanları məhdud şəxslərə tədris prosesində zəruri köməkçi xidmət təşkil etməlidir.

**2. İnklüziv təhsil bütün uşaqların keyfiyyətli təhsil almaq hüququna əsaslanır.**

- "İnklüziv təhsil" termini çox zaman səhv başa düşülür. BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasının 24-cü maddəsi əlilliyə daha münasib tərif verir. Konvensiya əlilliyi olan şəxslərin təhsil hüquqlarını tanıyır və dövlətlərin üzərinə inklüziv təhsili tətbiq etmək öhdəliyini qoyur. Bu öhdəliyə aşağıdakılar daxildir:

- Əlilliyi olan uşaqların ümumtəhsil məktəblərindən kənarlaşdırılmamasını təmin etmək;
- Yaşadıqları icmada digərləri ilə bərabər əsaslarla inklüziv, keyfiyyətli və pulsuz ibtidai və orta təhsil almaq imkanlarını təmin etmək;
- İnklüzivliyin tam şəkildə təmin olunması üçün akademik və sosial inkişafa şərait yaradan mühitdə fərdi ehtiyaclara uyğunlaşdırılmış zəruri dəstək tədbirlərini təmin etmək.

Hər hansı formada seqreqasiya və ya təhsildən kənarlaşdırılma, məsələn, əlilliyi olan uşaqların xüsusi məktəblərdə və ya adi məktəblərin daxilindəki xüsusi bölmələrdə təhsil alması, yaxud natamam inteqrasiya inklüziv təhsilə daxil deyil.

İnklüziv təhsilin bir çox tərifləri və mənaları mövcuddur. Onların ümumi elementləri aşağıdakılardır:

- İnklüziv təhsil məktəblərin daha münbit və bütün uşaqlar üçün faydalı olmasına yönələn fasiləsiz prosesdir;
- İnklüziv təhsil təhsil mədəniyyətinin, hüquqi sənədlərin və təcrübələrin şagirdlərə uyğun olması üçün yenidən qurulmasını ehtiva edir;
- İnklüziv təhsil bütün şagirdlərə uyğun olması üçün məktəbin dəyişməsini şərtləndirir;
- İnklüziv təhsil uşaqların məktəbdə və icmada təhsilə çıxışına mane olan konkret səbəbləri müəyyənləşdirib aradan qaldırılması üçün davamlı fəaliyyətdir;
- İnklüziv təhsil bütün maraqlı tərəflərin iştirakı ilə icra edilməli olan bir prosesdir.

İnklüziv təhsil bütün uşaqların keyfiyyətli təhsil almaq hüququna əsaslanır. Bir sıra beynəlxalq konvensiyalar, milli qanunvericilik çərçivələri müvafiq ölkələrdə inklüziv təhsilin tətbiqini təmin edir.

**3. Beynəlxalq və Azərbaycana dair hüquqi sənədlər:**

- Millətlər Liqasının Uşaq Hüquqlarının Bəyannaməsi (Cenevrə Bəyannaməsi) (1924): İlk dəfə olaraq uşaqların əqli və fiziki zəifliyinə görə xüsusi müdafiəyə ehtiyacı olduğunu göstərmişdir.

**- İnsan Hüquqları haqqında Ümumi Bəyannamə (1948):** Maddə 2. Hər bir insan irqi, dərisinin rəngi, cinsi, dili, dini, siyasi və digər əqidələri, milli və sosial mənsubiyyəti, əmlak vəziyyəti, silk mənsubiyyəti və digər vəziyyətlərinə görə heç bir fərq qoyulmadan hazırkı Bəyannamədə bəyan edilən bütün hüquqlara və bütün azadlıqlara malik olmalıdır.

**- BMT-nin "Uşaq hüquqları haqqında" Konvensiyası (1989):** "Əqli və ya fiziki çatışmazlığı olan uşaq onun ləyaqətini təmin edən, özünə inamını artıran və cəmiyyət həyatında fəal iştirakını asanlaşdıran şəraitdə tam dəyərli və ləyaqətli həyat sürməlidir".

**- BMT-nin "Təhsil hüququna dair Salamanka Bəyanatı" (2001):** Salamanka Bəyanatı hər bir uşağın təhsil almaq kimi fundamental hüquqa malik olduğunu və xüsusi təhsil ehtiyaclarının əlillik və öyrənmə ilə bağlı çətinliklərdən qaynaqlandığını bəyan edir. Bəyanat, həmçinin uşaqların sırf uşaq yönümlü təlim metodu ilə təmin edilmələrini tövsiyə edir. Əlavə olaraq, bəyanat inkişaf və məktəbə hazırlığın gücləndirilməsində əlilliyi olan uşaqlar üçün davamlı inkluziv təhsil imkanları və erkən təhsilin əhəmiyyətini xüsusi olaraq vurğulayır.

**- BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyası (2006):** Maddə 1. "Bu Konvensiyanın məqsədi bütün əlillər tərəfindən bütün insan hüquqlarının və əsas azadlıqlarının tam və bərabər səviyyədə həyata keçirilməsini həvəsləndirməkdən, müdafiə və təmin etməkdən, eləcə də onların ləyaqətinə hörmət edilməsini həvəsləndirməkdən ibarətdir." Sənədin preambula hissəsində göstərilir ki, əlilliyi olan uşaqlar başqa uşaqlarla bərabər səviyyədə bütün insan hüquqları və fundamental azadlıqlardan tam şəkildə istifadə etməlidir. Konvensiya ictimai həyatda hamının bərabər qaydada iştirakına diqqət yetirir və əlilliyi olan uşaqların oynamaq, idman tədbirlərində və mədəni həyatda iştirak etməsinin əhəmiyyətini vurğulayır.

**- Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reablitasiyası və sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu (1992):** Azərbaycan Respublikasında əlillər və sağlamlıq imkanları məhdud uşaqlar barəsində dövlət siyasətini müəyyən edir, əlilliyi və uşaqların sağlamlıq imkanları məhdudluğunu doğuran səbəblərin aradan qaldırmasına, əlillərin və sağlamlıq imkanları məhdud uşaqlar reabilitasiyasına, ictimai həyatın bütün sahələrində iştirak etmək üçün əlillərin və sağlamlıq imkanları məhdud uşaqlar bütün başqa vətəndaşlarla bərabər imkanlar almasına, öz fərdi qabiliyyətlərinə və maraqlarına müvafiq surətdə dolğun həyat sürməsinə kömək göstərən lazımi şəraitin yaradılmasına təminat verir.

**- Azərbaycan Respublikasının Konstitusiyası (1995);**

*Maddə 25.* ***Bərabərlik hüququ***

I. Hamı qanun və məhkəmə qarşısında bərabərdir.

II. Kişi ilə qadının eyni hüquqları və azadlıqları vardır.

III. Dövlət, irqindən, *etnik mənsubiyyətindən*, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir. İnsan və vətəndaş hüquqlarını və azadlıqlarını irqi, *etnik*, dini, dil, cinsi, mənşəyi, əqidə, siyasi və sosial mənsubiyyətə görə məhdudlaşdırmaq qadağandır.

IV. Heç kəsə bu maddənin III hissəsində göstərilən əsaslara görə zərər vurula bilməz, güzəştlər və ya imtiyazlar verilə bilməz, yaxud güzəştlərin və ya imtiyazların verilməsindən imtina oluna bilməz.

V. Hüquq və vəzifələrlə bağlı qərarlar qəbul edən dövlət orqanları və dövlət hakimiyyəti səlahiyyətlərinin daşıyıcıları ilə münasibətlərdə hər kəsin bərabər hüquqları təmin edilir.

*VI. Sağlamlıq imkanları məhdud olanlar, onların məhdud imkanlarına görə həyata keçirilməsi çətinləşən hüquq və vəzifələrdən başqa, bu Konstitusiyada təsbit olunmuş bütün hüquqlardan istifadə edir və vəzifələri daşıyırlar.*

*Maddə 42.* ***Təhsil hüququ***

I. Hər bir vətəndaşın təhsil almaq hüququ vardır.

II. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir.

III. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir.

IV. Maddi vəziyyətdən asılı olmayaraq istedadlı şəxslərin təhsili davam etdirməsinə dövlət zəmanət verir.

V. Dövlət minimum təhsil standartlarını müəyyən edir.

**- "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikasının Qanunu (2001):** sağlamlıq imkanları məhdud şəxslərin təhsili (bundan sonra - xüsusi təhsil) sahəsində yaranan münasibətləri tənzimləyir, xüsusi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir. Qanunun 12-ci maddəsinin tələblərinə əsasən, sağlamlıq imkanları məhdud uşaqların ümumi təhsil müəssisələrində təhsil almalarını təmin etmək üçün "İnteqrasiya təlimli təhsil müəssisələrində təhsilin təşkili qaydaları" təsdiq olunmuşdur. Qanunda inklüziv təhsilin təşkili məsələləri öz əksini tapmayıb.

**- "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu (2009);**

**Maddə 5. Təhsil hüququna dövlət təminatı**

5.1. Dövlət hər bir vətəndaşın təhsil alması üçün müvafiq şəraitin yaradılmasına təminat verir və təhsilin hər hansı pilləsindən, səviyyəsindən və formasından məhrum edilməsinə yol vermir.

5.2. Dövlət cinsindən, irqindən, dilindən, dinindən, siyasi əqidəsindən, *etnik mənsubiyyətindən*, sosial vəziyyətindən, mənşəyindən, sağlamlıq imkanlarından asılı olmayaraq, hər bir vətəndaşa təhsil almaq imkanı yaradılmasına və ayrı-seçkiliyə yol verilməməsinə təminat verir.

5.3. Dövlət mülkiyyət formasından asılı olmayaraq, bütün təhsil müəssisələrinə işə qəbulda, vəzifələrə təyin olunmada və ya seçilmədə, əməyin stimullaşdırılmasında, təhsil müəssisələrinə qəbul olunmada, təhsilalanların təqaüdlə təmin edilməsində, ixtisasların seçilməsində, biliyin qiymətləndirilməsində, məzunların işlə təmin edilməsində, təhsilin növbəti pillədə davam etdirilməsində, ixtisasın artırılmasında və təhsil sahəsində digər məsələlərdə kişilər və qadınlar üçün bərabər imkanlar yaradılmasını təmin edir.

5.4. Dövlət hər bir vətəndaşın icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Dövlət təhsil müəssisələrində hər bir təhsilalan pulsuz ümumi təhsil almaq hüququna malikdir. Dövlət orta ixtisas təhsilində və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq təhsilalanların yalnız bir dəfə pulsuz təhsil almaq hüququnu təmin edir.

**- Azərbaycan Respublikasında xüsusi qayğıya ehtiyacı olan (sağlamlıq imkanları məhdud) uşaqların təhsilinin təşkili üzrə İnkişaf Proqramı (2005 - 2009-cu illər):** Proqram çərçivəsində Təhsil Nazirliyi və UNİCEF tərəfindən 2005-ci ildən etibarən Azərbaycanda birgə inkluziv təhsil layihələri həyata keçirilməyə başlanmışdır. Təhsil

sisteminin inkişafı dövlət üçün strateji əhəmiyyət daşıyan məsələlərdən biridir. Məhz bunun nəticəsidir ki, Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin hakimiyyətdə olduğu bütün dövrlərdə ölkədə təhsil sisteminin inkişafı müstəsna əhəmiyyətə malik məsələlərdən biri olmuş və hazırda Azərbaycan Respublikasının Prezidenti, Heydər Əliyev siyasi məktəbinin layiqli davamçısı cənab İlham Əliyevin fəaliyyətində də bu sistem prioritet sahələrdən birini təşkil edir. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikası ümumtəhsil məktəblərinin maddi-texniki bazasının möhkəmləndirilməsi haqqında" 2002-ci il 4 oktyabr tarixli 1051 nömrəli və "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, mövcud məktəblərin əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair Proqram" (2003-2007-ci illər)ın təsdiq edilməsi haqqında" 2003-cü il 17 fevral tarixli 1147 nömrəli sərəncamları, "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"nın təsdiq edilmə-si haqqında" 2003-cü il 20 fevral tarixli 854 nömrəli, "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli 4 nömrəli və "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının (2004-2008-ci illər) təsdiq edilməsi haqqında" 2004-cü il 11 fevral tarixli 24 nömrəli fərmanları ümumilikdə ümumi orta təhsil müəssisələrinin maddi-texniki və tədris bazasının möhkəmlən-dirilməsi, tədris avadanlıqları ilə təmin edilməsi sahəsində həlledici amil olmuşdur. Əqli və fiziki cəhətdən qüsurlu, sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi, onların təhsil aldığı xüsusi təhsil müəssisələrinin inkişafı da Azərbaycan Respublikası Prezidentinin diqqət mərkəzindədir. Xüsusi təhsillə bağlı İnkişaf Proqramının hazırlanması zərurəti də məhz ölkə rəhbərliyinin bu problemə xüsusi qayğısının nəticəsidir.

- 2008-ci il 2 oktyabr tarixli qanunla Azərbaycan Respublikası "Əlillərin hüquqları haqqında" Konvensiyanı ratifikasiya etmiş, sənəd 28 yanvar 2009-cu il tarixdən qüvvəyə minmişdir. Sözügedən Konvensiyanın məqsədi onun 1-ci maddəsində göstərildiyi kimi, "bütün əlil insanların insan hüquqları və əsas azadlıqlarına tam və bərabər imkanlarla yararlanmalarına təkan vermək, bunu müdafiə və təmin etmək, habelə onların ləyaqətinə hörmətlə yanaşılmasını dəstəkləməkdir". Hazırda əlilliyi olan şəxslərin hüquqi statusu Azərbaycan Respublikası Konstitusiyası və "Əlilliyın və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.

**- "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı" (2015):**

1.4. Sağlamlıq imkanları məhdud şəxslərin həyata və təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyasının yaradılması;

1.4.1. sağlamlıq imkanları məhdud şəxslərin inkişafı və inklüziv təhsili üzrə dövlət proqramının hazırlanması, təsdiqi və həyata keçirilməsi; **Tədbirin həyata keçirilməsi üçün zəruri əsaslar:** sağlamlıq imkanları məhdud şəxslərin inkişafı və inklüziv təhsili üzrə dövlət proqramının təsdiqi, maliyyə vəsaitinin ayrılması. İcraçılar: Nazirlər Kabineti, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Ədliyyə Nazirliyi. **İcra müddəti (illər üzrə):** 2015–2023.

**- “2018–2024-cü illərdə Azərbaycan Respublikasında əlilliyi olan şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı” (2017):** 2018–2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. Dövlət Proqramının məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir. Dövlət Proqramı 6 bölmədən ibarətdir: Giriş, Proqramın məqsədi, Əsas vəzifələr, Gözlənilən nəticələr, Maliyyələşdirmə mənbələri, Dövlət Proqramının həyata keçirilməsi üzrə tədbirlər planı.

Giriş hissədə 2004-cü ildən başlayaraq Azərbaycan Respublikasında inklüziv təhsilin tətbiqi ilə bağlı təşəbbüslər qeyd olunmuş, sağlamlıq imkanları məhdud uşaqların digər uşaqlarla birgə təhsilə (inklüziv təhsilə) cəlb olunması üçün “2018-2024-cü illərdə Azərbaycan Respublikasında sağlamlıq imkanları məhdud şəxslər üçün inklüziv təhsilin inkişafı üzrə Dövlət Proqramı”nın (bundan sonra – Dövlət Proqramı) həyata keçirilməsinin zəruriliyi göstərilmişdir. Dövlət Proqramının məqsədi sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüququnu təhsilin bütün pillələri üzrə digər şəxslərlə bərabər səviyyədə təmin etməkdən və onların təhsili üçün maneəsiz mühit yaratmaqdan ibarətdir. Dövlət Proqramının əsas vəzifələri aşağıdakılardır:

¬ sağlamlıq imkanları məhdud şəxslərin təhsilin bütün pillələri üzrə inklüziv təhsil hüququnu təmin etmək məqsədi ilə normativ hüquqi aktların təkmilləşdirilməsi;

¬ təhsil müəssisələrinin və tədris proqramlarının sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması üçün tədbirlərin görülməsi;

¬ sağlamlıq imkanları məhdud şəxslərin təhsilinin təşkili ilə bağlı pedaqoji kadrların hazırlanması və ya əlavə təhsilə cəlb olunması;

¬ inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazasının yaradılması;

¬ sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması və sosial inteqrasiyasının vacibliyi barədə aidiyyəti dövlət qurumları ilə birlikdə təbliğat və ictimai maarifləndirmə işinin aparılması.

Dövlət Proqramının həyata keçirilməsindən aşağıdakı nəticələr gözlənilir:

¬ təhsilin bütün pillələri üzrə təhsil müəssisələrinin infrastrukturunun sağlamlıq imkanları məhdud şəxslərin ehtiyaclarına uyğunlaşdırılması təmin ediləcəkdir;

¬ informasiya texnologiyalarının tətbiqi ilə sağlamlıq imkanları məhdud şəxslər üçün informasiya əldə etmək imkanları genişləndiriləcəkdir;

¬ məktəbəqədər, ümumi və ilk peşə-ixtisas təhsili üzrə təhsil proqramlarında sağlamlıq imkanları məhdud şəxsləri təhsildən istifadə imkanları ilə digər şəxslərlə bərabər səviyyədə təmin edən dəyişikliklər ediləcəkdir;

¬ inklüziv (inteqrativ) təhsilə cəlb olunan sağlamlıq imkanları məhdud şəxslər üzrə məlumat bazası yaradılacaqdır;

¬ sağlamlıq imkanları məhdud şəxslərin təhsilə cəlb olunması imkanlarının qiymətləndirilməsində yeni qaydalar tətbiq olunacaqdır;

¬ sağlamlıq imkanları məhdud şəxslərin təhsil hüquqları barədə əhalinin məlumatlılıq səviyyəsi artacaqdır.

## III Mövzu: İnklüziv dəyərlər

**Plan:**

1. Təhsildə tipik və xüsusi ehtiyaclar anlayışı.
2. İnklüziv təhsilə aparan yol inklüziv dəyərlərin formalaşmasından başlayır. Əlilliklə bağlı düzgün ifadələrin istifadəsi. Əlilliyi olan uşaqlarla effektiv ünsiyyət mədəniyyətinin formalaşdırılması.
3. İnklüziv təhsilə elmi və metodoloji dəstək.
4. Şagird şəxsiyyətinin formalaşmasında inklüziv təhsilin rolu.

**Ədəbiyyat:**


1. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019.
2. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019
3. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. İnklüziv siniflərdə təlimin təşkili. Bakı 2018
4. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
5. Nazarova N.M. İnklüziv təhsilin pedaqogikası. Dərslik, Moskva, 2019
6. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 2020
7. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020
8. İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması. Texniki kitabça 1. Bakı, UNİCEF, 2020
9. Hacımuradova L.N. İnklüziv təhsil baxdığınız güzgüləri dəyişir. // Gəncə Dövlət Universitetinin elmi xəbərləri. Gəncə 2019, № 3; səh.240-243
10. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika. Texniki kitabça 12. Bakı, UNİCEF, 2020
11. Loreman T., Deppeler J., Harvey D. İnklüziv təhsil. Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Bakı, İdeal Print, 2020

**1. Təhsildə tipik və xüsusi ehtiyaclar anlayışı.**

- Ümumtəhsil sistemi bütün uşaqları əhatə etməli və bütün uşaqların bərabər imkanlara malik olmasını təmin etməli və hər birinin fərdi nailiyyətlərinə dəstək verməlidir. Təhsildə inklüziv yanaşma bu məqsədlərə xidmət edir. Sistem şəklində təmin olunan şərait və təlim vəsaitləri müxtəlif qabiliyyətləri olan uşaqlar üçün əlverişli təlim mühitinin olmasını vurğulayır. Ümumtəhsil sistemində inklüzivlik anlayışı hansısa qrup uşaqları ümumtəhsil məktəblərinə daxil etmək yox, məhz sistemin özünün geniş spektrli qabiliyyətlərə malik olan və təlimdə xüsusi ehtiyacları olan uşaqları əhatə etmək imkanlarının yaradılmasına üstünlük vermək deməkdir. Bu da qanunvericiliyi, maaliyyə təminatını, məktəblərdə xüsusi xidmətlərin və zəruri infrastrukrurun olmasını, müəllimlərin müvafiq hazırlıqlarını, dərslərin və hər bir uşağın fərdi ehtiyaclarına görə planlaşdırılmasını və aparılmasını, müxtəlif çeşidlitəlim metodları və strategiyalarınınəzərdə tutur. Bu gün dünyanın bir çox ölkələrinin təhsil sistemlərinin inkişafıməhz inklüziv yanaşma ilə xarakterizə olunur. Azərbaycanda inklüziv təhsilin inkişafı 2004-cü ildən başlayır və ilk təcrübə məhz xüsusi qayğıya ehtiyacı olan uşaqları Bakı və Sumqayıt şəhərlərinin bir sıra seçilmiş ümumtəhsil və məktəb və məktəbəqədər müəssisələrinə cəlb etməkdən ibarət olmuşdur. Cəlb olunmuş uşaqlar xüsusi qayğıya ehtiyacı olan uşaqlar adlandırılmışdır. Həmin termin ingilis dili ədəbiyyatından bizim dilimizə tərcümə olunmuşdur. Xüsusi təhsil ehtiyaclar termini tədris prosesində üzə çıxa biləcək çətinlikləri şagirdin hansısa spesifik sağlamlıq problemi ilə əlaqələndirmir. Həmin konsepsiyanı belə bir sxem ilə göstərmək olar:




Göründüyü kimi ümumtəhsil məktəblərinə cəlb olunmuş uşaqların qabiliyyətlərinə şaquli istiqamətdəki kimi, yəni "yüksək", "aşağı", və ya "orta" kimi baxılmır. Onların üfüqi istiqamətdə yerləşməsi, yəni mərkəzdən - "tipik inkişafdan" - sola və ya sağa keçə bilən xətdə göstərilməsi daha məqsədəuyğundur. Adi sinifdə uşaqlar xətdə göstərilən hər üç qabiliyyətlərə malik olur, amma çoxluğun təşkil etdiyi qabiliyyətlər mərkəzdə yerləşir. Buna görə də müəllimlər və mütəxəssislər belə hesab edirlər ki, xüsusi qayğıya ehtiyacı olan uşaqlar yalnız müəyyən bacarıqlara yiyələndikdən sonra adi sinfə qəbul oluna bilər, əks halda onlar çoxluğun səviyyəsindən geri qalacaq və ümumiyyətlə, sinfin nailiyyətlərini geri çəkəcəklər. Bir sözlə uşaqların qabiliyyətləri və bacarıqlarından məktəbdə nailiyyət əldə etmək üçün ilkin şərt kimi baxılır. Bu da təlim prosesində uğurlu inteqrasiyaya mane olur. Bir sıra xarici ölkələrin təcrübələri və aparılan tədqiqatlar göstərir ki, inteqrasiyanın uğurlu olub-olmaması təhsilin məqsədlərinin necə başa düşülməsindən asılıdır. Uşaqları ümumtəhsil müəssisələrinə qəbul edərkən onların olan və ya olmayan ilkin qabiliyyətlərinə yox, ehtiyaclarına diqqət yetirmək lazımdır və həmin ehtiyacları nəzərə alaraq hər biri üçün xüsusi məqsəd qoyulmalıdır. Xüsusi təhsil ehtiyacları termini və ümumiyyətlə, "təhsildə ehtiyaclar" konsepsiyası ilk dəfə 1981-ci ildə İngiltərədə işlənmişdir. Bu konsepsiyadan əvvəl uşaqların tibbi diaqnozlarına diqqət yetirilirdi və onların inkişaflarını təsvir etmək üçün tibbi terminlərdən istifadə edilirdi.

Məktəbə ilk gündə qədəm qoyan əlilliyi olan şagirdlər zaman getdikcə uyğunlaşırlar və bundan ən çox sevinən valideynlər olur. Onlar öz sevinclərini gizlədə bilmirlər. Çünki bu həm də onların nailiyyətləridir. Valideynlər öz uşaqları ilə birlikdə çalışır, onların dünyasına daxil olur və bu körpələrlə birlikdə problemləri aradan qaldırırlar.

Əlilliyi olan uşaqlara cəmiyyətə daxil olmaq və onları əhatə edən mühitlə ünsiyyət yaratmaq imkanı verək, uşağın həyat və bəşəriyyət haqqında biliklərə yiyələnməsi üçün şərait yaradaq. Məlimdur ki, sağlamlığının nə qədər ciddi olmasından asılı olmayaraq hər bir uşaq öyrənməyə qadirdir.

Uşağın erkən inkişaf dövrü (0-3 yaş) insan ontogenezində (Hər bir canlının dünyaya gəldiyi vaxtdan ölənə qədər keçirdiyi dövr postnatal ontogenez adlanır. Ontogenezin mənası fərdi inkişaf deməkdir. Cinsiyyətli çoxalan orqanizmlərdə fərdi inkişaf-ontogenez mayalanmış yumurta hüceyrəsindən-ziqotdan başlayır. Bu insanda yumurta hüceyrəsinin mayalandığı andan başlayaraq orqanizm ölənədək davam edir. Ontogenezi 2 dövrə bölmək olar: bətndaxili dövr və bətnxarici dövr-postembrional inkişaf) neyro-psixi funksiyaların təşəkkül etdiyi mühüm dövrdür. Uşaq həyatının ilk illərində köməksiz bir canlıdan mobil, sosial cəhətdən fəal insanadək yol keçir. Məhz erkən uşaqlıq dövründə gələcək inkişafın vacib komponentləri mənimsənilir: psixi fəaliyyətin, emosional və motivasiya sahələrinin əsası qoyulur, müstəqil hərəkətlərə və nitq fəaliyyətinə hazırlıq gedir. Erkən uşaqlıq dövrü həm də psixoloji-pedaqoji təsir nöqteyi nəzərindən çox əhəmiyyətli dövrdür. Buna görə də inkişafda olan pozulmaların erkən diaqnostikası vacib bir məsələyə çevrilir. İnkişafın pozulmasının fərdi strukturunun kompleks müayinəsi ilkin qüsurun dərəcəsinin və sosial faktorların inkişafı gedişinə təsirinin müəyyənləşdirilməsini, yanaşı xəstəliklərin və uşağın somatik vəziyyətinin xarakteristikasını nəzərdə tutur. Erkən kompleks diaqnostika 3 blokdan ibarətidir:

- Sosial blok;
- Tibbi blok;
- Psixoloji-pedaqiji blok.

Erkən yaş dövründə qeyri-adekvat sosial mühitin təsiri altında uşağın psixofiziki inkişafı pozulur, beyin strukturlarının yetişməsi prosesi deformasiya olur, analizatormararası əlaqələrin formalaşması ləngiyir. Buna görə də erkən diaqnostika prosesində sosial blok böyük əhəmiyyətə malikdir. Erkən yaş dövrünün diaqnostikasında tibbi blokun rolu əvəzedilməzdir. Tibbi diaqnostika nəticəsində ilkin nöqsanın strukturu, yanaşı gedən pozulmalar, patoloji prosesin xüsusiyyətləri, nöqsanın etiologiyası və patogenizi və nəhayət, klinik diaqnoz müəyyən edilir. Uşağın psixonevroloji, somatik və antropometrik statusu müəyyənləşəndən sonra, tibbi korreksiyanın (cərrahi müdaxilədən uzunmüddətli bərpaedici müalicəyədək) vaxtı və metodları təyin edilir. Xüsusi müəllim və xüsusi psixoloqun səriştəsində olan psixoloji-pedaqoji blok inkişafın aktual səviyyəsini müəyyənləşdirməklə, inkişaf və korreksiyaedici proqramların həyata keçirilməsinin zəruriliyini əsaslandırır.

Hər üç mərhələdə, valideynlərin fəal iştirakı uşağın sağlamlığının, fərdi təliminin və psixoloji problemlərinin maksimal həllinə kömək edir. Ümumiyyətlə, xüsusi qayğıya ehtiyacı olan uşaqların inteqrasiyası məktəbəqədər yaş dövründən, onların sosial inteqrasiyasından başlamalıdır. Bu zaman inkişafında problemləri olan uşaqlar zəruri məsləhəti dəstəklə, pedaqoji-korreksion və tibbi-sosial köməklə təmin edilirlər. İnklüziv

tərbiyə və təlimin inkişafı xüsusi və kütləvi təhsil arasında yeni münasibətlərin yaranmasına zəmin yaradaraq, onların arasındakı maneələri aradan qaldırıb, sərhədləri şəffaf edəcək.

**2. İnklüziv təhsilə aparan yol inklüziv dəyərlərin formalaşmasından başlayır. Əlilliklə bağlı düzgün ifadələrin istifadəsi. Əlilliyi olan uşaqlarla effektiv ünsiyyət mədəniyyətinin formalaşdırılması.**

İnklüziv təhsil inklüziv dəyərlərə əsaslanır.




Xatırladırıq ki, yalnız özünü daim tərbiyə edən adam yaxşı tərbiyəçi ola bilər. Bu adi həqiqət daim özünütərbiyə ilə məşğul olmaqla mükəlləf olan pedaqoqu çətin və məsuliyyətli vəzifəsinin icrasında zəruri pedaqoji-psixoloji prinsiplərlə tanış etmək ehtiyacını doğurur:

1) Prinsiplər xarakteri gücləndirir. Müəllim öyrənənlərin qarşısında güclü xarakterli şəxsiyyət kimi çıxış etməlidir. İradəsiz, xaraktersiz tərbiyəçi öz davamçılarından güclü xarakterli, iradəli adamlar yetişdirə bilməz.

2) Ardıcıllıq. Qarşıya qoyulmuş məqsədi hər zaman izləmək, uşaqlarla başladılmış işi sona çatdırmağa çalışmaq, ardıcıllığı nümayiş etdirmək lazımdır.

3) Zəiflik və səhvlərə gülməmək. Uşaqlar bacarıqsızlıq göstərəndə səbirsizlik etmək, buna barmaqarası yanaşmaq olmaz.

4) Sakitliyi və özünüidarəni qorumaq. Həyatın hər anında sakitlik və özünüidarə vacibdir: uşaqların kəskin toqquşması, iş zamanı uşağın bıçaq, hətta balta ilə zədələnməsi, yaxınlıqdakı təhlükə: məsələn, haradasa yanğının baş verməsi, dənizdə və ya çayda qəfil qasırğa, elektrik xətlərinin qəfil qırılması, uşağın məktəbdən qaçması, uşaqların təhlükəli

oyunları, ekskursiya zamanın yolun itirilməsi, ürəkgetmə, uşaqlara və ya müəllimə qarçı güclü qəzəb və s.

5) Təmkinli danışıq. Əqli geriliyi olanlarla aydın, tələsmədən, səsi ucaltmadan danışmaq lazımdır. Yalnız həddini aşan uşağın yarada biləcəyi toqquşmanın qarşısını almaq məqsədilə səsin qəfil ucaldılmasına yol verilə bilər. Xatırlamaq zəruridir ki, səsin ucaldılmasından sui-istifadə uşaqları qıcıqlandırır, sakitləşdirmək əvəzinə, əsəbləşəni özündən çıxarır.

6) Qətiyyətli davranış. Yadda saxlayın ki, əlilliyi olan uşaqların çox zaman təqlid etmə xüsisuyyəti olur və müəssisənin ümumi rejimi ilə yanaşı, müəllim öz davranışı ilə onları müaicə edir.

7) Səlislik və tutarlılıq. Şübhəli, əsaslandırıla bilinməyən fikirləri söyləməmək daha doğru olar. Qeydlər və tövsiyələr uşağa psixoterapevtik təsir göstərir, dayanıqsız və xəstə xarakteri tərbiyə edir.

8) Daha az söz! Heç bir uzun mülahizə və sözçülük olmaz. Yadda saxlamaq lazımdır ki, çox izah etmək – uşağın əvəzinə düşünmək, onların özünə düşünməyə imkan verməməkdir. Qısa, aydın, sadə dillə danışmalı!

9) Zövqlü və ədəbli görünüş. Əl-üzün təmizliyi, kostyumun təmizliyi və səliqəsi, daranmış saçlar, zərif aksessuarlar. Yadda saxlamalı ki, nümunə həm mənfi, həm də müsbət istiqamətdə ən yaxşı tərbiyəçidir.

10) Qərəzə yol veməmək. Uşaqlarla münasibətdə hər cür qərəzdən çəkinməli. Heç bir imtiyaz, heç bir xüsusi əzizləmələrə yol verilməməli. Müxtəlif münasibət göstərmək olar (fərdiləşdirmə). Amma heç bir qərəzli münasibət olmamalıdır. Uşaqlar bu mövzuda çox həssasdırlar.

11) Konfidensiallıq. Uşaqların qarşısında müəssisənin əleyhinə, müəssisənin qaydalarına əks fikirlər, pedaqoq-yoldaşların, digər köməksi personallar da daxil olmaqla digər əməkdaşların davranışları əleyhinə heç bir fikir bildirilməməli. Bu barədə uşaqlar şikayətlə müraciət edərlərsə, araşdırıb həqiqəti öyrənmədən heç bi fikir söylənməməli. Uşaqların qarşısında onların özləri və yoldaşlarının müsbət və mənfi xüsusiyyətləri, uşağın ailəsi və digər dəlillər haqqında heç nə söyləməməli. Bu məlumatlar uşaqların anladığı şəkildə təhrif oluna bilər.

12) Qərar verməyə tələsməmək. Müəllimlərin, texniki əməkdaşların və digərlərinin davranışları haqqında uşaqların sensasion söhbətlərinə inanmamalı. Normal uşaqların münasibətlərindəki qeyri-dəqiqliyi yada salıb fərqli şagirdlərin şişirtmələrini, psevdofantaziyasını və yüksək özünətəlqini nəzərdə saxlamalı.

# SÖZLƏRİN TƏSİRİ BÖYÜKDÜR

Mənfi münasibət və damğalanma əlilliyi olan şəxslərin/uşaqların gündəlik həyatda diskriminasiyaya məruz qalmasına və təhsil imkanlarından təcrid olunmasına səbəb olur. Əlilliklə bağlı düzgün ifadələrin istifadəsi əlilliyi olan insanlara qarşı mənfi münasibətin dəyişməsinə və stereotiplərlə mübarizə aparmaqda mühüm rol oynayır.

## Düzgün ifadələrin istifadəsi ilə bağlı aşağıdakı göstərişlərə diqqət yetirin:

### ✕ İSTİFADƏ ETMƏYİN

- ✕ **Əlil, qüsurlu, xəstə, şikəst, invalid məhdudiyyətli, anormal, çolaq**
- ✕ **Normal/sağlam insan**
- ✕ **Əqli məhdudiyyətli, əqli qüsurlu, əqli geriliyi olan**
- ✕ **Öyrənmə əngəlli**
- ✕ **Kor, görmə qüsurlu**
- ✕ **Kar, lal, eşitmə qüsurlu**
- ✕ **Autist**
- ✕ **Daun**

### ✓ İSTİFADƏ EDİN

- ✓ **Əlilliyi olan şəxs**
- ✓ **Əlilliyi olmayan şəxs**
- ✓ **Əqli, koqnitiv və ya intellektual əlilliyi olan şəxs**
- ✓ **Öyrənmədə çətinliyi olan şəxs**
- ✓ **Görmə əlilliyi olan şəxs**
- ✓ **Eşitmə əlilliyi olan şəxs**
- ✓ **Autizmli şəxs**
- ✓ **Daun sindromlu şəxs**

Əlilliyi olan şəxslərə müxtəlif maneələrlə qarşılaşdığı zaman digər şəxslərlə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan şəxslər aiddir.

Maddə 1, BMT-nin Əlilliyi olan şəxslərin hüquqları haqqında Konvensiyası



Mənbə: İnklüziv Təhsil üzrə Müəllim İnkişafı Proqramları, Avropa İttifaqı tərəfindən maliyyələşdirilən və UNICEF tərəfindən icra edilən İnklüziv Təhsilin Genişləndirilməsi layihəsi.

AVROPA İTTİFAQI

AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

unicef

Əlilliyi olan uşaqlarla effektiv ünsiyyət mədəniyyətinin formalaşdırılması üçün tərbiyəçi müəllim aşağıdakı problem xarakterli məsələləri həll etməyə çalışmalıdır:

- ✓ onun şəxsi fikir və tövsiyələrinin dərk edilməsi üçün uşaqlara geniş imkanlar yaratmalıdır;
- ✓ tədris-təlim prosesində məlumatların tam və aydın tərzdə qavranılması üçün uşaqlarda bacarıqlar inkişaf etdirilməlidir;
- ✓ uşağın böyüklərin nitqini tam başa düşülməsi təmin olunmalıdır;
- ✓ verbal və qeyri-verbal nitq arasındakı uyğunluq gözlənilməli və inkişaf etdirilməlidir.

Uşaqların davranışını idarə etmək tərbiyəçi müəllim üçün vacib məsələdir. Uşağın davranışına təsir edəcək üsullardan biri də modelləşdirmədir. Modelləşdir-mə prosesi uşağa gördüklərini öyrətməkdir. Odur ki, tərbiyəçi modelləşdirmə üsulundan səmərəli istifadə etməlidir. Modellər xüsusilə faydalıdır, çünki modeli müşahidə edərkən davranışı təkrarlamağı öyrənən uşaq bu prosesdən vərdişlər haqqında çox informasiya qazanır.

Yaşından, cinsindən və coğrafi məkanından asılı olmayaraq əlilliyi olan bütün insanların problemləri ümumi xarakter daşıyır. İnklüziya təkcə xüsusi qayğıya ehtiyacı olan uşaqların deyil, həmçinin yoxsul, öz ana dillərində təhsil almayan, fərqli mədəniyyət mühitindən gəlmiş uşaqların da qabiliyyətlərinin təhsil proqramları vasitəsilə açılmasını nəzərdə tutur.

İnklüziv təhsilin 4 əsas xüsusiyyətini fərqləndirmək olar:

1. Əqli və fiziki imkanları əhatə edən müxtəlif tələblərin təmin edilməsi və müxtəlifliklərin hesaba alınma imkanlarının optimal üsullarının axtarışı;
2. Şagirdin yaradıcı potensialının və məsələləri həll etmə bacarığının müxtəlif yollarla stimullaşdırılması;
3. Uşaqların məktəbə getmək, öz fikrini ifadə etmək, kefiyyətli tədris prosesində iştirak edərək şəxsi, sosial və etnik xüsusiyyətlərindən asılı olmayaraq, müəyyən nəticələr əldə etmək hüquqlarının təmin edilməsi;
4. Sosial uzaqlaşdırmaya məruz qala bilən, həmçinin davamiyyəti pis olan şagirdlərə mənəvi dəstəyin göstərilməsi.

**3. İnklüziv təhsilə elmi və metodoloji dəstək.**

Əlilliyi olan uşaqların təhsil ala bilmələri üçün məktəblərdə yetərli maddi-texniki bazanın yetərli səviyyədə olmaması da ən çox diqqət çəkən problemlərdəndir. Təkliflər:

1. Əlilliyi olan uşaqlarla işləmək üçün mütəxəssis kadrlar hazırlanmalı.
2. Əlilliyi olan şəxslərin təhsilə cəlb olunmasıvə sosial inteqrasiyasının vacibliyi barədə maarifləndirmə işiaparılmalıdır.
3. Əlilliyi olan uşaqların təhsildən sonra xüsusi vəziyyətlərinə uyğun olaraq yerinə yetirə biləcəkləri iş yerləri olmalı, təhsilləri də bu iş yerlərinə daha tez uyğunlaşmalarını və uğur qazanmalarını təmin edəcək mahiyyətdə olmalı. İş dünyası subyektlərinə xüsusi qayğıya ehtiyacı olan uşaqlara zəruri iş şəraiti yaratmaları və müəyyən nisbətdə belə fərdləri işlə təmin etmələri zərurəti gətirilməlidir.
4. Valideynlər arasında maarifləndirmə işləri aparılmalı, əlilliyi olan uşaqları ilə düzgün davranış qaydaları öyrədilməli, bu istiqamətdə fəaliyyət göstərəm təlim mərkəzləri yaradılmalıdır.

5. İnformasiya əsrinin tələblərinə uyğun olaraq əlilliyi olan uşaqların təhsilalma imkanlarının yaxşılaşdırılması ilə yanaşı, onların İKT və elektron resurslardan istifadə bacarıqları artırılmalı, internetə çıxış imkanları yaradılmalı.

6. Əlilliyi olan uşaqların maneəsiz hərəkət etmələrinin təmin edilməsi üçün təhsil müəssisələrinin infrastrukturu və nəqliyyat imkanları onların ehtiyaclarına uyğunlaşdırılmalıdır.

Xüsusi şərait yaradılmadan təhsil almasında çətinliklər yaranan fiziki çatışmazlığı, əqli və (və ya) psixi ləngimələri olan şəxs sağlamlıq imkanları məhdud şəxs, xüsusi şərait yaratmaqla sağlamlıq imkanları məhdud şəxslərin məktəbəqədər, ümumi və peşə-ixtisas təhsili isə xüsusi təhsil adlanır.

Xüsusi şərait dedikdə, əlilliyi olan şəxslərin pedaqoji-psixoloji, tibbi, sosial və digər xidmətləri alması üçün yaradılmış şərait başa düşülür. Xüsusi təhsilin məqsədi əlilliyi olan şəxslərə zəruri bilik, bacarıq və vərdişlər aşılamaqla onların cəmiyyətə uyğunlaşmasını, o cümlədən özünəxidmət vərdişlərinin yaradılmasını, əmək fəaliyyətinə və ailə həyatına hazırlanmasını təmin etməkdən ibarətdir.

Dövlət strategiyasında əlilliyi olan uşaqların təhsilini yaxşılaşdırmaq məqsədilə görüləcək işlər öz əksini tapmışdır. Bunlar aşağıdakılardır:

- əlilliyi olan olan uşaqlar üçün inkişaf və inklüziv təlim proqramlarının hazırlanması;
- əlilliyi olan uşaqların həyata və təhsil mühitinə inteqrasiyasını təmin edən inklüziv təlim metodologiyasının yaradılması;
- əlilliyi olan uşaqların təhsili və sosial adaptasiyası üçün imkanların təmin edilməsi məqsədi ilə optimal inklüziv təhsil modellərinin tətbiq edilməsi;
-Məktəbəqədər və ümumtəhsil müəssisələri təhsil verənlərinin ivklüziv təhsili üzrə məqsədli əlavə təhsilinin təmin edilməsi.

İnklüziv təhsilin vacib komponentləri aşağıdakılardır: müvafiq inklüziv təcrübəni dəstəkləyən bir fəlsəfə hazırlamaq; inklüziv təhsildə əməkdaşlıq; qiymətləndirmə; fərdi tədris proqramı; inklüziv təhsildə reabitasiya xidmətinin təşkili; inklüziv təhsildə pedaqoq və psixoloqların rolu; inklüziv təhsildə digər xidmətlərin rolu; inklüziv təhsildə valideynlərlə işin təşkili; peşə təhsili. İnküliziya haqqında yanlış təsəvvürlər: məktəbdə olmaq hər şey demək deyil; üzməyi bilməyəni suya atmaq məqsədəuyğun deyil; diqqəti məqsədə deyil, hərəkətə yönəltmək; proqramın əsas meyarı, hər bir uşağın fərdi təhsil ehtiyaclarının ödənilməsi deyil onun öyrənilməsidir; sakitcə oturmağı fəal iştirakın alternativi kimi qəbul etmək. Mövcud maneələr:

-Məktəblərin arxitextura cəhətdən əlçatmazlığı;

-Xüsusi təhsil ehtiyacları olan uşaqların oxumağa qadir olmamalarının qəbul edilməsi;

-Məktəbin pedaqoji kollektivinin əlillik məsələləri haqqında kifayət qədər məlumatının olmaması; -Sinfin öyrənmə prosesinə sağlamlıq imkanları məhdud olan uşaqların daxil olması;

- əlilliyi olan uşaqların valideynləri uşaqların təhsil hüquqlarını mmüdafiə etməyi bacarmırlar, onları təhsilə cəlb etməyə çəkinirlər.

İnklüziv təhsil sahəsində çalışan hər bir müəllim, tərbiyəçi aşağıdakılar üzrə bacarıqlara qdir olmalıdır:

1. Əlilliyi olan uşaqların cəmiyyətə inteqrasiyası;
2. Uşaqların təhsilə cəlb olunması;

3. Əqli inkişafın, qavrama bacarıqlarının qiymətləndirilməsi və inkişaf etdirilməsi;
4. Kiçik və böyük motor bacarıqlarının qiymətləndirilməsi və onlar üzərində iş;
5.Sosial və özünəxidmət bacarıqlarının aşılanması;
6. Uşaq inkişafı sahəsində müxtılif mövzulu təlimlərin kenirilməsi;
7. Uşağın və ailənin psixoloji problemlərinin araşdırılması, konsultasiya xidmətlərinin verilməsi;
8. Ünsiyyət və nitq bacarıqlarının qiymətləndirilməsi və inkişaf etdirilməsi;
9. Ailələrə sosial xidmətin göstərilməsi, ailələrin maariflədirilməsi.

**4. Şagird şəxsiyyətinin formalaşmasında inklüziv təhsilin rolu.**

- Bir çox rayon və kənd məktəblərinin ümumtəhsil məktəblərində əlil uşaqlar təhsil alırlar, lakin həmin məktəblər xüsusi qayğıya ehtiyacı olan uşaqlara təhsil vermək iqtidarında deyillər. Bəzi hallarda məhdudiyyətləri olan uşaqlar dərslərə müntəzəm qaydada getmir, lakin orta məktəbin bitirilməsi haqqında şəhadətnamə alırlar. Əlil uşaqların inklüziv təhsilə cəlb olunması üçün valideynlər arasında maarifləndirmə işi aparmaq lazımdır. Çünki valideynlərin bəzisi öz əlil uşaqlarını təhsilə cəlb etmirlər. Lakin sağlamlıq imkanları məhdud olan uşaqların inklüziv təhsilə cəlb olunmasının bir sıra üstünlükləri vardır. İnklüziv təhsil istər sağlam, istərsədə əlillərin bərabər təhsil alma hüquqlarını təmin edir və bu, cəmiyyətəd sosial bərabərliyin qorunmasına, əlil uşaqların təhsil və başqa xüsusi ehtiyaclarının ödənilməsinə şərait yaratmış olur. Xüsusi qayğıya ehtiyacı olan uşaqlar kollektivə uyğunlaşır, cəmiyyərtə inteqrasiya edir. Onlarda özünə inam hissi formalaşır. Onlar cəmiyyətin digər üzvləri kimi bərabərhüquqlu şəxsiyyət kimi fomalaqşır. Gələcəkdə onların məşğulluq kimi problemi də aradan qaldırılmış olur.
- Əlilliyi olan uşaqların təhsilinə dair müxtəlif pedaqoji pradiqmalar var.

Təcrid olunmuş təhslin pradiqmasını aşağıdakı kimi təsvir etmək olar:

*Şagird →bacarıqlar →adi sinif*

Bu pradiqmaya görə xüsusi qayğıya ehtiyacı olan uşaqlar əsas davranış bacarıqlarına yiyələnməli (sinifdə sakit olmaq, heç kimə mane omamaq, tualetdən müstəqil istifadə etmək və s.) və elə vərdişləri nümayiş etdirilməlidir ki, onların tipik uşaqlarla təhsil almalarına icazə verilsin.

İnklüziv təhsil aşağıda göstərilən fərqli bir pradiqmaya əsaslanır:

*Şagird →adi sinif→bacarıqlar (dəstək olmaq şərti ilə).*

Bu pradiqma Vıqotskinin nəzəriyyəsinə əsaslanır. Vıqotskiyə görə hər bir uşaq kollektivin bir hissəsi olmaq istəyir, digər həmyaşıdları ilə ünsiyyət qurmaq istəyir, didərləri kimi olmaq istəyir və bu istək ona motivasiya verir ki, o da onlar kimi öyrənsin.

## IV Mövzu: İnsan hüquqlarına əsaslanan İnklüziv Təhsil - Əlilliyin tibbi və sosial modeli

**Plan:**

1. Əlillik nədir? Əlilliyin yaranma səbəbləri. Genetik və sonradan qazanılan əlilliklər.
2. Əlilliyi olan uşaqların xarakteristikası və təhsil ehtiyacları.

3. Əlilliyə tibbi yanaşma. Tibbi modelin strukturu.

4. Əlilliyə sosial yanaşma. Əlilliyin sosial baxışdan dərk olunması. Sosial modelin perspektivləri. Sosial və tibbi modelin müqayisəsi.

5. Damğalanma, onun mənfi təsirləri. Tibbi modelin və damğalanmanın neqativ təsirləri.

**Ədəbiyyat:**


1. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019.
2. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019
3. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. İnklüziv siniflərdə təlimin təşkili. Bakı 2018
4. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
5. Hacımuradova L.N. İnklüziv təhsil damğalanma və onun yaratdığı fəsadları aradan qaldırmaq üçün əsas vasitədir. // Peşə təhsili və insan kapitalı. Elmi-praktiki, metodiki jurnal. Cild 3, № 3; səh.44-48
6. Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiya 4(2016) nömrəli Ümumi Şərh Maddə 24: İnklüziv təhsil hüququ. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
7. Bacarıqlar haqqında. Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın izahı. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019.
8. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 2020
9. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020
10. İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması. Texniki kitabça 1. Bakı, UNİCEF, 2020
11. Hacımuradova L.N. İnklüziv təhsil baxdığınız güzgüləri dəyişir. // Gəncə Dövlət Universitetinin elmi xəbərləri. Gəncə 2019, № 3; səh.240-243
12. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika. Texniki kitabça 12. Bakı, UNİCEF, 2020


**1. Əlillik nədir? Əlilliyin yaranma səbəbləri.**

"Əlilliyi olan şəxslər" kimdir? Konvensiyanın 1-ci maddəsinə əsasən "Əlilliyi olan şəxslər müxtəlif maneələrlə qarşılaşarkən cəmiyyətin həyatında tam və səmərəli iştiraka mane olan fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlardır". Tərifə əsasən şəxsi əlil edən şey onun məhdudiyyəti ilə ətraf mühitdəki maneələr arasındakı əlaqədir. **Əlillik** nadir fenomen deyil və insan müxtəlifliyinin tərkib hissəsidir. Təqribi hesablamalara görə, dünya əhalisinin 15 faizi əlilliyə malikdir. Həyatın erkən mərhələlərində zəif tibbi xidmət və qidalanma, yaşlı əhalinin artması və zorakı münaqişələr səbəbilə bu göstəricinin artacağı

gözlənilir. Münaqişə nəticəsində xəsarət alan və ya ömürlük əlil olan uşaqların sayı həyatını itirən uşaqların sayından üç dəfə çoxdur. Əlilliyi olan şəxslərin 80 faizi inkişaf etməkdə olan ölkələrdə yaşayır və yoxsulların bu göstəricidə payı qeyri-mütənasib dərəcədə yüksəkdir. Bu önəmlidir, çünki əlillik yalnız fərdlərə deyil, onların ailələrinə, onlara qulluq göstərənlərə də təsir edir.

Əlillik cəmiyyət tərəfindən yaradılan problemdir. Əlillik xəstəlik deyil. Əlilərə - müxtəlif maneələrlə qarşılıqlı təsir zamanı onların digərləri ilə bərabər səviyyədə cəmiyyətin həyatında tam və səmərəli iştirakına mane olan sabit fiziki, psixi, əqli və ya hissiyyat pozuntuları olan insanlar aiddir. "Əlil" sözü instansiyaların işlətdiyi terminologiyaya görə "yararsız" bu gün cəmiyyətimizdə sağlamlıq imkanları məhdud olan insanlara şamil olmamaqdadır. Beynəlxalq aləmdədə əlillərə qayğı və diqqət artıb. BMT baş məclisi dekabrın 3-nü "Əlilliyi olan insanların beynəlxalq günü" kimi qeyd olunması haqqında bəyannamə qəbul qəbul etmişdir. Bu günün məqsədi cəmiyyəti əlillik problemlərinin həllinə cəlb etmək, əlilliyi olan insanların hüquqlarını qorumaqdır. Azərbaycan Respublikası Prezidentinin 2 oktyabr 2008-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Baş Məclisi tərəfindən 2006-cı ilin dekabr ayının 13-də qəbul edilmiş "Əlillərin hüquqları haqqında" Konvensiyanın fakültativ protokoluna müvafiq bəyanatla qoşulmuşdur. Bu Konvensiyanın məqsədi bütün əlillər tərəfindən insan hüquqlqrının və əsas azadlıqlarının tam və bərabər səviyyədə həyat keçirilməsini həvəsləndirməkdən, müdafiə və təmin etməkdən, eləcə də onların ləyaqətinə hörmət edilməsini həvəsləndirməkdən ibarətdir.

Aşağıdakı səbəblərə görə, əlil insanlara qarşı münasibət fərqli olur:

- Sığınacaqların və müəssisələrin tarixi perspektivinə görə;
- Xeyriyyə yardımı aldıqlarına görə;
- Keşmişdə qeyri-bərabər münasibətin olmasına görə;
- Cəmiyyətin münasibətinə görə;
- Faktların yanlış anlaşılmasına və diqqətdən kənar qalmasına görə.

Əlillərə qarşı ayrı-seçkilik qismən onunla bağlıdır ki, əlil insanlar sağlam insanlarla müqayisədə daim yardıma ehtiyacı olan insanlar hesab edilirlər. Halbuki cəmiyyətdəki qalan digər insanlar bütün həyatları boyunca yardım istəyirlər. Bu insanları normal cəmiyyətdən təcrid edir. Məhdudiyyətlərin olan insanlar öz mıhdudiyyətlərinə qarşı həssas olur və onların hüquqları cəmiyyət tərəfindən daha çox imtiyaz kimi qəbul edilir. Qeyd etmək lazımdır ki, hər bir insanın yardıma ehtiyacı var, əlillik sterotipini qabarıq şəkildə büruzə verir.

**2. Əlilliyi olan uşaqların xarakteristikası və təhsil ehtiyacları.**

- Həmçinin məlumdur ki, əlilliyi olan uşaqlar çoxsaylı ayrı-seçkilik formaları ilə üzləşir ki, bu da onların cəmiyyətdən və təhsildən təcrid olunmasına səbəb olur. Məsələn, əlilliyi olan qızlar xüsusilə həssas vəziyyətdədir və bu, onların gender əsaslı zorakılıq, cinsi zorakılıq, baxımsızlıq, pis rəftar və istismarla üzləşmə riskini artırır.

Əlilliyi olan uşaqlara münasibətlər, habelə inklüziv təlim mühitlərinin olmaması və üstəlik zəruri resurs və informasiya çatışmazlığı onların təhsildən istifadə ilə bağlı çətinliklərini daha da ağırlaşdırır. Buna görə də, təhsildən kənarda qalan uşaqların arasında əlilliyi olan uşaqların payı qeyri-mütənasib dərəcədə yüksəkdir.

Müsbət məqam isə ondan ibarətdir ki, həm əlilliyi olan, həm də əlilliyi olmayan uşaqların bərabər əsaslarla öz hüquqlarından, o cümlədən keyfiyyətli təhsil hüquqlarından istifadə edə biləcəyi inklüziv cəmiyyət qurmaq üçün effektiv yollar mövcuddur. Bu

yollardan bəzilərinə bu vəsaitdə nəzər salınacaq və bir çox digər yollar isə növbəti nəşrlərdə əhatə olunacaq. Lakin fiziki və siyasi əngəllər, mənfi münasibətlər, o cümlədən mənfi stiqma və ayrı-seçkiliyin aradan qaldırılması çox vacibdir.

"Uşaq hüquqları haqqında" və "Əlilliyi olan şəxslərin hüquqları haqqında" konvensiyalarına və UNİCEF-in missiyasına uyğun olaraq, UNİCEF hər bir uşağın keyfiyyətli təhsil almasını təmin etmək üçün inklüziv təhsil yanaşmasını tətbiq edir. Salamanka Bəyannaməsinə əsasən, inklüziv təhsil "hamı üçün məktəblərə - fərqliliklərə dəyər verən, öyrənməni dəstəkləyən və fərdi ehtiyacları nəzərə alan məktəblərə nail olmaq üçün səylərin göstərilməli olduğunu" təşviq edir. İnklüziv təhsil bütün şagirdlərin rifahına dəyər verən bir prosesdir və özü özlüyündə son nəticə deyil.

Təhsil - əlilliyi olan uşaqların və onların ailələrinin tez-tez üzləşdiyi ayrı-seçkilik zəncirini qırmaq üçün ən effektiv yollardan biridir. Əlilliyi olan uşaqlar digər uşaqlarla eyni hüquqlara malik olsa da, tarixən onlar təhsil sistemindən ən çox təcrid olunan qrup olmuşdur.

Bu yanaşma Ümumdünya Səhiyyə Təşkilatının **Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatı** ilə də uzlaşır. Bu təsnifatda şəxsin funksionallıq səviyyəsi onun sağlamlıq vəziyyəti, ətraf mühit faktorları və şəxsi faktorlar arasındakı dinamik qarşılıqlı əlaqə kimi izah olunur. [29] O, funksional fəallığı və əlilliyi aşağıdakılarla bağlı olan çoxaspektli məfhumlar kimi təqdim edir:

- İnsan orqanizminin funksiyaları və strukturları.
- İnsanın məşğul olduğu fəaliyyətlər və iştirak etdiyi həyat sahələri.
- Ətraf mühitdə bu təcrübələrə təsir edən faktorlar.

Bu yanaşmalar fərdlərin cəmiyyətdə səmərəli iştirakına şəraitin yaradılması və ya bunun qarşısının alınmasında ətraf mühitin və kontekstin önəmini qəbul edir. Buna əlilliyin sosial modeli də deyilir.

Əlilliklə bağlı düşüncələr zamanla kifayət qədər təkamül edib. Tarixən əlillik konsepsiyasına dair üç əsas yanaşma mövcud olub:

- **Xeyriyyə modeli:** Ən qədim və vaxtı keçmiş model "xeyriyyə modelidir". Bu modeldə əlillik allahın müdaxiləsi nəticəsində baş verən cəza və ya faciə hesab edilir. Bu modeldə insana yazıq kimi baxılır və hesab edilir ki, o, başqalarının mərhəməti, sevgisi və qayğısı ilə xilas ola bilər.
- **Tibbi model:** Tarixdə yaranmış sonrakı model isə "tibbi model"dir. Bu model əlilliyi tibb mütəxəssislərinin yardımı ilə müalicə olunmalı vəziyyət kimi izah edir.
- **Sosial model:** Son dövrlərdə, əlilliyi olan şəxslərin iştirakına mane olan əngəllər daha yaxşı başa düşüldüyündən, sosial model meydana çıxdı. Bu model hesab edir ki, əlillik konkret fiziki, əqli, hissi və ya psixi sağlamlıq pozuntularına sahib olan şəxslə onu əhatə edən sosial və mədəni mühit arasındakı qarşılıqlı təsirlərin nəticəsidir. Buna görə də, əlillik cəmiyyətdə mövcud olan münasibətlər və ətraf mühitlə bağlı olan və institusional xarakterli maneələrlə müşayiət olunan sosial-siyasi konsept hesab edilir.[30] Bu, həmçinin insan hüquqlarına əsaslanan yanaşma və ya əlillik konsepsiyasının insan hüquqları modeli ilə uzlaşır.

Son on illər ərzində əlilliyin sosial modelinə doğru paradiqma dəyişikliyi ilə əlaqədar olaraq, məlum oldu ki, ibtidai təhsildən tutmuş ali təhsilədək inklüziv, maneəsiz təhsil sistemi yanaşması əlilliyi olan uşaqların keyfiyyətli təhsil almasına, habelə digər yaşıdları

ilə bərabər əsaslarla təhsildə iştirak etməsinə imkan verməyən maneələri azaldacaqdır. Aşağıdakı qutularda əlilliklə bağlı düşüncələrə təsir göstərmiş müxtəlif paradiqmalar öz əksini tapır. Modellərlə bağlı daha ətraflı məlumat üçün kitabçanın sonundakı terminlərin izahlı lüğətinə nəzər salın. **Əlilliyin xeyriyyə modeli** - Rifah allahın və ya taleyin əllərindədir:

- Əlillik cəza və ya faciədir.
- Şəxsə yazıq, məğmun, hətta təqsirkar kimi baxılır.
- Xilas yalnız mərhəmət, sevgi və qayğı yolu ilə mümkündür.

**Əlilliyin tibbi modeli** - Rifah həkimlərin əllərindədir:

- Əlillik fərdin sahib olduğu və müalicə olunmalı sağlamlıq vəziyyətidir.
- Fərdin xəstəliyinin müalicə olunmasına və ya idarə edilməsinə ehtiyacı var.
- Ağrını yüngülləşdirmək tibb mütəxəssisinin öhdəliyidir və bunu yalnız o bacarar.
- **Əlilliyin sosial modeli** - Rifah cəmiyyətin əllərindədir.
- Əlillik sosial problemdir.
- Şəxsə sosial mühakimənin qurbanı kimi yanaşılır.
- Cəmiyyətin öhdəliyi maneələri aradan qaldırmaqdır.

**3. Əlilliyə tibbi yanaşma. Tibbi modelin strukturu.**

- İnsanlar öyrənmək və inkişaf etmək, müvəffəqiyyəti dadmaq imkanına malikdirlər. Qərbdə ənənəvi olaraq əlil insanlara əlilliyin tibbi modelinin təhrif edici "kultural gözlüyü" vasitəsilə baxırdılar. Bu modeldə (və ya təsəvvürlər sistemində) və onunla əlaqədar digər modeldə (şəxsiyyət modeli, inzibati model, xeyriyyəçilik modeli) əlil insanlara sadəcə onların qüsurları ilə baxırdılar.

"İnsanı və əlil edir?" sualına tibbi modeldən yanaşan insan sualı aşağıdakı kimi cavablandıracağıq.

- ✓ İnsanlar gəzə bilmədikləri üçün əlil olurlar.
- ✓ İnsanlar eşidə bilmədikləri üçün əlil olurlar.
- ✓ İnsanlar görə bilmədikləri üçün əlil olurlar.
- ✓ İnsanlar danışa bilmədikləri üçün əlil olurlar.

Əlilliyə tibbi modeldən yanaşan insanda aşağıdakı anlayışlar formalaşır:

- ✓ Əlillər müəyyən normalara uyğun gəlmirlər və buna görə də:
- ✓ Əlillər hər zaman xəstədirlər
- ✓ Əlillər işləyə bilmirlər
- ✓ Əlillər adi məktəblərə gedə bilmirlər
- ✓ Əlillərin uşağı olmamalıdır
- ✓ Əlillər başqa birinin öhdəsində yaşayırlar
- ✓ Əlillər başqalarına yük olurlar

Tibbi modeldə cəmiyyətdə xüsusi müəssisələrinnə üçün yaradıldığını, müəyyən qanunların nə üçün qəbul edildiyini və əlillərin cəmiyyət həyatından təcrid edilməsi üçün siyasətin bu şəkildə qurulduğunu başa düşmək asan olur. Əlil insanlara tibbi model gözlüyündən baxdıqda onlar cəmiyyətin tərkib hissəsi kimi görünmürlər. Əlilliyin tibbi modeli fərdə köklənir, onu problemi olan insan kimi təsvir edir. Bu yanaşma şəxsin cəmiyyətdə fəal olmamasına şərait yaradan amilləri və ya maneələri nəzərə almır. İnklüziv təhsil kontekstində isə tibbi yanaşma əlilliyi olan uşaqların məktəbdə öyrənmək və səmərəli

şəkildə iştirak etmək imkanlarını məhdudlaşdırır. Əlilliyə tibbi yanaşma insan hüquqlarına əsaslanan yanaşmanın dinamikliyini və kompleks xarakterini əks etdirmir, fərdə diaqnozu əsasında baxmağımıza gətirib çıxarır. Nəticədə uşaq əlilliyə görə damğalanır, maneələri aradan qaldırmaq və təhsil sistemində islahat aparmaq əvəzinə uşaq problem olaraq qəbul olunur.




**4. Əlilliyə sosial yanaşma. Əlilliyin sosial baxışdan dərk olunması. Sosial modelin perspektivləri. Sosial və tibbi modelin müqayisəsi.**

- Əlilliyin sosial modeli Britaniya Əlillər Təşkilatı Şurasının əsaslandığı aparıcı fəlsəfi prinsipləri təmin etmişdir. Əlilliyin dərk edilməsində bu yeni yolu ümumilikdə cəmiyyət, həmçinin Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), Əlillər Alyansı və əlillərin əmək haqqı qrupu kimi milli qruplar tərəfindən istifadə eilmiş əlillik anlayışlarının tənqid edilməsi ilə yaranmışdır. Bu tənqid "Fiziki pozğunluqları olan insanların ayrı-seçkiliyə qarşı İttifaqı" tərəfindən nəşr edilmiş Əlillərin Fundamental Prinsipləri (1976-cı il) sənədində geniş şəkildə təfsir edilmişdir. Əlilliyin dərk edilməsinin sosial modeli onların əzilməsinin real səbəblərinin aradan qaldırılmasında ilk addımdır. Beləliklə, daha əvvəl verilən "İnsanı əlil edən nədir?" sualına sosial əlillik modelinin "kultural gözlüyü" ilə baxan insan onu aşağıdakı kimi cavablandıracaq:

- ✓ İnsanlar ətraf mühitdəki fiziki maneələrə görə əlil olurlar
- ✓ İnsanlar informasiya və ünsiyyət imkanından məhrum olduqları üçün əlil olurlar
- ✓ İnsanlar adi məktəblərə və ali təhsil müəssisələrinə gedə bilmədikləri üçün əlil olurlar
- ✓ İnsanlar başqaları ilə bərabər iş imkanlarına malik olmadıqları üçün əlil olurlar
- ✓ İnsanlar yaşayış yerinin olmamasına görə əlil olurlar
- ✓ İnsanlar nəqliyyatdan istifadə edə bilmədikləri üçün əlil olurlar
- ✓ İnsanlar cəmiyyətdə əlilliyə qarşı mənfi münasibət olduğu üçün əlil olurlar
- ✓ İnsanlar sistematik ayrı-seçkiliyin olduğu üçün əlil olurlar

Bu nümunələrin köməyi ilə biz anlayırıq ki, əlillik insan hüquqları ilə əlaqədar məsələdir.

Bütün uşaqlar çətinliklər ilə üzləşir və ya müəyyən məqamda təlim ehtiyacları olur, eyni əlilliyə malik uşaqların eyni təlim ehtiyaclarının olması şərt deyil.

- Yalnız əlilliyi olan uşaqlar deyil, bir çox uşaqlar məktəbdə öyrənərkən çətinliklərlə üzləşirlər;
- Bu çətinliklər təlimi yaxşılaşdırmaq üçün istifadə edilən üsullara işarədir;
- Aparılan dəyişikliklər bütün uşaqlar üçün təlim şəraitinin yaxşılaşdırılmasına səbəb olmalıdır;
- Müəllimlərin fəaliyyətinin inklüziv olması üçün əlilliyi olan uşaqlarla ayrıca məşğul olmaq üçün mütəxəssislər cəlb etmək əvəzinə onların peşəkarlıq səriştəsi inkişaf etdirilməlidir;
- Əlilliyi olan uşaq problem deyil. Əksinə, uşağın təhsil ehtiyaclarına cavab vermədiyi üçün məktəb problem hesab edilir və uşağın ehtiyaclarına uyğun olmaq üçün adaptasiya olunmalıdır




**5. Damğalanma, onun mənfi təsirləri. Tibbi modelin və damğalanmanın neqativ təsirləri.**

- Damğalama həm mənfi, həm də müəyyən dərəcədə faydalı ola bilər. Uşağın diaqnozunu bilmək məktəbdə onun ehtiyac duyğuğu dəstəyi almasını təmin etməkdə müəyyən dərəcədə faydalı ola bilər. Lakin damğalama mühitin və sosial proseslərin yaratdığı maneələri nəzərə almadığı üçün uşağın məktəb həyatına mənfi təsir edir. Biz əlilliyi olan uşağı tibbi diaqnozla damğaladıqda onun ehtiyacı olan dəstək barədə stabil fikir yaradırıq. Damğalama problemi ondan ibarətdir ki, bəzən eyni diaqnozlu uşaqlara eyni dəstək tələb olunmur. Damğalama uşağın məhdudiyyətinin sabit olmadığını və zamanla dəyişə biləcəyini nəzərə almır. Biz hamımız yaşlandıqca müəyyən məhdudiyyətlər qazana bilərik. Damğalama, həmçinin şəxsin güclü cəhətlərini və istedadını nəzərə almır. Bütün uşaqlar məktəbdə iştirak edə, qarşılıqlı ünsiyyətdə ola, öyrənə və mühitə uyğunlaşa bilərlər. Şəxsin məhdudiyyətinə görə damğalanması bizi onun qabiliyyətlərini, istedadını və istəklərini öyrənməkdən çəkindirə bilər.

Əlilliyi olan uşaqların damğalanmasının mənfi təsirləri:

- Damğalama gözləntilərin aşağı düşməsinə səbəb olur.
- Müəllimlərin onları qorumağa çalışması uşağın darıxmasına və həvəsdən düşməsinə səbəb olur.
- Damğalama müəyyən alt-qrupa daxil olan bütün uşaqların xüsusi resurslarla xüsusi qaydada öyrədilməsi fikrini möhkəmləndirir.
- Əlilliyi olan uşaqlara xüsusi tapşırıqlar verildiyi halda uşaqlar tapşırıqları yerinə yetirmək üçün sinifdən ayrılır, digər uşaqlar isə həmin vaxt fasiləyə çıxır, incəsənət və ya idman dərslərinə gedirlər. Bu hal əlilliyi olan uşaqları təcrid etməklə onları inkişaf üçün zəruri olan fəaliyyətlərdən məhrum edir.
- Bəzən müəllimlər uşağın öyrənmə çətinliklərini aradan qaldırmağın mümkün olmadığını düşünürlər.
- Bəzən isə müəllimlər "əlilliyi olan uşaqlarla məşğul olmaq ekspertlərin işidir" qənaətinə gəlirlər.
- Damğalanma müəllimlərin inamını azaldır. Əlilliyi olan uşaqları öyrətmək üçün onlara xüsusi resursların lazım olduğunu düşünə bilərlər.
- Nəticədə əlilliyi olan uşaqlar digər uşaqlardan ayrılaraq seqreqasiyaya məruz qalır

## V Mövzu: Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatı

**Plan:**

1. Əlilliyi olan uşaqların funksionallığına dair beynəlxalq təsnifat. Funksionallığa dair beynəlxalq təsnifatın konsepsiyası.
2. Funksiyalar və əlillik. Konteksual faktorlar.
3. Funksionallığa dair Beynəlxalq Təsnifat: uşaq və gənclər sənədinin yaradılması səbəbləri.
4. Funksionallığa dair Beynəlxalq Təsnifat: uşaq və gənclər sənədinin məqsədi.

5. Öyrənmə və iştiraka əngəl olan potensial maneələr. İcma səviyyəsində maneələr. Məktəb səviyyəsində maneələr.

**Ədəbiyyat:**


1. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019.
2. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019
3. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. İnklüziv siniflərdə təlimin təşkili. Bakı 2018
4. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
5. Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiya 4(2016) nömrəli Ümumi Şərh Maddə 24: İnklüziv təhsil hüququ. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
6. Bacarıqlar haqqında. Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın izahı. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019.
7. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 2020
8. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020
9. İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması. Texniki kitabça 1. Bakı, UNİCEF, 2020
10. Hacımuradova L.N. İnklüziv təhsil baxdığınız güzgüləri dəyişir. // Gəncə Dövlət Universitetinin elmi xəbərləri. Gəncə 2019, № 3; səh.240-243
11. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika. Texniki kitabça 12. Bakı, UNİCEF, 2020


**1. Əlilliyi olan uşaqların funksionallığına dair beynəlxalq təsnifat. Funksionallığa dair beynəlxalq təsnifatın konsepsiyası.**

- FBT "ÜST-nin Beynəlxalq Təsnifatlar Ailəsi"nin üç komponentindən biridir. Xəstəliklərin Beynəlxalq Təsnifatı (XBT) xəstəliklər, pozuntular və zədələr kimi sağlamlıq problemlərini əhatə edir. O, ilk dəfə 1901-ci ildə dərc olunub və hazırda da onun FBT ilə uzlaşmasını təmin etmək üçün ona yenidən baxılır. O vaxtdan etibarən, XBT-də tətbiq olunan




**Şəkil 2:** ÜST-nin Beynəlxalq Təsnifatlar Ailəsi (ÜST-BTA)

diaqnostik yanaşma üstünlük təşkil edib və bu da müxtəlif əlillik növlərini ayırd etmək məqsədilə konkret kateqoriyalar yaratmaq üçün kateqoriya yanaşmasına gətirib çıxarıb. FBT-nin kökləri 1970-ci illərə gedib çıxır. Həmin dövrdə xəstəliklərin təkcə diaqnozunu qoymaq əvəzinə, onların insanların həyatlarına etdikləri təsirlərin nəticələrini müəyyən etmək zərurəti ortaya çıxmışdı.

Pozuntuların, Əlilliklərin və Əngəllərin (ICIDH) Beynəlxalq Təsnifatı adlanan təsnifatın ilkin layihəsi sınaq məqsədləri üçün 1980-ci ildə dərc olundu. Yenidən baxılmış versiya 20 ildən sonra nəhayət 2001-ci ildə Ümumdünya Səhiyyə Assambleyası tərəfindən təsdiq olundu. Ailənin üçüncü üzvü hazırda hazırlanmaqdadır və tibbi müdaxilələrə köklənəcək (Tibbi Müdaxilələrin Beynəlxalq Təsnifatı). Ümumdünya Səhiyyə Təşkilatının 1948-ci ildə qəbul edilmiş nizamnaməsində sağlamlığın tərifi "sadəcə xəstəlik və ya pozuntunun yoxluğu deyil, fiziki, əqli və sosial rifahın bütöv bir şəkildə mövcud olması" kimi verilir. *Sağlamlıq bioloji, psixoloji və sosial proseslər arasındakı dinamik qarşılıqlı təsirin nəticəsidir*. Eyni ənənə ilə, FBT **bio-psixo-sosial** modelə əsaslanır. FBT insan sağlamlığının və rifahın sağlamlıqla əlaqəli komponentlərinin bütün aspektlərini, o cümlədən məsələn, faydalı münasibətlərə malik olmağı və yüksək keyfiyyətli təhsildən yararlanmağı əhatə edir. O, ayrı-seçkilik və ya təcrid olunmanın sadəcə sosial faktorlar, məsələn, din, gender və ya milli mənsubiyyət nəticəsində meydana çıxdığı vəziyyətləri əhatə etmir. Buna baxmayaraq, o, sağlamlıq və rifah kontekstində universal şəkildə tətbiq olunur. FBT yalnız əlilliyi olan şəxslərə deyil, bütün şəxslərə yönəlir.

**2. Funksiyalar və əlillik. Konteksual faktorlar.**

- Dünyada əlilliyi olan uşaqların inklüziv təhsilə cəlb olunmasının dəstəklənməsi üçün sistemlərdə bir neçə dəfə dəyişikliklər olmuşdur. Bunlardan biri qlobal şəkildə Funksionallıq, Əlillik və Sağlamlığın Beynəlxalq Təsnifatından (FBT) istifadəyə keçiddir. Ümumdünya Səhiyyə Assambleyası bu təsnifatı 2001-ci ilin may ayında rəsmi şəkildə təsdiq etdi və üzv dövlətləri onu müvafiq hallarda öz tədqiqatlarında, müşahidələrində və hesabatlarında tətbiq etməyə çağırır. FBT psixo-sosial modelə əsaslanır. O, insan sağlamlığı və rifahının bütün aspektlərini, o cümlədən faydalı münasibətləri və keyfiyyətli təhsili əhatə edir. O, özündə tibbi və sosial modeli birləşdirir və iki əsas hissədən ibarətdir: ı. Funksionallıq və əlillik: Orqanizmin funksiya və quruluşu komponenti, aktivlik və iştirak komponenti; II. Kontekstual amillər: Ətraf mühit faktoru və şəxsi faktor. Xüsusi vəziyyətlərdə funksiyalara təsir göstərən xarici (ətraf mühit) və daxili (şəxsi) amilləri əks etdirir. Həm Konvensiyada, həm də FBT-də verilən tərifl ərdə əlilliyin konseptual amillərinin önəmi təsdiq olunur. Əlillik kompleks fenomen kimi şərh edilir və vurğulanır ki, əlillik yalnız şəxsin malik olduğu anatomik pozuntular səbəbindən yaranmır. Başqa sözlə, əlillik şəxsin müxtəlif ehtiyacları qarşılaya bilməyən ətraf mühit ilə qarşılıqlı əlaqəsi zamanı yaranır. FBT-nin inklüziv təhsil baxımından əhəmiyyəti ondan ibarətdir ki, bu sənəd əlilliyin əsasən sosial fenomen olduğunu anlamağa yardımçı olur. Bu isə öz növbəsində təlim nəticələrinin sadəcə fərdlərdən deyil, həm də təhsil mühitindən asılı olduğunu ön plana çəkir və məktəbin universal dizayn əsasında təkmilləşdirilməsini tələb edir.

FBT-nin üstün cəhəti sağlamlıq problemləri, funksionallıq və əlilliklə kontekstual amillər arasındakı dinamikanın izahı üçün sağlamlığın komponentlərini xəritələşdirməsidir.

Funksionallıq və əlillik bioloji, psixoloji və sosial amillər arasındakı mürəkkəb qarşılıqlı təsirlərin nəticəsi kimi başa düşülür. FBT bu komponentlərin dinamikasını və onların nəticələrini öyrənmək üçün vahid dil təqdim edir və bununla da əlilliklə üzləşən şəxslərin həyat vəziyyətini yaxşılaşdırmaq üçün mümkün vasitələri öyrənmək üçün əsas təmin edir.

FBT funksionallıq və əlilliyin komponentləri üçün tərifər təmin edir, lakin o, kimin "normal" və kimin "əlil" olduğunu təyin etmir və ya diqtə ETMİR. Əlilliklə bağlı beynəlxalq məlumatlar aydın şəkildə göstərir ki, əlillik müxtəlif kontekstlərdə fərqli şəkildə başa düşülür və izah olunur. Aşkarlama səviyyələri, həmçinin özlərini əlil kimi təsvir edən şəxslərin faiz göstəricisi fərqlənir. Bu, həyat təcrübəsindəki fərqlər, məlumatlılıq səviyyəsindəki fərqlər, yaxud funksional məhdudiyyətləri problem kimi müəyyən etmək üçün fərqli hədlərdən istifadə ilə bağlı ola bilər

Kimlərin əlilliyə malik olması və ya olmaması ilə bağlı normaların və bunun əsasında qərarların müəyyən edilməsi konkret məqsəddən asılıdır. Məsələn, əlilliyin müəyyənləşdirilməsində məqsəd pul müavinətləri və ya yardım xidmətləri təmin etməkdirsə, yalnız məhdud sayda şəxslər bunun üçün uyğun hesab ediləcək. Tətbiq olunan meyarlar şəxslərin malik olduğu pozuntuların ağırlığını və ya onların həyat şəraitinin məhdudluq dərəcəsini nəzərə ala bilər. Bu meyarlara əsasən Sara şübhəsiz ki, əlil hesab edilərdi. Lakin söhbət ayrı-seçkiliyin qarşısının alınması ilə bağlı qanunvericilikdən getdikdə, tərif geniş olmalıdır. Çünki Pablo fəaliyyətində hər hansı məhdudiyyətlərlə demək olar ki üzləşməsə də, Daun sindromuna malik olduğu üçün hələ də ayrı-seçkiliyə məruz qala bilər. İctimai məkanlarda universal dizaynın tətbiqi sadəcə əlilliyi olan şəxslər üçün deyil, hərəkət məhdudiyyəti olan istənilən şəxs üçün, məsələn, uşaq arabası gəzdirən analar, əl yükü olan şəxslər və yaşlı vətəndaşlar üçün faydalı olacaqdır.

**3. Funksionallığa dair Beynəlxalq Təsnifat: uşaq və gənclər sənədinin yaradılması səbəbləri.**

- *FBT funksional fəallıq və əlilliklə bağlı məlumatları təşkil etmək üçün istifadə edilən informasiya sistemidir*. Buna görə də, o, istənilən mühitdə istənilən məqsəd üçün istifadə edilə bilər. FBT tərəfdaşlıq kontekstində hazırlanıb və əlilliyi olan şəxslərin hüquqlarının təşviqinə yönəlir. ÜST insanların öz seçdikləri kimi adlandırılması hüququnu təsdiq edir və "əlilliy"in müəyyənləşdirilməsində birgə iştirak yanaşmasını dəstəkləyir. Buna görə də, təsnifat və qiymətləndirmənin insanları ayrı-seçkiliyə məruz qoyması və ya hüquq və imkanlardan məhrum etməsi deyil, onların hüquq və imkanlarını artırması vacibdir. Hər bir elmi alət kimi, FBT-dən də sui-istifadə edilə bilər. Buna görə də, ÜST FBT-nin istifadəsi üçün hörmət və məxfilik, FBT-dən kliniki istifadə və FBT məlumatlarından daha geniş sosial kontekstdə istifadə ilə bağlı etik qaydalar müəyyən etmişdir.

FBT çərçivəsi insanların özlərini deyil, onların vəziyyətini diqqət mərkəzinə gətirir. Bununla, o, sosial dəyişiklik üçün mərhəmət modelindən hüquqlara əsaslanan təşviqat modelinə keçidi dəstəkləyir. ƏHŞK-ə uyğun olaraq, FBT və FBT-UG ətraf mühitin əlilliyi olan uşaqların iştirakına və cəmiyyətə qoşulmasına təsirini əhatə edin geniş əhatə dairəsinə malikdir. O, daha geniş insan hüquqları məsələləri kontekstində (məsələn, təhsil sistemlərindən və ya məşğulluqdan təcrid olunma) əlilliyi olan şəxslərin vəziyyətinin təsvir etməklə ayrı-seçkiliyi və ətraf mühitdə olan əngəlləri vurğulaya bilər. Buna görə də, o, yerli, regional, milli və beynəlxalq səviyyələrdə təşviqat üçün əlverişli mövqedədir. FBT

məlumatlarından vahid dil kimi istifadə həm də əlilliyi olan şəxslərin hüquqlarının təşviqi üçün milli strategiyaların hazırlanmasında fəallar, geniş ictimaiyyət, siyasətçilər və peşəkarlar arasında körpü qurmağa kömək edə bilər.

**4. Funksionallığa dair Beynəlxalq Təsnifat: uşaq və gənclər sənədinin məqsədi.**

- Həyatın bütün sahələri əlilliyi olan şəxslərin hüquqlarının təşviqi üçün uyğundur. Buna görə də, təhsil, səhiyyə və sosial sektorlar müvafiq olaraq öz işlərini və siyasətlərin hazırlanmasını əlaqələndirməlidir. FBT sektorlararası strategiyalar hazırlamaq üçün vahid dil təmin edə bilər. Ölkələr ƏŞHK-ni imzaladıqdan və təsdiq etdikdən sonra öhdəliklərini yerinə yetirmək məqsədilə, FBT-dən öz milli qanunvericiliklərində və siyasətlərində istifadə edə bilərlər. FBT-nin əlilliklə bağlı tutduğu inklüziv mövqe əlilliyi olan şəxslərin iştirakla bağlı məhdudiyyətlərlə üzləşdiyi sahələri vurğulamaq üçün faydalıdır. Bu, məlumatlılığı artırmağa və zəruri sosial tədbirləri səfərbər etməyə kömək edə bilər.

Əhali arasında aparılan sorğular və siyahıyaalmalar əlilliyi olan uşaqların və böyüklərin vəziyyəti barədə ümumi təsəvvür qazanmaq üçün önəmlidir. BMT Əlillik Statistikası üzrə Vaşinqton Qrupuna FBT çərçivəsi əsasında əlilliklə bağlı ölçülər qrupu hazırlamağı həvalə etmişdir. Cəmiyyətdə müstəqil iştirakı məhdudlaşdırmaq potensialı olan funksional məhdudiyyətlərlə üzləşən şəxsləri müəyyən etmək üçün siyahıyaalmalar zamanı altı sualdan ibarət qısa qrupdan istifadə edilə bilər. UNİCEF-lə əməkdaşlıq şəklində, Vaşinqton Qrupu uşaqların əlilliyini, o cümlədən ətraf mühit amillərini əhatə edən geniş suallar qrupu hazırlayıb. Əlilliyi olan və olmayan şəxslərin həyat vəziyyətinin və təhsildə və ailə həyatında iştirak səviyyələrinin müqayisəsi sosial inklüzivliyi ölçmək üçün önəmli üsuldur.

**5. Öyrənmə və iştiraka əngəl olan potensial maneələr. İcma səviyyəsində maneələr. Məktəb səviyyəsində maneələr.**

- Biz uşaqların təhsil almaq və öyrənmək imkanını çətinləşdirən maneələri müəyyən edə bilərik. Lakin vurğulamaq lazımdır ki, məktəbə getməməyə və ya öyrənməməyə görə məsuliyyəti heç vaxt uşağın üzərinə qoymamalıyıq. Mənsubiyyətindən asılı olmayaraq və həyat şəraiti nə qədər çətin olursa-olsun, bütün uşaqların təhsil almaq hüququ vardır. Uşaqların təhsil almağa çalışarkən üzləşdikləri maneələri aşkar etmək və aradan qaldırmaq məktəbin və cəmiyyətin vəzifəsidir. Çox zaman eşitdiyimiz fikirlərdən biri budur: "Uşaq dərsə getmək istəmir". Bu, uşağın niyə məktəbə getmək istəməməsi və məktəb və cəmiyyətin bunu dəyişmək üçün nə edə biləcəyi ilə bağlı müzakirə və refleksiyaya başlamaq üçün yaxşı başlanğıc nöqtədir.

**Potensial maneələr:**

**İşləmək zərurəti**. Bəzi uşaqlar məktəbə getmək əvəzinə, işləmək məcburiyyətindədirlər. Bu, ailənin dolanışığını təmin etmək üçündür. Bu ailələr və uşaqlar uzunmüddətli perspektivdə təhsilin faydasını görmürlər. Onlar yoxsul, yaşamaq üçün əlavə gəlirə ehtiyacı olan və ya siyasi münaqişələrin mənfi təsirinə məruz qalmış ailələrdir. İşləyən uşaqların bəziləri öz ailələri ilə az təmasda olurlar və ya heç olmurlar, küçələrdə yaşayırlar. Onların istismar və sui-istifadə ilə üzləşmə riski yüksəkdir.

**Xəstəlik və aclıq.** Uşaqlar xəstə, ac olduqda, zəif qidalandıqda yaxşı öyrənə bilmirlər. Çox zaman onlar dərsə gəlmir və "zəif öyrənən" şagirdlər kimi təsnif olunurlar. Əgər onlara diqqət yetirilməsə, onlar özlərini tənha hiss edə və nəticədə məktəbi ata bilərlər. Xəstəlik və

ya zəif qidalanma fiziki və ya əqli məhdudiyyətlərə səbəb ola və uşağın gələcək həyatına mənfi təsir edə bilər.

**Doğuşun qeydiyyatı.** Bəzi ölkələrdə uşağın doğulduğu zaman qeydiyyata salınmaması gələcəkdə həmin uşağın məktəbə gedə bilməməsi ilə nəticələnir. Bu hal daha çox qızlara, miqrantlara, milli azlıqlara və qaçqınlara təsir göstərir.

**Zorakılıq qorxusu**. Uşaq məktəbdə zorakılıqla üzləşəndə ümumiyyətlə məktəbə getməyə bilər. Zorakılıq dedikdə, həmyaşıdlarından fiziki aqressiya (məsələn, döymək), şifahi aqressiya, cinsi zorakılıq və s. nəzərdə tutulur.

**Əlillik**. Bəzi ölkələrdə əlilliyi olan uşaqların əksəriyyəti məktəbə getmir. Bu, məktəb və təhsil sistemlərində əlilliyi olan uşaqların təhsilə cəlb edilməsi üçün müvafiq qanunvericilik və proqramın olmadığı zaman baş verir. Bu uşaqlar mənfi münasibətlərə görə məktəbdən təcrid olunurlar. Valideynlər və ya icma üzvləri də bəzən bilmir ki, bu uşaqların təhsil almaq hüququ var və onlar məktəbə getməlidir. Məktəb və infrastruktur onların ehtiyaclarına uyğunlaşdırılmadığı üçün əlilliyi olan uşaqlar təhsildən kənarlaşdırılırlar.

**Hamiləlik.** Bəzi ölkələrdə və icmalarda hamilə qalan qızlar məktəbdən kənarlaşdırılır və qayıtmalarına icazə verilmir.

**Ailə səviyyəsində maneələr.** Bəzən valideynlər uşaqlarını məktəbə göndərmək istəmirlər. Bunun səbəbini araşdırmaq və həll etmək məktəb və icmanın məsuliyyətidir.

**Qeyri-adekvat qayğı**. Bəzən valideynlər müvəqqəti və ya uzun müddətə evlərindən uzaqlaşırlar (miqrasiya). Nəticədə onlar uşaqları ahıl yaşlı baba, nənə və ya digərlərinin yanında qoyurlar. Bu şəxslər uşağa adekvat qulluq etmək üçün zəruri bilik, təcrübə və resurslara malik olmaya bilərlər. Spirtli içki və ya narkotik maddə aludəçiliyi olan valideynlər də uşağa adekvat qayğı göstərə bilmirlər.

**İİV/QİÇS-lə bağlı ayrı-seçkilik və damğalama**. Valideynləri QİÇS nəticəsində dünyasını dəyişmiş uşaqların məktəbə getmək ehtimalı daha aşağıdır. Bəzi ölkələrdə uşaqlar, xüsusilə qızlar bacı-qardaşlarına və ya xəstələrə qulluq etmək, yaxud ailəyə kömək üçün pul qazanmaq məqsədilə məktəbdən çıxarılırlar. Digər hallarda isə belə uşaqlar yoluxucu virus daşıyıcısı hesab edilə bilər ki, nəticədə icma üzvləri və hətta müəllimlər onları məktəbdən kənarlaşdırırlar.

**İcma səviyyəsində maneələr:**

**Gender zəminində ayrı-seçkilik.** Qadınların və kişilərin cəmiyyətdəki statusu və vəzifələri ilə bağlı ənənəvi inanclar qızların məktəbə çıxışını məhdudlaşdırır. Qadınların statusunun kişilərdən daha aşağı olduğu icmalarda qızlar çox zaman ev işi görmək üçün məktəbə getmir və evdə saxlanılır. Valideynlər qız övladlarının təhsilinə pul xərcləmək üçün bir səbəb görmürlər.

**Mədəniyyət fərqləri və yerli ənənə.** Dil, din və ya digər mədəni əlamətlərinə görə cəmiyyətdən fərqlənən ailələrdən olan uşaqların məktəbdən təcrid olunma riski xüsusilə böyükdür. Bəzən onlara standartlara cavab verməyən, seqreqasiya olunmuş təhsil müəssisələrində daha aşağı keyfiyyətli təlim və məhdud təlim materialları ilə təhsil almaq imkanı verilir. Onların ali təhsilə çıxış imkanları da digərləri ilə müqayisədə azdır. Bəzi icmalarda keyfiyyətli təhsildən faydalanmadan iş həyatına uşaqlıq dövründə başlamaq kimi yerli ənənə mövcuddur.

**Mənfi münasibətlər.** Fərqli vəziyyətdə olan, xüsusi ilə əlilliyi olan uşaqlara qarşı mənfi münasibətlər uşaqların məktəbə getməsinə ən böyük maneədir. Mənfi münasibətlərə bütün

səviyyələrdə rast gəlinir: valideynlər, icma üzvləri, məktəb və müəllimlər, dövlət məmurları və təcrid olunmuş uşaqların özləri. Qorxular, tabular, utanc, cahillik, yanlış təsəvvürlər və digər səbəblər belə uşaqlara və onların vəziyyətlərinə mənfi münasibətləri stimullaşdırır. Bu uşaqlar və hətta onların ailələrinin özünəhörmət səviyyəsi aşağı düşür, nəticədə onlar gizlənir, sosial təmaslardan çəkinir, öz icmalarının görünməz üzvlərinə çevrilirlər. Bu isə onların məktəbdən təcrid olunmasına gətirib çıxarır.

**Məktəb səviyyəsində maneələr**:

**Xərclər (birbaşa və gizli)** Bir çox yoxsul ailələrin məktəb, imtahan rüsumları, məktəblərə və ya valideyn-müəllim assosiasiyalarına ianələr, hətta kitab, karandaş, məktəbli forması və ya nəqliyyat xərclərini ödəyə bilməməsi uşağı məktəbdən təcrid edir.

**Yerləşmə.** Kənd ərazilərində, xüsusilə məktəb kənddən uzaqda yerləşdikdə, bəzən uşaqları evdə saxlayırlar. Məktəbin evlərdən uzaq olması qızların təhlükəsizliyini təmin etmək məqsədi ilə təhsildən təcrid olunması ilə nəticələnir. Əlilliyi olan uşaqları məktəbə aparan münasib nəqliyyat vasitəsinin olmaması onların məktəbə getməməsi ilə nəticələnir.

**Dərs qrafiki**. Məktəblərdə dərs qrafiki və təqvimlərin uşaqların iş qrafikləri ilə uzlaşmaması, onların "həm öyrənə, həm işləyə" bilməsinə imkan vermir. Qızların məktəbə getməsi onların ailədəki vəzifələri, məsələn, ev işləri və ya azyaşlı bacı-qardaşlarına qulluq kimi işləri ilə uzlaşmayanda qızlar məktəbdən çıxarıla bilər.

**Texniki təchizat**. Məktəblərin lazımi texniki təchizata malik olmaması uşaqların məktəbə gəlməməsinin səbəblərindən biridir. Məsələn, menstruasiya dövründə olan yeniyetmə qızlar üçün ayrıca sanitar qovşaqların olmaması onları məktəbə gəlməkdən çəkindirir. Texniki təchizatın olmaması xüsusilə əlilliyi olan uşaqlara mənfi təsir göstərir.

**Hazırlıq**. Fərqli mənsubiyyətlərə və bacarıqlara malik olan uşaqların məktəbdən kənarda qalmasının səbəblərindən biri məktəbin və müəllimlərinin onlara dərs keçməyə hazır olmamasıdır. Onlar bu uşaqlara necə dərs keçmək lazım olduğunu bilmirlər, çünki bu uşaqların öyrənməsinə kömək etmək üçün zəruri hazırlıq keçməyiblər. Nəticədə bu uşaqlar məktəbə gəlsələr də, keyfiyyətli təhsil ala bilmirlər.

**Siniflərin ölçüləri, resurslar və iş yükü**. Siniflərdə uşaq sayının çox olması probleminə bütün ölkələrdə rast gəlinir və uşaqların təhsilə cəlb edilməsinə mane olur. Müəllimlər ağır iş yükü götürür və daha gərgin olurlar. Qeyd etmək lazımdır ki, sinfin ölçüsü inklüziv təhsilin uğurlu olması üçün əhəmiyyətli amil deyil-əgər münasibətlər müsbət və əlverişli olarsa, fərqli bacarıqlara malik uşaqlar təlim prosesinə asanlıqla cəlb olunurlar.

## VI Mövzu: İnklüziv sinif təcrübəsinin yaradılması: Uşaqyönümlü pedaqogika

**Plan:**

1. İnklüziv təhsilin tətbiqində uşaqyönümlü pedaqogikanın əhəmiyyəti.
2. Uşaqyönümlü pedaqogika nədir? Onun əsas elementləri:

- Faydalı təlim imkanları;
- Çoxsaylı təlim üsulları;
- Uşaqların müxtəlif yollarla öyrəndiklərinin qəbul edilməsi;
- Birgə öyrənmə;

- Cəlbedici və əlçatan təlim imkanları;
- Qiymətləndirmə;
- Müəllimlərin rolunun dəyişməsi.

3. Müxtəlif təlim metodları.

**Ədəbiyyat:**


1. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019.
2. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019
3. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. İnklüziv siniflərdə təlimin təşkili. Bakı 2018
4. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
5. Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiya 4(2016) nömrəli Ümumi Şərh Maddə 24: İnklüziv təhsil hüququ. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
6. Bacarıqlar haqqında. Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın izahı. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019.
7. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 2020
8. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020
9. İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması. Texniki kitabça 1. Bakı, UNİCEF, 2020
10. Hacımuradova L.N. İnklüziv təhsil baxdığınız güzgüləri dəyişir. // Gəncə Dövlət Universitetinin elmi xəbərləri. Gəncə 2019, № 3; səh.240-243
11. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika. Texniki kitabça 12. Bakı, UNİCEF, 2020
12. Loreman T., Deppeler J., Harvey D. İnklüziv təhsil. Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Bakı, İdeal Print, 2020


**1. İnklüziv təhsilin tətbiqində uşaqyönümlü pedaqogikanın əhəmiyyəti.**

- Əlilliyi olan uşaqların təhsil ehtiyacları fərqli və ya xüsusidirmi? Tibbi model aşağıdakı ehtimallara əsaslanır:

- Xüsusi və ya fərqli olan bir qrup uşaq müəyyən edilə bilər.
- Bu uşaqlar problemlərinin öhdəsindən gəlmək üçün xüsusi təlimatlandırılmalıdır.
- Ən yaxşısı oxşar problemlər yaşayan uşaqların bir yerdə təhsil almasıdır.
- Digər uşaqlar normaldır və mövcud təhsil formalarından yararlanırlar.

Bu yanaşma əlilliyi olan uşaqlardan gözləntiləri aşağı salır və bu da onların öyrənmə nəticələrinə mənfi təsir edir, əlilliyi olan uşaqlara dərs deyən müəllimlərin etimadını azaldır, əlilliyi olan uşaqlara yalnız mütəxəssislərin dərs deyə biləcəyi fikrini gücləndirir, ayrı-

seçkiliyə və təcrid olunmaya gətirib çıxarır, eləcə də fərdi xüsusiyyətlərə fokuslanmaq bütün uşaqlar üçün tədris və təlimin yaxşılaşdırılması imkanlarını azaldır. Sosial model milli və beynəlxalq hüquqi konsepsiyalar ilə dəstəklənir. Əsas ehtimallara daxildir:

- Yalnız əlilliyi olan deyil, istənilən uşaq məktəbdə çətinliklər yaşaya bilər.
- Bu çətinliklər tədrisin təkmilləşdirilməsinin vacibliyini vurğulayır.
- Bu təkmilləşdirmə işləri bütün uşaqlar üçün daha yaxşı təhsil şəraitinə gətirib çıxara bilər.
- Əlilliyi olan uşaqlarla işləmək üçün mütəxəssisləri məktəbə gətirmək əvəzinə inklüziv mühitdə dərs deyə bilmələri üçün müəllimlərin təcrübəsi artırılmalıdır.

Təməl anlayışlar bunlardır - bütün uşaqlar çətinliklər ilə üzləşir və ya müəyyən məqamda təlim ehtiyacları var və şərt deyil ki, eyni əlilliyə malik uşaqların eyni təlim ehtiyacları olsun. Buna görə də, əlilliyi olan uşaqların təhsil ehtiyacları xüsusi və ya fərqli deyil.

"Əlilliyi olan uşaqların öyrədilməsində xüsusi təlim yanaşması tələb olunurmu?", "Müəllim adi təlim yanaşmasından istifadə edə bilərmi?" kimi suallar əvvəllər də müzakirə olunub. Bu müzakirədə iki əsas mövqe: "unikal fərq mövqeyi" və "ümumi fərqlilik mövqeyi" var.

- Unikal fərq mövqeyi Hər bir şagirdin hər kəsə xas olan ümumi ehtiyaclarla yanaşı, məhz fərdi şəkildə ona xas olan unikal ehtiyacları var. Əlilliyi olan uşaqlar üçün xüsusi pedaqogikanın olduğunu güman etmək yerinə müəllimlər bütün şagirdlərin ehtiyaclarını qarşılamaq üçün uşaqyönümlü pedaqogikadan istifadə edirlər.
- Ümumi fərqlilik mövqeyi Ümumi və unikal fərdi ehtiyaclardan başqa, əlilliyi olan uşaqların xüsusi ehtiyacları da olur. Yəni əlilliyi olan uşaqların onlara məxsus spesifik ehtiyaclarla yanaşı, digər uşaqların ehtiyacları ilə oxşarlıq təşkil edən ehtiyacları ola bilər. Məsələn, gözdən əlilliyi olan uşaq üçün Brayl əlifbası xüsusi ehtiyacdır. Lakin həmin uşağın bədən-kinestetik intellektə malik olması onu eyni intellektə malik olan digər uşaqlarla eyniləşdirir.

Müəllimlər adi siniflərdə bütün uşaqları qəbul edə və onlara dərs deyə bilərlər. Belə olan halda şagirdlərin təlim ehtiyaclarından asılı olaraq təlim metodlarında və vəsaitlərdə müvafiq adaptasiya işləri aparmağa ehtiyac yaranır.

Əsas anlayış. İnklüziv siniflərdə müəllimlər tədris və təlimin ümumi keyfiyyətini artırmaq məqsədilə bütün uşaqların öyrənmə ehtiyaclarını qarşılamaq üçün uşaqyönümlü pedaqogikadan istifadə edirlər. Əlilliyi olan uşaqlar üçün xüsusi pedaqoji yanaşma yoxdur.

Uşaqyönümlü pedaqogika nədir? Məktəbdə müəllimlər fərqli bilik, bacarıq, maraq və öyrənmə ehtiyacları olan uşaqlar ilə işləyirlər. Əlilliyi olan uşaqlar üçün xüsusi təlim üsulu olmadığından inklüziv mühitdə müəllimlər bütün uşaqların ehtiyaclarını qarşılamaq üçün uşaqyönümlü pedaqogikadan istifadə edirlər. Daha ənənəvi mühitdə və ya müəllimyönümlü pedaqogikada müəllim stolları sıra və cərgə ilə düzür, bütün sinfin qarşısında durur, şagirdlərə bütün bilikləri hazır verir və şagirdlərə onların cavablarının doğru və ya yanlış olduğunu deyir. Qeyd olunanlar "yaxşı" müəllimin xüsusiyyətləridir. Uşaqyönümlü yanaşmada isə səmərəlilik üçün vacib şərt müəllimin 21 davranışıdır. Müəllim dərs zamanı vəziyyətdən asılı olaraq sinfin müvafiq yerlərində durur, sinifdəki resurslardan istifadə edir, uşaqlar ilə ünsiyyət qurur və uşaqların öyrəndikləri bilikləri qiymətləndirir.

**2. Uşaqyönümlü pedaqogika nədir? Onun əsas elementləri:**

**- Faydalı təlim imkanları;**

Şagirdlər dərslərin və məktəb fəaliyyətlərinin məqsədlərini başa düşdükdə daha çox motivasiya olurlar. Uşaqların gündəlik həyatları ilə bağlı nəyi və necə öyrənməni əlaqələndirmək mütləqdir. Bu, yalnız müəllimlər şagirdləri ilə əlaqə qurarsa, onlar üçün nəyin mühüm olduğunu və uşaqların bir-biri və həmçinin müəllimi ilə mübadilə etməsi üçün təhlükəsiz hiss edəcəyi rahat bir atmosfer yaranarsa, mümkün ola billər. Bu cür əlaqənin yaradılmasına dair bəzi fikirlərə daxildir:

- Dərsin şagirdlərin əvvəlki bilik və bacarıqlarına əsasən qurulması. Müəllimlər şagirdləri çox yaxşı tanımalı və onların dərsdə fəal iştirakı və öz biliklərini nümayiş etdirmələri üçün imkan yaratmalıdır.
- Yeni anlayışları izah edərkən uşaqların gündəlik təcrübələrindən istifadə etmək. Bu, uşaqlar üçün dərsin müvafiqliyini artıracaq. Şagirdləri evdən əşyalar gətirməyə, öz hekayə və təcrübələrini paylaşmağa ruhlandırmaq olar. Həmçinin, müəllim şagirdlərinin yaşam şərtlərindən və mədəniyyətindən xəbərdar olmalıdır.
- Gündəlik situasiyalarda öyrəndiklərini təcrübə etmək üçün uşaqlara imkan yaratmaqla təlimi məqsədyönlü edin. • Uşaqların bir fəndə öyrəndiklərinin digər fəndə qazandıqları bilik ilə əlaqələndirilməsi. Əksər fənlər bir-biri ilə əlaqəlidir və bu əlaqəni göstərmək zəruridi

**- Çoxsaylı təlim üsulları;**

Uşaqlar müxtəlif yollarla öyrənirlər. Əksər uşaqlar öyrənmə prosesində öyrənmə üçün olan fərqli yolların hamısından istifadə edir. Müəllimlər bütün uşaqların iştirakını və birlikdə öyrənməni təmin etmək üçün müxtəlif təlim yanaşmalarından istifadə edərək təlimin çoxsaylıüsullarını asanlaşdırmalıdır. Uşaqyönümlü pedaqogikada müəllimlər düşünən təcrübəçilərə çevrilirlər. Onlar daim düşünməyə sövq edilirlər:

- Onların sinifindəki uşaqlar ilə ən rahat təlim üsulu hansıdır?
- Niyə bəzi uşaqlar təlimdə başqaları kimi eyni sürətlə irəliləmir?
- Bütün uşaqların öyrənmə və nailiyyət qazanmasını təmin etmək üçün istifadə olunan strategiya və üsullar hansılardır?
- Strategiya və üsulların hamı üçün əlyetərliliyini təmin etmək üçün resurslar, fəaliyyətlər və ya yanaşmalar necə tənzimlənməlidir?
- Uşaqların motivasiyası necə yüksəldilməli və təlimə cəlb olunmalıdır? Mədəniyyətə bağlı amillər (evdən gələn tərbiyə) uşaqlar ilə müəllimlər və valideynlər arasında qarşılıqlı əlaqəni necə formalaşdırır? Dərsin mövzusu, şagirdlərin xüsusi öyrənmə yolları, məzmun və müəllimlərin bacarıqları və s. kimi bir çox amillərdən asılı olaraq müəllimlər müxtəlif tədris yanaşmalarından istifadə edəcəklər, məsələn: uşaqlara biliklərini kəşf etmək, ifadə etmək, öyrənmək və möhkəmləndirmək üçün imkanlar yaratmaqla.
- Uşaqlara öz tədqiqatlarını aparması və problemi həll etmək üçün bacarıqlarından istifadə etməsində sərbəstlik verilməsi və təbii istedadlarından ən yaxşı şəkildə istifadə etmələri məqsədilə necə istiqamətləndirilməlidir?

**- Uşaqların müxtəlif yollarla öyrəndiklərinin qəbul edilməsi;**

- Bütün uşaqlar müxtəlif yollarla, müxtəlif anlarda öyrənirlər;
- Şifahi: danışılan və ya yazılan sözlər ilə öyrənmə (yaddaş, xatırlama);

- Məntiqi: mülahizələr (rəqəmlər, nümunələr, ölçülər) və hesablamalar vasitəsilə öyrənmə;
- Vizual (əyani/görmə): əyani vəsaitlər ilə öyrənmə (xəritələr, diaqramlar, şəkillər);
- Bədən: hərəkət vasitəsilə öyrənmək (oyun, səhnəcik);
- Musiqi: səslər (qafiyə, ritm, təkrarlama) vasitəsilə öyrənmə;
- Şəxsiyyətlərarası: qrup işi vasitəsilə öyrənmə (sosial əlaqələr);
- Şəxsiyyətdaxili: fərdi təhlil üsulu ilə öyrənmə (fərdi iş, fikri cəmləmək). Uşaqların öyrənmə metodlarını bilmək üçün müşahidə və təhlil zəruridir. Eyni kurikulum məzmununun təlimi üçün müxtəlif üsul və strategiyalardan istifadə edilməli və fəaliyyətlərin hamı üçün mənimsənilən olmasını təmin etmək məqsədilə tənzimləmələr edilməlidir.

**- Birgə öyrənmə;**

Birgə öyrənmə daxilində şagirdlər ümumi hədəflər naminə çalışmaqla məsuliyyəti və resursları bölüşürlər. Birgə qrup işinin uşaqların əsas anlayışları yaxşı qavramasına, həmçinin işə və bir-birinə qarşı müsbət münasibətlərin qurulmasına güclü müsbət təsiri ola bilər. Yaxşı tətbiq edildiyində qrup işi müəllimlərə fərdi və kiçik qruplar ilə daha çox vaxt keçirməyə imkan verir. Birgə öyrənmə və qrup işinə dair müxtəlif yanaşmalar var. Uşaqları necə qruplara bölməyi təyin etmək müəllimlər üçün mühümdür. İnklüziv siniflərdə, xüsusilə əlilliyi olan uşaqları öyrədərkən qrup işinin səmərəli olmağını təmin etmək üçün, yaxşı olar ki, bacarıqların səviyyələrinə görə qruplaşdırılma aparılmasın. Əlilliyi olan bütün uşaqları bir qrupa yığmaq çox qürurqırıcı ola bilər və bu, uşaqlara əməkdaşlıq və öyrənmə üçün az imkanlar verir. Müxtəlif təməl biliklərə malik uşaqlardan ibarət qrup yaratmaq hər kəs üçün daha öyrədici imkanlar təmin edir. Fəaliyyətin hər kəs üçün anlamlı olduğunu təmin etmək məqsədilə qrup işi diqqətlə planlaşdırılmalı və lazım olduqda tapşırıq zamanı müəllim öz köməyini göstərə bilməlidir. Uşaqlar qrup işini müvəffəqiyyətlə tamamlamaq üçün müəyyən bacarıqlara yiyələnməli və onları istifadə etməlidirlər (çalışmanın başa düşülməsi, tapşırığın və resursların bölgüsü, növbələşmə, bir-birinin töhfələrini dəyərləndirmək, ideyalarını ifadə etmək və fəal qulaq asmaq və s.). Uşaqların hər biri müəyyən bir vəzifəni icra edə bilər. Vəzifələrin dəyişməsini, məsələn, hər kəsin növbə ilə qrup rəhbəri olmasını təmin edin. Həmçinin qrup işində əlilliyi olan uşaqların dəyərli və həlledici vəzifə almaları mühümdür. Adətən qrup işinə başlamazdan öncə təməl qaydaların qoyulması zəruri ola bilər. Qrup işinin faydalı olması üçün qrupda elə şərait yaradılmalıdır ki, uşaqlar fərdi şəkildə tapşırıqları tamamlamasınlar və ehtiyac olduqda digərinə kömək etsinlər. Ən maraqlı təlim təcrübələri uşaqlar bir-birilərindən asılı olduqları və tapşırığı tamamlamaq üçün əməkdaşlıq etməli olduqları an alınır. Qrup işi daxilində bir-birindən asıllığın müxtəlif formalarına aiddir:

- Hədəf asıllığı: qrupun tək bir hədəfi var;
- Mükafat asıllığı: hər bir uşağın müxtəlif resursları var (materiallar və bilik) və tapşırığı tamamlamaq üçün onlar birləşdirilməlidir;
- Vəzifə asıllığı: tapşırığın tamamlanması üçün hər uşağın müxtəlif vəzifələri var (vaxta nəzarət edən, hesabat verən və s.).

**- Cəlbedici və əlçatan təlim imkanları;**

Sinif və məktəbin mühiti uşaqyönümlü təlim və tədrisi dəstəkləyə bilər. Uşaqyönümlü təlim məkanları bütün uşaqlar üçün nəzərdə tutulmalı, hər kəs üçün təhlükəsiz və hər

şagirdin bərabər iştirakı və özünü kəşf etməsinə yönəlik olmalıdır. Hər kəs üçün cəlbedici və əlçatan təlim məkanları yaratmaq zəruridir, amma bu son hədəf deyil, əsas məqsəd: keyfiyyətli təhsil almaq bütün uşaqların hüququdur – bu hüququn dəyərləndirildiyi və həmin hüquqa əsaslanan uşaqyönlü təlim yanaşmasının həyata keçirilməsidir. Uşaqyönümlü təlim məkanlarının bəzi xüsusiyyətləri:

- Fiziki məkan: bütün uşaqların sinif və məktəb daxilində, ətrafda sərbəst hərəkət edə bilmələri, fərdi və qrup şəklində işləmələri və lazım olduqda öyrənmə vasitələrinə yanaşmalarını təmin edin.
- Öyrənmə guşələri: uşaqların müstəqil və ya qrup şəklində öz iradələri ilə öyrənmək üçün sinifinizdə müxtəlif öyrənmə guşələri qurun. Hər bir guşədə resurslar və təlimatlar təqdim edilir. Həmin guşələr şagirdlərə əvvəl öyrəndiklərini zənginləşdirmək, yeni bacarıqlarını təcrübə etmək və yeni anlayışları kəşf etmək üçün şans verir. Şagirdlər öyrənmə guşələrinin planlaşdırılmasında, təşkilində və idarəsində iştirak edə bilər.
- Təqdimat yeri: sinifinizdə bütün uşaqların işlərini nümayiş etdirə biləcəyiniz və fəaliyyətləri haqqında rəy verə biləcəyiniz təqdimat lövhəsi hazırlayın. Təqdimat lövhəsini teztez dəyişin və onu tədris vasitəsi kimi istifadə edin.
- Sinif kitabxanası: kitablar çox səmərəli tədris vasitələridir və kitablar yeni anlayışları öyrənməyə, dillərini inkişaf etdirməyə və məlumatı başa düşməkdə uşaqlara kömək edir. Kitablar və ya uşaqların özlərinin hazırladıqları kitablar da bahalı uşaq kitabları kimi səmərəli ola bilər.

**- Qiymətləndirmə;**

Bütün müəllimlər ilin, yarımilin, həftənin və ya dərsin müxtəlif zamanlarında şagirdlərinin nə öyrəndiklərini, biliklərini və bacarıqlarını necə tətbiq etdiklərini müəyyənləşdirir. İnklüziv və uşaqyönlü siniflərdə davamlı formativ qiymətləndirmə ilə bütün uşaqların təlimin müxtəlif üsullarına əsasən qazandıqları bilikləri fərqli üsullarla göstərmək imkanları olacaq. Formativqiymətləndirmə, uşaqların dərsi başa düşməsinə əmin olmaları üçün istənilən an dərslərinə düzəliş edə bilən müəllimlərə və daha yaxşı nəticə əldə etmək istəyən uşaqlara verilən rəydir.

- Uşaqlara biliklərini nümayiş etdirməyə icazə verin və bu zaman müxtəlif yollardan (yazılı, şihafi, iş portfoliosu, müşahidələr və s.) istifadə edə biləcəklərini bildirin;
- Qiymətləndirmə müntəzəm olaraq uşaqların güclü və zəif tərəfləri haqqında valideynlər ilə ünsiyyət qurmağa kömək edir, beləliklə, tədris ili ərzində valideynlər uşaqlarının öyrənmə prosesinə cəlb oluna bilərlər. Bu yanaşma daxilində formativ qiymətləndirmə, tədrisi yönəldən və öyrənməni təşviq edən təhsil prosesi kimi xidmət edir.

**- Müəllimlərin rolunun dəyişməsi.**

Sinifdə uşaqyönümlü yanaşmanı icra etdikdə müəllimin rolu dəyişir. Müəllimlər vəziyyətdən asılı olaraq müəyyən rollar icra edirlər. Bu rollardan bəziləri bunlardır:

- Metodist: ideyaların həyata keçməsinə öz konstruktiv töhfələrini vermək üçün uşaqları təşviq edir və müvafiq təlim imkanları ilə təmin edir.
- Menecer: Bütün üşaqların cəlb olunması üçün müzakirələri planlaşdırır və istiqamətləndirir.

• Müşahidəçi: Uşaqlar oynayarkən, fərdi və ya qrupda çalışarkən onları müşahidə edir. Bu, uşaqları daha yaxşı anlamağa və onlar üçün daha yaxşı öyrənmə fəaliyyətləri yaratmağa kömək edir.

**3. Müxtəlif təlim metodları.**

- İstisnasız bütün uşaqlar öyrənə bilərlər. Həyatlarının müxtəlif mərhələlərində öyrənmə fərqli ola bilər. Bəzi uşaqlar müəllimə qulaq asmaqla, digərləri isə vizual vəsaitlərdən və ya qrup müzakirələrindən istifadə edərək öyrənir. Yeddi müxtəlif öyrənmə metodu var.

| Metodlar | Xüsusiyyətləri |
|---|---|
| Verbal-linqvistik | Uşaqlar yaddaş və xatırlama, danışılan və ya yazılan sözlər ilə öyrənir və düşünürlər |
| Məntiqi-riyaz | Uşaqlar mülahizələr və hesablamalar vasitəsilə öyrənir. Onlar rahatlıqla rəqəmlərdən istifadə edir, mücərrəd nümunələri qəbul edir və dəqiq ölçmələr aparırlar. |
| Vizual-məkan | Uşaqlar vizual (əyani) vasitələrlə öyrənir və düşünürlər. Onlar asanlıqla xəritələri, diaqramları və qrafikləri oxuya bilirlər. |
| Bədən-kinestetik | Uşaqlar hərəkət etməklə, oyun və səhnəciklər vasitəsi ilə öyrənir. |
| Musiqi-ritm | Uşaqlar səslər, ritm, qafiyə və təkrarlamaqla öyrənirlər. |
| Şəxsiyyətlərarası | Uşaqlar qrup işi vasitəsilə öyrənirlər. Onlar asanlıqla sosial vəziyyətləri başa düşür və əlaqələr qururlar. |
| Şəxsiyyətdaxili | Uşaqlar təhlil edərək və öz fikrini cəmləyərək öyrənir. Onlar tək işləməyi xoşlayır və öz hisslərini tanıyır, güclü və zəif tərəflərini bilirlər. |

Müəllimin əzbərləmə metodundan istifadə etdiyi sinifdə öyrənmə prosesi şagirdlərin kiçik qrupunu əhatə edir (sözlü öyrənməyə üstünlük verənləri). Digər uşaqlar isə öyrənmədə çətinliklərlə üzləşə bilərlər. Bu zaman həmin uşaqların əlilliyi və ya xüsusi ehtiyaclarının olması şərt deyil.

## VII Mövzu: Universal öyrənmə dizaynı

**Plan:**

1. Universal dizayn nədir? Təlim mühitinin adaptasiyası.
2. Təlimdə akkomodasiya və modifikasiya.
3. Universal öyrənmə dizaynın prinsipləri:
- Təqdimatın çoxsaylı vasitələri;
- Özünüifadənin çoxsaylı vasitələri;
-Dərsə cəlbetmənin çoxsaylı vasitələri.
4. Eksplist təlim.
5. Yardımçı texnologiyaların istifadəsi. Təlim prosesində istifadə etmək üçün əyani vəsaitlərin hazırlanması və istifadəsi.

**Ədəbiyyat:**


1. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019.
2. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019
3. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. İnklüziv siniflərdə təlimin təşkili. Bakı 2018
4. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
5. Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiya 4(2016) nömrəli Ümumi Şərh Maddə 24: İnklüziv təhsil hüququ. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
6. Bacarıqlar haqqında. Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın izahı. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019.
7. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 2020
8. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020
9. İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması. Texniki kitabça 1. Bakı, UNİCEF, 2020
10. Hacımuradova L.N. İnklüziv təhsil baxdığınız güzgüləri dəyişir. // Gəncə Dövlət Universitetinin elmi xəbərləri. Gəncə 2019, № 3; səh.240-243
11. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika. Texniki kitabça 12. Bakı, UNİCEF, 2020
12. Loreman T., Deppeler J., Harvey D. İnklüziv təhsil. Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Bakı, İdeal Print, 2020


**1. Universal dizayn nədir? Təlim mühitinin adaptasiyası.**

**- Universal öyrənmə dizaynının əsas konsepsiyaları.**

- Təlim mühitinin adaptasiyası BMT-nin "Əlilliyi olan şəxslərin hüquqları haqqında" Konvensiyasına əsasən universal dizayna "əşyalar, şərait, proqramlar və xidmətlərin

adaptasiya və ya xüsusi dizayn zərurəti olmadan bütün insanlar üçün istifadəyə maksimum dərəcədə yararlı şərait" kimi tərif verilir. Buna görə də universal dizayna əlilliyi olan şəxslər üçün müvafiq şərait yaradan yardımçı cihazlar, digər dəstəkləyici sistemlər və tənzimləmələr daxildir. Universal dizayn dedikdə inklüziv təhsilə xas vacib məqam sinifdə şagirdlər üçün təmin edilən təlim mühitidir. Təlim mühitinin adaptasiyası üçün 5 tövsiyə:

1. Məkanı hədəfə uyğun hazırlayın. Təlim hədəfini müəyyən edin. Fiziki məkanların müxtəlif fəaliyyətlərin əsas hədəflərinə müvafiq olaraq necə dəyişə biləcəyini nəzərdən keçirin. Məsələn, birgə işləmək hədəfin bir hissəsidirsə, mühitdəki partlaları, stulları və digər əşyaları birgə işin daha tez yaranması üçün necə təşkil oluna biləcəyi barədə düşünün. Əgər hədəf sinfin birgə müzakirəsi və ya şagirdlərin müstəqil işləməsidirsə, strukturların təşkili fərqli olacaq.

2. Hər kəs üçün əlçatan müvafiq resurs əraziləri təklif edin. Resurs sahələri şagirdlərə dəstək və əsas strukturları təmin edir. Məsələn, lüğətlər, kalkulyatorlar, yazı vasitələri, qrafik orqanayzer və müxtəlif növ dəftərlər, rəngli kağızlar kimi seçimlər qoyulan sahələr ola bilər. Aşağı sallanan işıqlar, qulaqcıqlar və rahat stullar olan sakit zona yaradıla bilər. Cari dərs mövzusunun əsas ideya, yaxud xülasəsini əks etdirəcək bir guşə yaradıla bilər. Bu, şagirdlərin təlimini dəstəkləmək üçün seçə biləcəyi iş ərazisinin bir hissəsidir.

3. Rəqəmsal resurs və materialları inteqrasiya edin. Rəqəmsal resurslar ənənəvi çap olunmuş materialların vermədiyi çevikliyi təklif edir. Rəqəmsal mətn şagirdlər üçün vacib olan xüsusiyyətlərə malikdir:

- Mətnin səsləndirilməsi alətindən istifadə edərək ucadan oxuma imkanı;
- Məzmunun təsvirində çeviklik (rəng, kontrast), mətn şriftini böyütmək imkanı;
- Lüğətlər, mətnin rənglər və ya qeyd etməklə vurğulanması, mətnin içində müvafiq qeydlər aparılması üçün dəstəkləyici hazır vasitələr;
- Söndürülüb-yandırıla bilən titrlər;
- Video üçün audio təsvirlər (izahatlar);
- Şəkil təsvirləri.

4. Təlim prosesini vurğulayın. Təlim üçün vaxtaşırı formativ rəylər mühüm əhəmiyyət kəsb edir. Təlim zamanı yalnız son nəticə deyil, təlim prosesinin özü də xüsusi əhəmiyyətə malikdir. Təlim prosesinin müxtəlif mərhələlərində prosesin özünə diqqəti yönəltmək prosesin əhəmiyyətini anlamaqda şagirdlərə kömək edir. Yəni təlimdə yalnız nəticə əldə etməyə can atmaq, nəticəyönümlü olmaq vacib deyil, həm də təlim prosesində fəal iştirak etmək də mühmüdür.

5. Təlim mühitində qoyulan hədəflərə nail oluduğunuza əmin olun. Təlim mühitində çoxsaylı yerlərdə təlim hədəfi aydın qeyd olunmalıdır. Məsələn, şifahi şəkildə hədəfi bildirə, yaza, qrup şəklində müzakirə edə və bütün məlumat xarakterli materiallarda vurğuaya bilərsiniz. Mühitdə hədəflərin əlçatan olması şagirdlərin tez-tez hədəfə istinad etmələrini və məqsədyönlü şəkildə bu istiqamətdə çalışma ehtimalını artırır.

**Təlim metodlarının adaptasiyası.** Universal öyrənmə dizaynı hər kəs üçün bərabər imkanlar yaradan dərslərin və təlim mühitnin hazırlanmasında müəllimlərə kömək edən bir yanaşmadır. Bu, şagirdlərin öyrənməsi üçün təqdimatın, hərəkət və ifadənin, dərsə cəlb olunmanın çoxsaylı vasitələrindən istifadə edərək sinifdə bütün uşaqları əhatə edən dərsləri hazırlamaq və qiymətləndirmək üçün müəllimlərə imkanlar verir.

**2. Təlimdə akkomodasiya və modifikasiya.**

- Müəllim tədris materialının uyğunluğunu təhlil etdikdən sonra seçdiyi təlim metodunun uyğun olub-olmadığını müəyyənləşdirməyə çalışmalıdır. İstənilən metodların tətbiqi ilkin şərt kimi şagirdlərdə müəyyən bilik və bacarıqların olmasını nəzərdə tutur. Müəllimlər dərsdə istifadə etmək üçün seçdikləri metodların tətbiqi zamanı şagirdlərin hansı potensial çətinliklərlə üzləşə biləcəklərini müəyyən etməlidirlər. İstifadə ediləcək təlim metodlarının təhlili zamanı müəllimlərin bu və ya digər metodunun uğur qazanmasının şərti kimi aşağıdakı bacarıqları nəzərdən keçirmələri zəruridir: əqli, sosial, müstəqil öyrənmə, fiziki. Təlim metodlarının təhlili müxtəlif ehtiyacları olan uşaqlar üçün təlimin planlaşdırılmasında birinci mərhələdir. Növbəti mərhələ uşaqların müxtəlif ehtiyaclarına uyğun olan metodların istifadə olunmasından ibarətdir. Bu isə təlimdə uyğunlaşdırma (akkomodasiya) və dəyişikliklərin (modifikasiyaların) həyata keçirilməsini tələb edir. Akkomodasiya tədris materialının məzmununu və anlama baxımından mürəkkəbliyini dəyişmədən təlimin xarakterini dəyişir. Akkomodasiya termini əlilliyi olan uşağın cəmiyyətə adaptasiyasına şərait yaradan mühit və ya təchizatın dəyişdirilməsini tərif etmək üçün istifadə olunur. Əlilliyi olan uşaqların nizamlı şəkildə təlim kursuna davam etmələrini təmin edir. Akkomodasiya öyrənməni fərdiləşdirən, materialı dəyişdirmədən öyrətməyə təşviq edən taktika və strategiyadır.

Akkomodasiya nümunələri bunlardır:

1. Eşitmə məhdudiyyəti olan uşaqlar üçün işarət dili tərcüməçiləri
2. Görmə məhdudiyyətli uşaqlar üçün elektron mətn danışma sistemləri
3. Kiçik motorika məhdudiyyətləri, görmə məhdudiyyətli və ya öyrənmə çətinliyi olan şagirdlər üçün uzun zamanın verilməsi
4. Görmə məhdudiyyətli uşaqlar üçün böyük hərfli kitablar və s.

Müəllimlər təlim prossesinə tam cəlb olunmaları üçün uşaqlara bərabər imkanlar yaratmaq məqsədilə akkomodasiyaları həyata keçirirlər. Başqa sözlə, akkomodasiyalar uşaqlara təlim prosesində iştirak etmək imkanı verir, onlara hansısa bir üstünlük vermir. Təlim prosesində akkomodasiyaları həyata keçirmək üçün bir çox üsullar var.

Sinifdə aşağıdakı sahələr üzrə akkomodasiyaları həyata keçirmək olar:

- Fiziki mühit: bu sahə üzrə akkomodasiya sinif mühitində, qruplara bölünmədə, uşaqların yerləşdirilməsində uyğunlaşdırmanı nəzərdə tutur
- Təlim metodu: bu sahə üzrə akkomodasiya müəllimin materialı necə təqdim etməsi, eləcə də uşaqların tapşırıqları yerinə yetirməsinə necə cəlb edilməsi nöqteyinəzərindən təlim metodunun uyğunlaşdırılmasını nəzərdə tutur və şagirdlərin təliminə yardım etmək məqsədi daşıyır
- Təlimatlar – bu sahə üzrə akkomodasiya müəllimin qayda, metod və gündəlik məşğələləri təqdim etməsi üzrə uyğunlaşdırmanı nəzərdə tutur.
- Materiallar – bu sahə üzrə akkomodasiya tədris alətləri və materialların şagirdlərin fərdi ehtiyaclarına uyğunlaşdırılmasından ibarətdir. Materiallara kitablar, iş vərəqləri, manipulyativ əşyalar və s. daxil ola bilər.

Təlimin modifikasiyası – modifikasiya tədris materialının məzmunu və anlama baxımından mürəkkəbliyini dəyişməklə təlimin xarakterini dəyişir. Modifikasiya termini

dəyişikliyi ifadə etmək üçün istifadə olunur. Müəllimin öyrətdiyi materialı başa düşməyən əlilliyi olan uşaqlar üçün dəyişiklik edilir. Məsələn, tapşırıqların sayı azaldılır, material hissələrə bölünür və s. Beləliklə, modifikasiya şagirdin öyrənməsi üçün materialları dəyişdirən taktika və strategiyadır. Məsələn, uşaqların yaxınlıqdakı çaya ekskursiyaya getmələri nəzərdə tutulub. Onlar burada müşahidə aparmalı, sinfə geri döndükdən sonra isə hesabat yazmalıdırlar. Ancaq təhlil apardıqdan sonra müəllim müəyyənləşdirir ki, şagirdlərin, demək olar ki, yarısı çox ləng yazır (zəruri şərt – müstəqil öyrənmə bacarıqları) və onların təxminən dörddə biri kifayət dərəcədə müşahidə etmə bacarığı nümayiş etdirmir. Müəllim məşğələni modifikasiya etmək qərarına gəlir. Şagirdlərə seçim verilir: onlar qeydlər apara və ya şəkillər çəkə bilərlər. Müəllim özü müxtəlif elementlərin şəklini çəkə bilər. Uşaqlar sinfə qayıtdıqdan sonra ya qeydlərinə əsaslanmaqla hesabat yaza, ya müəllimin çəkdiyi şəkillərdə nəyin təsvir olunduğu ilə bağlı öz qeydlərini yaza bilərlər. Dəyişikliklər önəmlidir, ancaq materialın zənginliyini və şagirdin öyrənməsini təhlükəyə ata bilər.

Modifikasiyanın mənfi tərəfləri:

1. Dəyişikliklərin şagirdlər arasında daha böyük boşluqlara səbəb ola bilməsi
2. Bir şagirdin daha az material öyrənməsi
3. Tapşırıq və testlərin azaldılması.

Bu zaman şagirdlər sadəcə asan tapşırıqların öhdəsindən gələ bilir. Modifikasiyanın istənilən növünü uşağın ailəsi ilə müzakirə etmək zəruridir, çünki əksər hallarda modifikasiya uşağın bilməli və bacarmalı olduqlarını dəyişir. İstənilən fəaliyyət növündə olduğu kimi, göstərilən hər iki strategiya «planlaşdırma», «həyata keçirmə», «dəyərləndirmə» mərhələlərindən keçməli və bütövlükdə təlim prosesinin səmərəliliyini artıran «yardımçı vasitələrdən» istifadə edilməlidir. Təlimdə ümumi uyğunlaşdırma əlilliyi olan uşaqların fəaliyyətlərdə uğurla iştirak etmələrinə əhəmiyyətli dərəcədə yardım göstərsə də, onlar üçün fərdi akkomodasiya və modifikasiyalar tələb oluna bilər.

**3. Universal öyrənmə dizaynın prinsipləri:**

**- Təqdimatın çoxsaylı vasitələri;**

Məlumatın təsvirinin fərdiləşdirmə üsulları Uşaqların fəqrli qavrama potensialını nəzərə alaraq məlumatı (biliyi) müxtəlif forma və üsullarla çatdırın:

- Mətn, şəkil, qrafik, cədvəl və ya digər vizual məzmunların ölçüsü.
- Fon ilə şəkil və ya mətn arasındakı təzad.
- Vurğulamaq üçün istifadə olunan rəng.
- Nitqin səviyyəsi və dərəcəsi.
- Video, animasiya, səs, simulyasiyalar və sairin vaxtı və sürəti.
- Vizual və ya digər elementlərin sxemi.
- Çap materialları üçün istifadə olunan şrift.

Səsli materiallar üçün alternativlər təklif edin.

- Mətndəki mənanı ifadə edən vasitələrdən və ya mətnin avtomatik səsləndirilməsindən istifadə edin.
- Musiqi və ya səsin notasiyalarını, diaqram və qrafikləri təqdim edin.
- Video və ya audio kliplər üçün yazı transkriptlərini təqdim edin.

- İşarət dili şərhini təmin edin.
- Hansısa nüansı xüsusi vurğulamaq üçün vizual analoqlardan istifadə edin (məs., ifadələr, simvollar və ya şəkillər).
- Səs effektləri və ya həyəcan siqnalları üçün eyni anlamı ifadə edən vizual və ya daktil vasitələr təmin edin.
- Musiqi təfsiri üçün vizual və ya emosional təsvir verin. Vizual məlumatlar üçün alternativlər təklif edin.
- Bütün şəkillər, qrafiklər, video və animasiyalar üçün təsvirlər (yazılı yaxud şifahi) təqdim edin.
- Anlayışları təqdim edən əsas vizual vasitələr üçün toxunma (sensor) ekvivalentlərindən istifadə edin (istinad obyektləri və ya daktil qrafiklər).
- Fiziki obyektlərdən və fəza fiqurlarından istifadə edin.
- Vizual məlumatda əsas anlayış və keçidlər üçün səsli işarələr verin. Dil, riyazi əməl və işarələr üçün seçimlər Söz və işarələrə aydınlıq gətirin.
- Şagirdlərin təcrübələri ilə əvvəlki bilikləri arasında əlaqə qurun.
- Qrafik simvolları alternativ mətn təsvirləri ilə təmin edin.
- Sadə söz və simvollardan ibarət kompleks terminləri, ifadələri və bərabərlikləri vurğulayın.
- Mətn daxilindəki sözlər və simvollar üçün köməkçi vasitələr yerləşdirin (məs., tərifl ər, ifadələr, illüstrasiyalar, əvvəlki məzmun, tərcümələr üçün hiperlinklər və ya qeydlər).
- Mətn daxilində aydın olmayan hissələr yaxud yeni bilklər haqqında əlavə məlumat daxil edin (məs., domenə xüsusi qeyd, az bilinən teorem və xassələr, deyimlər, elmi dil, məcazi dil, riyazi dil, jarqon, arxaik dil, dialoq və dialekt). Sintaksisə və quruluşa aydınlıq gətirin.
- Alternativlər vasitəsilə əsas strukturu (diaqram, qrafiklər, illüstrasiyalar, geniş izahatlar və ya hekayələr) və ya tanış olmayan anlayışları (dildə və ya riyazi düsturlarda) aydınlaşdırın:

– Struktur əlaqələrini vurğulayın.

– Əvvəl öyrənilən quruluşlarla əlaqə qurun.

– Müfəssəl elementlər arasında əlaqə qurun (məs., inşada keçid sözlərin işarələnməsi, konseptual plandakı fikirlər arasında əlaqələr və s.).

Bir neçə vasitə ilə illustrativ təsvir verin.

- Əsas anlayışları alternativ formalara malik (məs., bir illüstrasiya, rəqs/hərəkət, diaqram, masa, model, video, məzəli şeir, hekayə lövhəsi, fotoşəkil, animasiya, fiziki və ya virtual manipulyasiya) bir simvolik təqdimat formasında (məs., bir açıq mətn və ya riyazi tənlik) və digər alternativ şəkillərdə təqdim edin.
- Mətnlərdə verilən məlumatlar ilə illüstrasiyalar, tənliklər, qrafik və ya diaqramlarda göstərilən məlumatlar arasında açıq əlaqə qurun. Dərketmə üçün seçimlər Mövzu üzrə ilkin biliklərə istinad edin.
- Əvvəlki biliklərlə əlaqə quraraq təlimi möhkəmləndirin (məs., vizual görüntülər, əsas anlayışın möhkəmləndirilməsi və ya mənimsənilməsi şablonundan istifadə).

- Qabaqcıl vasitələrdən istifadə edin (məsələn, ağıllı xəritələr, konseptual planlar).
- Müvafiq analogiya və metaforlar ilə anlayışları əlaqələndirin. Nümunələri, önəmli xüsusiyyətləri, böyük ideyaları və əlaqələri vurğulayın.
- Mətn, qrafik, diaqram və düsturlarda əsas elementləri vurğulayın və ya qeyd edin.
- Əsas ideya və əlaqələri vurğulamaq üçün altından xətt çəkin, qrafik və vahidlər, anlayışların mənimsənilməsi şablonlarından istifadə edin.
- Önəmli xüsusiyyətləri vurğulamaq üçün müxtəlif nümunələrdən istifadə edin.
- Önəmli xüsusiyyətlərə diqqəti cəlb etmək üçün xatırlatmalardan istifadə edin.
- Tanış olmayan problemləri həll etmək üçün əvvəllər mənimsənilmiş bacarıqları vurğulayın. Məlumatların vizuallaşdırılması, emalı və istifadəsi üçün təlimat verin.
- Hər bir addım üçün ardıcıl şəkildə aşkar xatırlatmalar edin.
- Məlumatı sistemləşdirmək üçün variantlar verin (riyazi əməlləri işləmək üçün cədvəl və alqoritmlər).
- Yeni biliklər öyrənmək üçün interaktiv modellər verin.
- Məlumatın mənimsənilməsi üçün dəstək verin.
- "İri" məlumatı daha kiçik elementlərə bölün.
- Məlumatı tədricən açıqlayın (məs., ardıcıl vurğulamaqla).
- Fikir ayrılığı yaradan məlumatları çıxarın. Yerdəyişmə və ümumiləşdirməni maksimal dərəcədə artırın.
- Yoxlama suallarının siyahısını, yapışqan qeydləri, elektron xatırladıcıları təmin edin.
- Cihaz və strategiyaların (məs., vizual görüntü, parafraz etmə strategiyaları, həndəsi üsul və s.) istifadəsini təşviq edin.
- Qeydlərin alınması üçün nümunələr, qrafik şablonlar və konseptual planları təmin edin.
- Yeni məlumat ilə əvvəlki bilikləri əlaqələndirən üsullardan istifadə edin (məs., klaster, tam doldurulmamış konseptual cədvəl).
- Yeni ideyaları oxşar məzmun və ideyalarla əsaslandırın (məs., analogiya, metafor, səhnəcik, musiqi, film və s. istifadəsi).
- Fikirlər arasındakı əlaqəni və əsas ideyaları yenidən nəzərdən keçirmək üçün əlavə vaxt təklif edin.

**- Özünüifadənin çoxsaylı vasitələri;**

Fiziki fəaliyyət üçün seçimlər. Naviqasiya (təyinat) və reaksiya üçün metodları dəyişin.

- Təlimat materialları, fiziki manipulyasiya və texnologiyalar ilə qarşılıqlı əlaqə qurmaq üçün tələb olunan vaxt, sürət və fəaliyyət tempi üzrə şagirdlərə alternativlər təklif edin.
- Seçimləri göstərmək və ya onlara fiziki reaksiya vermək üçün alternativlər təklif edin (məs., qələm ilə işarələmək – siçan ilə idarə alternativləri). Ünsiyyət və özünü ifadə üçün variantlar. Ünsiyyət üçün çoxsaylı informasiya vasitələrindən istifadə edin.
- Mətn, nitq, rəsm, illüstrasiya, dizayn, film, musiqi, rəqs/hərəkət, vizual incəsənət, heykəltəraşlıq və ya video kimi bir çox informasiya vasitələri yaradın.
- Fiziki manipulyativlərdən istifadə edin (məs., konstruktorlar, 3D modellər,).

• Müxtəlif strategiyalardan istifadə edərək problemləri həll edin. Qurmaq və tərtib etmək üçün çoxsaylı alətlərdən istifadə edin.

• Düzgün yazılışı, qrammatikanı yoxlayan və söz nümunələri təklif edən proqramları təmin edin.

• Səsi yazan diktafon, səsyazmanı təmin edin.

• Kalkulyatorlar təmin edin.

• Virtual və ya həqiqi riyazi manipulyativləri təmin edin.

• İnternetdən istifadə edin (məs., vikipediya, animasiyalar, təqdimatlar). Təcrübə üçün şərait yaradın.

• Həvəsləndirmək üçün diferensial modellər təklif edin (yəni, müxtəlif yanaşma, strategiya, bacarıq və s. istifadə edərək eyni nəticəni təsvir edən modellər).

• Müxtəlif kateqoriyadan olan təhsilverənləri işə cəlb edin (yəni, istiqamətləndirmək, motivasiya, rəy bildirmək və məlumatlandırmaq üçün müxtəlif yanaşmalardan istifadə edən müəllimlər və ya tyutorlar).

• Diferensial rəy bildirin (məs., şagirdlərə fərdi qaydada uyğunlaşdırıla bilən rəy).

• Həqiqi problemlərə aid yeni həllərin bir neçə nümunəsini təqdim edin. İcra funksiyaları üçün seçimlər. Müvafiq hədəfin müəyyən edilməsinə rəhbərlik edin.

• Səylər, resurslar və çətinliyi qiymətləndirmək üçün strukturlar və xatırlatmalar edin.

• Hədəfin qoyulması üçün təlimatlar və yoxlama sualları siyahısını təmin edin.

• Hədəflər, məqsədlər və planları görünən yerdə asın. Planlamanı və strateji inkişafı dəstəkləyin.

• Hərəkətə keçməzdən öncə, habelə lazımi yerlərdə "dayan və düşün" anlayışını xatırladın.

• "İşini göstər və izah elə" anlayışını xatırladın (məs., portfolio üzrə rəy, rəsm tənqidləri).

• Problemi başa düşmək üçün prioritetlər, ardıcıllıq və atılacaq addımların planı müəyyən edilərək yoxlama sualları siyahısı və layihə planlaşdırma şablonlarını təmin edin.

• Uzunmüddətli hədəflərin müvafiq qısamüddətli məqsədlərə bölünməsi üçün təlimatlar verin. Monitorinqin imkanlarını genişləndirin.

• Özünü yoxlamaq və fikirləşməyə yönləndirmək üçün suallar verin.

• İşin gedişatını göstərin (məs., əvvəl və sonrakı şəkillər, vaxta əsasən gedişatı əks etdirən qrafik və diaqramlar, iş portfoliosu).

• Özünüqiymətləndirmə strategiyalarının müxtəlif modellərini təklif edin (məs., rol oynamaq, video baxışlar, yaşıdların rəyləri).

**-Dərsə cəlbetmənin çoxsaylı vasitələri.**

Maraq oyatmaq üçün variantlar Fərdi seçim və müstəqil özünüidarəni optimallaşdırın.

• Aşağıda qeyd edilən bəndlər üzrə seçimlər verməklə şagirdləri mümkün qədər çox ixtiyar və özünüidarə səlahiyyəti ilə təmin edin:

⎪ Dərk edilən çətinliyin səviyyəsi;

⎪ Mövcud mükafat və ya tanınma növü;

⎪ Bacarıqları tətbiq etmək və qiymətləndirmək üçün istifadə edilən kontekst və ya məzmun;

⎪ Emal olunan və ya toplanan məlumatlar üçün istifadə olunan alətlər; ⎪ Planların rəngi, dizaynı, qrafiki və s.

⎪ Tapşırıqların sub-komponentlərinin tamamlanması üçün ardıcıllıq.

- Şagirdlərə sinif fəaliyyətlərinin və tapşırıqların hazırlanmasında iştirak etməyə icazə verin.
- Mümkün olan yerdə və zamanda şagirdlərin şəxsi, elmi və davranış hədəflərinin formalaşdırılmasına onların özlərini cəlb edin. Uyğunluğu, dəyəri və doğruluğu optimallaşdırın.
- Müxtəlif məlumat mənbələri və fəaliyyət formaları təqdim edin ki, bunlara nail olmaq mümkün olsun:

⎪ Şagirdlər həyatlarına uyğun fərdiləşdirə və kontekstləşdirə bilsinlər;

⎪ Mədəniyyət uyğunluğu və məsuliyyət;

⎪ Sosial uyğunluq;

⎪ Müvafiq bacarıq və yaş;

⎪ Müxtəlif irqi, mədəni, etnik və cinsi qruplara münasiblik.

- Fəal iştiraka, tədqiqata və eksperimentə imkan verən tapşırıqları təmin edin. Təhlükə və fikir ayrılığını azaldın.
- Qəbul edən və dəstəkləyici sinif mühiti yaradın.
- Risk və ya yenilik səviyyəsini dəyişin:

⎪ Gündəlik fəaliyyətləri artıra biləcək qrafiklər, təqvimlər, cədvəllər, görünən taymerlər, işarələr və s.;

⎪ Sinif nizam-intizamı.

- Sensor stimulyasiyanın səviyyəsini dəyişin:

⎪ Eyni zamanda təqdim olunan maddələrin və ya xüsusiyyətlərin sayı, səsboğucular, arxa fon səsinin və ya vizual stimulyasiyanın olmasında fərqlilik;

⎪ İş tempi, iş seanslarının uzunluğu, fasilələrin və ya gecikmələrin olması, fəaliyyətlərin ardıcıllığı, fərqlilik.

- Sinif müzakirələrində bütün şagirdləri prosesə cəlb etmək məqsədilə təlim tələbləri, təlimdə dəstək mexanizmləri, eləcə də qiymətləndirmə üzrə fərqli tələblər qoymaq. Davamlı səylər və inadkarlığı dəstəkləmək üçün seçimlər Məqsədləri və hədəfləri gücləndirin.
- Hədəfləri müxtəlif yollarla nümayiş etdirin.
- Uzunmüddətli hədəflərin qısamüddətli məqsədlərə bölünməsini təşviq edin.
- Şagirdlərin bilikləri və maraqları ilə əlaqəli müvafiq nümunələr verin və onları qiymətləndirmə müzakirələrinə cəlb edin. Əməkdaşlıq və icmaların gücləndirilməsi
- Aydın hədəflərə, vəzifələrə və öhdəliklərə malik birgə təlim qrupları yaradın.
- Məktəb miqyasında fərqli məqsədlərə və davranışa dair proqram hazırlayın.
- Şagirdləri ehtiyac yarandıqda yaşıdlarından və müəllimlərindən kömək istəməyə təşviq edin.
- Yaşıdları ilə əlaqənin qurulması və bir-birinə dayaq olması imkanlarını dəstəkləyin (məs., həmyaşıd qəyyumlar).
- Ümumi maraqlara malik və eyni fəaliyyətlərə cəlb olunan şagirdlərdən ibarət icmalar qurun.

• Qrup işi üçün gözləntilər yaradın (məs., meyarlar, normalar və s.). Özünü tənzimləmə üçün variantlar Çətinliklərin öhdəsindən gəlmək üçün şəxsi bacarıq və strategiyaları asanlaşdırın.

• Aşağıdakılar üzrə diferensial modellər, əsas strukturlar və rəylərin verilməsi:

⎪ Qəzəbin idarə olunması;

⎪ Xarici emosional dəstək axtarışı;

⎪ Daxili nəzarət və çətinliklərin öhdəsindən gəlmə bacarığının inkişaf etdirilməsi;

⎪ Xüsusi fobiyaların və "təbii" qabiliyyətlərin düzgün qiymətləndirilməsi (məs., "Mən riyaziyyatda yaxşı deyiləm" deməkdənsə "Çətinlik çəkdiyim sahələrdə özümü necə təkmilləşdirə bilərəm?"). Çətinliklərin öhdəsindən gələn şəxsi bacarıqları göstərmək üçün real həyat hadisələrindən və ya vasitələrindən istifadə edilməsi. Öyrənilənlərin əks etdirilməsini və qiymətləndirməni inkişaf etdirin.

• Təlimdə fərdlərin davranışlardakı dəyişiklikləri yoxlamaq üçün onların öz davranışlarından əldə etdiyi məlumatı toplamaq, qrafikləşdirmək və təsvir etməkdə onlara kömək etmək məqsədilə köməkçi vasitələr və ya qrafiklər təklif edin.

**4. Eksplist təlim.**

- Ümumi tədris proqramında verilən informasiyanın həcmi təlim prosesində şagirdlərdən böyük gərginlik tələb edir. Xüsusi qayğıya ehtiyacı olan şagirdlərin bir çoxu isə əsas informasiyanı çox da əhəmiyyətli olmayan faktlardan seçə bilmirlər. Bundan başqa, onlar anlayış və proseslər arasında qarşılıqlı əlaqəni görməkdə çətinlik çəkirlər və informasiyanın verilməsi zamanı ardıcıllıq pozulduqda özlərini itirirlər.

Tədqiqatlar göstərir ki, xüsusi qayğıya ehtiyacı olan şagirdlərin bir çoxu üçün "eksplisit" təlim metodları olduqca əhəmiyyətlidir. Eksplisit təlim üçün müxtəlif təriflərin mövcudluğuna baxmayaraq, onların əksəriyyətinə təlimin aşağıdakı mərhələləri daxildir:

*Dərsin mövzusunun təqdim edilməsi:*

✓ Şagirdlərin diqqətini cəlb etmək.
✓ Məqsəd, vəzifə və şagirdlərdən gözlənilən nəticələri dəqiq müəyyən etmək.
✓ Əvvəl öyrənilmiş materialı təkrar etmək.
✓ Şagirdlərə yeni materialı nə üçün öyrənməli olduqlarını izah etmək.
✓ Şagirdlərdə artıq mövcud olan bilikləri fəallaşdırmaq.
✓ Dərsdə və fəaliyyət zamanı əməl etməli olduqları davranış qaydalarını şagirdlərə xatırlatmaq.

*Materialı birbaşa öyrətməli və dərsin məzmununu modelləşdirməli:*

✓ Dərsi dəqiq, aydın, tam və lakonik şəkildə izah etmələri.
✓ Materialı dərsin mövzusuna uyğun olaraq mərhələlərlə, addım-addın daxil etməli.
✓ Dərsin mövzusu üzrə tez-tez suallar verməli.
✓ Dərsin tempini elə müəyyənləşdirməli ki, şagirdlərin maksimal iştirakı və diqqəti təmin edilsin.
✓ Müxtəlif nümunələr göstərməli

*Şagirdlərə təcrübə toplamaq imkanı yaratmaq (istiqamətləndirilmiş praktik iş)*:

✓ Praktik işdə bütün şagirdlərin sizin köməyinizlə iştirakına imkan yaratmaq.
✓ Əks əlaqədən istifadə etməklə - şagirdləri və situasiyanıp qiymətləndir-mək.

✓ Şagirdləri özünüqiymətləndirməyə həvəsləndirmək.
✓ Şagirdlərin dərsin məqsədinə doğru irəliləyişlərini qiymətləndirmək.
✓ Şagirdlərin müstəqil təcrübə toplamalarına imkan yaradılması.
✓ Dərsi yekunlaşdırmaq.
✓ Nə öyrəndiklərini bir daha şagirdlərin yadına salmaq.
✓ Əvvəlki dərslərin məzmununu və "böyük ideyalarla" qarşılıqlı əlaqəsini göstərmək.

**5. Yardımçı texnologiyaların istifadəsi. Təlim prosesində istifadə etmək üçün əyani vəsaitlərin hazırlanması və istifadəsi.**

Təlim prosesinə cəlb etmək üçün əlilliyi olan bəzi uşaqlar üçün yardımçı texnologiya vasitəsi ilə xüsusi dəstəyin olması tələb olunur. Yardımçı texnologiya əlilliyi olan uşaqlara sinifdə daha yaxşı öyrənməyə kömək etmək üçündür. Yardımçı texnologiya təhsildə əlilliyi olan uşaqların iştirakına və yanaşmasında olan maneələrin aradan qaldırılmasına kömək edir. Uşaqların müvafiq texnologiya ilə təmin edilməsi onların səfərbəyliyi, ünsiyyət qurmaq bacarığı, eşitməsi və təhsildə iştirakına təsir edir. Görmə məhdudiyyəti olan uşaqlar üçün:

- Ağıllı lövhə kimi interaktiv lövhədən istifadə edin, lövhədə yazılanları oxuya bilmələri üçün görmə məhdudiyyəti olan uşaqlar kompüter və ya tabletdən istifadə edə bilərlər.
- Müəyyən məsafədən daha yaxşı görə bilmələri üçün uşaqlara binokl, monokl və ya böyüdücü cihazlardan istifadə etməyə icazə verin.
- Power Point təqdimatları hazırlayarkən Arial kimi sadə şrift seçin və minimum şrift ölçüsü 24-dən istifadə edin. Animasiya və keçidlərdən az istifadə edin.
- Ehtiyac duyan uşaqlar üçün Brayl şriftindən istifadə edin.
- Kompüterdə şifahi təsvir proqramlarından istifadə edin. Eşitmə məhdudiyyəti olan uşaqlar üçün:
- Nitqi mətnə çevirən funksiyaya malik kompüterlərdən istifadə edin.
- Elanlar üçün əyani vasitələr və sinifdə göstərilən videolarda titrları təmin edin.
- Əlavə əyani vasitələrdən istifadə edin (məs., proyektor, ağ lövhə, qrafiklər, lüğət, mühazirə planları və s.)
- Uşaqdan şəxsi eşitmə cihazından istifadə etməsini xahiş edin.

Fiziki məhdudiyyəti olan uşaqlar:

- Fiziki əlilliyi olan uşaqların kompüterdən istifadəsinə yardım üçün hazırlanmış alternativ cihazlardan istifadə edin (məs., sensor ekranlar, dəyişdirilmiş klaviatura, əyləncəli idarəedici çubuqlar və s.). Yazmaqda çətinliyi olan uşaqlar üçün kompüter, yardımçı proqram təminatı, qeydə alan cihazları təmin edin.
- Sinif fəaliyyətlərinə və imtahanlara verilən cavabları lentə almaq üçün danışılanı mətnə çevirən proqram təminatından istifadə edin.
- Yazmağı asanlaşdıra bilən qələm tutacaqları və ya erqonomik dizaynlı qələmləri təmin edin. Yazı alətlərini yaxşı tutmaqda çətinlik çəkən uşaqlar üçün qalın yazı alətlərindən istifadə etmək asandır.

Əqli əlilliyi olan uşaqlar üçün:

- Uşağa mətni oxumaq yerinə audio qeydlərə qulaq asmağa icazə verin.

- Dərsi yalnız oxu kitabları vasitəsilə deyil, həmçinin audio kitablar, kinolar və digər media vasitələri ilə keçin.
- Tapşırıqlar üçün elektron imla yoxlamasından istifadə edin.
- Sinifdə qeydiyyat aparmaq və ya cavab vermək üçün kompüterdən istifadə edin.
- Tablet və ya iPadlardan istifadə edin.

Təlim prosesində istifadə etmək üçün əyani vəsaitlərin hazırlanması və istifadəsi Dərs planlaşdırmasının mühüm hissəsi istifadə edəcəyiniz vasitələri planlaşdırmaqdır. Bu vasitələr dərsə uyğun və sinifdə uşaqlar üçün əlçatan olmalıdır. Müəllimləri ətrafda asanlıqla tapılan, təkrar emal oluna bilən və təbii materiallardan istifadə edərək öz şəxsi materiallarını hazırlamağa və yaradıcı olmağa sövq etmək lazımdır. Təlim prosesində istifadə üçün əyani vəsaitlərin hazırlanmasının tələbləri var. "Yaxşı" və inklüziv təlim vasitəsi:

- İnteraktiv vəsait (şagirdin üzərində işləyə bildiyi vəsait);
- Aydın görünən;
- Cəlbedici, rəngli və ya qalın şriftlə yazılan;
- Təhlükəsiz şəkildə uşaqların tutacağı və ya toxuna biləcəyi ölçüdə;
- Dözümlü və asan təmir oluna biləcək möhkəm materiallardan hazırlanmış;
- Yalnız müvafiq məlumat və ya detallardan ibarət;
- İstifadəsi əyləncəli;
- Dərsin məqsədlərinə müvafiq;
- Yerli və tullantı materiallarından hazırlanmış;
- Bir dəfədən çox istifadə edilə bilən olmalıdır. Resursların saxlanılması və idarə edilməsi
- Resurslar müəllimlər otağı, kitabxana, direktorun otağı və s. kimi yerlərdə saxlanıla bilər.
- Müəllimlər əşyanı götürə, qeyd kitabçasında bunu qeyd edə və bitirdikdən sonra yerinə qaytarıb qoya bilərlər.
- Materialların qeydə alınmasını, təşkil edilməsini və nömrələnməsini hər hansı bir müəllim öz öhdəliyinə götürə bilər. Bu vəzifə yarımillik və ya illik növbəli ola bilər. Yaşca böyük uşaqlar da materialların təşkili və idarə edilməsində köməklik göstərə bilərlər. Bu, onlara faydalı bacarıqlar aşılamağa kömək edəcək.

## VIII Mövzu: İnklüziv dərsin planlaşdırılması və tətbiqi

**Plan:**

1. İnklüziv təhsilin məktəb səviyyəsində təşkili. Sinif kollektivinin təşkili.
2. İnklüziv sinif üçün dərsin planlaşdırılması. Kurikulum planlama üçbucağı.
3. İnklüziv sinifdə dərsin təşkili. Təcrübədə inklüziv təhsil.
4. Diferensial təlim: Diferensial məzmun; Diferensial fəaliyyət; Diferensial tapşırıqlar.
5. Məktəbəqədər və İbtidai təhsilini başa vurmuş şagirdlərin təliminin monitorinqi.

**Ədəbiyyat:**


1. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019.
2. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019
3. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. İnklüziv siniflərdə təlimin təşkili. Bakı 2018
4. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
5. Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiya 4(2016) nömrəli Ümumi Şərh Maddə 24: İnklüziv təhsil hüququ. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
6. Bacarıqlar haqqında. Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın izahı. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019.
7. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 2020
8. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020
9. İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması. Texniki kitabça 1. Bakı, UNİCEF, 2020
10. Hacımuradova L.N. İnklüziv təhsil baxdığınız güzgüləri dəyişir. // Gəncə Dövlət Universitetinin elmi xəbərləri. Gəncə 2019, № 3; səh.240-243
11. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika. Texniki kitabça 12. Bakı, UNİCEF, 2020


## 1. İnklüziv təhsilin məktəb səviyyəsində təşkili. Sinif kollektivinin təşkili.

- Mənəvi bütövlük, özgüvən, gələcəyə inam, yoxsa bu gündən sabaha ümidi olmayan parçalanmış və haçalanmış düşüncə? Psixoloji dinclik, yoxsa cavabsız suallarla yüklənmiş ipdən asılı xəyallar? Cəmiyyət üçün önəmli, faydalı olmaq hissi, yoxsa heç kimin işinə yaramayan sıradan fərdlər olduğunu düşünmək duyğusu? Bu sualları, yazıldığı vərəqdən oxumaq nə qədər asan olsa da, onları cavablandırmaq və ya sualların müsbət qütblərini reallaşdırmaq bir o qədər çətindir. Ancaq mümkünsüz deyil.

Əgər biz bütüv və sağlam bir toplum istəyiriksə, bu, hər şeydən öncə təhsilin tamlığından keçir. Təhsilin tamlığını təşkil etmək və qarşıya çıxan əskikliklərı tamamlamaq üçün daim dünya təcrübəsi araşdırılır, milli sistemə tətbiqi labüd olan yeni variantlar tapılır və onların ölkəmizdəki efffektivliyi məsələsi dəqiqləşdirildikdən sonra əməli işlərə start verilir. Böyük hədəfləri olan inklüziv təhsil də sağlamlıq imkanları məhdud olan uşaqlar üçün geniş üfüqlər açır. Bəs, bu imkanlar necə cilalanır?

Aydın məsələdir ki, diskriminasiyanın istənilən təzahürü, ayrıseçkiliyə bilərəkdən və ya təbii olaraq məruz qalan insanlar üçün xoş olmayan nəticələr formalaşdırır. Dini, irqi, cinsi ayrıseçkilik böyükdən tutmuş kiçiyə kimi bütün fərdlərə necə təsir edirsə, təhsil

diskriminasiyası da fiziki, əqli məhdudiyyətli uşaqlar üçün eyni psixoloji və həyati nəticələr doğurur. Bu nəticələr olmasın deyə inklüziv təhsil sistemi bütün imkanlarını səfərbər edir ki, əlilliyi olan uşaqlarla sağlam olanlar arasında uçurum yaranmasın, təhsil hər kəs üçün eyni səviyyədə əlçatan olsun, eyni zamanda hər kəsin təhsil almaq hüququ təmin edilsin (4, səh 38).

İnklüziv təhsil övladının dəyişəcəyinə, irəliləyəcəyinə, inkişaf edəcəyinə zərrə qədər də ümid və inamı olmayan valideynlərə ümid verir. Əlilliyi olan uşaqlar ümumtəhsil məktəblərində uğur sərgiləyən zaman ailə sevinir və ilk hədiyyələrini almış olurlar. Bu zaman inklüziv təhsil şagird-müəllim-valideyn üçbucağının mərkəzində dayanıb missiyasının bəhrəsini izləyir. Bu bəhrəni görmək bir günün, bir saatın işi deyil. Uyğun olaraq asan olacağı ilə də bağlı heç kim heç kimə vəd verməyib. Asan olan nəyin nəticəsi insanları məmnun edib ki?

Əlilliyi olan uşaqların inklüziv təhsil başlanğıcı bütünlüklə müəllimin öhdəliyidir desək, düzgün olmaz. Bu işdə ibtidai addım ailədən başlanmalı, sistemli, məntiqli əsaslarla məktəbdə davam etdirilməlidir. İlk növbədə valideyn övladı ilə olan ümid bağını qoparmamalıdır və dəstək olmalıdır ki, uşaq da inklüziv siniflərdə irəliləyiş göstərə bilsin. Sevgi amili addım atılan işə çıraq tutmasa, nəticə də gözlənilən və ümid edilən kimi olmaz. Bəzi valideynlər var ki, onlar öz canından olan uşaqlarının təhsili bir yana qalsın, onlara evdə baxmağı belə dünyanın həlli mümkünsüz işi kimi görürlər. Qorxu hissi, ümidsizlik, eyni zamanda çarəsizlik baş alıb gedir. Hətta inklüziv təhsil şərtləri ilə tanış olduqda belə yenə müsbət nəticəyə inanmırlar. İnklüziv təhsil sistemini yerli mühit və quruluşa uyğunlaşdıran, ölkəmizdə bu istiqamətin əsaslarını formalaşdıran və təkmilləşdirən mütəxəssislər valideynlərlə düzgün ünsiyyət qurmalı və maarifləndirmə işlərini effektiv vasitələrlə aparmalıdırlar ki, valideyn övladının təhsilin bu növünə qoşulmasına qəribə baxmasın.

İnklüziv təhsilin öz miqyasında qoruyub saxladığı mühüm bir detal bəzən gözdən qaçır. Aydındır ki, əlil uşaqların sağlam uşaqlarla eyni sinifdə təhsilə cəlb olunması, bir tərəfdən sağlamlıq imkanları məhdud olanların onlarla eyni vəziyyətdə olan digər şagirdləri görməsinə səbəb olur. Nəticə etibarilə, fiziki, əqli əlilliyi olan uşaqlar tək olmadıqlarını anlayır və əskikliyin yalnız onlarda deyil, digərlərində də mövcud olduğunu dərk edirlər. O biri tərəfdən sağlam sinif yoldaşlarını görüb ilk başda müəyyən məhrumiyyət duyğusu yaşasalar da, onlarla eyni təhsildən faydalana bildiklərini və eyni yolu getdiklərini başa düşürlər. Sanki güzgüyə baxıb özlərini yox, sağlam ekvivalentlərini görürlər. Özlərinin o cür olduqlarına və ya ola biləcəklərinə inanırlar. Əsas olan da inam deyilmi? Deməli, hədəf bəhrəsini verir.

Məlum məsələdir ki, əlilliyi olan uşaqlara ümumtəhsil məktəblərində inklüzivliyə uyğun olaraq, özəl tədris üsulları tətbiq olunur. Bu isə təhsilin tələbindən irəli gələn bir şeydir. Ancaq bir şeyi unutmaq olmaz ki, əlil uşaqlara "balığı tutub hazır vermək yox, balıq tutmağı öyrətmək" lazımdır. İnklüziv təhsil prosesində müəllim onlara balığı tutub versə, o zaman həmin şagirdlərə "sizin balıq tutma imkanınız yoxdur", demiş olacaq. Balığı tutmağın üsullarını öyrətməklə qalmayıb, uşaqlarla daha hansı vasitələrin olması ilə bağlı müzakirələr aparmaq, situasiya təşkil etmək həm münasibətləri möhkəmləndirər, həm də onların qabiliyyət və bacarıqlarını ortaya çıxarar. Eyni zamanda əlilliyi olan uşaqlarda onların da fikrinə dəyər verilir, etinasız yanaşılmır təəssüratı oyadar.

Bununla yanaşı inklüziv təhsildə standart metodların yerinə, şagirdin təhsilə reaksiya performansına və fərdi ehtiyaclarına söykənən tamamilə fərqli üsulların tətbiqi, təbii ki müsbət nəticə etimalını da artırar (5, səh 45). Sadəcə bəsit bir nümunə ilə fikrimizi daha da genişləndirmək istəyirik. Bitkilərin yüzlərlə növü var. Onların hamısına eyni münasibəti göstərə bilmərik. Bitkilərin bir qismi günəş işığını sevir və bu işıq olmasa məhv olur, bir qismi isə ancaq kölgədə yetişib boy atır. Bir qismi hər gün sulanmağı tələb edir, digər bir qismi həftədə sadəcə bir dəfə sulanır, əks təqdirdə məhv olub gedir. Uşaqlar da belədirlər. Xüsusilə əlilliyi olan uşaqlardan danışırıqsa, sinifdə dərsin təşkili zamanı, gedişatda onlara eyni metodları tətbiq etmək və ya eyni psixoloji, mənəvi yanaşma ilə yaxınlaşmaq düzgün olmaz.

Əlilliyi olan uşaqlar tozlanmış əşya kimidirlər. Bəziləri bu tozu təmizləməyə cürət etməsə də, onları təmizləyib, cilalayıb içlərindəki cövhəri çıxara bilən müəllimlər nəticəni görəndə, bütün tərəflər inklüziv siniflərin faydasını anlayırlar. Ona görə də inklüziv təhsilin tətbiqi zamanı hər bir uşağa işlənməsi vacib olan bir layihə kimi baxmaq lazımdır. Bu uşaqlar bəzən coşub çağlayan Amazon çayı kimi, məcrasını basıb insanları çətinə sala bilərlər. Bəzən isə həddən artıq sakit dəyişən məfhumlar kimi ola bilərlər. Fərdi yanaşıb, zərgər dəqiqliyi ilə zinət əşyasını incə-incə işəmək lazımdır. Ümumi qaydalar, hər kəs üçün keçərli deyil. Fərdi metodlar isə əksər vaxtlarda öz faydasını göstərir, nəticəni sürətləndirir.

İnklüziv təhsil başqa hansı faydaları ilə tələbatlılığını artırır? Hər şeydən öncə bu təhsil sistemi dost qazandırır, münasibətlər yaradır, cəmiyyətin yararlı üzvü olmaq imkanlarını artırır, ən əsası yaşamaq eşqi bəxş edir. İnklüziv təhsil illərdir formalaşmış və bu qəbildən olan insanların içərisindən çıxa bilməyəcəklərini düşündükləri qorxu amilini də yox etməyə yardımçı olur. Ona görə də əlilliyi olan uşaqlarla aramıza aşılması mümkün olmayan barikadalar, tikanlı məftillər çəkmək əvəzinə, möhkəm və uzunömürlü körpülər qurmaq lazımdır. Bu prinsipi təkcə həyat münasibətlərində deyil, eyni sinifdə təhsil almağı əsas tutan inklüziv təhsil sistemində də, tətbiq etmək lazımdır. Fiziki məhdudiyyətli uşaqları cəmiyyətə qazandırmaq hər kəsin, xüsusilə də təhsil sahəsində külüng vuran insanların ən ümdə borcuna çevrilməlidir.

İstər ailədə, istərsə də məktəbdə əlil uşaqlara "yazıq gəlinməsi" fikri ilə yanaşmaq yanlışdır. İnklüziv təhsilin əlilliyi olan şagirdlərdə effekt verməsini gözləyiriksə, onlara acımaqdansa, bu uşaqların özgüvən hisslərini artırmaq və onların yaşadıqları mühit, xalq, cəmiyyət üçün faydalı ola biləcəklərinə bu fərdləri inandırmaq lazımdır. Oxumaq onların tam təbii və qanuni haqlarıdır. Çünki həmin insanların tibbi nöqteyi-nəzrədən sağlam olmamaları "bizdən biri deyillər" təəssüratı yaratmamalıdır.

Hansı valideyn istəyər ki, övladının gözünün önündə solmasını izləsin? Təhsil siyasətini bu istiqamətə yönəltmək bu günün ən böyük uğurlarından hesab oluna bilər. Bu yöndə dilə gətirilməsi vacib olan ən mühüm pedoqoji, psixoloji yanaşmalardan biri də sinif daxilində əlilliyi olan uşaqlara qarşı ayrıseçkiliyin göstərilməsi və ya davranış zamanı birini digərindən üstün tutmaq aktının yolverilməz olmasıdır. Əksərən elə bu cür də olur. Ancaq insan proqramlaşdırılmış və hisslərindən məhrum robot və ya maşınlar kimi deyillər, onlar psixoloji vəziyyətlərdə dəyişmə göstərə bilən varlıqlardır. Hər şeyin başında isə səbr gəlir. Tədris zamanı bu uşaqlardan Eynşteyn olmağı tələb etmək də olmaz. Səhv edə bilərlər. Özü də bir dəfə yox, hətta beş dəfə, bəlkə də artıq. Ancaq bu o demək deyil ki, həmin fərdlərə ümidsiz subyekt kimi yanaşılsın.Vaxtilə ibtidai siniflərdə ayrıseçkiliyə məruz qalan,

istedadlarına tənə ilə yanaşılan tanınmışlar var ki, onların gələcəkdə kim olacaqlarını bu insanların valideynləri də, müəllimləri də ağıllarının ucundan belə keçirməyiblər.

İnklüziv təhsil sistemi normasında olmayan bir məfhumun daxilində yaxşı yönləri görüb göstərməyi hədəfləyən bir yanaşmadır. Təbii ki, bu bir az da baxanın təkcə baxmaqla qalmayıb, görməli və göstərməli olduğunu diqqətə çatdırır. Qaydasında olmayan obyekt və ya subyekti görüb yanından ötüb keçənlər də var, diqqətlə izləyib çoxlarının görmədiyini görənlər də. Əlilliyi olan uşaqlar da ifrat dərəcədə olmayan qayğını, diqqəti, təkanı, dəstəyi, ən əsası öyrənməyi, istedadlarını göstərməyi istəyən cövhərlərdir.

Göstərməkdən söz düşmüşkən, mütəmadi olaraq, əlilliyi olan uşaqlarla bərabər kiçik əyləncəli tədbirlərin, şənliklərin hazırlanması, onların iştirakı ilə bəsit teatr tamaşalarının təşkil edilməsi, inklüziv təhsilin faydalılığını bir qədər də artıra bilər. Nəticə etibarilə, münasibətləri möhkəmləndirmə, qaynayıb-qarışma, mənəvi-psixoloji rahatlıq baxımından bu, önəmlidir.

Əlilliyi olan uşaqlar qarşısında öhtəlikləri olan, daim yeni metodlar üzərində işləyən və effektiv olmayan üsulların üzərindən xətt çəkən inklüziv təhsil, onlara aydın gələcək vəd edir.

İnklüziv komponentli sinifdə təlim hər kəsin tədris prosesində digərləri ilə birlikdə iştirak etmə hüququnu nəzərdə tutur. Uşaqlar arasında olan fərq, o cümlədən, müxtəlif qabiliyyətlər bu hüquqa təsir göstərə bilməz. Bütün uşaqlar elə uşaqdırlar və müxtəlif qabiliyyətlərə malikdirlər. Uşaqlara kollektivə mənsub olma hüququ verildiyi zaman, onlara müxtəliflik hüququ da verilir. İnklüziv komponentli siniflərin əsasını heç kəsin kənarlaşdırılmadığı və hər kəsin fərdi qabiliyyət və ehtiyacları ilə birgə qəbul edildiyi birliyə olan münasibət təşkil edir. Qabiliyyət və ehtiyaclardan asılı olmayaraq, şagirdlərin hamısı eyni qaydada sinif kollektivinin üzvü sayılır. Xüsusən qayğıya ehtiyacı olan uşaqların siniflərə ürək açıqlığı ilə qəbul edilməsi olduqca vacibdir. Aydındır ki, müəllim şagirdlər üçün əsas davranış nümunəsidir.

Beynəlxalq sənədlər və yerli təcrübəyə əsasən tövsiyə olunur ki, inklüziv komponentli sinifdə xüsusi qayğıya ehtiyacı olan şagirdlərin faizi 5-10% arası olmalıdır. Belə ki, inklüziv komponentli siniflərdə xüsusi qayğıya ehtiyacı olan şagirdlərin biri fiziki və digəri isə əqli geriləməsi olan şagird olmaqla şagird sayı və sinif komplektləşməsi 20 nəfərdən artıq olmamalıdır.

Yalnız demokratik prinsiplərə söykənməklə sinifdə əsl kollektiv yaratmaq mümükündür. Ünsiyyət və öz yaşıdları ilə qarşılıqlı əlaqə imkanları inklüziv komponentli təlimin əsas elementlərindən biridir. Ancaq, bəzən belə hallarda da rast gəlinir: xüsusi qayğıya ehtiyacı olan şagirdlər digərlərindən kənarda yerləşdirilir, hətta digər şagirdlərlə yanaşı otursalar belə başqa fəaliyyətlə məşğul olur, başqa plan üzrə işləyirlər. Belə təcrübə xüsusi qayğıya ehtiyacı olan şagirdlərin sinif yoldaşları ilə birgə təlimə cəlb olunmalarına və onlardan nə isə öyrənmələrinə mane olur. Bunun sosial təcrid olunma ilə nəticələnə biləcəyini göstərməklə, müəllimlərə tövsiyə etmək olar ki, xüsusi qayğıya ehtiyacı olan şagirdlərin yoldaşları ilə birgə oturub, hətta məqsədlər müxtəlif olsa belə, onların məşğul olduqları fəaliyyətlərlə məşğul olmaları vacibdir

## 2. İnklüziv sinif üçün dərsin planlaşdırılması. Kurikulum planlama üçbucağı.

- Müəllimlər tərəfindən dərsi planlaşdırmaya şagirdlərin maraqları, güclü tərəfləri, ehtiyacları və dərsin məzmununu nəzərə alıb dəyişikliklər edərək yanaşması ideal formadır. Müəllimlər bir sıra şagirdləri və öyrənmə tərzlərinin müxtəlifliyini nəzərə alaraq dərsi planlaşdırmalıdır. Bu təcrübə əlilliyi olan şagirdlər üçün müvafiq olan və bütün şagirdlərin ehtiyaclarını təmin edən dərsləri inkişaf etdirir. Müəllimlər inklüziya və cəlb olunmanı asanlaşdırmaq üçün mədəni mühit və şagirdlər ilə məktəb arasında aydın əlaqələri təmin etməyi də planlaşdırmalıdır. UNESCO inklüziv siniflərdə dərs planlaşmasında aşağıdakı kurikulum üçbucağını tövsiyə edir.




Məzmun – milli təhsil proqramında müəyyənləşdirilmiş mövzuya uyğunlaşdırılır. Mövzu uşaqlara aydın olmalıdır.

Proses – məzmunun necə öyrədilməsidir. Müxtəlif öyrənmə ehtiyaclarını qarşılamaq üçün müxtəlif təlim üsullarından istifadə olunur.

Mühit – fiziki (əşyavi) mühit, öyrənmə mühiti və psixi-sosial mühit daxildir.

Dərs planlaşdırılmasında istiqamətləndirici sualları cavablandırmaq işi yüngülləşdirir.

- Nə öyrədirik? (mövzu, məzmun)
- Nə üçün öyrədirik? (hədəflər, məqsədlər)
- Necə təlim edəcəyik? (üsullar, proses)
- Uşaqlar artıq nəyi bilir? (əvvəl öyrəndikləri, öncədən yoxlama sınağı)
- Uşaqlar nə edəcək? (fəaliyyətlər)
- Dərsi necə təşkil edəcəyik? (fiziki və sosial mühitin təşkil olunması daxil olmaqla)
- Fəaliyyətlər bütün uşaqlara uyğun olacaqmı?
- Uşaqların cüt və ya kiçik qruplarda işləmək imkanları olacaq?
- Uşaqlar etdiklərini necə qeydə alacaqlar? (təlim məhsulları, məsələn, şagirdin çəkdiyi rəsm)
- Uşaqların öyrəndiklərini necə biləcəyik? (rəy, qiymətləndirmə)
- Növbəti olaraq nə edirik? (öyrənilənlərin əks etdirilməsi və gələcək planlaşdırma)

**3. İnklüziv sinifdə dərsin təşkili. Təcrübədə inklüziv təhsil.**

Müəllimlər sadə sxemdən istifadə edərək dərsi planlaşdıra bilər. Dərs planının sxemi Ümumi məlumat Fənn: Sinif: Uşaqların sayı: Vaxt: Təlim məqsədləri Bu dərsdə uşaqlar

nəyi öyrənməlidirlər? Onlar hansı bilik və bacarıqlara yiyələnməlidirlər? Resurslar Dərs üçün sizə hansı resurslar lazımdır? Uşaqlara hansı materiallar lazımdır? Resursları əldə etmək üçün uşaqlar necə kömək edə bilər? Fərdi ehtiyaclara malik uşaqlar Qrupda əlavə köməyə ehtiyacı olan uşaq varmı? Kim? Niyə? Bu uşaqlara hansı dəstəyi göstərməli olacaqsınız? Onlara fərdi kömək etməlisinizmi? Onların sinifdə müvafiq yerlərdə oturmasını təmin etməlisinizmi? (Sinif otağı sıx olduqda, onlara rahat kömək edə biləcəyiniz yerdə otuzdurmaq əlverişlidir) Həmin uşaqların onlara kömək edə biləcək uşaqların yanında yerləşməsini təmin edin. Əlilliyi olan uşaqları birlikdə qruplaşdırmayın. Giriş Məsləhətlər:

- Uşaqlara bu dərsdə nəyi öyrənməklərini istədiyinizi deyin. Bəzi müəllimlər lövhədə yazır.
- Dərsə necə başlayacağınızı düşünün. Əvvəlki dərsdə uşaqların öyrəndiklərinə qısa nəzər salmağı unutmayın.
- Sizi əsas fəaliyyətlərinizə istiqamətləndirəcək şəkil müzakirəsi, açıq sual və ya uşaqların həll edəcəyi məsələ ilə başlamağa cəhd edin. Plan: Əsas fəaliyyətlər. Dərsin əsas hissəsində uşaqlar nə etməlidirlər? Məsləhətlər:
- Uşaqlara təlimin məqsədini anladacaq tapşırıqlar hazırlayın.
- Müxtəlif fəaliyyətləri daxil etməyə cəhd edin; məsələn, uşaqlardan cüt və ya qrup şəklində işləməyi xahiş edin.
- Tapşırıqları necə təqdim və izah edəcəyinizə qərar verin.
- Uşaqlar tapşırıqlar üzərində işlədikdə vaxtınızı necə sərf edəcəyinizə qərar verin. Bu məqam əlavə köməyə ehtiyacı olan uşaqları dəstəkləmək üçün əlverişlidir. Nəticə Məsləhətlər:
- Dərsin sonunda təlimin məqsədlərini gücləndirəcək fəaliyyət və ya müzakirə seçin. Uşaqlardan nə öyrəndiklərini soruşun.

Əksər müəllimlər əlilliyi olan uşaqları siniflərinə daxil etməyə etiraz etmirlər. Onlar bunun düzgün və bütün uşaqların eyni hüquqlara malik olduğunu bilirlər. Lakin bəzən müəllimlər sinifdə inklüziyanın necə olacağını təsəvvür edə bilmirlər. Bu proqram vasitəsilə biz inklüziv təhsilin tətbiqinə dair əsas anlayışları, prinsipləri, inklüziya üçün bir yerdə işləməyi öyrənirik. Bu bölmədə inklüziv təlim mühitinin yaradılmasını dəstəkləyən təcrübi sinif strategiyaları müzakirə edilir. İnklüziya şagirdlərin ehtiyacları, güclü tərəfləri və maraqlarını nəzərə alaraq sadə düzəlişlər və dəyişikliklər etməklə mümkündür.

**4. Diferensial təlim: Diferensial məzmun; Diferensial fəaliyyət; Diferensial tapşırıqlar.**

- Təlimin diferensiallaşdırılması bütün uşaqların eyni olduğunu zənn edərək bütün sinfə ənənəvi təlimin əvəzinə konkret uşağın və ya kiçik uşaq qrupunun təlim ehtiyaclarına diqqət yetirməkdir. Təlimdə müəllimlər ilə uşaqlar əməkdaşdırlar.

Diferensial təlimin prinsipləri:

1. Diferensial sinif çevikdir. Müəllim və uşaqlar başa düşür ki, hər bir uşağın və ümumilikdə sinfin akademik uğurunu təmin edən qiymətləndirmə üsulları, uşaqların qruplaşdırılma yolları və müxtəlif materiallar var.

2. Təlimin diferensiallaşdırılması şagirdlərin ehtiyaclarının cari qiymətləndirilməsindən irəli gəlir. Müəllimlər şagirdlərin ehtiyaclarını bildikdə təlimi daha səmərəli təşkil edə

bilirlər. İnklüziv müəllim uşağı daha yaxşı başa düşmək üçün onun dediyi və ya etdiyi hər bir şeyi faydalı məlumat kimi görür və dərsin düzgün planlaşdırması üçün bu məlumatdan istifadə edir, nəticədə şagirdin öyrənməsi üçün daha əlverişli şərait yaranır.

3. Bütün uşaqların müvafiq işi var. Müəllimin hədəfi uşağın dərs boyu məşğul olması və gördüyü işinin maraqlı və öyrədici olmasını təmin etməkdir.

4. Təlimdə müəllimlər ilə uşaqlar əməkdaşdırlar. Müəllim təlim ehtiyaclarını qiymətləndirir, təlimdə fasilitatorluq edir və səmərəli dərs planlaşdırması aparır. Uşaqları təhlil edir və davamlı olaraq sinif haqqında qərarların qəbul olunmasında onların rəyini nəzərə alır. Nəticədə uşaqlar daha müstəqil şagirdlərə çevrilirlər.

Diferensial məzmun

- Uşaqların yeni anlayışları başa düşməsi üçün obyektlərdən istifadə edilir;
- Mətnlər bir neçə oxu səviyyəsində tərtib edilir;
- Mətn materialları ilə işləyən uşaqları dəstəkləmək və cəlb etmək üçün oxu prosesinə sinif yoldaşları cəlb edilir;
- Əlavə təqdimata ehtiyacı olan uşaqlara dərs yenidən başa salınır;
- Müxtəlif şagirdlərə əsas anlayışları aşılamaq üsulları kimi mətn, səs qeydiyatı aparatları, poster və videolardan istifadə edilir. Diferensial fəaliyyət
- Müxtəlif çətinlik səviyyələri olan təlim fəaliyyəti qurun (məsələn, variant 1 asandır, variant 2 bir az çətin və variant 3 isə çox çətindir).
- Uşaqların fərqli maraqlarına əsaslanan müxtəlif variantları təmin etməklə fəaliyyəti fərqləndirmək mümkündür. Hər bir fəaliyyətdə müəllim tərəfindən dəstək verilə yaxud şagirdlər bir-birinə dəstək verə bilər.

Diferensial tapşırıqlar

- Əsas təlim məqsədlərinin müəyyənləşdirilməsində uşaqların iştirak etməsinə imkan yaradın.
- Uşaqları öyrəndiklərini fərqli üsullarla ifadə etməyə təşviq edin.
- Müxtəlif iş üslublarına şərait yaradın (məsələn, tapşırığı bitirmək üçün tək və ya qrupun tərkibində işləmək).
- Tapşırıqları hazırlamaq üçün müxtəlif növ resurslardan istifadəni təmin edin edin.
- Müxtəlif qiymətləndirmə metodlarından geniş şəkildə istifadə edin. Sinifdə bütün uşaqların dərsə cəlb olunması, iştirakı və nailiyyət əldə etməsi üçün müxtəlif təlim üsulları var. İnklüziv sinif strategiyalarını icra etmək çətin deyil.

## 5. Məktəbəqədər və İbtidai təhsilini başa vurmuş şagirdlərin təliminin monitorinqi.

- Bu bölmədə qeyd olunanlar digər bir pilot layihənin təcrübəsini əks etdirir və aşağıda qeyd olunan cədvəl müəyyən bilik, bacarıq və vərdişlərin inkişafının qiymətləndirilməsi üçün qeydiyyat vərəqəsi kimi istifadə edilə bilər.

| ***Meyarlar*** | ***Göstəricilər*** | ***Səviyyə*** | | |
|---|---|---|---|---|
| | | ***Yüksək*** | ***Orta*** | ***Aşağı*** |
| 1. | Şagird davranış qaydalarına əməl edir. Sinif | | | |

| | | | | |
|---|---|---|---|---|
| Məktəbə münasibət | yopdaşlarına qarşı tolerantdır. Müəllimlərə hörmətlə yanaşır. Məktəbin (sinfin) ictimai həyatında iştirak edir. | | | |
| 2. Özünə münasibət | Özünü idarə edə bilir. Dərs və dincəlmə vaxtını ayırd edir. Sağlamlığına diqqət edir. Pis vərdişləri varmı? | | | |
| 3.Ünsiyyət | İnsanlrı başa düşür. Sinif yoldaşları ilə dostluq edir. Ailədə ondan şikayət yoxdur. Müəllimlərlə kinfliktə girmir. | | | |
| 4. Özünə xidmət vərdişləri | Özünə xidmət edə bilir. Sanitar-gigiyena qayadlarına əməl edir. İşində ehtiyatlıdır. Dərs ləvazimatlarını səliqə ilə saxlayır. | | | |
| 5. Dərsə münasibət | Toplama, çıxma, bölmə, vurma əməllərini bilir, səliqəli yazır. Oxu texnikası var. Nağıl etmək həvəsi var. Aldığı qiymətə görə həyacanlı olur. Ev tapşırığını edir. Sual verə bilir. Sual verə bilir. Ədəbiyyatı sevir, mütaliə edir. Riyazi qanunların əsəsını bilir. Fiziki hadisələrin mahiyyətini izah edir. Təbiət hadisələrinə həssasdır. İnsan orqanlrını bilir. Təbiəti sevir. Əsas tarixi hadisələri tanıyır. Azərbaycan təbii ehtiyatları haqqında məlumatı var. | | | |
| 6. Sosial-məişət yönümlülüyü | Ev, sinif əşyalarını tanıyır. Əşyaların mahiyyətini bilir. Sinifdəki avadanlığın mahiyyətini bilir, sinfin səliqəyə salınmasında iştirak edir. Nəqliyyat növlərini ayırd edə bilir. Adi alış-veriş edə bilir və ona əməl edir. Qeyri-standart situasiyalarda özünü apara bilir. | | | |
| 7. Vətənpərvərlik | Adi hüquq və vəzifələri bilir. Azərbaycanı sevir. Mədəniyyətimiz haqqında məlumatı var. Təbiətə qayğı ilə yanaşır. Dövlət atributlarını tanıyır, mənalarını izah edir. | | | |
| 8. Dünyagörüşü | Milli dəyərlər haqqında məlumatlıdır. Mənəvi-əxlaqi dəyərləri var, özü üzərində çalışa bilir. Psixo-fiziki ionkişafdan asılı olmayaraq hamıya hörmət edir. | | | |
| 9. İnsanlığı | Yaxınlarına, dostlarına qarşı mehribandır. Özündən zəiflərə tolerantdır. Konfliktləri sülh yolu ilə həll etməyə çalışır. | | | |
| 10. Xasiyyəti | Söz verirsə yerinə yetirir, öz fikrini yeridə bilir. Başa düşməyi, bağışlamağı bacarır. Sosial təcrübəyə tez alışır. | | | |

| | | | | |
|---|---|---|---|---|
| 11. Davra-nışı | Məktəb qayda-qanunlarına tabe olur. Şagird qaydalarını bilir. Daxili intizam qaydalarını bilir. | | | |
| 12. Çalış-qanlığı | Dərsə səylə hazırlaşır. Əməyi sevir. Özünə xidmət etməyi bacarır. | | | |
| 13. Zaman və məkan | Öz işlərini planlaşdıra bilir. Yaşadığı yerdə, məktəb ərazisində sərbəst davrana bilir. | | | |
| 14. Müs-təqil həyata hazırlığı | Gündəlik məişət problemlərini həll etməyə çalışır. Ünsiyyət qurma vərdişi yaxşı inkişaf edib. Ailəsi haqda tam məlumatlıdır. Pul vahidlərini ayırd edir. Böyüklərə hörmət edir. | | | |

**Mövzu: İnklüziv sinif təcrübəsinin yaradılması: Uşaqyönümlü pedaqogika**

**Plan:**

1. İnklüziv təhsilin tətbiqində uşaqyönümlü pedaqogikanın əhəmiyyəti.
2. Uşaqyönümlü pedaqogika nədir? Onun əsas elementləri:
- Faydalı təlim imkanları;
- Çoxsaylı təlim üsulları;
- Uşaqların müxtəlif yollarla öyrəndiklərinin qəbul edilməsi;
- Birgə öyrənmə;
- Cəlbedici və əlçatan təlim imkanları;
- Qiymətləndirmə;
- Müəllimlərin rolunun dəyişməsi.
3. Müxtəlif təlim metodları.

**Ədəbiyyat:**


13. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019.
14. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları. Bakı, UNICEF-in Azərbaycan nümayəndəliyi, 2019
15. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. İnklüziv siniflərdə təlimin təşkili. Bakı 2018
16. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019
17. Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiya 4(2016) nömrəli Ümumi Şərh Maddə 24: İnklüziv təhsil hüququ. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019

18. Bacarıqlar haqqında. Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın izahı. Bakı, BMT-nin Uşaq fondu (UNICEF), 2019.
19. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 2020
20. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020
21. İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması. Texniki kitabça 1. Bakı, UNİCEF, 2020
22. Hacımuradova L.N. İnklüziv təhsil baxdığınız güzgüləri dəyişir. // Gəncə Dövlət Universitetinin elmi xəbərləri. Gəncə 2019, № 3; səh.240-243
23. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika. Texniki kitabça 12. Bakı, UNİCEF, 2020
24. Loreman T., Deppeler J., Harvey D. İnklüziv təhsil. Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Bakı, İdeal Print, 2020

**1. İnklüziv təhsilin tətbiqində uşaqyönümlü pedaqogikanın əhəmiyyəti.**

- Əlilliyi olan uşaqların təhsil ehtiyacları fərqli və ya xüsusidirmi? Tibbi model aşağıdakı ehtimallara əsaslanır:

- Xüsusi və ya fərqli olan bir qrup uşaq müəyyən edilə bilər.
- Bu uşaqlar problemlərinin öhdəsindən gəlmək üçün xüsusi təlimatlandırılmalıdır.
- Ən yaxşısı oxşar problemlər yaşayan uşaqların bir yerdə təhsil almasıdır.
- Digər uşaqlar normaldır və mövcud təhsil formalarından yararlanırlar.

Bu yanaşma əlilliyi olan uşaqlardan gözləntiləri aşağı salır və bu da onların öyrənmə nəticələrinə mənfi təsir edir, əlilliyi olan uşaqlara dərs deyən müəllimlərin etimadını azaldır, əlilliyi olan uşaqlara yalnız mütəxəssislərin dərs deyə biləcəyi fikrini gücləndirir, ayrı-seçkiliyə və təcrid olunmaya gətirib çıxarır, eləcə də fərdi xüsusiyyətlərə fokuslanmaq bütün uşaqlar üçün tədris və təlimin yaxşılaşdırılması imkanlarını azaldır. Sosial model milli və beynəlxalq hüquqi konsepsiyalar ilə dəstəklənir. Əsas ehtimallara daxildir:

- Yalnız əlilliyi olan deyil, istənilən uşaq məktəbdə çətinliklər yaşaya bilər.
- Bu çətinliklər tədrisin təkmilləşdirilməsinin vacibliyini vurğulayır.
- Bu təkmilləşdirmə işləri bütün uşaqlar üçün daha yaxşı təhsil şəraitinə gətirib çıxara bilər.
- Əlilliyi olan uşaqlarla işləmək üçün mütəxəssisləri məktəbə gətirmək əvəzinə inklüziv mühitdə dərs deyə bilmələri üçün müəllimlərin təcrübəsi artırılmalıdır.

Təməl anlayışlar bunlardır - bütün uşaqlar çətinliklər ilə üzləşir və ya müəyyən məqamda təlim ehtiyacları var və şərt deyil ki, eyni əlilliyə malik uşaqların eyni təlim ehtiyacları olsun. Buna görə də, əlilliyi olan uşaqların təhsil ehtiyacları xüsusi və ya fərqli deyil.

"Əlilliyi olan uşaqların öyrədilməsində xüsusi təlim yanaşması tələb olunurmu?", "Müəllim adi təlim yanaşmasından istifadə edə bilərmi?" kimi suallar əvvəllər də müzakirə olunub. Bu müzakirədə iki əsas mövqe: "unikal fərq mövqeyi" və "ümumi fərqlilik mövqeyi" var.

- Unikal fərq mövqeyi Hər bir şagirdin hər kəsə xas olan ümumi ehtiyaclarla yanaşı, məhz fərdi şəkildə ona xas olan unikal ehtiyacları var. Əlilliyi olan uşaqlar üçün xüsusi

pedaqogikanın olduğunu güman etmək yerinə müəllimlər bütün şagirdlərin ehtiyaclarını qarşılamaq üçün uşaqyönümlü pedaqogikadan istifadə edirlər.

• Ümumi fərqlilik mövqeyi Ümumi və unikal fərdi ehtiyaclardan başqa, əlilliyi olan uşaqların xüsusi ehtiyacları da olur. Yəni əlilliyi olan uşaqların onlara məxsus spesifik ehtiyaclarla yanaşı, digər uşaqların ehtiyacları ilə oxşarlıq təşkil edən ehtiyacları ola bilər. Məsələn, gözdən əlilliyi olan uşaq üçün Brayl əlifbası xüsusi ehtiyacdır. Lakin həmin uşağın bədən-kinestetik intellektə malik olması onu eyni intellektə malik olan digər uşaqlarla eyniləşdirir.

Müəllimlər adi siniflərdə bütün uşaqları qəbul edə və onlara dərs deyə bilərlər. Belə olan halda şagirdlərin təlim ehtiyaclarından asılı olaraq təlim metodlarında və vəsaitlərdə müvafiq adaptasiya işləri aparmağa ehtiyac yaranır.

Əsas anlayış. İnklüziv siniflərdə müəllimlər tədris və təlimin ümumi keyfiyyətini artırmaq məqsədilə bütün uşaqların öyrənmə ehtiyaclarını qarşılamaq üçün uşaqyönümlü pedaqogikadan istifadə edirlər. Əlilliyi olan uşaqlar üçün xüsusi pedaqoji yanaşma yoxdur.

Uşaqyönümlü pedaqogika nədir? Məktəbdə müəllimlər fərqli bilik, bacarıq, maraq və öyrənmə ehtiyacları olan uşaqlar ilə işləyirlər. Əlilliyi olan uşaqlar üçün xüsusi təlim üsulu olmadığından inklüziv mühitdə müəllimlər bütün uşaqların ehtiyaclarını qarşılamaq üçün uşaqyönümlü pedaqogikadan istifadə edirlər. Daha ənənəvi mühitdə və ya müəllimyönümlü pedaqogikada müəllim stolları sıra və cərgə ilə düzür, bütün sinfin qarşısında durur, şagirdlərə bütün bilikləri hazır verir və şagirdlərə onların cavablarının doğru və ya yanlış olduğunu deyir. Qeyd olunanlar "yaxşı" müəllimin xüsusiyyətləridir. Uşaqyönümlü yanaşmada isə səmərəlilik üçün vacib şərt müəllimin 21 davranışıdır. Müəllim dərs zamanı vəziyyətdən asılı olaraq sinfin müvafiq yerlərində durur, sinifdəki resurslardan istifadə edir, uşaqlar ilə ünsiyyət qurur və uşaqların öyrəndikləri bilikləri qiymətləndirir.

**2. Uşaqyönümlü pedaqogika nədir? Onun əsas elementləri:**

**- Faydalı təlim imkanları;**

Şagirdlər dərslərin və məktəb fəaliyyətlərinin məqsədlərini başa düşdükdə daha çox motivasiya olurlar. Uşaqların gündəlik həyatları ilə bağlı nəyi və necə öyrənməni əlaqələndirmək mütləqdir. Bu, yalnız müəllimlər şagirdləri ilə əlaqə qurarsa, onlar üçün nəyin mühüm olduğunu və uşaqların bir-biri və həmçinin müəllimi ilə mübadilə etməsi üçün təhlükəsiz hiss edəcəyi rahat bir atmosfer yaranarsa, mümkün ola billər. Bu cür əlaqənin yaradılmasına dair bəzi fikirlərə daxildir:

• Dərsin şagirdlərin əvvəlki bilik və bacarıqlarına əsasən qurulması. Müəllimlər şagirdləri çox yaxşı tanımalı və onların dərsdə fəal iştirakı və öz biliklərini nümayiş etdirmələri üçün imkan yaratmalıdır.

• Yeni anlayışları izah edərkən uşaqların gündəlik təcrübələrindən istifadə etmək. Bu, uşaqlar üçün dərsin müvafiqliyini artıracaq. Şagirdləri evdən əşyalar gətirməyə, öz hekayə və təcrübələrini paylaşmağa ruhlandırmaq olar. Həmçinin, müəllim şagirdlərinin yaşam şərtlərindən və mədəniyyətindən xəbərdar olmalıdır.

• Gündəlik situasiyalarda öyrəndiklərini təcrübə etmək üçün uşaqlara imkan yaratmaqla təlimi məqsədyönlü edin. • Uşaqların bir fəndə öyrəndiklərinin digər fəndə qazandıqları bilik ilə əlaqələndirilməsi. Əksər fənlər bir-biri ilə əlaqəlidir və bu əlaqəni göstərmək zəruridi

**- Çoxsaylı təlim üsulları;**

Uşaqlar müxtəlif yollarla öyrənirlər. Əksər uşaqlar öyrənmə prosesində öyrənmə üçün olan fərqli yolların hamısından istifadə edir. Müəllimlər bütün uşaqların iştirakını və birlikdə öyrənməni təmin etmək üçün müxtəlif təlim yanaşmalarından istifadə edərək təlimin çoxsaylıüsullarını asanlaşdırmalıdır. Uşaqyönümlü pedaqogikada müəllimlər düşünən təcrübəçilərə çevrilirlər. Onlar daim düşünməyə sövq edilirlər:

- Onların sinifindəki uşaqlar ilə ən rahat təlim üsulu hansıdır?
- Niyə bəzi uşaqlar təlimdə başqaları kimi eyni sürətlə irəliləmir?
- Bütün uşaqların öyrənmə və nailiyyət qazanmasını təmin etmək üçün istifadə olunan strategiya və üsullar hansılardır?
- Strategiya və üsulların hamı üçün əlyetərliliyini təmin etmək üçün resurslar, fəaliyyətlər və ya yanaşmalar necə tənzimlənməlidir?
- Uşaqların motivasiyası necə yüksəldilməli və təlimə cəlb olunmalıdır? Mədəniyyətə bağlı amillər (evdən gələn tərbiyə) uşaqlar ilə müəllimlər və valideynlər arasında qarşılıqlı əlaqəni necə formalaşdırır? Dərsin mövzusu, şagirdlərin xüsusi öyrənmə yolları, məzmun və müəllimlərin bacarıqları və s. kimi bir çox amillərdən asılı olaraq müəllimlər müxtəlif tədris yanaşmalarından istifadə edəcəklər, məsələn: uşaqlara biliklərini kəşf etmək, ifadə etmək, öyrənmək və möhkəmləndirmək üçün imkanlar yaratmaqla.
- Uşaqlara öz tədqiqatlarını aparması və problemi həll etmək üçün bacarıqlarından istifadə etməsində sərbəstlik verilməsi və təbii istedadlarından ən yaxşı şəkildə istifadə etmələri məqsədilə necə istiqamətləndirilməlidir?

**- Uşaqların müxtəlif yollarla öyrəndiklərinin qəbul edilməsi;**

- Bütün uşaqlar müxtəlif yollarla, müxtəlif anlarda öyrənirlər;
- Şifahi: danışılan və ya yazılan sözlər ilə öyrənmə (yaddaş, xatırlama);
- Məntiqi: mülahizələr (rəqəmlər, nümunələr, ölçülər) və hesablamalar vasitəsilə öyrənmə;
- Vizual (əyani/görmə): əyani vəsaitlər ilə öyrənmə (xəritələr, diaqramlar, şəkillər);
- Bədən: hərəkət vasitəsilə öyrənmək (oyun, səhnəcik);
- Musiqi: səslər (qafiyə, ritm, təkrarlama) vasitəsilə öyrənmə;
- Şəxsiyyətlərarası: qrup işi vasitəsilə öyrənmə (sosial əlaqələr);
- Şəxsiyyətdaxili: fərdi təhlil üsulu ilə öyrənmə (fərdi iş, fikri cəmləmək). Uşaqların öyrənmə metodlarını bilmək üçün müşahidə və təhlil zəruridir. Eyni kurikulum məzmununun təlimi üçün müxtəlif üsul və strategiyalardan istifadə edilməli və fəaliyyətlərin hamı üçün mənimsənilən olmasını təmin etmək məqsədilə tənzimləmələr edilməlidir.

**- Birgə öyrənmə;**

Birgə öyrənmə daxilində şagirdlər ümumi hədəflər naminə çalışmaqla məsuliyyəti və resursları bölüşürlər. Birgə qrup işinin uşaqların əsas anlayışları yaxşı qavramasına, həmçinin işə və bir-birinə qarşı müsbət münasibətlərin qurulmasına güclü müsbət təsiri ola bilər. Yaxşı tətbiq edildiyində qrup işi müəllimlərə fərdi və kiçik qruplar ilə daha çox vaxt keçirməyə imkan verir. Birgə öyrənmə və qrup işinə dair müxtəlif yanaşmalar var. Uşaqları necə qruplara bölməyi təyin etmək müəllimlər üçün mühümdür. İnklüziv siniflərdə, xüsusilə əlilliyi olan uşaqları öyrədərkən qrup işinin səmərəli olmağını təmin etmək üçün, yaxşı olar ki, bacarıqların səviyyələrinə görə qruplaşdırılma aparılmasın. Əlilliyi olan bütün uşaqları

bir qrupa yığmaq çox qürurqırıcı ola bilər və bu, uşaqlara əməkdaşlıq və öyrənmə üçün az imkanlar verir. Müxtəlif təməl biliklərə malik uşaqlardan ibarət qrup yaratmaq hər kəs üçün daha öyrədici imkanlar təmin edir. Fəaliyyətin hər kəs üçün anlamlı olduğunu təmin etmək məqsədilə qrup işi diqqətlə planlaşdırılmalı və lazım olduqda tapşırıq zamanı müəllim öz köməyini göstərə bilməlidir. Uşaqlar qrup işini müvəffəqiyyətlə tamamlamaq üçün müəyyən bacarıqlara yiyələnməli və onları istifadə etməlidirlər (çalışmanın başa düşülməsi, tapşırığın və resursların bölgüsü, növbələşmə, bir-birinin töhfələrini dəyərləndirmək, ideyalarını ifadə etmək və fəal qulaq asmaq və s.). Uşaqların hər biri müəyyən bir vəzifəni icra edə bilər. Vəzifələrin dəyişməsini, məsələn, hər kəsin növbə ilə qrup rəhbəri olmasını təmin edin. Həmçinin qrup işində əlilliyi olan uşaqların dəyərli və həlledici vəzifə almaları mühümdür. Adətən qrup işinə başlamazdan öncə təməl qaydaların qoyulması zəruri ola bilər. Qrup işinin faydalı olması üçün qrupda elə şərait yaradılmalıdır ki, uşaqlar fərdi şəkildə tapşırıqları tamamlamasınlar və ehtiyac olduqda digərinə kömək etsinlər. Ən maraqlı təlim təcrübələri uşaqlar bir-birilərindən asılı olduqları və tapşırığı tamamlamaq üçün əməkdaşlıq etməli olduqları an alınır. Qrup işi daxilində bir-birindən asıllığın müxtəlif formalarına aiddir:

- Hədəf asıllığı: qrupun tək bir hədəfi var;
- Mükafat asıllığı: hər bir uşağın müxtəlif resursları var (materiallar və bilik) və tapşırığı tamamlamaq üçün onlar birləşdirilməlidir;
- Vəzifə asıllığı: tapşırığın tamamlanması üçün hər uşağın müxtəlif vəzifələri var (vaxta nəzarət edən, hesabat verən və s.).

**- Cəlbedici və əlçatan təlim imkanları;**

Sinif və məktəbin mühiti uşaqyönümlü təlim və tədrisi dəstəkləyə bilər. Uşaqyönümlü təlim məkanları bütün uşaqlar üçün nəzərdə tutulmalı, hər kəs üçün təhlükəsiz və hər şagirdin bərabər iştirakı və özünü kəşf etməsinə yönəlik olmalıdır. Hər kəs üçün cəlbedici və əlçatan təlim məkanları yaratmaq zəruridir, amma bu son hədəf deyil, əsas məqsəd: keyfiyyətli təhsil almaq bütün uşaqların hüququdur – bu hüququn dəyərləndirildiyi və həmin hüquqa əsaslanan uşaqyönlü təlim yanaşmasının həyata keçirilməsidir. Uşaqyönümlü təlim məkanlarının bəzi xüsusiyyətləri:

- Fiziki məkan: bütün uşaqların sinif və məktəb daxilində, ətrafda sərbəst hərəkət edə bilmələri, fərdi və qrup şəklində işləmələri və lazım olduqda öyrənmə vasitələrinə yanaşmalarını təmin edin.
- Öyrənmə guşələri: uşaqların müstəqil və ya qrup şəklində öz iradələri ilə öyrənmək üçün sinifinizdə müxtəlif öyrənmə guşələri qurun. Hər bir guşədə resurslar və təlimatlar təqdim edilir. Həmin guşələr şagirdlərə əvvəl öyrəndiklərini zənginləşdirmək, yeni bacarıqlarını təcrübə etmək və yeni anlayışları kəşf etmək üçün şans verir. Şagirdlər öyrənmə guşələrinin planlaşdırılmasında, təşkilində və idarəsində iştirak edə bilər.
- Təqdimat yeri: sinifinizdə bütün uşaqların işlərini nümayiş etdirə biləcəyiniz və fəaliyyətləri haqqında rəy verə biləcəyiniz təqdimat lövhəsi hazırlayın. Təqdimat lövhəsini teztez dəyişin və onu tədris vasitəsi kimi istifadə edin.
- Sinif kitabxanası: kitablar çox səmərəli tədris vasitələridir və kitablar yeni anlayışları öyrənməyə, dillərini inkişaf etdirməyə və məlumatı başa düşməkdə uşaqlara kömək edir.

Kitablar və ya uşaqların özlərinin hazırladıqları kitablar da bahalı uşaq kitabları kimi səmərəli ola bilər.

**- Qiymətləndirmə;**

Bütün müəllimlər ilin, yarımilin, həftənin və ya dərsin müxtəlif zamanlarında şagirdlərinin nə öyrəndiklərini, biliklərini və bacarıqlarını necə tətbiq etdiklərini müəyyənləşdirir. İnklüziv və uşaqyönlü siniflərdə davamlı formativ qiymətləndirmə ilə bütün uşaqların təlimin müxtəlif üsullarına əsasən qazandıqları bilikləri fərqli üsullarla göstərmək imkanları olacaq. Formativqiymətləndirmə, uşaqların dərsi başa düşməsinə əmin olmaları üçün istənilən an dərslərinə düzəliş edə bilən müəllimlərə və daha yaxşı nəticə əldə etmək istəyən uşaqlara verilən rəydir.

- Uşaqlara biliklərini nümayiş etdirməyə icazə verin və bu zaman müxtəlif yollardan (yazılı, şihafi, iş portfoliosu, müşahidələr və s.) istifadə edə biləcəklərini bildirin;
- Qiymətləndirmə müntəzəm olaraq uşaqların güclü və zəif tərəfləri haqqında valideynlər ilə ünsiyyət qurmağa kömək edir, beləliklə, tədris ili ərzində valideynlər uşaqlarının öyrənmə prosesinə cəlb oluna bilərlər. Bu yanaşma daxilində formativ qiymətləndirmə, tədrisi yönəldən və öyrənməni təşviq edən təhsil prosesi kimi xidmət edir.

**- Müəllimlərin rolunun dəyişməsi.**

Sinifdə uşaqyönümlü yanaşmanı icra etdikdə müəllimin rolu dəyişir. Müəllimlər vəziyyətdən asılı olaraq müəyyən rollar icra edirlər. Bu rollardan bəziləri bunlardır:

- Metodist: ideyaların həyata keçməsinə öz konstruktiv töhfələrini vermək üçün uşaqları təşviq edir və müvafiq təlim imkanları ilə təmin edir.
- Menecer: Bütün üşaqların cəlb olunması üçün müzakirələri planlaşdırır və istiqamətləndirir.
- Müşahidəçi: Uşaqlar oynayarkən, fərdi və ya qrupda çalışarkən onları müşahidə edir. Bu, uşaqları daha yaxşı anlamağa və onlar üçün daha yaxşı öyrənmə fəaliyyətləri yaratmağa kömək edir.

**Müxtəlif təlim metodları.**

- İstisnasız bütün uşaqlar öyrənə bilərlər. Həyatlarının müxtəlif mərhələlərində öyrənmə fərqli ola bilər. Bəzi uşaqlar müəllimə qulaq asmaqla, digərləri isə vizual vəsaitlərdən və ya qrup müzakirələrindən istifadə edərək öyrənir.

Hovard Qardner "Müxtəlif üsullarla dərketmə" nəzəriyyəsində aşağıdakı intellekt növlərini bir-birindən fərqləndirmişdir.

1. Verbal-linqvistik intellekt. Dil vasitəsilə biliklərin əldə edilməsi, həm yazılı, həm də şifahi nitqdə dil qaydalarından düzgün istifadə, dilin sosial-mədəni xırdalıqlarını anlama verbal-linqvistik intellektin göstəricilərinə aid edilir. Əgər uşaqda bu intellekt növü güclü inkişaf edibsə, o zaman onun oxumaq, danışmaq və yazmaq bacarıqları da güclü inkişaf edib. Belə uşaqlar sözlər vasitəsilə düşünür, erkən yaşda yazmaq və oxumaq vərdişlərinə yiyələnə bilirlər. Bu zəkaya sahib olan uşaqlar böyük bir söz ehtiyatına sahib olduqları üçün bütün problemləri müzakirə və inandırma yolu ilə həll edir, aldıqları informasiyalarla effektiv işləməyi bacarırlar. Onlar üçün öyrənmənin müzakirə və diskussiya formasında aparılması önəmlidir. Ən yaxşı tədris metodu mətn oxumaq, inşa yazmaq və ya diskussiyalar aparmaqdır. Bu intellekt növünün təzahürləri olan uşaqlar həm xarici, həm də yerli dilləri asanlıqla öyrənə bilirlər.

2. Məntiqi-riyazi intellekt. Təsnif etmək, proqnozlaşdırmaq, tənqidi düşünmək, təhlil edərək nəticə çıxarmaq, müxtəlif mövzularda mühakimə yürütmək, qanunauyğunluqlara əsasən məlumatları analiz etmək, konseptual düşüncə, riyazi çalışmaları və kompleks hesablamaları sürətli həlletmə qabiliyyətləri bu intellekt növü üçün xarakterikdir. Bu intellekt növü yaxşı inkişaf etmiş şagirdlərin maraq dairəsi çox geniş olur, özlərinə maraqlı olan sualların cavabını tapana qədər axtarışda olurlar. Belə şagirdlər həyatlarında baş verənləri anlamaq üçün müxtəlif şablonlardan istifadə edirlər. Bunlara düşüncə, vizual, rəng şablonlarını daxil etmək olar. Məntiqi-riyazi intellekt növü real həyatdakı konkret şablonlarla başlayır, lakin gördüyümüz bütün şablonlar arasındakı əlaqələri başa düşməyə çalışdıqca, get-gedə abstraklaşır. Əgər şagird məntiqi-riyazi intellektə malikdirsə, daha çox konseptual və abstrakt düşünməyə meyilli olur, həmçinin digərlərinin gözdən qaçırdığı şablon və əlaqələri görməyi bacarır. İnkişaf etmiş məntiqi-riyazi intellektə sahib uşaqlar asanlıqla səbəb-nəticə əlaqələrini təyin edir, sistemləşdirməyə can atır, abstrakt məlumatlarla zehni əməliyyatlar aparırlar. Onlar təcrübələr aparmağı, tapmacalar və məsələlər həll etməyi, mövcud şəraitdə insanların davranışlarını təhlil etməyi və nəticə çıxarmağı xoşlayır, rəqəmlər və riyazi düsturlarla işləməyi, riyazi əməliyyatlar aparmağı xoşlayır, müxtəlif qrafiklər və statistik məlumatlarla asanlıqla işləyir, eləcə də, mürəkkəb məsələləri həll etməyin gətirdiyi çətinliyi sevirlər. Sistemli və mütəşəkkil xarakterə malik olmaqla yanaşı, həm də hər bir hərəkət və düşüncələrini həmişə məntiqlə əsaslandırmağı, "niyəsini" izah etməyi bacarırlar.

3. Məkan-vizual intellekti. Məkan-vizual intellekt növü obrazlı düşünmə qabiliyyəti ilə şərtlənir. Bu, gözlərimizlə gördüyümüz forma, şəkil, model, dizayn və teksturalar vasitəsilə, eyni zamanda təxəyyülümüzdə canlandıra bildiyimiz bütün şəkillər vasitəsilə əldə olunan bilikləri təmsil edir. Bu intellekt növü güclü inkişaf etmiş şagirdlər şəkillər və rəsmlər vasitəsilə düşünməyə meyilli olub, rənglərin ahəngliyini hiss edir, obyektlər arasında mövcud olan incə rəngləri, xətləri və münasibətləri, ətrafdakı müxtəlif obyekt, forma, rəng, teksturalar və modelləri çox yaxşı fərqləndirirlər. Vizual-məkan intellekti olan uşaqlar yaxşı inkişaf etmiş motor bacarıqlarına sahibdirlər. Onlar quraşdırmağı, maraqlı dizayn, model və

rəsm çəkməyi, rəngləməyi, parçalarla, çertyojlarla, rəngli markerlər və gillə işləməyi sevir, pazllar quraşdırmaqdan, xəritədən istifadə etməkdən və labirint oyunlarından zövq alırlar.

Onlarda məkan anlayışı inkişaf etmiş olur. Müxtəlif məkanlarda xırda detalları asanlıqla yadda saxlayır, cədvəlləri rahatlıqla oxuyur və diaqramları anlayırlar. Şüurlarında təsəvvür etdiklərini real yaradılmış obyektlərə və məhsullara köçürə bilirlər. Təsəvvürlərində 3D modellər qurub, beyinlərində əvvəlcədən dəyişiklikləri və yerdəyişmələri düşünüb, sonradan onları həyata keçirə bilirlər. Vizual qavrayış müəyyən bilik, bacarıq, emosiya ilə komplekt şəkildə olduqda tanış obrazların yeni görünüşünün yaradılmasına səbəb olur. Onlar ətrafı başqa bucaqdan görə və görüntünün müxtəlif formalarını təklif edə bilirlər.

4. Bədən-kinestetik intellekti. Bu növ intellektin güclü inkişaf etdiyi uşaqlar üçün əsas özünü ifadə aləti onların bədənidir. Hərəkətlər, müxtəlif mimikalar vasitəsi ilə onlar emosiyalarını və fikirlərini rahat ifadə edə bilirlər. Biz tez-tez "edərək öyrənmək" haqqında danışırıq. Bu növ intellekt fiziki hərəkət vasitəsilə inkişaf edir. Zehin və bədənin yüksək koordinasiyası bədən-kinestetik intellektli insanlara xasdır. Bədən-kinestetik intellekti olan uşaqlar dünyanı, ətraf mühiti toxunuşla öyrənirlər. Onlar bədənlərinə yaxşı nəzarət edir, hərəkətlər və jestlər vasitəsilə duyğularını çatdıra bilir, yüksək fiziki fəaliyyət, aydın koordinasiya, çeviklik, toxunma yaddaşına malik olurlar. Qaçmaq, tullanmaq, tarazlıq, elastiklik, bədənlərini mükəmməl hiss etmək, hərəkətləri idarə etmək, rəqs etmək, cisimləri idarə etmək qabiliyyətləri yaxşı inkişaf etmişdir. Onlar ustalıq etməyi və əlləri ilə yaratmağı xoşlayırlar. Onların bacarıqları rəqabət və uğur qazanmaq yolunda çalışmaqla inkişaf edir. Uzun müddət bir yerdə hərəkətsiz oturmaqda çətinlik çəkir, ətrafda baş verən hadisələrdə aktiv iştirak etməyəndə darıxırlar.

5. Musiqi-ritmik intellekt. Musiqi-ritmik intellekt güclü inkişaf etmiş uşaqlarda musiqi, ritm və səsi duyma və qiymətləndirmə qabiliyyəti güclü olur. Bu intellekt səs və vibrasiya vasitəsilə yaranan bacarıqdır. Bu intellekt növü səsin bütün sahələri ilə əlaqəlidir: tonlar, ritmlər və vibrasional şablonlar, musiqi və s. Onlar musiqi əsərlərini elementlərə ayıra və əsərdə səslənən bütün alətləri seçə bilirlər. Musiqi-ritmik intellektin yaxşı inkişaf etdiyi şagirdlər səsləri mükəmməl qəbul edir və ona emosional reaksiya verir, ətraf mühitdə və təbiətdə rast gəlinən səslərə qarşı çox həssas olurlar.

6. Şəxslərarası intellekt. Bu intellekt növünə ətrafdakı insanların əhval-ruhiyyəsini, maraqlarını və hisslərini hiss etmək qabiliyyəti aiddir. Yəni şagird yeni bilikləri insanlarla ünsiyyət vasitəsilə alır. Bu cür uşaqlar üz ifadələrini, səs tembrini və səs tonunu, jestləri incəliklərinə qədər hiss edirlər. Həmçinin bu "siqnallara" qarşı həssas olur və dərhal həmsöhbətinə kömək etməyə çalışırlar. Şəxslərarası intellekt şifahi olmayan (sözsüz) və şifahi (sözlü) ünsiyyət bacarıqlarını əhatə edir. Şəxslərarası intellektin yaxşı inkişaf etdiyi uşaqlar birgə oyunlarda özlərini böyük kimi hiss edir, tez-tez təşəbbüskar rolunda çıxış edirlər. Yaranan münaqişələri düzəldə və ya mövcud olanları həll edə bilirlər. Onlar danışıqlar aparmağı, başqalarını idarə etməyi, hədəflərinə çatmaq üçün qarşılarındakını motivasiya etməyi bacarırlar.  Şəxslərarası intellekt insanların ruh halını və istəklərini təyin

etmək qabiliyyətini verir. Belə şagirdlər komandada çalışmaqdan zövq alırlar, ona görə də qrupla və ya cütlərlə iş onlar üçün öyrənməyin ən yaxşı yoludur.

Bu intellekt növünə ətrafdakı insanların əhval-ruhiyyəsini, maraqlarını və hisslərini hiss etmək qabiliyyəti aiddir. Yəni şagird yeni bilikləri insanlarla ünsiyyət vasitəsilə alır. Bu cür uşaqlar üz ifadələrini, səs tembrini və səs tonunu, jestləri incəliklərinə qədər hiss edirlər. Həmçinin bu "siqnallara" qarşı həssas olur və dərhal həmsöhbətinə kömək etməyə çalışırlar. Şəxslərarası intellekt şifahi olmayan (sözsüz) və şifahi (sözlü) ünsiyyət bacarıqlarını əhatə edir. Şəxslərarası intellektin yaxşı inkişaf etdiyi uşaqlar birgə oyunlarda özlərini böyük kimi hiss edir, tez-tez təşəbbüskar rolunda çıxış edirlər. Yaranan münaqişələri düzəldə və ya mövcud olanları həll edə bilirlər. Onlar danışıqlar aparmağı, başqalarını idarə etməyi, hədəflərinə çatmaq üçün qarşılarındakını motivasiya etməyi bacarırlar.Şəxslərarası intellekt insanların ruh halını və istəklərini təyin etmək qabiliyyətini verir. Belə şagirdlər komandada çalışmaqdan zövq alırlar, ona görə də qrupla və ya cütlərlə iş onlar üçün öyrənməyin ən yaxşı yoludur.

7. Şəxsdaxili intellekt. Şəxsin öz daxili hissləri, dəyərləri, inancları və düşünmə proseslərini anlamaq və onları aydın şəkildə hiss etmək qabiliyyətidir. Şəxsdaxili intellektin güclü inkişaf etdiyi uşaqlar öz üstün və mənfi cəhətlərini, əhval-ruhiyyələrini, emosiyalarını, istəklərini obyektiv şəkildə qiymətləndirirlər. Onlar özününizamlama və özünüqiymətləndirmə qabiliyyətləri ilə seçilirlər. Bu intellekt növünün mərkəzində özünə kənardan baxa bilmək və öz həyatı barədə düşünə bilmək imkanı yaradan fərdi refleksiya bacarıqları durur. Bu intellekt növü güclü inkişaf etmiş şagirdlər tək işləməyi sevir və bu xüsusiyyət bəzən onları insanlarla ünsiyyətdən kənarlaşdırır.

8. Naturalist intellekt. Müxtəlif növ flora və fauna növlərini tanımaq və təsnif etmək, təbiətdəki digər obyektləri müəyyənləşdirmək və kateqoriyalara bölə bilmək, müxtəlif təbiət hadisələrini anlayıb dəyərləndirməyi bacarmaq qabiliyyətidir. Bu intellekt növünün güclü inkişaf etdiyi uşaqlar təbiəti, ətraf aləmi və onun fenomenləri ilə ünsiyyətdə olmağı sevirlər. Onlar təbiəti daha yaxından hiss edir, təbiətin iştirak etdiyi hər hansı bir fəaliyyətdən (bitkilərin inkişafını, heyvanlara qulluq və qayğı göstərməklə müşahidə etmək) böyük zövq alır və bununla öyrənirlər. Naturalist intellektli uşaqlar yürüyüşə getməyi, dağlara çıxmağı və bağda işləməyi sevirlər. Onlar uşaqlıqdan ekologiya, heyvanlar və bitkilər aləmi ilə maraqlanırlar. Bu uşaqlar üçün təlim prosesinin qapalı şəraitdə deyil, mümkün qədər tez-tez açıq bir məkanda baş tutması çox vacibdir.

9. Ekzistensial intellekt. Bu intellektin təzahürlərinə fəlsəfi düşünmək qabiliyyəti daxildir. Onlar erkən yaşlarından yüksək səviyyəli düşüncələri ilə fərqlənirlər. Hisslərini anlayır və onları idarə edə bilirlər. Onlar sağlam düşünə bilir və nəticə çıxara bilirlər. Erkən yaşlarından onları insanın yaradılışı, varlığı, həyatın mənası və ölümlə bağlı mövzular maraqlandırır və dünyanın yaranışı ilə bağlı müxtəlif fikirlər irəli sürür, müzakirələr və mübahisələr aparır, başqalarının konsepsiya və fikirlərini araşdırırlar. İlahi elmlər və fəlsəfə ilə dərindən maraqlanır, sağlam düşünərək uzunmüddətli planlar qurur və bu planlara riayət edə bilirlər.

## X Mövzu: İnklüziv məktəbin təkmilləşdirilməsi üçün müəllimlər arasında əməkdaşlıq

**Plan:**

1. Birgə əməkdaşlıq yolu ilə öyrənmə.
2. İnklüziv sinifdə xüsusi pedaqoqla müəllimin əməkdaşlığı.
3. Müəllim və müəllim köməkçisinin vəhdəti, hər birinin vəzifələri.
4. Müəllimlər arasında əməkdaşlıq modelləri:

- Dərsin birgə tərtibatı;
- Müşahidə və rəy;
- Açıq dərs;
- Tədqiqat qrupları;
- Birgə təlim.

5. Müəllimlər arasındakı əməkdaşlığı çətinləşdirən səbəblər və onların aradan qaldırılması yolları. Müəllimləri əməkdaşlıq etməyə həvəsləndirmək üsulları.

**Ədəbiyyat:**


1. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNİCEF, RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNİCEF-in Azərbaycan nümayəndəliyi, 2019.
2. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF , RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları. Bakı, UNICEF -in Azərbaycan nümayəndəliyi, 2019
3. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. İnklüziv siniflərdə təlimin təşkili. Bakı 2018
4. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF ), 2019
5. Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiya 4(2016) nömrəli Ümumi Şərh Maddə 24: İnklüziv təhsil hüququ. Bakı, BMT-nin Uşaq fondu (UNICEF ), 2019
6. Bacarıqlar haqqında. Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın izahı. Bakı, BMT-nin Uşaq fondu (UNICEF ), 2019.
7. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 2020
8. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020
9. İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması. Texniki kitabça 1. Bakı, UNİCEF, 2020
10. Hacımuradova L.N. İnklüziv təhsil baxdığınız güzgüləri dəyişir. // Gəncə Dövlət Universitetinin elmi xəbərləri. Gəncə 2019, № 3; səh.240-243
11. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika. Texniki kitabça 12. Bakı, UNİCEF, 2020


### 1. Birgə əməkdaşlıq yolu ilə öyrənmə.

- İnklüziv təhsil digər sahələrdən təcrid olunmuş şəkildə baş vermir. Hər hansı məktəbi inklüziv məktəbə çevirmək üçün müəllimlər, məktəb rəhbərləri və icma birlikdə mürəkkəb bir yol qət edir. Müəllimlərin ən yaxşı öyrəndiyi mühit onlara dəstək verən, inam və paylaşma mədəniyyətinin olduğu və birlikdə öyrəndikləri münbit mühitdir. Müəllimlər onlara kifayət qədər dəstək göstərildiyini bildikləri zaman, yeni tədris strategiyalarını təcrübədən keçirməyə daha həvəsli olurlar və tədris və öyrənmə prosesinin təkmilləşdirilməsində, bununla da təhsilalanların təlim nəticələrinin yaxşılaşdırılmasında daha fəal iştirak edirlər.

Məktəblərdə müəllimlərin təlim icmalarının yaradılması əməkdaşlıq mədəniyyətinin yaradılmasına stimul verə bilər. Öyrənmə sosial fəaliyyətdir. Müəllimlərin öyrənməsi üçün ən yaxşı vasitə əməkdaşlıq və iş yerində öyrənməkdir. Öyrənmə prosesi o zaman daha effektli olur ki, müəllimlər real həyatda yaşadıqları təcrübələri və çətinlikləri bir-biri ilə bölüşür və həll yollarını birgə formalaşdırırlar. İş yerində öyrənmə müəllimlərə öyrəndiklərini dərhal təcrübədən keçirmək imkanı verir.

Müəllimlər inklüziv təhsili tətbiq edə bilmək üçün praktiki dəstəyə ehtiyac duyur. Bunu təmin etmək üçün peşəkar təlim icmaları yaradılmalıdır. Peşəkar Təlim İcmaları, yəni metodbirləşmələr şagirdlərin nailiyyətlərini yüksəltmək üçün davamlı olaraq müəllimlərin fəaliyyətini birgə tədqiq edirlər.

1. **Şagirdlərin öyrənməsini təmin etmək**. Peşəkar təlim icması praktiki tətbiqetməyə və özünüqiymətləndirməyə şərait yaradan davamlı refleksiya prosesinə cəlb olunur. O, müəllimlərin təlim və öyrənmə prosesi barədə refleksiya etməsi üçün platforma kimi çıxış edir. Müəllimlər qarşıya çıxan problemlərə birgə baxır, həll edir və öyrəndiklərini dərhal sinif otağında təcrübədən keçirirlər. Peşəkar təlim icmasının əsas məqsədi "şagirdlərin sadəcə dərsdə iştirakını deyil, öyrənməsini təmin etmək"dir. PTİ hər bir şagirdin öyrənməsini təmin etmək öhdəliyini üzərinə götürür və aşağıdakı kimi vacib suallara cavab axtarır:

- Biz hər bir şagirdin nəyi öyrənməyini istəyirik?
- Hər bir şagirdin bunu öyrəndiyini necə biləcəyik?
- Şagird öyrənmədə çətinlik çəkəndə biz hansı tədbirləri görəcəyik?

2. **Hər kəsin öyrənməsinə yönələn əməkdaşlıq mədəniyyəti**. Müəllimlər çox zaman qapılarını bağlayıb təcrid olunmuş şəraitdə işləməyə öyrəşiblər. Uğurlu Peşəkar Təlim İcması güclü əməkdaşlıq mədəniyyətinə malik olur. Əməkdaşlıq üçün inam tələb olunur. PTİ-nin bütün üzvləri üçün rahat mühit yaratmaq və onlara hörmət etmək vacibdir. Bu, səmimi və məhsuldar müzakirələrə şərait yaradan, açıq, qayğıkeş və müsbət mühitə imkan yaradır. Əməkdaşlıq nəticəyə çatmaq üçün bir vasitədir, özü nəticə deyil. PTİ kontekstində əməkdaşlıq dedikdə, müəllimlərin öz təlim praktikasına şagirdlər, heyət və məktəb üçün daha yaxşı nəticələr əldə etməyə imkan verən dəyişikliklər etmək üçün birgə çalışdığı sistemli proses nəzərdə tutulur.

**3. Diqqəti nəticələrə yönəltmək**. PTİ-nın məqsədi diqqəti şagirdlərin öyrənməsinə yönəltməkdir. PTİ-lərin səmərəliliyi şagird nailiyyəti ilə ölçülür. PTİ-nin hər bir üzvünün irəliləyişi müntəzəm monitorinq etməklə təlim nəticələrinin cari səviyyəsinin yaxşılaşdırılması məqsədini güdür. Nəticələrə bu cür köklənmə məktəbin və rayonun təhsil məqsədləri ilə uzlaşan, ölçülə bilən məqsədlərin qoyulmasına gətirib çıxarır. Onlar həm də

bir-birindən öyrənmək, fərdi təlim fəaliyyətlərindəki güclü və zəif cəhətləri aşkar etmək üçün nəticələri incələyirlər. Ən əsası, qiymətləndirmələr öyrənmək üçün əlavə vaxta və dəstəyə ehtiyacı olan şagirdləri müəyyən etmək üçün istifadə edilir.

PTİ bu prinsiplərə sadiq olarsa, bütün üzvlərin (müəllimlərin) yerli (məktəb əsaslı) təlim prosesində iştirakını təmin etmək üçün müvafiq strukturlar yaradılar. PTİ-nin və təlim mədəniyyətinin dayanıqlılığını qorumaq üçün bütün məktəbin, o cümlədən məktəb rəhbərliyinin prosesə cəlb olunması vacibdir. Bunlar peşəkar təlim icmasının yaradılması üçün əsas elementlərdir. Formal struktur vacibdir. PTİ-lər birlikdə çalışmaq üçün protokollar yaradır, təlim sessiyaları üçün mütəmadi qrafik barədə razılığa gəlirlər. PTİ görüşlərinin əsas mövzuları şagirdlərin təliminə yönəlir və davamlı refleksiya ilə məşğul olur.

Müəllimlər birlikdə sinifdəki hər hansı problemi təhlil edir, strategiyalar yaradır və onu dərhal təcrübədən keçirir, nəyin uğurlu, nəyin uğursuz alındığını qiymətləndirir. Prosesdə müəllim səriştəsi inkişaf edir, bu, təlim nəticələrinin yaxşılaşmasına gətirib çıxarır. İnklüziv siniflərin yaradılması üçün müəllimlər öz potensiallarını artırmalıdırlar. PTİ-lər müəllimlərin malik olduğu təcrübə və bilikləri təkmilləşdirir. Təlim və öyrənmə ilə bağlı məsələlərin həll yolları müəllimlərin gündəlik təcrübələrində və üzləşdikləri çətinliklərdədir.

Müəllimlər arasında əməkdaşlıq fikirlərin və təlim strategiyalarının mübadiləsinə imkan verir. Müəllimlər bir-birilərindən yeni biliklər əldə edir və sinifdə üzləşdikləri çətinliklərin öhdəsindən gəlmək üçün öz səriştələrini birlikdə artırırlar.

**2. İnklüziv sinifdə xüsusi pedaqoqla müəllimin əməkdaşlığı.**

**- İ**nklüziv təhsilin müxtəlifliyə istiqamətlənmiş tədris prosesi kimi konseptləşdirilməsi fərdi şagirdlər üçün daha hansı əlavə dəstək formalarının olmasına dair suallar yaradır. Həmçini bu mütəxəssis heyətinin rol bölgüsünə də öz təsirini göstərir.

Beynəlxalq miqyasda xüsusi təhsil ehtiyacları olan şagirdlərə fərdi dəstəyin təmin edilməsi üçün müxtəlif yanaşmalar mövcuddur. Onların hər biri potensial üstünlük və çatışmazlıqlara malikdir. Məsələn, Finlandiyada xüsusi müəllimlərin rolunun tədqiqinə dair Takala və başqaları tərəfindən aparılmış tədqiqatda əsas üç yanaşma qeyd olunur:

1. Xüsusi təhsil üzrə pedaqoqla fərdi təlim – xüsusi diqqətin ayrılmasının effektiv görsənməsinə baxmayaraq bu hal şagirdlərin özlərini yüksək təzyiq altında hiss etməsinə də səbəb ola bilər; yaşıdlarla sosial təmasın olmaması, ümumtəhsil ocaqlarından təcrid olunma və təhsilə çəkilən əlavə xərclər.

2. Kiçik qruplarla təlim – bu üsulun fokuslanmış, sərbəst və dəstəkləyici atmosfer yaratması təəssüratı yaranır. Lakin burada da mənfi təsirlər müşahidə olunur – bəzi şagirdlər sinifdən kənarlaşdırıldığına görə əziyyət çəkir və özlərini təcrid olunmuş hesab edir; onlar əsas dərsdə keçirilənləri ötürür və qrup təlimlərində fərdlərə kifayət qədər vaxt ayrılmır. Xüsusi müəllimlər sinif müəllimi ilə birgə dərslərin planlaşdırılması üçün vaxt azlığından şikayət edir və orta təhsil pilləsində tədris proqramına dair kifayət qədər biliyə malik olmadıqlarını hiss edirlər.

3. Sinifdə iki müəllimlə birgə təlim – ümumilikdə bu üsul hər iki əməkdaş tərəfindən yaxşı qarşılanır. Bu, o deməkdir ki, sinifdə daha çox şagirdlər üçün dəstək əlçatan olur və ən əsası şagirdlər sinifdə qaldığı üçün dərsin əsas məzmununu qaçırmır. Dərslər daha yaxşı

planlaşdırılır. Lakin birgə planlaşdırma vaxt tələb edir və lazımi vaxt olmadıqda dəstəkləyici müəllim özünü köməkçi kimi hiss edir.

**3. Müəllim və müəllim köməkçisinin vəhdəti, hər birinin vəzifələri.**

- Bəzi ölkələrdə ümumtəhsil məktəblərində XTE olan uşaqların dəstəklənməsi bəzən Xüsusi Təhsil Ehtiyacları üzrə Koordinator (XTEK) və ya çox zaman inklüziya meneceri adlandırılan heyətin xüsusi mütəxəssis üzvü tərəfindən həyata keçirilir. Onlar bəzən sinifdə şagirdlərlə fərdi işləyən müəllim köməkçilərindən ibarət qruplardan istifadə edərək fərdi şagirdlərin dəstəklənməsinin təşkili işinə cəlb oluna bilər. 1997 – 2008-ci illər arasında İngiltərədə çalışan müəllim köməkçilərinin sayı 60,600-dan 176,900-ə qədər artmışdır ki, bu rəqəm məktəbin işçi qüvvəsinin dörddə birini təşkil edir. 68 Bəzi tədqiqatlar göstərir ki, müəllimlər sinifdə köməkçilərin olmasının şagirdlərin diqqətinin artması, öyrənmə prosesində irəliləyişlər, müəllimin işinin effektliyinin artması və əldə edilən nəticələrin yaxşılaşması daxil olmaqla tədris və öyrənməyə böyük diapazonlu təsirlər göstərdiyini hiss edir. Lakin digər tədqiqatlar bu heyətin təsirinə dair qarışıq mənzərə təsvir edir. Məsələn, Blatchford və başqalarının apardığı geniş miqyaslı araşdırma nəticəsində onlar iddia edirlər ki, təhsilin nəticələrinə təsir üzrə çox az dəlil var. Digər tərəfdən, ibtidai siniflərdə kiçik qruplarla olmaqla lazımi qaydada təlim keçmiş köməkçi heyət tərəfindən hədəflənmiş dəstək tədbirlərinin müəyyən şagirdlərin yazıb-oxuma bacarıqlarının inkişafında irəliləyişlərin əldə edilməsinə dair bəzi dəlillər vardır Eyni zamanda, Vebster və başqaları müəyyən etmişdir ki, orta məktəblərdə XTE olan şagirdlərin müəllim köməkçiləri ilə təması və onların müəllimlərlə qarşılıqlı əlaqəsinin sayı arasında tərs mütənasib əlaqə var. Əlavə olaraq, dəstəklənən şagirdlərin əksəriyyəti vaxtlarının çox hissəsini yaşıdlarının etdiklərindən fərqli olan tapşırıqları üzərində işləməklə keçirir. Bu müəlliflərin İngilis dili fənni kontekstində çox vaxt müəllim köməkçilərinin dəstəyindən müəllimin diqqətinə alternativ olaraq istifadə edilməsi qənaətinə gəlməsinə səbəb oldu. Nəticə olaraq onlar aşağıda sadalananları tövsiyə etdilər:

• məktəblər köməkçi heyətin müntəzəm olaraq aşağı nəticələr əldə edən şagirdlərə dəstək olmamasını təmin etmək üçün onların gördükləri işləri nəzarətdə saxlamalıdır;

• daha çox ehtiyacları olan şagirdlər müəllimlə daha çox vaxt keçirməlidir;

• müəllimlər köməkçi heyət tərəfindən dəstəklənənlər daxil olmaqla sinifdəki bütün şagirdlər üçün dərslərin planlanması öhdəliyini öz üzərinə götürməlidir.

Bu araşdırmaların nəticələrində bəzi fərqlərin olmasına baxmayaraq (çox güman ki, kontekstlə əlaqəli) ümumtəhsil ocaqlarında müəllim köməkçisindən istifadə edildikdə onların müvafiq təlim keçməsinin zəruriliyini vurğulayan ümumi qəbul edilmiş qayda var.Həmçinin müəllimlərin özlərinin də siniflərdə belə dəstəyin necə istifadə edilməsinə dair təlimə ehtiyac duyduqları iddia edilir. Vebster və başqaları (2010). Əsas fikir: Fərdi ehtiyaclar üzrə əlavə dəstəkdən istifadə ehtiyatla planlanmalı və bu işə cəlb olunanlar müvafiq qaydada təlim keçməlidir.

**4. Müəllimlər arasında əməkdaşlıq modelləri:**

- Bu modellər müəllimlər arasındakı əməkdaşlığa şərait yaradır və davamlı peşəkar inkişafa töhfə verir. Bu modellərin uğurlu olmağının səbəbləri:

• Onlar müəllimə köklənir, müəllimlərin hansı mərhələdə olduqlarını müəyyən etməklə başlayırlar. Əməkdaşlıq və peşəkar inkişafa yönəlməsi səriştənin artırılmasında fərdi ehtiyaclara uyğundur. Onlar modelləşdirmə, nəzarət, mentorluq üçün imkanlar yaradır.

• Onlar peşəkar təlim icmalarının yaradılması və öyrənmə ənənəsinin qorunub saxlanılmasına töhfə verir.

• Onlar təlimin əsas prinsiplərinə (şagirlər necə öyrənir, dərslər öyrənmə üzərində qurulur və dərslərin keçirilməsində ən yaxşı yanaşmalar) yönəlir.

• Onlar aktivdir və fəaliyyətə yönəlir.

• Onlar yüksək səviyyədə planlaşdırılan və təkrarlanan proseslərdir. Onlar müəllimlər arasında əməkdaşlığı qoruyub saxlamaqla davamlı peşəkar inkişafla nəticələnir.

• Onlar məktəb və iş əsaslıdır, bu da dərhal rəy almağa, yeni bilik və bacarıqları tətbiq etməyə imkan verir. Müəllimlər arasında əməkdaşlıq modelləri

**- Dərsin birgə tərtibatı;**

Bu modelə bəzən kurikulumun birgə planlaşdırılması, birgə dərs planlaşdırması, dərs tədqiqi və s. də deyilir. Dərsin birgə tərtibatı modelində müəllimlər bir dərsi birlikdə planlaşdırır və ya təkmilləşdirir, onu sinifdə sınaqdan keçirir, müşahidə, dəyişikliklər edir və dərsin şagirdin öyrənməsinə təsirini müəyyən etmək üçün məlumatlar toplayırlar. Bu, bir neçə ay müddətində baş verir. Birgə dərs tərtibatı zamanı hər hansı bir müəllim müəyyən yanaşma əsasında (məsələn, didaktik metod və ya oxunulanların başa düşülməsi strategiyası) dərs və ya silsilə dərslərin planlaşdırılmasında bir müəllim və ya bir qrup müəllimlə işləyir. Dərsin tərtibatı təlimin əsas elementlərini – məzmun, qiymətləndirmə və qarşılılıqlı fəaliyyəti əhatə edir. Dərsin peşəkar inkişaf ekspertinin bələdçiliyi altında bir qrup həmkarla birlikdə planlaşdırılması çox zəngin təcrübə ola bilər. O, təlim və öyrənmə ilə bağlı müzakirəyə şərait yaradır, nəzəriyyəni təcrübə ilə əlaqələndirir, praktiki fəaliyyəti və refleksiyanı təşviq edir, müəllimlərin diqqətini konkret məsələlərə (materialların hazırlanması, qruplaşdırma, təlim nəticələrinin planlaşdırılması, nəticələrin təlimat və qiymətləndirmə ilə uzlaşdırılması və s.) yönəldir, seminarda və ya sinifdə əldə edilən bilikləri müəyyən etməyə və onu təcrübədə tətbiq etməyə imkan verir.

**- Müşahidə və rəy;**

Bu modeldə peşəkar inkişafı təmin edən tərəf - məktəbin baş müəllimi, mütəxəssis və ya çox təcrübəli bir müəllim həmkarlarının dərslərində müşahidə apararaq, onların fəaliyyətlərini qiymətləndirir və planlı rəy verir. Bu model seminarlardan sonra il ərzində vaxtaşırı dəstək tədbiri kimi istifadə edilə bilər.

**- Açıq dərs;**

Açıq dərsdə əsas diqqət müəllimin davranışına yetirilir. Müşahidədən sonra planlı müzakirə və informasiya mübadiləsi olduqda, təcrübəli müəllim açıq dərs verdikdə hər iki tərəf−həm dərsi keçən, həm də müşahidə edən müəllim üçün faydalı olur.

**- Tədqiqat qrupları;**

Müəllimlər vacib məsələlərlə bağlı öz həmkarları ilə formal müzakirə və qarşılıqlı təmasdan faydalanırlar. Tədqiqat qruplarında müəllimlər böyük qrup və ya kiçik qruplar şəklində əməkdaşlıq edərək ümumi bir problemi həll etmək və ya ümumi bir məqsədə çatmaq üçün plan hazırlamaq və tətbiq etmək məqsədilə müəyyən bir məsələni tədqiq edirlər. Tədqiqat−(ixtisaslı bir təlimçinin rəhbərliyi altında aparılan oxuma, müzakirə, yazı

və refleksiya) tədqiqat qrupunun əsas komponentidir. Tədqiqat prosesində onlar çap formasında olan resurslardan, sinif otağı materiallarından (məsələn, şagirdlərin hazırladığı işlər) və problemə yanaşmalarının bir hissəsi kimi öz təcrübələrindən istifadə edə bilərlər.

**- Birgə təlim.**

Birgə təlim zaman iki və daha artıq müəllim birlikdə dərs keçirlər (dərslərin birgə planlaşdırılması prosesi çərçivəsində hazırlanan dərslər kimi). Birgə təlimin çoxsaylı modelləri mövcuddur. Məsələn, birgə dərs keçən müəllimlər vəzifələrini zaman və məkan baxımdan bölə, paralel və ya növbəli həyata keçirə bilərlər. Lakin birgə təlimin də öz çətinlikləri var. Birgə dərs keçən müəllimlər fərqli iş üslublarına və şəxsiyyətlərə malikdirlər, bu zaman dərsə nəzarətlə bağlı müəyyən dərəcədə güzəştə getməlidirlər. Birgə təlim texniki təchizat və təşkilatçılıq baxımından daha çox səy tələb edir. Sizi tanımayan şagirdlər üçün sizin sinifdə olmağınız son dərəcə vahiməli ola bilər. Bu çətinliklərlə yanaşı, birgə təlimin faydaları çoxdur. Müəllimlərin seminarda və ya kursda öyrəndiklərini tətbiq etmək üçün yaxşı yoldur. Birgə təlim müəllimlərə sinfi idarəetmədə kömək edir və real vaxt rejimində modelləşdirmə, plan və dəstək təmin edir.

**5. Müəllimlər arasındakı əməkdaşlığı çətinləşdirən səbəblər və onların aradan qaldırılması yolları. Müəllimləri əməkdaşlıq etməyə həvəsləndirmək üsulları.**

- Tədqiqatın nəticəsi göstərir ki, tədrisin müxtəlif cür həyata keçirildikdə faktiki necə olduğunu görmədən, o cümlədən müəllimlərə etdikləri və etmək istədikləri arasında fərqi başa düşməyə kiminsə dəstəyi olmadan təcrübənin inkişafı mümkün deyil. Bundan əlavə qeyd edilir ki, bu məsələ təşkilati səviyyədə həll olunmadan əvvəl fərdi səviyyədə öz həllini tapmalıdır. Əslində fərdi səviyyədə dəyişikliklərə xüsusi diqqət ayırmadan əməkdaşlığın genişləndirilməsi çətinliklərlərə qarşı müxtəlif yollarla mübarizənin əvəzinə sadəcə olaraq mövcud təcrübələrin möhkəmləndirilməsi üçün müəllimlərin bir yerə toplanması ilə nəticələnə bilər. Həmkarların bir-biri və özləri ilə təcrübələrinin ətraflı aspektləri barədə ünsiyyətdə olması üçün ümumi yanaşmanın hazırlanması təcrübədə dəyişikliklərin baş verdiyi məktəblərdəki proseslərin tam mərkəzində durur. Belə ümumi yanaşmanın olmaması müəllimlərin yeni imkanları sınaqdan keçirməsini çətinləşdirir. İzah etdiyimiz kimi müəllimlərin intensiv görüşlər zamanı etdiklərinin çox hissəsi əksər hallarda avtomatik olaraq intuisiv səviyyədə baş verir. Bununla bərabər dayanmağa və düşünməyə çox az vaxt olur. Məhz bu səbəbdən təcrübənin inkişaf etdirilməsi cəhdlərinin uğurlu olması üçün iş zamanı həmkarlarla görüş imkanının mövcudluğu çox böyük əhəmiyyət kəsb edir. Paylaşılan təcrübə sayəsində həmkarlar hazırda nə etdiklərini və nə etmək istədiklərini müəyyən etmək üçün bir-birinə kömək edə bilərlər. Həmçinin bu müəyyən qrup təhsilalanlara dair qəbul olunmuş fikirlərin qarşılıqlı tənqidə məruz qaldığı mühitin və ya məkanın yaradılması vasitəsidir.

Sadalananlar işləməyin bu cür üsullarının necə təqdim edilməsinə dair suallar doğurur. Burada ümidverici yanaşma Yaponiya və digər Asiya ölkələrində özünü doğruldan tədrisin təkmilləşdirilməsi üçün sistematik prosedur olan "dərsin tədqiqidir". Dərsin tədqiqinin məqsədi müəllimlərin bütün şagirdləri təmin etdiyi təcrübələrin effektliyinin artırılmasıdır. Əsas fəaliyyət müzakirələr vasitəsilə formalaşdırılan ümumi məsələ üzrə əməkdaşlıqdır. Diqqət mərkəzində olan məsələnin məzmunu sonradan şagirdlərin aldığı təcrübənin keyfiyyəti üzrə məlumatların toplanması üçün baza qismində istifadə edilən planlaşdırılan

dərslərdir. Bu dərslər "dərslərin tədqiqi" adlanır və müəllimlərin təcrübələri, eləcə də şagirdlərin planlanmış fəaliyyətlərə cavab reaksiyalarının müəyyən edilməsi üçün istifadə edilir. Qrup üzvləri dərs planını hazırlamaq üçün birlikdə çalışır və sonra hər biri növbə ilə sözügedən planı icra edir. Hər bir sınaq dərsi arasında dərsin tədqiqinin təkmilləşdirilməsini asanlaşdırmaq üçün müşahidələr və dərssonrası iclaslar təşkil olunur. Dərslərin tədqiqi bir çox üsullarla həyata keçirilə bilər. Məsələn, o kiçik könüllü heyət qrupu, o cümlədən şöbə və ya xüsusi qrupları əhatə edə bilər. Habelə o məktəblər arasında olmaqla yanaşı daha geniş miqyasda birlikdə çalışan müəllimlər şəbəkəsinin bir hissəsini özündə birləşdirə bilər. Dərslərin tədqiqi yanaşmasında dəlillərin toplanması əsas amildir. Burada adətən şagirdlərin cavabları və reaksiyaları müşahidə edilir və dərs video lentə yazılır. Baş tutan müzakirələrdə həlledici üstünlükləri təqdim etməyə meylli olan şagirdlərin düşüncə və baxışlarının dinlənilməsinə də xüsusi diqqət ayrılır.

## XI Mövzu: İnklüziv təhsil prosesində valideynlərlə əməkdaşlıq

### Plan:

1. "Xüsusi təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisəsinə, sağlam və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb gətirmək üçün müavinətin həcminin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.
2. Əlilliyi olan uşaqların valideynlərinin dəstəklənməsi üçün strategiyalar və effektiv ünsiyyətin qurulması.
3. İnklüziv təhsili inkişaf etdirən və əlilliyi olan uşaqların ailələri ilə işləyən müəllimlərə və həmçinin digər peşəkarlara tövsiyələr.
4. Əlilliyi olan uşaqların valideynləri ilə iş prosesi. Müəllim məsləhətçi kimi. Müəllim və valideyn ünsiyyəti.
5. Ailələrlə səmərəli əməkdaşlığın yaradılması. Əlilliyi olmayan uşaqların valideynləri təhsilə çıxışa və iştiraka mane olan əngəlləri aradan qaldırmağa kömək edə bilərlər.

### Ədəbiyyat:


1. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF , RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF -in Azərbaycan nümayəndəliyi, 2019.
2. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF , RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları. Bakı, UNICEF -in Azərbaycan nümayəndəliyi, 2019
3. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. İnklüziv siniflərdə təlimin təşkili. Bakı 2018
4. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF ), 2019

5. Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiya 4(2016) nömrəli Ümumi Şərh Maddə 24: İnklüziv təhsil hüququ. Bakı, BMT-nin Uşaq fondu (UNICEF ), 2019
6. Bacarıqlar haqqında. Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın izahı. Bakı, BMT-nin Uşaq fondu (UNICEF ), 2019.
7. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 2020
8. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020

**1. "Xüsusi təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisəsinə, sağlam və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb gətirmək üçün müavinətin həcminin müəyyən edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.**

- "Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsili) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli 540 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Xüsusi təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisəsinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün ayda *50 (əlli)* manat həcmində müavinət müəyyən edilsin.

1-1. Evdə təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün ayda *50 (əlli)* manat həcmində müavinət müəyyən edilsin.-

2. Həmin müavinət təhsil müəssisəsinin arayışı əsasında şəhər (rayon) təhsil şöbələri tərəfindən ödənilsin.

3. Göstərilən məqsədə tələb olunan xərclərin ödənilməsi dövlət büdcəsində "Təhsil xərcləri" üzrə nəzərdə tutulmuş vəsait hesabına təmin edilsin.

4. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 25 dekabr 2001-ci il
№ 200

**2. Əlilliyi olan uşaqların valideynlərinin dəstəklənməsi üçün strategiyalar və effektiv ünsiyyətin qurulması.**

- 1. Ailənin cəlb olunması əlilliyi olan uşaqların bütün həyatı boyu, xüsusilə də erkən yaşlarında vacibdir. Uşağı ən yaxşı tanıyan şəxslər valideynlər və ailə üzvləridir. Onlar uşağın şəxsiyyətini, davranışını, öyrənmə tərzini, maraqlarını və ehtiyaclarını bilirlər. Valideynlərlə məsləhət müəllimlərə uşaq haqqında hərtərəfli məlumat toplamağa, təlim və öyrənmə prosesini daha yaxşı təşkil etməyə kömək edir. Ailələr və valideynlər öz övladlarına dair istənilən qərarın verilməsində iştirak etməlidirlər. Onlar uşağın evdə davamlı inkişaf və öyrənməsində mühüm rol oynayırlar. Valideynlərin sinif otağında kömək etməsi valideyn – müəllim əməkdaşlığında əsas məqamdır.

2. Əlilliyi olmayan uşaqların valideynləri təhsilə çıxışa və iştiraka mane olan əngəlləri aradan qaldırmağa kömək edə bilərlər. Əlilliyi olan uşaqların valideynlərinin inklüziv təhsildə iştirakı və onların bu prosesə münasibəti ümumilikdə məktəb mədəniyyətinə təsir

göstərir. Çox zaman əlilliyi olmayan uşaqların valideynləri övladlarının əlilliyi olan uşaqlarla birlikdə təhsil alması ideyasına qarşı çıxırlar. Əlilliyi olmayan uşaqların valideynləri ilə işləyərək, övladlarının məktəbdə və ya sinif otağında əlilliyi olan uşaqlarla birgə təhsil almasının onlara mənfi təsir göstərməyəcəyini izah etmək lazımdır.

**Uşaqların hüquq və vəzifələri**. Təhsil haqqında Azərbaycan Respublikasinin Qanununun 32-ci təhsilalanların hüquq və vəzifələri aşağıdakı kimi təsbit olunmuşdur. Bu maddəyə əsasən bütün təhsil müəssisələrinin təhsilalanları və məzunları bərabər hüquqlara malikdirlər:

- Hüquqlar qanunvericilikdə nəzərdə tutulmuş qaydada təhsil müəssisəsinə qəbul olunmaq;
- təhsil müəssisəsini, təhsilin istiqamətini, ixtisası, təhsilalma formasını və təhsil dilini sərbəst seçmək;
- dövlət təhsil standartlarına uyğun keyfiyyətli təhsil almaq;
- müvafiq qaydada təhsilin təmayülünü, təhsil proqramlarını və sinifdənkənar məşğuliyyəti seçmək;
- ali təhsil müəssisəsinin tədris planlarına uyğun olaraq tədris fənlərini, semestrlər üzrə kreditlərin miqdarını, təhsilverənləri və tyutorları sərbəst seçmək;
- təhsil müəssisəsinin mövcud infrastrukturundan (tədris-istehsalat, elmi tədqiqat, informasiya, mədəni-məişət, idman, sağlamlıq mərkəzlərindən, kitabxanalardan və s.) istifadə etmək;
- müəyyən edilmiş qaydada təhsil müəssisəsini və ixtisasını dəyişmək;
- elmi tədqiqat fəaliyyəti ilə məşğul olmaq;
- fasiləsiz təhsil almaq; sağlamlıq üçün təhlükəsiz və zərərsiz təhsil şəraiti ilə təmin olunmaq;
- müəyyən edilmiş qaydada təhsil müəssisəsində təhsilini müvəqqəti dayandırmaq;
- müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada biliyinin yenidən qiymətləndirilməsini tələb etmək;
- dövlət orta ixtisas təhsili pilləsində, peşə təhsili və ali təhsilin hər bir səviyyəsində qanunvericiliyə uyğun olaraq yalnız bir dəfə pulsuz təhsil almaq;
- dövlət və bələdiyyə ümumi təhsil peşə təhsili müəssisələrində dərsliklərlə pulsuz təmin olunmaq;
- təhsil prosesinin təşkilində və idarə olunmasında fəal iştirak etmək, öz fikir və mülahizələrini sərbəst ifadə etmək;
- təhsil müəssisəsinin elmi, ictimai, sosial və mədəni həyatında, elmi cəmiyyətlərin, dərnəklərin, assosiasiyaların, birliklərin və digər təşkilatların yaradılmasında iştirak etmək, eləcə də ölkə və beynəlxalq səviyyəli belə təşkilatlara üzv olmaq;
- elmi-praktik konfransların, seminarların, yığıncaqların və görüşlərin, habelə təhsil həyatı ilə bağlı digər tədbirlərin keçirilməsində iştirak etmək;
- "Psixoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada ödənişsiz psixoloji yardım almaq;
- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək. dövlət təhsil standartlarına uyğun bilik, bacarıq və vərdişlərə yiyələnmək;
- pedaqoji işçilərin şərəf və ləyaqətinə hörmətlə yanaşmaq;

- təhsil müəssisəsinin nizamnaməsinin tələblərinə riayət etmək; dövlət, cəmiyyət, ailə və özü qarşısında məsuliyyətini dərk etmək;

- təhsil sahəsində qanunvericiliyin tələblərinə, etik normalara və təlim-tərbiyə prosesi ilə bağlı qaydalara əməl etmək;

- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

**Valideynlərin hüquq və vəzifələri:** Təhsil haqqında Azərbaycan Respublikasinin Qanununun 34-cü maddəsində valideynlərin və ya digər qanuni nümayəndələrin hüquq və vəzifələri aşağıdakı kimi təsbit olunmuşdur:

- yetkinlik yaşına çatmayan övladları (qəyyumluğunda və ya himayəsində olan şəxslər) üçün təlim-tərbiyə müəssisəsini seçmək; təhsil prosesinin təşkili, tədrisin keyfiyyəti, övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) dərsə davamiyyəti, təhsilə marağı və davranışı haqqında məlumat almaq;

- təhsilalanların hüquqlarını müdafiə etmək, təhsil müəssisəsinin idarə olunmasında iştirak etmək;

- təhsil müəssisəsi ilə əməkdaşlıq etmək, tədris prosesinin təkmilləşdirilməsi və maddi-texniki bazasının yaxşılaşdırılması üçün təkliflər irəli sürmək və könüllü yardımlar etmək;

- qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqları həyata keçirmək. övladlarının (qəyyumluğunda və ya himayəsində olan şəxslərin) erkən yaşlarından fiziki, əxlaqi və intellektual inkişafına şərait yaratmaq, onların icbari ümumi orta təhsil almasının təmin olunması və mənəvi yetkinliyi üçün məsuliyyət daşımaq;

- övladlarını (qəyyumluğunda və ya himayəsində olan şəxsləri) humanistlik, vətənpərvərlik, azərbaycançılıq, əməksevərlik, öz dilinə, ədəbiyyatına və tarixinə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə etmək;

- qanunvericilikdə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 3. İnklüziv təhsili inkişaf etdirən və əlilliyi olan uşaqların ailələri ilə işləyən müəllimlərə və həmçinin digər peşəkarlara tövsiyələr.

- İnklüziv təhsil dostluq üçün təməldir:

Əlilliyi olan uşaqların və gənclərin valideynləri daima dostluq mövzusu ilə bağlı öz narahatlıqlarını bildirirlər. Valideynlər və müəllimlər dostluğu inkluzivliyin vacib bir elementi kimi qəbul edirlər. Adətən əlilliyi olmayan uşaqların valideynləri uşaqlarının dostluq münasibətlərini normal qəbul etmələrinə baxmayaraq, əlilliyi olan uşaqların və gənclərin valideynlərinin əksəriyyəti bu məsələdə narahatlıq keçirir. Dostluq bir uşağın həyatında baş verəcək ən əlamətdar hadisələrdən biridir. Çox vaxt bu valideynlərin əlilliyi olan övladı üçün nail olmağa çalışdığı ən vacib məqsədlərdən biridir. Yalnız inklüzivlik uşaqlara kim olmaq və nə etmək istədikləri barədə seçim etmək üçün müxtəlif imkanlar təqdim edir. Qonşu məktəblərdəki inklüziv təhsil şagirdlərə məktəbdən kənarda da dostluq qurmağa, digər uşaqlar və gənclər ilə görüşməyə imkan verir. İnklüziya dostluğa zəmanət vermir, ancaq fərqlilikləri qəbul etmək və münasibətləri müsbət istiqamətdə inkişaf etdirmək üçün bir zəmin yaradır. İnklüziv icmanın bir hissəsi olan əlilliyi olan uşaqlar və yeniyetmələr dostluq etmə bacarıqlarını öyrənmək və tətbiq etmək üçün daha geniş imkanlara malikdirlər. Eləcə də yaşıdları ilə dostluq təcrübələri gənclərə özləri və sosial reallıqlar haqqında məlumatlılığı inkişaf etdirməyə kömək edir. Təəccüblü deyil ki, müsbət mənada sosial əlaqələr və həmyaşıdları tərəfindən qəbul edilmə artdıqda, bütün şagirdlərin

sosial bacarıqları və özünə hörmət hissinin formalaşmasında, keçid prosesi və ünsiyyət bacarıqlarında, dil və koqnitiv inkişafında irəliləmə müşahidə olunur. Əlilliyi olamayan uşaqlar və gənclər bildirirlər ki, əlilliyi olan şəxslərin yanında olmaq özünüdərk prosesini, ictimai şüuru və başqalarını olduğu kimi qəbul etməni təkmilləşdirmiş, insanlar arasındakı fərqliliklərdən qorxmaq hissini azaltmış, şəxsi prinsipləri və dostluqlarını inkişaf etdirməyə kömək etmişdir. Valideynlər və müəllimlər qarşılıqlı əlaqələri təşviq edə və aşağıdakı müxtəlif yollarla şagidlər arasında dostluq yaratma imkanlarını dəstəkləyə bilərlər: Onlara yaşıdları ilə birlikdə olmağa şərait yaradın. Ətrafımızda ortaq maraqları bölüşdüyümüz insanlar olmadan dostluq əlaqələri qura bilmərik. Uşaqlar və gənclər üçün bu adətən onların həmyaşıdları deməkdir. Ortaq maraqlar ətrafında əlaqəni təbliğ edin. Uşaqlar və gənclər üçün sadəcə yaşıdlarının arasında olmaq yetərli deyil. Uğurlu əlaqələrin qurulması üçün ortaq maraqların olması əhəmiyyətlidir. Bu, bəzi şagirdlərin birlikdə səyahət üçün seçilməsi, uşaqların layihə üzərində işləmək üçün qruplaşması və ya sinif otağında həmyaşıd mentor təcrübəsindən istifadə etmək kimi asan yollarla əldə oluna bilər. Valideynlər digər uşaqları və gəncləri evlərinə dəvət edə və öz uşağını kəşfiyyatçı oğlanlar, bələdçi qızlar, istirahət klubları və komandaları və ya məktəbdənkənar klublar kimi sosial fəaliyyətlərə qoşulmasına təşviq edə bilər. Davamlılığı təşviq edin. Dostluq münasibətlərinin inkişafı üçün bir-birimizlə əlaqələrimiz davamlı olmalıdır. İnklüziv siniflərdə davamlı münasibətlər üçün imkanlar yaradılır. Unutmayın ki, təcrid olunma imkanları uğurlu dostluq münasibətlərinin inkişafı üçün lazım olan davamlılığı təmin etmir. Bəzən insanlar davamlı əlaqə qurmazdan əvvəl, potensial dostları ilə vaxt keçirmək üçün bir neçə dəfə görüşmə fürsətininin olmasına ehtiyac duyur. Müxtəlif əlaqələr və təcrübələr imkanı yaradın. Hər hansı bir şəxsin maraqlarını kəşf etməzdən əvvəl onunla müxtəlif fəaliyyətlərdə olmaq və təcrübələri bölüşmək əhəmiyyətli ola bilər. Müxtəlif təcrübələrin və əlaqə imkanlarının təsiri dostluq ehtimalını artıracaqdır. Dostluq əlaqələrinin inkişafına dəstək olun. Dostluq əlaqələrinin inkişafı üçün davamlılığı və müxtəlif fürsətləri təmin etdikdən sonra, bizim hələ də daha artığına ehtiyacımız olduğunu görə bilərik. Valideynlər və müəllimlər şagirdlərin dostluq cəhdlərini həvəsləndirici sözlər deməklə, dostluq münasibətlərini müzakirə etməklə, uyğun davranışlar barədə təlimat verməklə və hislər haqqında danışmaqla təşviq edə bilərlər. Fərdi fərqliliklərə hörmət etməyi öyrədin və müsbət örnək göstərin. Bütün şagirdlərdə hörmət, qayğıkeşlik, səbir və müsbət qarşılıqlı münasibətləri formalaşdırmaq əlimizdə olan ən təsirli vasitədir. Fərdi fərqliliklərə hörmət etməyi aşılamaq sinif tədris planımızın, uşaq və gənclərlə gündəlik söhbətlərimizin bir hissəsi ola bilər. Sosial bacarıqlar öyrədin. Sosial bacarıqların açıq şəkildə tədrisi bəzi gənclərin daha səmərəli iştirakına şərait yarada bilər. Bununla yanaşı, bəzi uşaqlar və yeniyetmələr müəyyən sosial bacarıqları heç vaxt öyrənə bilmirlər və yaxud onların qəbul edilməyə, anlayışla qarşılanmağa ehtiyacı olan “sabit” davranışları və üslubları vardır. Bu cür davranışlar, xüsusən həmyaşıdlar arasında fərqlilikləri anlayışla qarşılamanı təşviq etmək üçün səy göstərildikdə, dost tapmağa və bu dostluğu davam etdirməyə mane olmamalıdır. Uşaqlar və ya yeniyetmələr arasında fəal dostluq qurma bacarığı olmadıqda belə, onların həmyaşıdlarına və potensial dostlarına xitab edən keyfiyyətlərini və ya qabiliyyətlərini vurğulamaqla müsbət qarşılıqlı əlaqələri asanlaşdıra və dəstəkləyə bilərik. Həmyaşıdların dəstəyini təşviq edin. Müəyyən bir uşağın həmyaşıdları bəzən bu uşağa dəstək olmağa çağırıla bilər. Bu sadəcə, iki uşağın birlikdə oynamaq və ya bir fəaliyyət üçün bir araya gəlməsini təklif etmək mənasını verir. Digər

formada bu, hansısa bir şagirddən həssas olan başqa bir şagirdi axtarmağı istəmək mənasında da başa düşülə bilər. Bu strategiya xüsusi təhsil ehtiyacları olan şagirdlərə fayda verə bilər, lakin tədqiqatlar göstərir ki, əlilliyi olan sinif yoldaşları üçün həmyaşıd tərbiyəçi və ya köməkçi kimi fəaliyyət göstərən şagirdlərin özlərinə də bu prosesin əhəmiyyətli dərəcədə faydası olur. Ehtiyac olduqda daha çox dəstək verin. Dostluq əlaqələrini inkişaf etdirmək və ya mövcud əlaqələri davam etdirməyə kömək etmək üçün bəzən təşkilati və ya asanlaşdırıcı dəstəyə ehtiyac olur. Uyğun bir model kimi "dost çevrəsi" və ya fərdi dəstək şəbəkəsini göstərmək olar. Valideynlər və müəllimlər köməkçi və ya dəstək vermək istəyən bir qrup şəxsin müəyyənləşdirilməsinə ehtiyac duya bilər. Bundan başqa vaxt və məkan müəyyənləşdirməli və qarşılıqlı (ortaq) maraqlara əsaslanan fəaliyyətlər inkişaf etdirilməlidir.

VALİDEYNLƏR İNKLÜZİV TƏHSİLİN TƏŞVİQATÇISI KİMİ:

**Səriştəli valideyn kimdir?** Valideynlik anlayışı sadəcə uşaqla bioloji və emosional yaxınlıqla məhdudlaşmır. Valideynlik övlad və cəmiyyət qarşısında mənəvi məsuliyyət və öhdəliklərin məcmusudur. Dolğun şəxsiyyətə malik valideynlər mütləq nəzərə almalıdırlar ki, onlar öz övladlarını yalnız öz ailələri üçün deyil, bütöv bir cəmiyyət üçün yetişdirməyə borcludurlar. Bu isə valideynlərdən daha böyük səriştə tələb edir.

Əlilliyi olan uşaqların valideynləri də yaranmış vəziyyətə görə qətiyyən bədbinliyə qapılmamalıdırlar. Çünki əlilliyin olub-olmamasından asılı olmayaraq bütün uşaqlar fərqli və unikaldır. Onların hər birinin özünəxas keyfiyyəti, ehtiyacı və marağı var. Övladlarını tərbiyə edərkən valideynlər bu amili mütləq nəzərə almalıdırlar. Uşağın hərtərəfli inkişaf əmsalı onun maraq və ehtiyaclarının nəzərə alınması ilə düz mütənasibdir. Valideynlər bütün vasitələrdən istifadə edərək valideynlik bacarıqlarını artırmaqla övladlarını cəmiyyətə faydalı şəxsiyyət kimi yetişdirə bilərlər. Valideynlik səriştəsinin artırılması həm də o zərurətdən irəli gəlir ki, cəmiyyət daim inkişaf edir, ictimai münasibətlərdə daim yeni dəyərlər formalaşır və bu dəyərlər texnologiya və internet sayəsində geniş areala yayılaraq böyüməkdə olan nəslin təfəkküründə hakim kəsilir, onun dünya görüşünü formalaşdırır. Belə olan halda valideynlər dövrün tələblərinə hazır olmalı, tərbiyə prosesini ənənəvi qaydada aparmağa israr etməməməli, fundamental əxlaq qaydalarına zidd olmayan yeni dəyər və anlayışlara müsbət münasibət göstərləməlidirlər. Müasir dünya görüşlü bir valideyn kimi formalaşmaq üçün isə indi daha geniş vasitə və imkanlar var. Əlilliyi olan uşaqların valideynlərinə xas olmalı olan keyfiyyətlərdən biri qısa zamanda kompleksdən azad olmaq və psixoloji baryeri aşmaqdır. Əlilliyi olan övlada görə valideynlərin psixoloji diskomfort yaşaması normaldır. Sirr deyil ki, hələ də cəmiyyətimizdə əlilliyi olan şəxslərə qarşı soyuq münsibət var. Belə olan halda valideynlərin və övladlarının narahatlıq keçirməsi normaldır. Lakin daim belə narahatlıqla yaşamaq məqbul deyil. Bu, keyfiyyətli həyat tərzinin göstəricilərindən olan psixo-emosional rahatlığı pozur. Bu səbəbdən qısa zamanda narahatlıq və təşviş doğuran hallardan yaxa qurtarmaq lazımdır. Bunun üçün isə psixoloq xidmətlərindən istifadə etməkdən çəkinməməli, əlilliklə bağlı müxtəlif mənbələrə müraciət etməli və oxşar təcrübəyə malik valideynlərlə fikir mübadiləsi aparmaq faydalı olardı.

**Püxtələşmiş valideyn səriştələrindən** biri də yaxın sosial çevrənin əlillik anlayışına olan mənfi münasibətini dəyişmək üçün təşəbbüs göstərmək, ictimai stiqmalarla mübarizə aparmaq əzmidir. Müşahidələr göstərir ki, cəmiyyətimizdə bu cür qətiyyətli valideynlər var

və məhz onların təşəbbüskarlığı sayəsində əlillik məsələlərinə dair geniş maarifləndirmə işləri aparılmış, cəmiyyətdə müsbət dəyişiklik dinamikasının əsası qoyulmuşdur.

**İnklüziv təhsili necə təşviq etməli?** Məlum olduğu kimi Azərbaycanda inklüziv təhsil hələ ilkin inkişaf mərhələsindədir. Cəmiyyətdə, hətta təhsil işçiləri arasında inklüziv təhsilin lazımlı və səmərəli olmasına şübhə ilə yanaşanlar var. Bu yanaşma əsasən ondan irəli gəlir ki, inklüziv təhsilin mahiyyəti və onun tətbiqi mexanizmi tam aydın olmur və ona qarşı müqavimət yaranır. İnklüziv təhsilin geniş vüsət alması üçün maarifləndirmə və təşviqat işinin aparılmasına ehtiyac var. Böyük kütləni əhatə edən və inklüziv təhsildə maraqlı olan valideynlər bu işdə aparıcı qüvvəyə çevrilə bilər. Ancaq bu sahədə işərin sistemli və davamlı aparılması mütləqdir. Təşviqat bir ideya və məqsədin həyata keçməsi üçün geniş kütləyə müəyyən yollarla nüfuz etmək və dəstək qazanmaq üçün ardıcıl və məqsədyönlü tədbirlər məcmusudur. İnklüziv təhsil lehinə təşviqat aparmaq heç də çətin bir iş hesab edilməməlidir və müstəsna bacarıqlar tələb olunmur. Bunun üçün ilk növbədə inklüziv təhsilin mümkünlüyünə və əhəmiyyətinə qətiyyətlə inanmaq əsas şərtlərdəndir. Valideyn kimi inklüziv təhsildə müsbət təsirinizi artırmaq üçün aşağıdakı yanaşmaları nəzərə almağınız tövsiyə olunur:

**Əməkdaşlıq edin.** Təşviqat işini bir qrup insanla aparmaq daha çox səmərə vəd edir. İnklüziv təhsilin vacibliyini daha inamlı vurğulamaq üçün bir yaxud bir neçə şəxsin deyil, daha böyük kütlənin bu barədə təbliğat aparmasına ehtiyac var. Əlilliyi olan uşaqların valideynləri əlillik məsələləri ilə bağlı müəyyən təcrübəyə malikdir. İmkanları birləşdirərək mütəşəkkil təşviqat aparmaq məqsədilə digər valideynlərlə əlaqə qurun, onlarla ortaq problem və ehtiyacları müəyyənləşdirin, fikir mübadiləsi aparın və birgə işləmək üçün plan qurun.

**Planlı işləyin**. Pərakəndə fəaliyyət əksər hallarda nəticəsiz qalır. Təşəbbüs nə qədər xoşməramlı olsa da sistemli və məqsədyönlü tədbirlər görülməsə lazımi nəticə əldə etmək çətin olur. Əlbəttə fürsət olduğu halda əlaqədar tədbir və yığıncaqlarda inklüziv təhsilin vacibliyi, əlilliyi olan uşaqların təhsil hüququ və sosiallaşmaq ehtiyacını səsləndirmək təsirli olardı.

**Təşkilatlarla əlaqə qurun.** Yaşadığınız bölgədə (şəhər, rayon) fəaliyyət göstərən müvafiq təşkilatlarla əlaqə qurun. Bir çox bölgələrdə əlil təşkilatları yaxud əlilliyi olan insanların problemləri ilə məşğul olan qeyri-hökumət təşkilatları və dövlət qurumları var. Təşkilatla yaxın əlaqə qurmaq hər iki maraqlı tərəf (valideynlər və təşkilatlar) üçün faydalıdır. Valideynlərin öz istək və tələblərini aidiyyəti dövlət qurumlarına çatdırmaq üçün hüquqi statusu və nüfuzu olan təşkilatların yardımına ehtiyacı var. Bu təşkilatların da öz növbəsində sosial baza kimi valideynlərin dəstəyinə ehtiyacı var

**Problemi yaxşı bilin.** Bir problemi həll etmək üçün onun yaranma səbəbləri və mümkün həll yollarını dəqiq araşdırmaq, çoxsaylı mənbələrə müraciət etmək, həll variantlarının tətbiqində israrlı olmaq və həllə nail olmaq üçün səbirli olmaq sivil mübarizə yolunun göstəriciləridir. Problemin real mahiyyətini aşkara çıxarmaq onun effektiv həll yollarını tapmağa da istiqamət verir. Məsələn, bir qrup insanın inklüziv təhsilə münasibəti müsbət deyilsə, bunun yalnız subyektiv deyil, həm də obyektiv səbəbi ola bilər. Yəni bir şəxs inklüziv təhsilə mənfi münasibət bəsləyirsə, bu, həmin şəxsin fərdi keyfiyyətlərindən irəli gəlmir. Ola bilsin ki, şəxsin inklüziv təhsilin mahiyyəti və əhəmiyyəti haqqında düzgün və ətraflı məlumat əldə etmək imkanı olmayıb və bu səbəbdən münasibəti yaxşı deyil. Belə

olan halda şəxsi maarifləndirmək və tutarlı arqumentlərlə inandırmaq daha düzgün yanaşma olardı, nəinki onu qınamaq ya mübahisə etmək. Bu kimi situasiyalarda səbəbi bilmədən problemi həll etmək cəhdi uğursuz olur.

**Qərarvericilərlə münasibət qurun**. İctimai mahiyyət daşıyan, ümummilli yaxud regional əhəmiyyət kəsb edən məsələlərin həllində qərarverici qurum yaxud şəxslər əhəmiyyətli rola malikdir. Problemlə bağlı lazımi tədbirlərin görülməsi üçün aidiyyəti təşkilat və şəxslərə çıxış tapmaq, problemi davamlı surətdə, təkid və qətiyyətlə ancaq nəzakətli tərzdə onların nəzərinə çatdırmaq və sivil qaydada həll yolu tələb etmək daha demokratik çıxış yolu tapmağa imkan verir. Nüfuzlu şəxsiyyətlərlə münasibət qurun. Cəmiyyətdə yüksək nüfuza malik insanların dili ilə problemi səsləndirmək daha geniş kütlənin diqqətini cəlb etmək üçün çox təsirli yoldur. Xüsusi statusu olan dövlət və ictimai xadimlər, siyasətçilər, incəsənət xadimləri və yüksək ehtiram göstərilən digər şəxsiyyətlərlə yaxın münasibət qurub onların ictimai təsir gücü vasitəsilə problemi aktuallaşdırmaq və həllə nail olmaq geniş istifadə olunan təsirli təşviqat alətidir.

**Mətbuatda və sosial şəbəkələrdə fəal olun.** Müasir dövrdə böyük insan kütləsi mediadan və sosial şəbəkələrdən çox geniş istifadə edir. Bu da fürsət yaradır ki, hər iki kanal vasitəsilə çoxsaylı insanla ünsiyyət qurulsun və kütləvi dəstək əldə edilsin. Səbirli olun. Unutmayın ki, böyük və ali məqsədə nail olmaq böyük vaxt və zəhmət tələb edə bilər. Bunun üçün isə hökmən səbirli və təmkinli olmaq, hadisələrə soyuqqanlı yanaşmaq, aydın və real düşünmək, çətinliklər qarşısında ruhdan düşməmək, uşaqların xoşbəxt gələcəyi üçün bu gün mübarizə aparmaq lazımdır.

**4. Əlilliyi olan uşaqların valideynləri ilə iş prosesi. Müəllim məsləhətçi kimi. Müəllim və valideyn ünsiyyəti.**

**-** İnklüziv təhsildə valideynlərin rolu:

Hər şeydən əvvəl bunu qeyd etmək lazımdır ki, inklüziv təhsil məhz valideynlərin təşəbbüsü sayəsində yaranmağa başladı. Belə ki, ötən əsrin 50-ci illərində qaradərili valideynlərin tələbi əsasında ABŞ məhkəmələri qaradərili uşaqların ağdərili uşaqlarla birgə ümumtəhsil məktəblərində təhsil almasına dair ilkin qərarlar verdi. Bu hadisə ölkədə böyük sensasiya yaradaraq əlilliyi olan uşaqların valideynlərini də həvəsləndirdi və onlar da övladlarının xüsusi məktəblərdə deyil, ümumtəhsil məktəblərində təhsil alması üçün tələb irəli sürdülər və məqsədlərinə nail oldular. İnklüziv təhsilinin təşəkkülü prosesində də valideynlərin rolu böyük olub. Aidiyyəti dövlət qurumları və təhsil müəssisələri inklüziv təhsili əsasən inzibati və nəzəri yöndən inkişaf etdirmək iqtidarındadır. Lakin təhsil işçiləri ilə yanaşı valideynlər də inklüziv təhsilin təcrübədə daha effektiv reallaşmasına təkan verən qüvvələrdir. Təhsil siyasətinin təkmilləşdirilməsi, məktəblərin inkişafı, icmanın məktəblərə dəstək göstərməyə təşviq edilməsi kimi məsələlərdə valideynlərin birbaşa iştirakı bir çox məsələləri həll edə bilər. nklüziv təhsildə ən maraqlı tərəf olan valideynlər uşaqların təhsil imkanlarının genişləndirilməsinə ciddi təsir göstərmək gücünə malikdir, çünki inklüziya prosesində maraqlı olan valideynlər öz səmimimiyyətləri ilə seçilir və daha fədakar çalışırlar. Bu prosesə sərf edilən vaxtın, qoyulan maddi və mənəvi sərmayənin daha səmərəli olması üçün valideynlər daha mütəşəkkil şəkildə fəaliyyət göstərməlidir. Bunu nəzərə alaraq bu vəsait valideynlərə inklüziya prosesində bələdçilik edən tövsiyələr təqdim edir. Valideynlərin cəlb olunması inkluziv təhsil işini formlaşadırmağın əhəmiyyətli hissələrindən

biridir. Dövlət siyasi və hüquqi yollarla, məktəblər və təhsil şöbələri öz siyasəti və gündəlik qərarları ilə inklüziv təhsilə dəstək verərkən, siz də valideyn kimi uşağınızın təhsilində vacib rol oynayırsınız. Uşağınız bağçaya gedənə qədər rəsmi təhsil prosesi başlamasa da, anadan olduğu gündən etibarən öyrənmə prosesi başlayır və siz bu prosesə rəhbərlik edirsiniz. Unutmayın ki, bir valideyn kimi uşağınız üçün ən yaxşı olanı siz bilirsiniz. Buna görə də uşağınızın təhsilinə təsir edəcək qərarlarda sizin rolunuz əhəmiyyətlidir. Siz uşağınızın böyümə və öyrənmə prosesini müşahidə edirsiniz. Onların uğurlarına və qarşılaşdıqları çətiniklərə şahid olursunuz. Onların sevdikləri, sevmədikləri şeylər, güclü tərəfləri, istedadları haqqında öyrənirsiniz. Bu məlumatlar sizə uşağınızı necə öyrətməli olduğunuzu anlamaq üçün əhəmiyyətlidir. Bunlar həm də uşağınızın təhsilində iştirak edən peşəkarlar üçün də faydalı ola bilər. Siz oğlunuzun və ya qızınızın məktəbi ilə paylaşa biləcəyiniz çoxsaylı dəyərli məlumatlara sahibsiniz. Uşağınız haqqında bildiyiniz hər şeyi yazmağa başlaya bilərsiniz.

Paylaşmaq üçün vacib ola biləcək testlər, hesabatlar və yazışmaların siyahısı var. Məktəbdəki hər görüşdən əvvəl aşağıdakılarla bağlı qeydlər aparmaq istəyə bilərsiniz: uşağınızın sevdiyi və sevmədiyi şeylər uşağınızın güclü və zəif tərəfləri uşağınızın ünsiyyət tərzi sizin narahatlıqlarınız və suallarınız uşağınızın ümidləri və xəyalları uşağınızın gələcəyi ilə bağlı sizin ümid və xəyallarınız.

**5. Ailələrlə səmərəli əməkdaşlığın yaradılması. Əlilliyi olmayan uşaqların valideynləri təhsilə çıxışa və iştiraka mane olan əngəlləri aradan qaldırmağa kömək edə bilərlər.**

- Valideynlərin məktəblə əməkdaşlığı və onun idarə olunmasında iştirakı sadəcə hüquq deyil, bu həm də bir zərurətdir. Çünki bir uşağı ən yaxşı tanıyan onun valideynləridir. Xüsusilə ibtidai sinifdə valideynlərin müəllimlə və zərurət yarandıqda məktəb psixoloqu ilə yaxın pozitiv münasibətdə olması vacibdir. Pozitiv münasibət dedikdə valideynlərin müəllimlərə dəstəkverici münasibət göstərməsi, yaranmış çətinliklər zamanı onu qınamadan problemlərin birgə həllinə cəhd etmək nəzərdə tutulur. Valideyn-müəllim-şagird üçbucağında xoş münasibətlərin olması təhsilin keyfiyyətinə müsbət təsir göstərir. Həmçinin valideynlər icma üzvlərini ianə və bəxşiş verməyə təşviq etməklə məktəbin (bağçanın) lazımi maddi-texniki resurslarla təmin edilməsinə töhfə verə bilərlər. Bundan başqa təhsil müəssisələrinin idarə olunmasında iştirakçılıq da sosial nəzarətin həyata keçirilməsi və təhsil müəssisələrinin özünütənzimləməsi baxımından da önəmlidir. Lakin məktəbin (bağçanın) idarəolunmasında iştirakçılıq qətiyyən proseslərə lazımsız müdaxilə olmamalıdır. Fərdi şəkildə yaxud valideyn-müəllim assosiasiyası vasitəsilə məktəbin inzibati idarəetməsində və sosial fəaliyyətində iştirak məktəb rəhbərliyi ilə razılaşdırılmış qaydada həyata keçirilməlidir.

Müəllim-valideyn əməkdaşlığı: Təhsilin keyfiyyətinə təsir göstərən mühüm amillərdən biri də müəllim-valideyn əməkdaşlığıdır. Bu əməkdaşlıq əlilliyi olan uşaqların təhsili üçün xüsusi əhəmiyyət kəsb edir. Çünki təlim-tərbiyə və inkişaf prosesi sadəcə məktəbdə baş vermir. Bu proses fasiləsiz olaraq istənilən mühitdə davam edir. Uşaqlar vaxtlarının əksər hissəsini daha çox məktəbdə (yaxud bağçada) və evdə keçirdiyindən bu iki mühit arasında keyfiyyət baxımından uyğunluğun olması uşağın sabit psixo-emosional inkişafında və yaxşı təhsil almasında mühüm rol oynayır. İki mühit arasında uyğunluğun təşkil edilməsi üçün

həmin mühitlərdə, yəni məktəb və evdə uşağın təlim-tərbiyəsinə məsuliyyət daşıyan tərəflərin – müəllim və valideynlərin yaxından əməkdaşlıq etməsi vacibdir. Müəllim-valideyn əməkdaşlığı müəllimlə valideynlər arasında sadə ünsiyyət deyil. Bu cür ünsiyyət hər halda təbii olaraq baş tutur. Əməkdaşlıq valideyn-müəllim assosiasiyası, yaxud məktəb icması çərçivəsində qurulan formal münasibət də deyil. Əməkdaşlıq müəllimlə valideynin ümumi ünsiyyətindən və münasibətindən daha geniş bir anlayışı ehtiva edir və keyfiyyət baxımından fərqlənir. Keyfiyyətin təmin olunması isə aşağıdakı bəzi amillərlə şərtlənir: Nəzərə almaq lazımdır ki, şagirdlərin yaxşı təhsil alması ancaq müəllimdən asılı deyil. Təlim yanaşması və tədris metodikası nə qədər təsirli olsa da müəllimin təkbaşına onlarla uşağa keyfiyətli təlim verməkdə çətinliklərlə üzləşməsi labüddür. Bu işdə müəllimə anlayış göstərmək və dəstək olmaq vacibdir. Bu məqsədlə valideynlər sinifdənxaric və məktəbdənkənar tədbirlərlərin təşkilində müəllimə köməklik göstərə, məktəbin icma ilə əməkdaşlığına töhfə verə, hətta zəruri hallarda təlim prosesində belə müəllimə müəyyən dəstək göstərə bilərlər. Uğurlu müəllim-valideyn əməkdaşlığı müəllimlərdə motivasiya və öz peşəsinə rəğbət oyadır ki, bu da birbaşa şagirdlərin təhsilinə müsbət təsir göstərir. Uşaq və ailə dəstək planı məktəblərdə inklüziyanın koordinasiyası və dəstəklənməsi metodu kimi: Uşaq və ailə dəstək planı inklüziv məktəblərdə əsas maraqlı tərəflərə uşaqlar haqqında məlumat toplamaq, bu məlumatlar əsasında təlim hədəflərini müəyyən etmək və bu təlim hədəflərinə çatmaq üçün lazım gələn dəstək və vasitələri planlaşdırmağa kömək etmək üçün bir vasitədir. Uşaq və ailə dəstək planı icranı dəstəkləmək üçün monitorinq və planlama prosedurlarını müəyyən edir. Uşaq və ailə dəstək planı əlilliyin sosial və ya bərabərhüquqlu əsaslı modeli zəminində hazırlanır. Bu o deməkdir ki, əsas diqqət müyəssərlik və iştirak çətinlikləri, habelə məktəb icmasından başlıca maraqlı tərəflərin uşaqların üzləşdiyi bu çətinlikləri aradan qaldırmaq üçün nələr edə biləcəyinə istiqamətlənir. Belə ki, burada diqqət mövcud təhsil sisteminə uyğunlaşdırmaq üçün uşağı necə dəyişmək lazım gəldiyinə yönəldilmir. Uşaq və ailə dəstək planının hazırlanmasına kimlər cəlb edilməlidir?Uşaq və ailə dəstək planının hazırlanması prosesi bütün maraqlı tərəflərin qarşılıqlı səyi çərçivəsində həyata keçirilməlidir. Proses əvvəlcədən təyin olunmuş fasilitator (sosial işçi, təhsil məsləhətçisi, Psixoloji-tibbi-pedaqoji komissiyanın üzvü və ya xüsusi təhsil işçisi) tərəfindən başlanıla və asanlaşdırıla bilər. Planlama prosesində ən önəmli maraqlı tərəflər uşaq və onun ailəsidir. Fasilitator yalnız onların səsini eşitməklə qənaətlənməməli, həmçinin uşaq və onun ailəsinin planlama prosesinin hər addımında iştirakını təmin etməlidir. Bura uşaq və onun valideynlərinin bütün iclas və görüşlərə dəvət edilməsi, uşaq və valideynlərinə anlaşıqlı şəkildə olmaqla məlumatların təmin edilməsi, onların dinlənməsi, eləcə də onların gözləntiləri, prioritetləri və narahatlıqlarına hörmətlə yanaşılması daxildir. Qardaş və bacıları da dinləmək çox əhəmiyyətlidir. Uşaq adətən bacı və qardaşları ilə çox vaxt keçirir. Onlar uşaq haqqında xüsusi məlumatları təmin edə bilər və onların dəstəklənməsi, xüsusilə sosial biliklərin əldə edilməsində çox mühüm rol oynayırlar. Məktəbdəki iştirakçılara sinif müəllimi, fənn müəllimləri, direktor, məktəb psixoloqu və uşağın dostları daxildir. Uşaq bir təhsil səviyyəsindən digərinə keçid etdiyi təqdirdə (məsələn, baxçadan ibtidai məktəbə və ya ibtidai sinifdən orta təhsil səviyyəsinə) hər iki məktəbin müəlliminin bu prosesə cəlb edilməsi işlərin gedişatına yardımçı ola bilər. Uşağın dostlarını da dinləmək vacibdir. Onlar uşağın arzuları, narahatlıqları və sosial vəziyyətinə dair xüsusi məlumatları təmin edə bilər. Bu komandaya zorbalıq (bullinq) kimi halları aşkar etməyə kömək edir. Dostlar evdə və

məktəbdə sosial dəstəyin təmin edilməsində mühüm rol oynaya bilər. İmkan daxilində xüsusi pedaqoqlar, terapevtlər və sosial işçilər planlama prosesinə cəlb edilməlidir. Xüsusi pedaqoqlara xüsusi məktəb müəllimləri, jest dili tərcüməçisi və Brayl mütəxəssisi daxildir. Terapevtlər loqoped, erqoterapevt və ya fizioterapevt ola bilər. Xüsusi pedaqoqlar və terapevtlər öyrənməni dəstəkləmək üçün ehtiyacları qiymətləndirməyə, müvafiq hədəfləri müəyyən etməyə və bu hədəflərə nail olmaq üçün strategiyaların təklif edilməsinə yardım edə bilər. Sosial işçilər mövcud resursların bölüşdürülməsi sxeminin qurulması və təmin edilməsi, müxtəlif maraqlı tərəflərin əlaqələndirilməsi, ailə üzvlərindən məlumatların toplanması və ümumi mənzərənin yaradılmasında dəstək ola bilər.

## Mövzu: İnklüziv peşə təhsili

### Plan:

1. "Sağlamlıq imkanları məhdud olan şəxslərin peşə-ixtisas təhsili müəssisələrinə qəbulu qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.
2. İnklüziv təhsildə sağlamlıq imkanlrı məhdud olan uşaqlar üçün fərdi proqramın yaradılması.
3. Sağlamlıq imkanlrı məhdud olan şəxslərin peşə təhsili almasının təşkilində əsas resusrlara olan tələbat.
4. Sağlamlıq imkanlrı məhdud olan uşaqların peşəyə maarifləndirilməsi.

### Ədəbiyyat:


1. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF , RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz "İnklüziv sinifdə təlimin təşkili" mövzusunda ixtisasartırma proqramının oxu materialı. Bakı, UNICEF -in Azərbaycan nümayəndəliyi, 2019.
2. Avropa İttifaqı, Azərbaycan Respublikası Təhsil Nazirliyi, UNICEF , RİİB. Dr. Peter Grimes, Marieke Stevens, Arlene dela Cruz, Tricia Mercado, Kaisa Ligaya Sol Cruz. İnklüziv təhsil üzrə müəllim inkişafı proqramları. Bakı, UNICEF -in Azərbaycan nümayəndəliyi, 2019
3. Təhsil İşçilərinin Peşəkar İnkişafı İnstitutu. İnklüziv siniflərdə təlimin təşkili. Bakı 2018
4. İnklüziv təhsil. Əlilliyi olan uşaqları keyfiyyətli təhsilə cəlb etmək üçün nə etmək lazımdır? Bakı, BMT-nin Uşaq fondu (UNICEF ), 2019
5. Əlilliyi olan Şəxslərin Hüquqları üzrə Konvensiya 4(2016) nömrəli Ümumi Şərh Maddə 24: İnklüziv təhsil hüququ. Bakı, BMT-nin Uşaq fondu (UNICEF ), 2019
6. Bacarıqlar haqqında. Əlilliyi olan Şəxslərin Hüquqları haqqında Konvensiyanın izahı. Bakı, BMT-nin Uşaq fondu (UNICEF ), 2019.
7. İnklüziv təhsil. Valideynlər üçün bələdçi. RİİB, Bakı, 2020
8. İnklüziv siniflərdə əlilliyi olan uşaqların təhsili. Müxtəlifliyin dəstəklənməsi üçün əlverişli mühitin yaradılması üzrə vəsait dəsti. Xüsusi kitabça 3. UNICEF, RİİB, Bakı 2020
9. İnklüziv təhsil konsepsiyası və onun UNİCEF-in missiyası kontekstində aydınlaşdırılması. Texniki kitabça 1. Bakı, UNİCEF, 2020

10. Müəllimlər, inklüziv, uşaqyönümlü tədris və pedaqogika. Texniki kitabça 12. Bakı, UNİCEF, 2020
11. Loreman T., Deppeler J., Harvey D. İnklüziv təhsil. Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Bakı, İdeal Print, 202
12. E.M. Starobina ƏLİLLƏRİN PEŞƏ HAZIRLIĞI. ƏLİLLƏR ÜÇÜN PEŞƏ TƏLİMİNİN TƏŞKİLİ. ORTA EŞİTMƏ QÜSURLARI ÜÇÜN, **https://vrscrm.ru/az/professionalnaya-podgotovka-lic-ogranichennymi-vozmozhnostyami-zdorovya/**

**1. "Sağlamlıq imkanları məhdud olan şəxslərin peşə-ixtisas təhsili müəssisələrinə qəbulu qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.**

**- Sağlamlıq imkanları məhdud şəxslərin peşə-ixtisas təhsili müəssisələrinə qəbulu Qaydasının təsdiq edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Sağlamlıq imkanları məhdud şəxslərin təhsili (xüsusi təhsil) haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyul tarixli, 540 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Sağlamlıq imkanları məhdud şəxslərin peşə-ixtisas təhsili müəssisələrinə qəbulu Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Baş naziri A. RASİZADƏ**

Bakı şəhəri, 29 aprel 2002-ci il. № 72

Azərbaycan Respublikası Nazirlər
Kabinetinin 2002-ci il 29 aprel tarixli 72
nömrəli qərarı ilə TƏSDİQ EDİLMİŞDİR

**Sağlamlıq imkanları məhdud şəxslərin peşə-ixtisas təhsili müəssisələrinə qəbulu**

**Q A Y D A S I**

1. Sağlamlıq imkanları məhdud şəxslərin peşə-ixtisas təhsili müəssisələrinə qəbulu psixoloji - tibbi-pedaqoji komissiya, yetkinlik yaşına çatanlar üçün isə tibbi - sosial ekspert komissiyası tərəfindən bu şəxslərə verilən, təhsil almaq hüququnu təsdiq edən sənədə əsasən həyata keçirilir.

2. Peşə - ixtisas təhsili müəssisələrinə əsas və ümumi orta təhsili başa vuran, xəstəliyinin xüsusiyyətləri seçdiyi peşə üzrə təhsil almağa və işləməyə imkan verən, bacarıq və maraqları nəzərə alınmaqla sağlamlıq imkanları məhdud şəxslər qəbul edilirlər.

Müstəsna hallarda əsas təhsili başa vurmayan, lakin peşə təhsili almaq istəyən şəxslər də peşə məktəblərinə qəbul edilə bilərlər.

Təhsil almaq arzusunda olan şəxslər üçün yaş məhdudiyyəti qoyulmur.

3. Peşə məktəbi və peşə litseylərinə daxil olmaq istəyən sağlamlıq imkanları məhdud şəxslər seçdikləri peşəni göstərməklə, direktorun adına ərizə yazırlar.

Ərizəyə aşağıdakı sənədlər əlavə olunur:

- təhsil haqqında sənədin əsli;

- peşə təhsili müəssisəsində oxumaq və seçdiyi peşə üzrə gələcəkdə işləmək imkanının olması barədə psixoloji-tibbi-pedaqoji və ya tibbi-sosial-ekspert komissiyasının rəyi;
- 086/u nömrəli tibbi arayış;
- yaşayış *yeri üzrə qeydiyyat haqqında* arayış;
- 3x4 ölçüdə 4 ədəd fotoşəkil.
- Pasport (doğum haqqında şəhadətnamə) qəbul komissiyasına şəxsən təqdim edilir.

Təqdim edilən sənədlərə əsasən təhsil müəssisəsinə qəbul edilənin şəxsi işində müvafiq qeydlər aparılır.

Sənədləri qəbul olunan şəxslər dərslərin başlanmasına ən azı 5 gün qalmış təhsil müəssisəsində müsahibədən keçirlər.

Sənədlərin qəbulu peşə məktəbi və peşə litseyləri tərəfindən müəyyən olunmuş müddətlərdə aparılır və dərslərin başlanmasına 5 gün qalmış başa çatdırılır.

4. Sağlamlıq imkanları məhdud şəxslərin peşə məktəbi və peşə litseylərinə qəbulu qəbul komissiyasının qərarına əsasən peşə təhsili müəssisəsi direktorunun əmri ilə rəsmiləşdirilir.

5. Peşə məktəbinə və peşə litseyinə qəbul olunmayan şəxslərin sənədləri qəbul barədə əmr verildikdən sonra 5 gün müddətinə rəsmi əsaslandırılaraq geri qaytarılır.

6. Sağlamlıq imkanları məhdud şəxslər ali və orta ixtisas təhsili müəssisələrinə ümumi qaydalar əsasında qəbul edilə bilərlər.

7. Peşə-ixtisas təhsili müəssisəsinə qəbul edilən sağlamlıq imkanları məhdud şəxslərin siyahısı məlumat üçün dərslər başlananadək valideynlərinə və ya digər qanuni nümayəndələrinə çatdırılır.

Müasir dövrdə dünyanın inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərini düşündürən mühüm problemlərdən biri sağlamlıq imkanları məhdud olan şəxslərin sosial tələblərinin həllidir. Burada xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün əlverişli təhsil şəraitinin yaradılması, onların inklüziv təhsilə cəlbi müstəqillik dövrü təhsil sistemi üçün proritet istiqamətləndirir.

Xüsusi təhsilin məqsədi sağlamlıq imkanları məhdud şəxslərə zəruri bilik, bacarıq və vərdişlər aşılamaqla onların cəmiyyətə uyğunlaşmasını təmin etməkdir.

İnklüziv təhsilin vacib komponentləri aşağıdakılardır.

- İnklüziv təhsilə əməkdaşlıq;
- Qiymətləndirmə;
- Fərdi tədris proqramı;
- İnklüziv təhsildə reabitasiya xidmətinin təşkili;
- İnklüziv təhsildə pedaqoq və psixoloqların rolu;
- İnklüziv təhsildə digər xidmətlərin təşkili;
- İnklüziv təhsildə valideynlərlə işin təşkili;
- Peşə təhsili.

Dünya təcrübəsinə istinad olunaraq xüsusi qayğıya ehtiyacı olan uşaqların gələcək həyatında sosial - problemlərin həllində mühüm əhəmiyyət kəsb edən peşə təhsilinin aşağıdakı kimi reallaşmasını vacib sayılır:

- Peşə təhsili təlimləri praktik olaraq, müvafiq olan iş yerlərində təşkili;

- Əlil gənclər öz tipik həmyaşıdları, iş yoldaşları ilə birlikdə təcrübə keçirmək; Həyatı bacarıqların öyrədilməsinə üstünlük vermək;
- Peşə təhsilini əsasən iş yerlərində həyata keçirmək;
- Peşə təhsilindən sonra gənclərin öz yaşıdları yerə yaxın ərazidə mövcud olan işlə təmin edilməsi.

İnklüzivlik sağlamlıq imkanlarından, bacarıqlarından, ailə vəziyyətindən, irqindən, dinindən, dərisinin rəngindən asılı olmayaraq bütün uşaqların təhsil prosesində və bərabərhüquqlu iştirakıdır. İnklüziv təhsil dedikdə xüsusi qayğıya ehtiyacı olan uşaqların öz həmyaşıdları ilə birlikdə kütləvi təhsil müəssisələrində təhsilinin təşkili nəzərdə tutlur. Təhsilin belə bir formada təşkili xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətdən və yaşıdlarından təcrid olunmaqdan xilas edir, onlarda özünə inam yaradır, sağlam uşaqlarda isə onlara qarşı tolerantlıq, mərhəmət, qayğı hislərinin formalaşmasına səbəb olur.

"Sağlamlıq imkanları məhdud şəxslərin təhsili haqqında Azərbaycan Respublikasının qanunu", "Əlilliyin qarşısının alınması, əlillərin reabilitasiyası və sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının qanunu" kimi qanunlarda əlillərin sosial reabilitasiyası, sosial müdafiəsi haqqında maddələr olmaqla qanunvericiliyin mövcud ümumi bazası xüsusi qayğıya ehtiyacı olan insanların soaial müdafiəsinə xidmət edir. Beynəlxalq aləmdədə əlillərə qayğı və diqqət artıb.

Azərbaycan Respublikası Nazirlər Kabineti "2001-ci ildə əlillərin və sağlamlıq imkanları məhdud uşaqların sosial müdafiəsi ilə bağlı tədbirlərin maliyyələşdirilməsinin Dövlət Proqramı"nı təsdiqləyib. Bununla bağlı qərarda deyilir ki, "Proqram"ın əsas məqsədi ölkədə uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar nəticəsində əldə olunmuş dinamik inkişafa və davamlı tərəqqiyə əsaslanaraq, əlillərin tibbi-sosial reabilitasiyasını kompleks şəkildə həll etməklə onların sosial müdafiəsinin və son nəticədə cəmiyyətə fəal inteqrasiyasının təmin olunmasıdır.

İnklüziv təhsilin inkişafı dünyanın bir çox ölkələrinin təhsil siyasətinin prioritetlərindəndir. BMT-nin İnsan Hüquqları Konvensiyasına görə bütün uşaqlar üçün bərabər təhsil almaq imkanlarının yaradılması və əlil uşaqların cəmiyyətə inteqrasiyası dövlətlərin üzərinə düşür. Artıq təhsilin məqsədlərindən biri də xüsusi qayğıya ehtiyacı olan insanların cəmiyyətə inteqrasiyasını stimullaşdırmaq və onu reallığa çevirməkdir. İnklüziv təhsilin əsas prinsipi odur ki, birgə təhsil alan uşaqlar birgə cəmiyyətdə yaşasınlar.

Azərbaycan təhsil siyasətinin məqsədi bütün vətəndaşlar üçün keyfiyyətli təhsilin təmin edilməsindən ibarətdir və təhsil sisteminin islahatlaşdırılması prosesində əsas diqqət milli azlıqları, qanunları və məcburi köçkünləri təmsil edən uşaqların, həmçinin xüsusi qayğıya ehtiyacı olan uşaqların keyfiyyətli təhsil alması üçün bərabər imkanların yaradılmasına yönəldilir.

“Peşə təhsili müəssisələrinə qəbul Qaydası”nın təsdiq edilməsi haqqında “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının 2018-ci il 24 aprel tarixli 1071-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 iyun tarixli 140 nömrəli Fərmanının 1.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti QƏRARında göstərilir ki, 1.11. Əlilliyi olan şəxslər, eləcə də valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar peşə təhsili müəssisələrinə müsabiqədənkənar qəbul edilirlər.

**2. İnklüziv təhsildə sağlamlıq imkanlrı məhdud olan uşaqlar üçün fərdi proqramın yaradılması.**

- BMT-nin "Əlillərin hüquqları haqqında" Konvensiyasın 27-ci maddəsi Əmək və məşğulluq adlanır. Bu maddə əlilliyi olan şəxslərin, o cümlədən, əmək fəaliyyəti zamanı əlil olan şəxslərin açıq, inkluziv və hamı üçün çıxış imkanlarına malik əmək bazarında və iş mühitində iştirak etməklə işləmək və yaşayışını təmin etmək hüququnu təsbit edir. Üzv ölkələr aşağıdakı məsələlər üzrə məlumatlar təqdim etməlidirlər:

• Əmək fəaliyyətinin bütün mərhələlərində və məşğulluğun bütün formalarında diskriminasiya hallarının qarşısının alınması və əlilliyi olan şəxslərin digər insanlar ilə bərabər səviyyədə işləmək və xüsusilə də, eyni həcmdə işə görə eyni miqdarda əmək haqqı almaq hüququnu təsbit edən qanunverici tədbirlər • Konvensiyanın 1-ci bəndinə (a-g bölmələri) uyğun olaraq əlilliyi olan şəxslər arasında tam və məhsuldar məşğulluğa nail olmaq üçün ünvanlı məşğulluq proqramları və siyasətlərinin təsiri

• Konvensiyanın 1-ci bəndinə (e bölmə) uyğun olaraq dövlət və özəl müəssisələrdə aparılan özəlləşmə, struktur dəyişikliyi və fəaliyyətin azaldılması tədbirləri nəticəsində işsiz qalan əlil şəxslərin məşğulluğunun təmin edilməsi istiqamətində görülən işlərin təsiri

• Müvafiq çərçivənin təmin edilməsi üçün texniki və maliyyə yardımının mövcudluğu, o cümlədən, sahibkarlığın təşviq edilməsi üçün kooperativlərin yaradılmasının və yeni yaradılan müəssisələrin dəstəklənməsi

• Əlilliyi olan şəxslərin əmək bazarında məşğulluğunun təmin edilməsi üçün həyata keçirilən səmərəli və konstruktiv tədbirlər

• Əlilliyi olan şəxslərə qarşı iş yerində qısnama hallarının qarşısının alınması istiqamətində səmərəli və pozitiv tədbirlər

• Əlilliyi olan şəxslərin açıq məşğulluq və peşə təlimi, o cümlədən, özünüməşğulluğu təşviq edən xidmətlərə çıxış imkanı

• Əlilliyi olan kişi və qadınların məşğulluğu arasında mövcud olan əhəmiyyətli fərqlərə, eləcə də, əlilliyi olan qadınların yüksək vəzifələrə çəkilməsinin təşviq edilməsi üçün sözügedən fərqlərə dair siyasətlərin və qanunvericilik aktlarının olub-olmadığına dair məlumat

• Əlilliyi olan şəxslər arasında ən həssas qrupların (nümunələr gətirməklə) və onların əmək bazarına inteqrasiyası üçün mövcud olan siyasət və qanunvericilik aktlarının müəyyən edilməsi

• Əlilliyi olan şəxslərin həmkarlar ittifaqı ilə bağlı hüquqlarının təşviq edilməsi istiqamətində həyata keçirilən tədbirlər

• Əlillik ilə nəticələnən əmək qəzası keçirən və əvvəlki əmək funksiyalarını yerinə yetirə bilməyən şəxslərin iş yerində saxlanılması və təlim keçməsi istiqamətində həyata keçirilən tədbirlər

• Üzv ölkənin qeyri-leqal iqtisadiyyatında çalışan əlilliyi olan şəxslərə dair məlumatın təqdim edilməsi və onların qeyri-leqal iqtisadiyyatdan çıxarılması, eləcə də, əsas xidmətlərə və sosial müdafiə sisteminə çıxış imkanının təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər

• Əlilliyi olan şəxslərin əsassız olaraq işdən azad edilməsi və 27-ci maddənin 2-ci bəndinə uyğun olaraq məcburi və zor gücü ilə əmək fəaliyyətinə cəlb edilməsi hallarının qarşısının alınması üçün qüvvədə olan qanunvericilik aktları

• 1-ci bölməyə uyğun olaraq texniki-peşə təhsilinə malik əlilliyi olan şəxslərin əmək bazarına daxil və yenidən daxil olmaq imkanının təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər

• Əlilliyi olan tələbələrin ümumi əmək bazarına eyni səviyyədə çıxış imkanının təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər

• Evdə iş, onlayn rejimdə iş, sub-podrat iş, yeni kommunikasiya texnologiyaları tərəfindən təklif edilən yeni iş növləri və s. bu kimi müxtəlif əmək fəaliyyəti formalarının təmin edilməsi istiqamətində həyata keçirilən tədbirlər.

**3. Sağlamlıq imkanlrı məhdud olan şəxslərin peşə təhsili almasının təşkilində əsas resusrlara olan tələbat.**

- "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanunu məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilatı əsaslarını, eləcə də vətəndaşların əmək və işsizlərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edir. Qanunun 6.2.1-ci maddəsinə uyğun olaraq, məşğulluq sahəsində dövlət siyasətinin əsas istiqamətlərindən biri, irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, ailə vəziyyətindən, ictimai-sosial mənşəyindən, yaşayış yerindən, əmlak vəziyyətindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşlara əmək və məşğulluğu sərbəst seçmək hüququnun həyata keçirilməsi üçün bərabər imkanların təmin edilməsidir. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 16-cı maddəsinin 1-ci hissəsinə əsasən Əmək münasibətlərində işçinin işgüzar keyfiyyətləri, peşəkarlıq səriştəsi, əməyinin nəticələri ilə bağlı olmayan amillərə görə işçilər arasında hər hansı ayrı-seçkiliyə yol verilməsi, habelə hüquqlarının məhdudlaşdırılması qəti qadağandır. Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların, məşğulluğunun təmin edilməsi, sosial müdafiəsinin gücləndirməsi məqsədilə "Məşğulluq haqqında" Qanununun 9-cu maddəsində dövlət tərəfindən əlavə iş yerləri və ixtisaslaşdırılmış müəssisələr, təşkilatlar (o cümlədən, əlillərin əməyi üçün müəssisə və təşkilatlar) yaratmaq yolu ilə, xüsusi proqramlar üzrə təlim təşkil etməklə və başqa tədbirlər görməklə sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşların kateqoriyaları (20 yaşadək gənclərə, yetkinlik yaşına çatmamış uşaqları tərbiyə edən tək və çoxuşaqlı valideynlərə, sağlamlıq imkanları məhdud uşaqları tərbiyə edən qadınlara, pensiya yaşına 2 ildən az qalmış şəxslərə, əlillərə, cəzaçəkmə yerlərindən azad edilmiş vətəndaşlara, məcburi köçkünlərə, müharibə veteranlarına, şəhid ailələrinə) üçün əlavə təminatlar nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 2005-ci il 22 noyabr tarixli 213 nömrəli qərarı ilə "Sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən vətəndaşlar üçün kvota tətbiq edilməsi Qaydası" və "Kvota şamil edilməyən müəssisələrin Siyahısı" təsdiq edilmişdir. Qaydaların 1.2-ci bəndinə uyğun olaraq kvota ərazi əmək bazarındakı vəziyyətdən asılı olaraq müəssisələrdəki işçilərin orta siyahı sayının 5 faizindən çox olmamaq şərti ilə aşağıdakı kimi müəyyən edilir: - işçilərinin sayı 25-dən 50-dək olan müəssisələrdə işçilərin orta illik siyahı sayının 3 faizi (bir iş yerindən az olmamaqla) miqdarında; bu halda həmin iş yerlərindən biri əlillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər üçün nəzərdə tutulur; - işçilərinin sayı 50-dən 100-dək olan müəssisələrdə işçilərin orta illik siyahı sayının 4 faizi miqdarında (işçilərin orta illik siyahı sayının 2 faizi

əlillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər üçün nəzərdə tutulmaqla); - işçilərinin sayı 100-dən çox olan müəssisələrdə işçilərin orta illik siyahı sayının 5 faizi miqdarında (işçilərin orta illik siyahı sayının 2,5 faizi əlillər və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslər üçün nəzərdə tutulmaqla). "Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)"nda sosial müdafiəyə xüsusi ehtiyacı olan insanların məşğulluğunun inkişaf etdirilməsi ilə bağlı bir sıra tədbirlər öz əksini tapmışdır. O cümlədən, əlillərin cəmiyyətə inteqrasiyasının təmin edilməsi, onların məşğulluq səviyyəsinin artırılması məqsədi ilə müvafiq şəraitin yaradılması, əlillərin səmərəli məşğulluğunun təmin edilməsi üçün psixoloji və peşəyönümü testlərin hazırlanması, bu kateqoriyadan olan vətəndaşlar üçün qanunvericiliklə nəzərdə tutulmuş qaydada kvota üzrə iş yerlərinin müəyyən edilməsi və bu kvotaların yerinə yetirilməsində işəgötürənlərin həvəsləndirilməsi, bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi üzrə müvafiq işlər aparılmışdır. Hal-hazırda Proqramın 2011-2015-ci illər üzrə Tədbirlər Planının layihəsi üzrə işlər davam etdirilir. Eyni zamanda işaxtaran və işsiz vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi məqsədi ilə beynəlxalq təcrübəyə əsaslanaraq "İşsizlikdən icbari sığorta haqqında" Azərbaycan Respublikasının Qanun layihəsinin hazırlanması üzrə işlər aparılır. 2006-cı ilin noyabr ayında Cenevrədə Azərbaycan Respublikasının üçtərəfli nümayəndə heyəti və BƏT-in səlahiyyətli nümayəndələri tərəfindən "Beynəlxalq Əmək Təşkilatı ilə əməkdaşlıq çərçivəsində Layiqli Əməyin Təminatı üzrə Ölkə Proqramı (2006-2009-cu illər)" imzalanmışdır. Ölkə Proqramı çərçivəsində əlillərin məşğulluğu və layiqli əmək məsələləri ilə bağlı beynəlxalq təcrübə nəzərə alınmaqla xüsusi təlim proqramlarının hazırlanıb tətbiq edilməsi nəzərdə tutulmuşdur. Tədbirlərin davamı olaraq üçtərəfli əməkdaşlıq əsasında Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası və Azərbaycan Respublikasının Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının dəstəyi ilə 2015-ci ilə qədər Layiqli Əməyin Təminatı üzrə Ölkə Proqramının layihəsi hazırlanmış və Beynəlxalq Əmək Təşkilatına təqdim edilmişdir. "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikası Qanununa əsasən (Kiçik sahibkarlığa kömək proqramları) əhalinin sosial cəhətdən daha az təmin olunan təbəqələrinin, o cümlədən işsizlərin, qaçqınların və məcburi köçkünlərin, əlillərin, şəhid ailələrinin, təqaüdçülərin, qadınların və gənclərin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi kimi proqramların həyata keçirilməsi nəzərdə tutulmuşdur. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 311, 312, 313-cü maddələrinə əsasən istər işçilər, istər işəgötürənlər Azərbaycan Respublikası Əmək Məcəlləsi ilə və əmək qanunvericiliyi sisteminə daxil olan digər normativ-hüquqi aktlarla müəyyən olunmuş hüquqları pozmağa görə qanunvericiliklə müəyyən edilmiş qaydada maddi, intizam, inzibati və cinayət məsuliyyəti daşıyırlar. "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" üzrə Tədbirlər Planının 4.1.56.-4.1.58.-ci maddələrində Məşğulluq Xidməti orqanları nəzdində müasir tədris texnologiyalarının tətbiqi ilə Regional Peşə Tədrisi Mərkəzlərinin yaradılması və onların əlillər üçün müvafiq tədris vəsaitləri ilə təmin edilməsi, respublikanın böyük şəhərlərində əlillərin texniki vəsaitlərinin təmiri üçün xüsusi emalatxanaların yaradılması, həmçinin əlillər və görməyənlər üçün xüsusi informasiya texnologiyaları mərkəzlərinin yaradılması nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Əmək Məcəlləsinin 78-ci maddəsinin 2-ci hissəsinə əsasən işəgötürən ixtisasları (peşələri) və ya peşəkarlıq səviyyələri eyni olduqda, həmin müəssisədə

əmək şikəstliyi almış və ya peşə xəstəliyinə tutulmuş şəxslərin işdə saxlanmasına üstünlük verir. "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu maddəsinə əsasən işçilərin sayı və ya ştatı ixtisar edilərkən, ixtisas dərəcəsi eyni olduqda, həmin müəssisədə, idarədə, təşkilatda əmək şikəstliyi almış və ya peşə xəstəliyi nəticəsində əlil, 18 yaşınadək sağlamlıq imkanları məhdud olmuş işçilərin işdə saxlanmaq üçün üstünlük hüququ vardır. Əmək vəzifələrini yerinə yetirərkən xəsarət alıb şikəst olmuş və bu səbəbdən əmək qabiliyyətini itirmiş I və II qrup əlillərin və ya sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin işləmədiyi müddət onların ümumi və fasiləsiz iş stajına daxil edilir. "Məşğulluq haqqında" Azərbaycan Respublikasının Qanununun 7-ci maddəsinə əsasən vətəndaşlar fəaliyyət növü, peşə, məşğuliyyət və iş yerini sərbəst seçmək hüququna malikdirlər. Qanunvericiliklə müəyyən edilmiş xüsusi hallardan başqa (məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə, hərbi xidmət, hərbi və fövqəladə vəziyyət zamanı) vətəndaşların məcburi əməyə cəlb edilməsinə yol verilmir. Texniki və peşə bacarıqları olan əlillərin əmək bazarına inteqrasiyasının asanlaşdırılması məqsədi ilə Məşğulluq Xidməti Orqanları tərəfindən onlar fiziki imkanlarına uyğun olmaqla müvafiq peşə hazırlığı kurslarına cəlb olunurlar. 2007, 2008, 2009 və 2010-cu ilin 9 ayı ərzində Məşğulluq Xidməti orqanlarına müraciət edən əlillərdən 180 nəfəri peşə hazırlığı kurslarına cəlb olunmuşlar ("kompüter dizayneri", "kompüter istifadəçisi", "alüminium və plastik materiallardan məmulatların yığıcı çilingəri", "tikişçi", "cildçi" və s). Bununla yanaşı, Azərbaycan Gözdən Əlillər Cəmiyyətinin müraciətinə əsasən cari ilin noyabr ayında 15 nəfər gözdən əlil şəxs xüsusi (Brayl) proqramı üzrə 2 aylıq "Kompüter istifadəçisi" peşə hazırlığı kursuna cəlb olunmuşdur. "Əlilliyin və uşaqların sağlamlıq imkanları məhdudluğunun qarşısının alınması, əlillərin və sağlamlıq imkanları məhdud uşaqların reabilitasiyası və sosial müdafiəsi haqqında" Azərbaycan Respublikası Qanununun 30-cu maddəsinə əsasən müvafiq yerli icra hakimiyyəti orqanları qeyriyaşayış otaqlarını vermək, habelə xammal əldə edilməsində və məhsulun satışında kömək göstərmək yolu ilə əlillərin və sağlamlıq imkanları məhdud 18 yaşınadək şəxslərin evdə əməyinin və sahibkarlıq fəaliyyətinin təşkili üçün lazımi şərait yaradırlar.

### 4. Sağlamlıq imkanlrı məhdud olan uşaqların peşəyə maarifləndirilməsi.

- Əlillərin peşə təhsilinin xüsusiyyətləri Məqalədə, əlillərin xüsusiyyətlərini, xüsusən də öyrənmə qabiliyyətindəki məhdudiyyətləri və sonrakı işlərini nəzərə alaraq fənlərarası yanaşma, reabilitasiya və təhsil mahiyyətindən ibarət olan əlillərin peşə təhsilinin xüsusiyyətləri açıqlanır. Məqalədə əlillər üçün peşə təhsili, əlillər üçün xüsusiyyətlər, xüsusən də təhsil və iş imkanları nəzərə alınmaqla fənlərarası bir yanaşma, reabilitasiya və təhsil mahiyyəti olan xüsusiyyətlər təsvir edilmişdir. Açar sözlər: əlillərin peşə təhsili, reabilitasiya və təhsil mühiti, reabilitasiya və təhsil texnologiyaları, müşayiət olunan xidmətlər. Açar sözlər: əlillərin peşə təhsili, reabilitasiya və təhsil mühiti, reabilitasiya və təhsil texnologiyası, müşayiət olunan xidmətlər. BMT Baş Assambleyası tərəfindən 2007-ci ildə qəbul edilmiş Əlillərin Hüquqlarına dair Konvensiya, əlillərin ümumi rifaha verdiyi dəyərli cari və potensial töhfələrin tanınmasını təklif edir. Əlillər tərəfindən insan hüquqlarından və əsas azadlıqlardan tam istifadə edilməsinin təşviqi cəmiyyətin insan, sosial və iqtisadi inkişafında əhəmiyyətli irəliləyişlərə imkan verəcəkdir. Əlillərin başqaları ilə

bərabər səviyyədə təhsil və işləmək hüququ tanınmalıdır; əlillər ayrı-seçkilik etmədən və başqaları ilə bərabər şəkildə ömürləri boyu peşə rəhbərliyi, ümumi və peşə təhsili və böyüklər təhsili almalıdırlar. Konvensiyada deyilir ki, dövlətlər əlillərin təhsil hüququnu tanımalıdırlar. Bu hüququ fürsət bərabərliyi əsasında həyata keçirmək üçün bütün səviyyələrdə inklüziv təhsil və ömür boyu təhsil təmin edilməli, bununla birlikdə: İnsan potensialının, əsas azadlıqlarının və insan müxtəlifliyinin hərtərəfli inkişafına doğru; Əlillərin şəxsiyyətinin, istedadlarının və yaradıcılığının, eləcə də əqli və fiziki qabiliyyətlərinin inkişafına; Əlillərin cəmiyyətdə səmərəli iştirak etmələrini təmin etmək. Rusiya Federasiyasının "Rusiya Federasiyasında Əlillərin Sosial Müdafiəsi haqqında" Federal Qanununun 19-cu maddəsinin normaları ilə dövlətimiz əlillərin əlillərin fərdi reabilitasiya proqramına uyğun olaraq əsas ümumi, orta (tam) ümumi təhsil, ilk peşə, orta peşə və ali peşə təhsili almasını təmin edir. H.h.-nin müddəalarına uyğun olaraq. 5, 6 Art. Peşə təhsili almaq üçün xüsusi şərtlərə ehtiyacı olan əlillər üçün eyni qanunun 19-u, müxtəlif növ və tipli xüsusi peşə müəssisələri və ya ümumi tipli peşə təhsili müəssisələrində müvafiq şərait yaradılmışdır. Lakin praktikada bu bəyannamələr böyük çətinliklə həyata keçirilir. Hal-hazırda müxtəlif kateqoriyalı əlillərin peşə təhsili ilə əlaqəli tədqiqatlarda bu kateqoriyadakı şagirdlər üçün davamlı çox səviyyəli dəyişkən peşə təhsili sisteminin formalaşdırılması, mövcud ixtisaslaşmış və dövlət müəssisələrinin vahid təhsil məkanına inteqrasiyası və ixtisas təhsili müəssisələrinin təkmilləşdirilməsi problemləri ortaya qoyulur. effektiv reabilitasiya və təhsil texnologiyalarının və vahid təhsil standartlarının tətbiqi əsasında. Əlillərin peşə təhsili nəzəriyyəsi (ƏMŞ) hazırda yalnız bir neçə elmin qovuşduğu yerdə formalaşır: pedaqogika, reabilitologiya, psixologiya, sosiologiya, tibb və s. Əlillərin peşə təhsili nəzəriyyəsinin spesifikliyi onun fənlərarası, reabilitasiya və təhsil müəssisələr. Əlilliyi olan insanların xüsusiyyətlərini, xüsusən öyrənmə qabiliyyətinin müxtəlif məhdudiyyətlərini və sonrakı işlərini nəzərə almağa əsaslanır. Eyni zamanda, bu problemin yüksək sosial əhəmiyyətini qeyd etmək lazımdır. Əlillər üçün peşə təhsili sisteminin nəzəri əsaslandırılması problemi, bu kateqoriyadakı şagirdlərin yüksək keyfiyyətli peşə təhsili almasının təmin edilməsi zərurəti ilə əlaqədar olaraq nisbətən son zamanlarda ortaya çıxdı. Eyni zamanda, xüsusi ehtiyacı olan tələbələr, təlim keçmiş müəllim heyəti üçün sağlamlıqlarının qorunmasını təmin edən xüsusi təhsil şəraiti, xüsusi təhsil texnologiyaları, hərtərəfli psixoloji, pedaqoji və tibbi və sosial dəstək olmadığı bildirilə bilər. mövcud peşə təhsili sistemi şəraitində funksional uyğunlaşma. Əlillər üçün peşə təhsili sisteminin əsas prinsipləri olaraq, peşə təhsilinin bütün pillələri və səviyyələrinin əlçatanlıq prinsipləri, xüsusi təhsil və reabilitasiya xidmətlərinin məzmunu və həcminin optimallığı, sərt şaquli iyerarxiya və təhsil müəssisələrinin geniş (inkişaf etmiş) üfüqi (regional və bölgələrarası) əlaqələrinin birləşməsi irəli sürülür. idarəyə tabeliyindən və mülkiyyət formalarından asılı olmayaraq. Reabilitasiya aspektində əlil insanların peşə təhsili nəzəriyyəsi spesifik anlayışlarla xarakterizə olunur: “əlil”, “əlil şəxs”, “həyat fəaliyyətinin məhdudlaşdırılması”, “işləmək qabiliyyətinin məhdudlaşdırılması”, “öyrənmə qabiliyyətinin məhdudlaşdırılması” "," Sosial müdafiə "," Əlillərin reabilitasiyası "," peşə reabilitasiyası ". Reabilitasiya baxımından peşə təhsili onun cəhətlərindən biridir, peşə reabilitasiyasının bir elementidir. Peşə reabilitasiyasının mərkəzi halqası olan peşə təhsili, bir tərəfdən peşə rəhbərliyi, peşə seçimi, peşə hazırlığı təhsili ilə, digər tərəfdən isə onun effektivliyinin meyarı olan məşğulluq və sənaye uyğunlaşması ilə əlaqələr ilə müəyyən edilir. Əlillərin peşə

reabilitasiyasının ən vacib kateqoriyası bunlardır: əmək potensialı, əmək proqnozu, rasional məşğulluq. Əmək potensialı bir fərdi həm fərdi, həm də xarici amillər və şərtlər nəzərə alınmaqla əlil olduğu bir ixtisas üzrə təhsili və sonrakı işini müəyyənləşdirir. Peşə təhsili prosesində tələbə ona tövsiyə olunan əməyin təşkili şəraitində və formalarında işləməyə hazırlanır. Adi və xüsusi yaradılmış istehsal şərtləri seçilir. Xüsusi iş şəraitində və ixtisaslaşmış təhsil müəssisələrində təlim əsasən əlillər, öyrənmə qabiliyyətləri məhdud olan əlillər tərəfindən tələb olunur. Peşə təhsili yalnız bir peşəyə yiyələnməklə yanaşı, sosial uyğunlaşma, təhsil və əmək kollektivlərinə, cəmiyyətə inteqrasiya problemlərini həll etmək üçün hazırlanmışdır. Əlillərin peşə təhsili reabilitasiya komponentinin tərkibi, reabilitasiyada inteqrasiya olunmuş bir yanaşma, təhsil prosesi zamanı bir insanın psixoloji və pedaqoji tibbi və sosial dəstək konsepsiyası ilə əsaslandırılır (E.I. Kazakova), diaqnozun birliyi, məlumat axtarışı, müşayiət planının həyata keçirilməsində planlaşdırma, məsləhətləşmə və yardım, ümumiyyətlə müşayiət xidmətinin funksiyaları və fəaliyyətləri müəyyənləşdirilir. Əlillərin peşə təhsili reabilitasiya komponentinin əsas elementlərinə aşağıdakılar daxildir: əlçatan bir reabilitasiya və təhsil öyrənmə mühiti, xüsusi reabilitasiya və xidmətləri müşayiət edən təhsil texnologiyaları. Reabilitasiya və təhsil mühiti bir təhsil müəssisəsindəki bir əlilin xüsusi ehtiyaclarına uyğunlaşdırılmış, peşəkar proqramlara yiyələnmə, bir şəxsin bir təhsil müəssisəsində və cəmiyyətdə uyğunlaşması, öyrənmə ilə əlaqəli problemlərin həlli üçün şərait yaradan bir mühitdir. Bu mühit əlil şəxsin həyat məhdudiyyətlərini tam və ya qismən kompensasiya etməli və optimal reabilitasiya və təhsil prosesi üçün şərait yaratmalıdır. Reabilitasiya və təhsil mühiti yalnız əlillərin təhsil ehtiyaclarına deyil, həm də onun sosial, sosial, ekoloji, sosial-mədəni ehtiyaclarına (binanın ətrafında hərəkət etmək, ünsiyyət, məlumat, yemək, əsas gigiyena prosedurlarını yerinə yetirmək və s.) Uyğunlaşdırılmalıdır. ... Ətraf mühit təhsil prosesində reabilitasiya və sonradan cəmiyyətə və işçi qüvvəsinə ən tam inteqrasiya üçün şərait yaratmalıdır. Həm də əlillərin hamısının əmək bazarında rəqabət edə bilməyəcəyi və onların məşğulluğu xüsusi yaradılmış iş şəraitinin tələb olunduğu da nəzərə alınmalıdır. Reabilitasiya və təhsil mühitinin aşağıdakı komponentlərini ayırmaq olar: Xüsusi reabilitasiya və təhsil texnologiyaları; Memarlıq və planlaşdırma həlləri və texniki dəstək (fərdi və qrup texniki təlim və reabilitasiya vasitələri) səbəbindən maneəli öyrənmə mühiti, ünsiyyət və əlillərin həyatı; Əlillərin reabilitasiya və təhsil prosesinin onlar üçün, qohumları, müəllimləri və digər mütəxəssislər üçün əlçatan bir formada məlumat təminatı; Təhsil prosesinə psixoloji, pedaqoji və tibbi və sosial dəstək; Reabilitasiya və təhsil müəssisəsində əlverişli, xeyirxah, psixoloji cəhətdən rahat bir atmosfer. Əlillərin peşə hazırlığı təhsili müəssisəsində reabilitasiya və təhsil mühitinin yalnız əlillərin sosial adaptasiya çətinliklərini aşması üçün maneəsiz ünsiyyət və həyat təmin etdiyini aydınlaşdırmaq lazımdır. əsas əlillərin xüsusi reabilitasiya və təhsil ehtiyaclarına uyğun optimal öyrənmə şərtləridir. Sosial-psixoloji baxımdan reabilitasiya və təhsil mühitinin, məsələn, ibtidai peşə təhsili müəssisəsinin formalaşması, əlil olmayan şəxslərin sosial-psixoloji uyğunlaşmasında subyektiv amillərin təsiri ilə müəyyən edilir. Ətraf mühit, eyni zamanda əlillər üçün terapevtik, terapevtik bir vasitə olan ən vacib reabilitasiya vasitəsidir. "Ətraf mühit" anlayışı əlil bir insanın yaxın ətrafını, sosial dairəsini də əhatə edir: bu ailədir və onu ixtisaslaşmış bir müəssisədə əhatə edənlər və iş yerində, işdə, asudə vaxtlarında yanında olanlardır. Əlil bir şəxsin ətrafındakı insanlarla ünsiyyətinin və əlaqəsinin (əlaqəsinin) təbiəti yalnız onun şəxsi xüsusiyyətlərinin

xüsusiyyətlərindən deyil, həm də ətrafındakıların qəbulundan asılıdır. Bunlar insan münasibətlərinin subyektiv əks olunması kimi təfsir edilə bilməz və ya yalnız maddi və ya təşkilati cəhətləri əsas götürür, münasibətlərin yönəlmiş təbiəti olan psixo-sosial amil kimi nəzərdən keçirmək lazımdır. Eyni zamanda "geyim mühiti" (daxili, rahatlıq, müəssisədəki qeyri-rəsmi atmosfer və s.) Da vacibdir. Reabilitasiya və təhsil texnologiyaları peşə təhsili verən bir sıra təşkilati formalar, metodlar və vasitələrdir. Bu, pedaqoji bir prosesdir və mövcud təhsil və reabilitasiya standartlarına uyğun olaraq xüsusi təhsil və reabilitasiya nəticələrinə çıxışı ilə, tələbə populyasiyasının xüsusiyyətləri və təhsil müəssisəsinin xüsusi şərtləri nəzərə alınmaqla, peşə reabilitasiyasının optimal səviyyədə olmasıdır. Reabilitasiya və təhsil texnologiyaları aşağıdakıları təmin etməlidir: Təhsil və reabilitasiya proseslərinin üzvi əlaqəsi və birliyi; Həm nəzəri, həm də praktik tədris materialının mənimsənilməsinin optimallığı; Təlim və istehsal avadanlıqlarına fiziki giriş, Məlumat əldə etmək; Şəxslərarası ünsiyyətin mövcudluğu; Reabilitasiya və təhsil prosesinin psixoloji rahatlığı; İntensiv, yüksək təhsil, rabitə və reabilitasiya texnologiyalarına giriş, spesifik səbəblərdən çətin olduqda əlillər; Bədən funksiyalarının pozulmasının daha tam düzəldilməsi və kompensasiyası (və / və ya dəyişdirilməsi) mümkündür (məsələn, süni qulaq prosessorları, proqramlaşdırıla bilən və rəqəmsal eşitmə cihazları və s.) Texnoloji bazaya hər bir əlil üçün reabilitasiya və təhsil prosesinin mövcudluğu və optimal səmərəliliyini, əlillərin ehtiyaclarına uyğunlaşdırılmış xüsusi reabilitasiya mühitinin və təhsil məkanının yaradılmasını təmin edən xüsusi maddi-texniki və tədris-metodiki baza daxil edilməlidir. Müşayiət olunan xidmətlərin təşkili bir sıra səbəblərə görə əlillərin peşə təhsili üçün həyata keçirilmiş vahid inkişaf dəstəyi nəzəriyyəsi ilə əsaslandırılmışdır: Bir insanın şəxsiyyətini ən böyük dəyər elan edən, bu şəxsiyyətin maksimum inkişafı üçün şərait yaratmağı öhdəsinə götürən humanist pedaqogika prinsiplərinin tanınması; Təhsilin məqsədlərinə, məzmununa və fəaliyyətinə yeni yanaşmaların tanınması; Ümumi təhsil müəssisələri də daxil olmaqla peşə təhsili almaq istəyən əlillərin sayında illik artımın açıq şəkildə görünən bir tendensiyasının olması; Peşə təhsili dövründə və başa çatdıqdan sonra bir əlilin yolunda yaranan təşkilati, hüquqi, texniki, metodoloji, psixoloji, etik çətinliklərdə əhəmiyyətli dərəcədə artım. Peşə təhsili prosesində əlillərin müşayiət olunmasının əsas məqsədləri aşağıdakılardır: bu kateqoriyadakı tələbələr üçün psixoloji, metodiki, texniki və təhsil dəstəyinin təşkili. Müşayiət təşkilinin bir forması olaraq həm ixtisas şöbələri (ümumi tipli müəssisələrdə və ya müəyyən bir təhsil müəssisəsinin tələbələri müşayiət edən ixtisaslaşmış) və müşayiətedici xidmətlər təklif olunur. Bir əlilin təlim prosesində reabilitasiyasına, onun psixoloji, pedaqoji və tibbi və sosial dəstəyinə vahid yanaşma təmin edən müşayiət edən xidmətlər metodoloji, psixoloji, sosial, tibbi, texniki xidmətlərdir. Metodik xidmət tədris planlarının və tədris metodlarının uyğunlaşdırılmasını, müasir təhsil, o cümlədən ixtisaslaşdırılmış və reabilitasiya texnologiyalarının tətbiqini, metodiki dəstəyi, müşayiət olunan xidmətlərin qarşılıqlı fəaliyyətini, uyğunlaşdırılmış tədris materialları və dərsliklərinin tədarükünü təmin edir. Psixoloji xidmət aşağıdakı vəzifələri həll edir: bir təhsil müəssisəsində tələbələr üçün fərdi psixoloji dəstək proqramlarının hazırlanması; peşəkar seçim və peşəkar seçimdə iştirak; psixoloji diaqnostika; psixoloji patronaj, psixoterapiya şəklində psixoloji yardım, psixo düzəliş, qrup və fərdi formada konsultasiya və təlimlər; tələbələrin özünü tanıması, sosial və işgüzar ünsiyyət metodları, psixoloji özünütənzimləmə və özünü dərk etmə; müəllim heyətinə psixoloji yardım; ailəyə psixoloji

yardım. Sosial xidmət aşağıdakı vəzifələri həll edir: bütün müşayiət olunan xidmətlərin işinin koordinasiyası və nəzarəti, fərdi reabilitasiya gündəliklərinin aparılması; bir təhsil müəssisəsində tələbələr üçün fərdi sosial dəstək proqramlarının hazırlanması; peşə seçimi, peşə seçimi və qəbulunda iştirak, sosial diaqnostikanın aparılması və müraciət edənlərin və işə qəbul qruplarının qeydiyyatı ilə bağlı işlərin təşkili; sosial diaqnostika; sosial patronajın həyata keçirilməsi; sosial baxımdan "risk" qrupunun müəyyənləşdirilməsi, sosial reabilitasiya üçün tədbirlər həyata keçirilməsi; fərdi və peşə planlarının həyata keçirilməsində tələbələrlə təhsil müəssisəsi, habelə dövlət reabilitasiya xidməti qurumları arasında vasitəçilik funksiyası; əlillərə sosial müdafiə, müavinət və zəmanət məsələlərində məsləhət vermək, hüquqlarının həyata keçirilməsini təşviq etmək; sosial təlim (sosial və sosial və ekoloji bacarıq), mədəni və idman və istirahət işinin təşkili; qazanılmış ixtisas və keyfiyyətlərə uyğun məzunların rasional məşğulluğunun təşviqi, məşğulluq xidməti və işəgötürənlər ilə əməkdaşlıq; məzunların məşğulluq və peşə fəaliyyətlərinin nəticələrinin izlənməsi, peşə reabilitasiyasında qarşılaşdıqları çətinlik və problemləri müəyyənləşdirmək. Tibbi xidmət, müraciət edənlərin sağlamlıq vəziyyətini qiymətləndirərək, müəyyən bir ixtisas üçün göstərişlər və əks göstərişlər göstərərək peşə seçimi və peşə seçimində iştirak edir; c bir təhsil müəssisəsində tələbələr üçün fərdi tibbi dəstək proqramları hazırlayır; fəaliyyətini tibb müəssisələri ilə əlaqələndirir və əlaqələndirir; tələbələri dar ixtisaslaşmış tibbi yardım almaq, kurort müalicəsi, protez və ortez üçün tibb müəssisələrinə yönəldir; tələbələrə və onların valideynlərinə evdə tibbi reabilitasiya tədbirlərinin həyata keçirilməsini öyrədir, tibbi bilik, bacarıq və bacarıqları ötürür, tibbi konsultativ və profilaktik iş, sanitariya-gigiyena və tibbi maarifləndirmə işləri aparır; sağlamlıq vəziyyətini izləyir vya tələbələri, tibbi patronaj, icazə verilən təlim və istehsal yüklərini və təlim rejimini təyin etmək; tibbi baxımdan "risk" və "yüksək risk" qruplarının tələbə sayından təcrid olunma; təcili tibbi yardım halında qərar qəbul edilməsi; müəssisənin sanitar vəziyyətinə nəzarət, keyfiyyət nəzarəti və pəhriz daxil olmaqla qidanın təşkili üçün tövsiyələr; tibbi və istirahət fəaliyyəti həyata keçirir. Texniki xidmət köməkçi texniki təlim vasitələri (məsələn, ixtisaslaşdırılmış iş masaları, oturmaq üçün dayaqlar və bədən vəziyyətindəki dəyişikliklər və s.), Binaların mövcudluğu (körpülər, rampalar, yamaclar, səs mühiti, görmə mühiti və s.), əmək təhlükəsizliyi və istehsalat təlimində təlim və iş yerlərinin uyğunlaşdırılması, müxtəlif kateqoriyalı əlillər üçün təhsil, istirahət və yaşayış mühitinin təchizatı; tələbələrin iş yerlərinin və evlərinin təchiz edilməsi ilə bağlı fərdi konsultasiya. Əlillərin peşə təhsili prosesində reabilitasiya komponentinin bu cür təmin edilməsi sistematik, çoxsahəli disiplinlər dəstəyi peşəsinin mənimsənilməsinin yüksək səmərəliliyini, davamlı xarakterini, uşağın inkişafının müsbət daxili potensialına etibarını, təsir əvəzinə qarşılıqlı əlaqəni, həm də müşayiət edən şəxsin mənafelərinin prioritetliyini, müşayiət xidməti mütəxəssislərinin müstəqilliyini və muxtariyyətini təmin edəcəkdir (həmişə tərəfdədir) uşaq). Sosial müdafiə sisteminin ixtisaslaşmış peşə təhsili müəssisələrinin uzunmüddətli təcrübəsi göstərdi ki, fərdin inkişafının müsbət daxili potensialına əsaslanan tədris prosesinin davamlı sistematik, çoxsahəli dəstək prinsiplərinə əsaslanan təlim prosesinin reabilitasiya komponentinin belə bir təşkili, əlilliyi olan şəxslərin peşəsinə yiyələnməyin yüksək səmərəliliyini təmin edir. Hal-hazırda ümumi tipli peşə təhsili müəssisələri getdikcə daha çox əlil tələbələrin peşə hazırlığı üçün ixtisaslaşmış şöbələr, qruplar yaradır və tədricən inteqrasiya olunmuş bir yanaşma tətbiq olunur. Bununla birlikdə, bu fəaliyyət ya normativ, həm metodiki, həm də

texniki cəhətdən təmin edilmir ki, bu da bu kateqoriyadakı şagirdlərin sağlamlığının qorunmasına, mövcud peşə təhsili sistemi şəraitində onların funksional uyğunlaşmasına kömək etmir.

## Mövzu İNKLÜZİV DƏRSİN PLANLAŞDIRILMASI VƏ TƏTBİQİ

### 6.1. İnklüziv sinif üçün dərsin planlaşdırılması

Müəllimlər tərəfindən dərsi planlaşdırmaya şagirdlərin maraqları, güclü tərəfləri, ehtiyacları və dərsin məzmununu nəzərə alıb dəyişikliklər edərək yanaşması ideal formadır. Müəllimlər bir sıra şagirdləri və öyrənmə tərzlərinin müxtəlifliyini nəzərə alaraq dərsi planlaşdırmalıdır. Bu təcrübə əlilliyi olan şagirdlər üçün müvafiq olan və bütün şagirdlərin ehtiyaclarını təmin edən dərsləri inkişaf etdirir. Müəllimlər inklüziya və cəlb olunmanı asanlaşdırmaq üçün mədəni mühit və şagirdlər ilə məktəb arasında aydın əlaqələri təmin etməyi də planlaşdırmalıdır.

UNESCO inklüziv siniflərdə dərs planlaşmasında aşağıdakı kurikulum üçbucağını tövsiyə edir.




**Məzmun** – milli təhsil proqramında müəyyənləşdirilmiş mövzuya uyğunlaşdırılır. Mövzu uşaqlara aydın olmalıdır.

**Proses** – məzmunun necə öyrədilməsidir. Müxtəlif öyrənmə ehtiyaclarını qarşılamaq üçün müxtəlif təlim üsullarından istifadə olunur.

**Mühit** – fiziki (əşyavi) mühit, öyrənmə mühiti və psixi-sosial mühit daxildir.

Dərs planlaşdırılmasında istiqamətləndirici sualları cavablandırmaq işi yüngülləşdirir.

- Nə öyrədirik? (mövzu, məzmun)
- Nə üçün öyrədirik? (hədəflər, məqsədlər)
- Necə təlim edəcəyik? (üsullar, proses)
- Uşaqlar artıq nəyi bilir? (əvvəl öyrəndikləri, öncədən yoxlama sınağı)
- Uşaqlar nə edəcək? (fəaliyyətlər)
- Dərsi necə təşkil edəcəyik? (fiziki və sosial mühitin təşkil olunması daxil olmaqla)
- Fəaliyyətlər bütün uşaqlara uyğun olacaqmı?
- Uşaqların cüt və ya kiçik qruplarda işləmək imkanları olacaq?
- Uşaqlar etdiklərini necə qeydə alacaqlar? (təlim məhsulları, məsələn, şagirdin çəkdiyi rəsm)
- Uşaqların öyrəndiklərini necə biləcəyik? (rəy, qiymətləndirmə)
- Növbəti olaraq nə edirik? (öyrənilənlərin əks etdirilməsi və gələcək planlaşdırma)

Müəllimlər sadə sxemdən istifadə edərək dərsi planlaşdıra bilər.

**Dərs planının sxemi**

**Ümumi məlumat**

| | |
|---|---|
| Fənn: | |
| Sinif: | |
| Uşaqların sayı: | |
| Vaxt: | |

**Təlim məqsədləri**

Bu dərsdə uşaqlar nəyi öyrənməlidirlər?

Onlar hansı bilik və bacarıqlara yiyələnməlidirlər?

| |
|---|
| |
| **Resurslar** |
| Dərs üçün sizə hansı resurslar lazımdır? Uşaqlara hansı materiallar lazımdır? Resursları əldə etmək üçün uşaqlar necə kömək edə bilər? |
| |

| **Fərdi ehtiyaclara malik uşaqlar** | |
|---|---|
| Qrupda əlavə köməyə ehtiyacı olan uşaq varmı? Kim? Niyə? | |
| Bu uşaqlara hansı dəstəyi göstərməli olacaqsınız? | |
| Onlara fərdi kömək etməlisinizmi? | |

| | |
|---|---|
| | |
| Onların sinifdə müvafiq yerlərdə oturmasını təmin etməlisinizmi? (Sinif otağı sıx olduqda, onlara rahat kömək edə biləcəyiniz yerdə otuzdurmaq əlverişlidir) Həmin uşaqların onlara kömək edə biləcək uşaqların yanında yerləşməsini təmin edin. Əlilliyi olan uşaqları birlikdə qruplaşdırmayın. | **Giriş** |

Məsləhətlər:

- Uşaqlara bu dərsdə nəyi öyrənməklərini istədiyinizi deyin. Bəzi müəllimlər lövhədə yazır.
- Dərsə necə başlayacağınızı düşünün. Əvvəlki dərsdə uşaqların öyrəndiklərinə qısa nəzər salmağı unutmayın.
- Sizi əsas fəaliyyətlərinizə istiqamətləndirəcək şəkil müzakirəsi, açıq sual və ya uşaqların həll edəcəyi məsələ ilə başlamağa cəhd edin.

Plan:

**Əsas fəaliyyətlər**

Dərsin əsas hissəsində uşaqlar nə etməlidirlər?

Məsləhətlər:

- Uşaqlara təlimin məqsədini anladacaq tapşırıqlar hazırlayın.
- Müxtəlif fəaliyyətləri daxil etməyə cəhd edin; məsələn, uşaqlardan cüt və ya qrup şəklində işləməyi xahiş edin.
- Tapşırıqları necə təqdim və izah edəcəyinizə qərar verin.
- Uşaqlar tapşırıqlar üzərində işlədikdə vaxtınızı necə sərf edəcəyinizə qərar verin. Bu məqam əlavə köməyə ehtiyacı olan uşaqları dəstəkləmək üçün əlverişlidir.

Plan:

**Nəticə**

Məsləhətlər:

- Dərsin sonunda təlimin məqsədlərini gücləndirəcək fəaliyyət və ya müzakirə seçin. Uşaqlardan nə öyrəndiklərini soruşun.

Plan:

### 6.2. Təcrübədə inklüziv təhsil

Əksər müəllimlər əlilliyi olan uşaqları siniflərinə daxil etməyə etiraz etmirlər. Onlar bunun düzgün və bütün uşaqların eyni hüquqlara malik olduğunu bilirlər. Lakin bəzən müəllimlər sinifdə inklüziyanın necə olacağını təsəvvür edə bilmirlər. Bu proqram vasitəsilə biz inklüziv

təhsilin tətbiqinə dair əsas anlayışları, prinsipləri, inklüziya üçün bir yerdə işləməyi öyrənirik. Bu bölmədə inklüziv təlim mühitinin yaradılmasını dəstəkləyən təcrübi sinif strategiyaları müzakirə edilir. İnklüziya şagirdlərin ehtiyacları, güclü tərəfləri və maraqlarını nəzərə alaraq sadə düzəlişlər və dəyişikliklər etməklə mümkündür.

### 6.3. Diferensial təlim

Təlimin diferensiallaşdırılması bütün uşaqların eyni olduğunu zənn edərək bütün sinfə ənənəvi təlimin əvəzinə konkret uşağın və ya kiçik uşaq qrupunun təlim ehtiyaclarına diqqət yetirməkdir. Təlimdə müəllimlər ilə uşaqlar əməkdaşdırlar.

**Diferensial təlimin prinsipləri:**

1. **Diferensial sinif çevikdir.** Müəllim və uşaqlar başa düşür ki, hər bir uşağın və ümumilikdə sinfin akademik uğurunu təmin edən qiymətləndirmə üsulları, uşaqların qruplaşdırılma yolları və müxtəlif materiallar var.
2. **Təlimin diferensiallaşdırılması şagirdlərin ehtiyaclarının cari qiymətləndirilməsin- dən irəli gəlir.**
   Müəllimlər şagirdlərin ehtiyaclarını bildikdə təlimi daha səmərəli təşkil edə bilirlər. İnklüziv müəllim uşağı daha yaxşı başa düşmək üçün onun dediyi və ya etdiyi hər bir şeyi faydalı məlumat kimi görür və dərsin düzgün planlaşdırması üçün bu məlumatdan istifadə edir, nəticədə şagirdin öyrənməsi üçün daha əlverişli şərait yaranır.
3. **Bütün uşaqların müvafiq işi var.**
   Müəllimin hədəfi uşağın dərs boyu məşğul olması və gördüyü işinin maraqlı və öyrədici olmasını təmin etməkdir.
4. **Təlimdə müəllimlər ilə uşaqlar əməkdaşdırlar.** Müəllim təlim ehtiyaclarını qiymətləndirir, təlimdə fasilitatorluq edir və səmərəli dərs planlaşdırması aparır. Uşaqları təhlil edir və davamlı olaraq sinif haqqında qərarların qəbul olunmasında onların rəyini nəzərə alır. Nəticədə uşaqlar daha müstəqil şagirdlərə çevrilirlər.

**Diferensial məzmun**

- Uşaqların yeni anlayışları başa düşməsi üçün obyektlərdən istifadə edilir;
- Mətnlər bir neçə oxu səviyyəsində tərtib edilir;

- Mətn materialları ilə işləyən uşaqları dəstəkləmək və cəlb etmək üçün oxu prosesinə sinif yoldaşları cəlb edilir;
- Əlavə təqdimata ehtiyacı olan uşaqlara dərs yenidən başa salınır;
- Müxtəlif şagirdlərə əsas anlayışları aşılamaq üsulları kimi mətn, səs qeydiyatı aparatları, poster və videolardan istifadə edilir.

**Diferensial fəaliyyət**

- Müxtəlif çətinlik səviyyələri olan təlim fəaliyyəti qurun (məsələn, variant 1 asandır, variant 2 bir az çətin və variant 3 isə çox çətindir).
- Uşaqların fərqli maraqlarına əsaslanan müxtəlif variantları təmin etməklə fəaliyyəti fərqləndirmək mümkündür. Hər bir fəaliyyətdə müəllim tərəfindən dəstək verilə yaxud şagirdlər bir-birinə dəstək verə bilər.

**Diferensial tapşırıqlar**

- Əsas təlim məqsədlərinin müəyyənləşdirilməsində uşaqların iştirak etməsinə imkan yaradın.
- Uşaqları öyrəndiklərini fərqli üsullarla ifadə etməyə təşviq edin.
- Müxtəlif iş üslublarına şərait yaradın (məsələn, tapşırığı bitirmək üçün tək və ya qrupun tərkibində işləmək).
- Tapşırıqları hazırlamaq üçün müxtəlif növ resurslardan istifadəni təmin edin edin.
- Müxtəlif qiymətləndirmə metodlarından geniş şəkildə istifadə edin.

Sinifdə bütün uşaqların dərsə cəlb olunması, iştirakı və nailiyyət əldə etməsi üçün müxtəlif təlim üsulları var. İnklüziv sinif strategiyalarını icra etmək çətin deyil.

### 6.4. Əsas sinif strategiyaları və adaptasiya

**Əsas sinif strategiyaları və adaptasiya: Bütün uşaqlar üçün:**

- Dərsin planlaşdırmasını hazırlayın, mövzulara dair fəaliyyətləri planlaşdırın və sonda həyata keçiriləcək təlimi nəzərdən keçirin.
- İstedadlı uşaqlar üçün əlavə fəaliyyətlər hazırlayın.

  Universal öyrənmə dizaynından (UÖD) istifadə edin: Dərsdə müxtəlif vasitələrdən - vizual, eşitmə, kinestetik və sairdən istifadəni təmin edin.

- Çevik olun və eyni öyrənmə bacarıqları və nəticələrini araşdırmaq üçün müxtəlif fəaliyyətlər təklif edin.
- Dərsdən öncə uşaqlara öyrənəcəkləri mövzu barədə məlumat verin – təlimdə çətinlikləri olan uşaqlar təkrar izahata ehtiyac duyurlar.
- Uşaqların bir-birilərinə kömək edəcəkləri mühiti yaradaraq ünsiyyət və əməkdaşlıq mədəniyyətini aşılayın.
- Dərs müddətində uşaqlar ilə qarşılıqlı münasibət qurun:
    - Uşaqları müşahidə edin və onların işlərini yoxlamaq üçün onlarla birlikdə qeydiyyat aparın;
    - Dərs boyunca başa düşüldüyünüzü yoxlayın.
- Uşaqlardan nə gözlədiyinizi onlara izah edin.
- Əsas anlayışlardan istifadə edin. Uşaqlar istədiyiniz kimi tez başa düşmədikdə səbrli olun. Tapşırıqlara başlamazdan əvvəl təlimatları və izahatları təkrarlayın.
  Təlimə fokuslanın və hər kəsdən sinifdə çox çalışmalarını və dərsdə öyrənmələrini gözlədiyinizi açıq izah edin.
- Əlilliyi olan uşaqları onlara dəstək ola biləcək uşaqlarla birlikdə qruplaşdırın.
- Tapşırığı bitirmək üçün daha çox vaxta ehtiyacı olan uşaqlara şərait yaradın.

**Əsas sinif startegiyaları və adaptasiya: Eşitmə məhdudiyyəti olan uşaqlar üçün:**

- Lövhədə yazılanı daha asan anlamaları üçün eşitmə məhdudiyyəti olan uşaqları qabaq partada otuzdurun.
- Oxumada çətinliyi olan uşaqların məlumatı daha yaxşı mənimsəməsi məqsədilə vizual vasitələrdən istifadə edə bilərsiniz. Danışarkən həmin uşağın dodaqlarınızı gördüyünə əmin olun, onlar dodaqdan oxuyaraq müzakirəyə qoşula bilirlər, üzünüz yazı lövhəsinə tərəf olduqda danışmayın.
- Arxa fondakı səsləri azaldın. Sinfi elə təşkil edin ki, qrup müzakirəsi zamanı eyni anda yalnız bir şagird danışsın.
- Eşitmə məhdudiyyəti olan uşaqların başa düşməsi üçün əyani vasitələrin maksimallaşdırılması üçün otağın yaxşı işıqlandırılmasını təmin edin

- Ünsiyyət zamanı qeyd olunan məlumatların yazılı şəkildə təqdim edilməsini təmin edin. Sinif müzakirələrini və elanları əlavə etmək üçün yazılı materiallar təqdim edin.
- Sinifdə videolardan istifadə edərkən alt-yazıların olmasına diqqət edin.

· Eşitməyən uşaqlarda nitq məhdudiyyətləri ola bilər. Anlaşılmayan sözləri, oxu tapşırıqlarını müzakirə edin.

· Qeydlər apararkən uşaqlara yaşıdları ilə işləməyə icazə verin.

· Məlumatı aydın və sadə şəkildə təqdim edin.

· Daha aydın şəkildə tələffüz edin.

**Əsas sinif strategiyaları və adaptasiya: Fiziki məhdudiyyəti olan uşaqlar üçün:**

· Sinifdə hərəkət etmək üçün geniş yer təmin edin. Əmin olun ki, fiziki məhdudiyyətli uşaqlar üçün sinfin hər yeri, əyani vəsaitlər, informasiya materialları və təchizatlardan istifadə əlçatandır.

· Əlilliyi olan uşaqların sinfə daxil olması və sinifdən çıxması üçün daha çox vaxt tələb olunduğunu nəzərə alın.

· Qrup işi və yerdəyişmə zamanı sinifdə hərəkət etməsi üçün uşağa kifayət qədər vaxt verin.

· Uşağın yazı çətinliyi varsa, ona qeydləri aparmaqda kömə edə biləcək partnyor seçin.

Uşağa məlumatı yazmaq yerinə kompüter, kiçik səsyazan və ya kamera kimi vasitələrlə qeydə almağa icazə verin.

· Uşaq tez yorulursa, tapşırığı bitirmək üçün ona əlavə vaxt verin.

**Əsas sinif strategiyaları və adaptasiya: Görmə məhdudiyyəti olan uşaqlar üçün:**

· Görmə məhdudiyyəti olan uşaqları yazı lövhəsinə yaxın otuzdurun.

· Sinifdə iri şriftlə çap edilmiş təlim materiallarından istifadə edin.

· Lazım olarsa, diktafona yazılmış mətnlərdən istifadə edin. Şagirdlərə qeydlər aparmaq əvəzinə dərsləri və təlimatları diktafona yazmağa icazə verin.

· Oxumaq və yazmaq üçün uşaqlara daha çox vaxt verin. Şagirdlərə tapşırıqları yerinə yetirmək üçün daha qalın uclu marker və ya yazı alətindən istifadə etməyə icazə verin.

- Yazılı təlimat və ya tapşırıq verdikdə materialın qısa şəkildə və böyük hərflər ilə yazıldığına əmin olun. Uşaqlara sinif qeydlərinin nüsxəsini təqdim edin və onlara iPad və ya tabletlər ilə onları qeydə almağa icazə verin.
- Təlimatları həm şifahi, həm də yazılı təqdim edin. Hər bir ifadəni lövhədə yazıldığı kimi deyin.
- Görmə məhdudiyyəti olan şagirdlərə tapşırıqlarını daha qısa yazılmış variantda təqdim etməyə və ya öyrəndiyini fərqli vasitə ilə nümayiş etdirməyə icazə verin.

Nəzərə alın ki, görmə məhdudiyyəti olan uşaqların vizual vasitələrlə təlim alma ehtimalı azdır və həmin vasitələrdən istifadəsi də az olacaq (məsələn, sinif planını görməsi, saatda vaxtı yoxlaması, təlimat materialları və sinif otağının qaydaları və s. daxil olmaqla divardakı əyani vasitələrin və materialların oxunması).

- Görmə məhdudiyyəti olan uşaqlar təlim yerlərində oriyentasiya və səfərbərlikdə köməyə ehtiyac duyacaqlar. Sinfin planı, kitabxana, yeməkxana və məktəbin digər əsas ərazilərə bələd olması üçün görmə məhdudiyyəti olan uşaqlara vaxt verin ki, onu əhatə edən mühit ilə tanış olsun və ətrafda hərəkət edərkən inamlı olsun. Məktəbin planı və məktəbin fövqəladə hallar üzrə prosedurlarını görmə məhdudiyyəti olan uşaq üçün aydınlaşdırın (məs., tualetlər, idman zalı, kitabxana, yeməkxana, təlimat otağı, oyun meydançası və s.).
- Görmə məhdudiyyəti olan uşaqlar adlar ilə simaları əlaqələndirməyə bilərlər, ona görə də həmin uşaqlara öz sinif yoldaşları ilə tanış olmaq üçün vaxt verin. Məqsədyönlü şəkildə sinif yoldaşları ilə kiçik qruplar və ya fərdi şəkildə tanış ola biləcəkləri fəaliyyət və təcrübələr təşkil edin.

**Əsas sinif strategiyaları və adaptasiya: Əqli problemləri olan uşaqlar üçün:**

- Təlimatları bir neçə dəfə təkrarlayın.
- Böyük tapşırıqları kiçik parçalara ayırın. Eyni anda yalnız bir mərhələnin təlimatlarını verin. Aydın seçimlər verin.
- Fəaliyyətlərdə mümkün olduğu qədər sadə sözlərdən istifadə edin.
- Dərsi müxtəlif üsullarla təqdim edin (məsələn, əyani, səsli, təcrübi dərs).
- Dərsin əyani təqdimatını keçirin və iri mətnlərdən ibarət materiallardan istifadə edin.
- Şifahi verilən təlimatlar vasitəsilə yazılı təlimatları möhkəmləndirin.

**Əsas sinif startegiyaları və adaptasiya: Ünsiyyət və inteqrasiya problemləri olan uşaqlar üçün (bura əqli problemləri, nitq çətinlikləri və autizm sindromlu uşaqlar daxildir):**

- Sadə və konkret dildə danışın.
- Gündəlik nizam-intizam qaydaları tərtib edin.

· Fəaliyyətin bitməsi və digər fəaliyyətin başlaması haqqında məlumat verməyi gündəlik

qaydaların bir parçasına çevirin.

· Daha az seçimlər verin. Uşaqdan bir rəng seçməsini istəyirsinizsə, ona seçməsi üçün iki və ya üç seçim verin.

- Daha dəqiq seçimlər verin və seçimləri açıq saxlamamağa çalışın. “İndi nə etmək istəyirsən?” soruşmaq yerinə “Oxumaq, yoxsa çəkmək istəyirsən?” kimi soruşmaqla siz mütləq daha yaxşı nəticə əldə edəcəksiniz.
- Növbə və sosial məsafə kimi xüsusi sosial qaydaları/bacarıqları öyrədin.
- Təlimatları təkrarlayın və onların aydın olmasını təmin etmək üçün qısa cümlələr qurun.
- Həddindən çox asanlaşdırmayın. Tapşırıq qəliz olarsa, distraktorları (test tapşırıqlarında düzgün cavaba yaxın digər variantların olması) minimuma endirin. Lazım olarsa, fərdi çalışma sahəsi və ya güşəsindən istifadəyə icazə verin. Rəngli divar ekranları bəzi uşaqların fikrini yayındıra, digərləri üçün isə səsə alışmaq çətin ola bilər.

### 6.5. Yardımçı texnologiyaların istifadəsinə dair ümumi məlumat

Təlim prosesinə cəlb etmək üçün əlilliyi olan bəzi uşaqlar üçün yardımçı texnologiya vasitəsi ilə xüsusi dəstəyin olması tələb olunur. Yardımçı texnologiya əlilliyi olan uşaqlara sinifdə daha yaxşı öyrənməyə kömək etmək üçündür.

Yardımçı texnologiya təhsildə əlilliyi olan uşaqların iştirakına və yanaşmasında olan maneələrin aradan qaldırılmasına kömək edir. Uşaqların müvafiq texnologiya ilə təmin edilməsi onların səfərbəyliyi, ünsiyyət qurmaq bacarığı, eşitməsi və təhsildə iştirakına təsir edir.

**Görmə məhdudiyyəti olan uşaqlar üçün:**

- Ağıllı lövhə kimi interaktiv lövhədən istifadə edin, lövhədə yazılanları oxuya bilmələri üçün görmə məhdudiyyəti olan uşaqlar kompüter və ya tabletdən istifadə edə bilərlər.
- Müəyyən məsafədən daha yaxşı görə bilmələri üçün uşaqlara binokl, monokl və ya böyüdücü cihazlardan istifadə etməyə icazə verin.
- Power Point təqdimatları hazırlayarkən Arial kimi sadə şrift seçin və minimum şrift ölçüsü 24-dən istifadə edin. Animasiya və keçidlərdən az istifadə edin.
- Ehtiyac duyan uşaqlar üçün Brayl şriftindən istifadə edin.
- Kompüterdə şifahi təsvir proqramlarından istifadə edin.

**Eşitmə məhdudiyyəti olan uşaqlar üçün:**

- Nitqi mətnə çevirən funksiyaya malik kompüterlərdən istifadə edin.

- Elanlar üçün əyani vasitələr və sinifdə göstərilən videolarda titrları təmin edin.
- Əlavə əyani vasitələrdən istifadə edin (məs., proyektor, ağ lövhə, qrafiklər, lüğət, mühazirə planları və s.)

- Uşaqdan şəxsi eşitmə cihazından istifadə etməsini xahiş edin.

**Fiziki məhdudiyyəti olan uşaqlar:**

- Fiziki əlilliyi olan uşaqların kompüterdən istifadəsinə yardım üçün hazırlanmış alternativ cihazlardan istifadə edin (məs., sensor ekranlar, dəyişdirilmiş klaviatura, əyləncəli idarəedici çubuqlar və s.). Yazmaqda çətinliyi olan uşaqlar üçün kompüter, yardımçı proqram təminatı, qeydə alan cihazları təmin edin.
- Sinif fəaliyyətlərinə və imtahanlara verilən cavabları lentə almaq üçün danışılanı mətnə çevirən proqram təminatından istifadə edin.
- Yazmağı asanlaşdıra bilən qələm tutacaqları və ya erqonomik dizaynlı qələmləri təmin edin. Yazı alətlərini yaxşı tutmaqda çətinlik çəkən uşaqlar üçün qalın yazı alətlərindən istifadə etmək asandır.

**Əqli əlilliyi olan uşaqlar üçün:**

- Uşağa mətni oxumaq yerinə audio qeydlərə qulaq asmağa icazə verin.
- Dərsi yalnız oxu kitabları vasitəsilə deyil, həmçinin audio kitablar, kinolar və digər media vasitələri ilə keçin.
- Tapşırıqlar üçün elektron imla yoxlamasından istifadə edin.
- Sinifdə qeydiyyat aparmaq və ya cavab vermək üçün kompüterdən istifadə edin.
- Tablet və ya iPadlardan istifadə edin.

### 6.6. Təlim prosesində istifadə etmək üçün əyani vəsaitlərin hazırlanması və istifadəsi

Dərs planlaşdırmasının mühüm hissəsi istifadə edəcəyiniz vasitələri planlaşdırmaqdır. Bu vasitələr dərsə uyğun və sinifdə uşaqlar üçün əlçatan olmalıdır. Müəllimləri ətrafda asanlıqla tapılan, təkrar emal oluna bilən və təbii materiallardan istifadə edərək öz şəxsi materiallarını hazırlamağa və yaradıcı olmağa sövq etmək lazımdır.

Təlim prosesində istifadə üçün əyani vəsaitlərin hazırlanmasının tələbləri var.

“Yaxşı” və inklüziv təlim vasitəsi:

- İnteraktiv vəsait (şagirdin üzərində işləyə bildiyi vəsait);

- Aydın görünən;
- Cəlbedici, rəngli və ya qalın şriftlə yazılan;
- Təhlükəsiz şəkildə uşaqların tutacağı və ya toxuna biləcəyi ölçüdə;

- Dözümlü və asan təmir oluna biləcək möhkəm materiallardan hazırlanmış;
- Yalnız müvafiq məlumat və ya detallardan ibarət;
- İstifadəsi əyləncəli;
- Dərsin məqsədlərinə müvafiq;
- Yerli və tullantı materiallarından hazırlanmış;
- Bir dəfədən çox istifadə edilə bilən olmalıdır.

**Resursların saxlanılması və idarə edilməsi**

- Resurslar müəllimlər otağı, kitabxana, direktorun otağı və s. kimi yerlərdə saxlanıla bilər.
- Müəllimlər əşyanı götürə, qeyd kitabçasında bunu qeyd edə və bitirdikdən sonra yerinə qaytarıb qoya bilərlər.
- Materialların qeydə alınmasını, təşkil edilməsini və nömrələnməsini hər hansı bir müəllim öz öhdəliyinə götürə bilər. Bu vəzifə yarımillik və ya illik növbəli ola bilər.

Yaşca böyük uşaqlar da materialların təşkili və idarə edilməsində köməklik göstərə bilərlər. Bu, onlara faydalı bacarıqlar aşılamağa kömək edəcək.

## Mövzu 7. İNKLÜZİV SİNİFLƏRDƏ QİYMƏTLƏNDİRMƏ

Dünya miqyasında və Azərbaycanda bir çox müəllimlər qiymətləndirmənin alternativ üsullarından xəbərdar olmadığından siniflərdə uşaqların biliklərinin qiymətləndirilməsi üçün əsasən ənənəvi strategiyalardan istifadə edir. Ənənəvi qiymətləndirmə strategiyalarında uşaqlar adətən çox vaxt çətin mətnləri əzbərləməli, eləcə də ildə iki və ya daha çox dəfə yazılı və ya şifahi sınaqlar vasitəsilə yaddaşlarında nə qaldığını nümayiş etdirməlidir. Bu yanaşma uşaqların əksəriyyəti üçün baryerlər yaradır.

Ənənəvi qiymətləndirmə strategiyaları uşaqlara öyrəndiklərini nümayiş etdirməyə imkan vermir. Bəzi uşaqlar nəzərdə tutulan bilik hədəflərini doğrultsa da, bunu standart yazılı sınaqlarda ifadə etməkdə çətinliklərlə üzləşir.

**Şagirdin qiymətləndirilməsi nə deməkdir?**

Şagirdin qiymətləndirilməsi təhsil qərarlarının qəbul edilməsi üçün öyrənənin nailiyyətləri barədə məlumatların toplanması prosesidir.

**Şagirdləri nə üçün qiymətləndiririk?**

Qiymətləndirmə həm müəllim, həm də şagirdləri təlim prosesinə dair məlumatlarla təmin edir. Bu məlumatlar həm təlim, həm də öyrənmə prosesinin keyfiyyətinin təkmilləşdirilməsində

istifadə edilir. Davamlı qiymətləndirmə aşağıda göstərilən müxtəlif hallarda istifadə edilə biləcək zəngin məlumat toplusunu təmin edir:

- Müəllimin özünütəhlili: Bütün şagirdlər nəzərdə tutulan biliklərə yiyələnə bilirlərmi? Dərs planı nəzərdə tutulan təlim nəticələrini dəstəkləyirmi? Kim üçün nə yaxşıdır və nə yaxşı deyil? Fənni tədris etmək üçün daha yaxşı üsul varmı?
- Şagirdin özünütəhlili: Mən necə öyrənirəm və ya qavrayıram? Daha nələri öyrənmək istəyirəm? Buna necə nail ola bilərəm?
- Valideynlərlə ünsiyyət: Şagird məktəbdə necə öyrənir? Şagird evdə necə öyrənir? Məktəb, şagird və müəllimlərin gözləntiləri nədir? Evdə öyrənməni məktəbdə öyrənmə ilə necə əlaqələndirə bilərik?
- Nailiyyətlərin qiymətləndirilməsi: Şagird qarşısına qoyulan təlim naliyyətlərini nə dərəcədə yerinə yetirib? Şagirdin bu təlim naliyyətlərini əldə etməsini dəstəkləyən müvafiq metodlar hansılardır?

**İnklüziv qiymətləndirmə nədir?**

İnklüziv qiymətləndirmə inklüziv təhsilin təməlində duran prinsiplər və fəlsəfəni dəstəkləyir. Bu yanaşma şagirdlərin biliklərə yiyələnmə imkanlarının genişləndirilməsi ilə yanaşı, öyrənənlərin fərdi müxtəlifliyini də nəzərə alaraq təhsilin keyfiyyətinin təkmilləşdirilməsinə öz töhfəsini verir. İnklüziv qiymətləndirmədə istifadə edilən strategiyalar və toplanan məlumatlar yalnız seçim, attestasiya, hesabatvermə və ya müqayisə kimi "ənənəvi" məqsədlərlə istifadə edilmir, həmçinin təhsilin bütün səviyyələrində nailiyyətlər və bərabərliyin artırılmasını təmin edir.

**İnklüziv qiymətləndirmənin əsas elementlərinə daxildir:**

- Bütün qiymətləndirmələr başa düşülən və əlaqələndirilmiş olur, öyrənmə prosesini məlumatlandırmaq və təşviq etmək məqsədini rəhbər tutur;
- Şagirdlərin əldə etdiyi bilikləri müəyyənləşdirmək üçün onlar qiymətləndirmə prosedurlarına cəlb edilirlər;
- Həm summativ, həm də formativ qiymətləndirmə yanaşmaları daxildir;
- Qiymətləndirmədə innovasiyaların edilməsi dəstəklənir;

- Tədqiqat, nəzəriyyə və təcrübə inklüziv qiymətləndirməni koordinasiya edir və dəstəkləyir.

### 7.1. Qiymətləndirmənin növləri

Ənənəvi qiymətləndirmə strategiyaları uşaqlara öyrəndiklərini nümayiş etdirməyə imkan vermir. Bəzi uşaqlar nəzərdə tutulan bilik hədəflərini doğrultsa da, bunu standart yazılı sınaqlarda ifadə etməkdə çətinliklərlə üzləşir.

Müntəzəm qiymətləndirmə strategiyalarına dəyişikliklərin edilməsindən başqa inklüziv müəllimlər, ənənəvi qiymətləndirmə strategiyalarını innovativ qiymətləndirmə strategiyaları ilə birləşdirirlər. Bu, davamlı qiymətləndirmə adlandırılır. Formativ qiymətləndirmə müəllimləri öyrənilənləri şagirdlərin necə qavramasına dair cari informasiya ilə təmin edir. Bu da nəticə etibarilə müəllimlərin hər kəsin öyrənməsini təmin etmək üçün təcrübələrini daimi olaraq tənzimləmələrinə şərait yaradır.

Qiymətləndirmə növləri:

- Diaqnostik;
- Formativ;
- Summativ.

**Diaqnostik qiymətləndirmə tədris** ilinin əvvəlində (ibtidai siniflərdə II yarımildən tez olmayaraq), uşaq sinfini və ya məktəbi dəyişdikdə və digər bu kimi hallarda uşağın biliyinin ilkin qiymətləndirməsi məqsədi ilə aparılır.

**Formativ qiymətləndirmənin** 2 hədəfi var.

**1. Öyrənmə üçün qiymətləndirmə hədəfi**

Öyrənmə üçün qiymətləndirmə hədəfinə uyğun olaraq,

**Formativ qiymətləndirmənin məqsədi:**

- Şagirdlərin öyrənməsi və təkmilləşməsinə kömək etmək;
- Şagirdlərin qarşısına qoyulan biliklərə yiyələnmə hədəflərinə nail olmasına dəstək

olmaqdır.

**Formativ qiymətləndirmə** əks-əlaqə, motivasiya, rəhbərlik, öyrənməyə dəstəyə fokuslanır.

**Formativ qiymətləndirmə,** nə vaxt ehtiyac olarsa, təlim prosesi zamanı aparıla bilər.

**Formativ qiymətləndirmədə müəllimin rolu:**

- Problem və öyrənmə ehtiyaclarının təhlili;

- Əks-əlaqənin təmin edilməsi;
- Nəzərdə tutulan nəticə və standartların müəyyən edilməsi;

- Təkmilləşmə üzrə məsləhətlər;
- Motivasiyanın artırılmasından ibarətdir.

**2. Öyrənmə qismində qiymətləndirmə hədəfi**

Öyrənmə qismində qiymətləndirmə hədəfinə uyğun olaraq

**Formativ qiymətləndirmənin məqsədi:**

- Öyrənmək üçün öyrənmə;
- Şagirdlərə öz öyrənmə proseslərinə nəzarət etmənin öyrədilməsidir.

**Formativ qiymətləndirmə** özü və yaşıdları tərəfindən qiymətləndirmə, əks etdirmə, şagirdlərin öz hədəflərini müəyyən etməsi, öyrənmək üçün məsuliyyətin stimullaşdırılmasına fokuslanır.

**Formativ qiymətləndirmə** təlim prosesi zamanı aparılır.

**Formativ qiymətləndirmədə müəllimin rolu:**

- Özünüqiymətləndirmə üzrə model və təlim bacarıqları;
- Öyrənmə prosesinin monitorinqi və qeyri-müəyyənlik halları ilə mübarizə aparmaq üçün rəhbərlik etməkdən ibarətdir.

**Summativ qiymətləndirmənin hədəfi** öyrənilənlərin qiymətləndirilməsidir.

Summativ qiymətləndirmənin **məqsədi:**

- Sərişteni ölçmək və göstərmək;
- Məktəb rəhbərliyi, hökumət və cəmiyyət qarşısında cavabdehlik;
- Qiymət müəyyənləşdirmək .

**Summativ qiymətləndirmə** seleksiya, qiymətləndirmə, attestasiya, nailiyyətlər, peşəkar tanınma, standartların saxlanmasına **fokuslanır.**

**Summativ qiymətləndirmə** bölmə və ya proqramın sonunda aralıq və yekun imtahanla həyata keçirilir.

**Summativ qiymətləndirmədə müəllimin rolu** şagirdlərin qarşısına qoyulan biliklərə yiyələnmə hədəflərinə və standartlarına nail olmasına dair mühakimə yürütmək və qiymətlərin verilməsindən ibarətdir.

**İnklüziv qiymətləndirmədə xüsusi təhsil üzrə mütəxəssisin rolu:**

- Dərslərin planlaşdırılması, eləcə də əlilliyi olan uşaqlar və ya uşaqlar qrupu üçün müvafiq

tədris hədəfləri və nəticələrinin müəyyən edilməsində ümumtəhsil müəllimlərinə dəstək.

- Dərs planında fərqli tədris nəticələrinin necə əldə edilə biləcəyinə dair təkliflərin verilməsi.

- Bütün uşaqlar üçün əlçatan ola biləcək qiymətləndirmə strategiyasının hazırlanmasında ümumtəhsil müəllimlərinə dəstək.
- Hər kəsin iştirakını təmin edə biləcək sınaq və imtahanların nizamlanmasında ümumtəhsil müəllimlərinə dəstək.
- Bütün uşaqların onların qarşısında qoyulan tədris hədəfləri istiqamətində naliyyətlər əldə etməsinə nəzarət etmək məqsədilə şagirdlərin qiymətləndirmə nəticələrini müzakirə etmək üçün ümumtəhsil müəllimlərlə müntəzəm olaraq görüşlərin keçirilməsi.
- Şagirdlərin qiymətləndirmə nəticələrinə əsaslanaraq bütün uşaqlar üçün təlim və tədrisin təkmilləşdirilməsi yollarının ümumtəhsil müəllimlərlə müzakirəsi.
- Lazım gələrsə, müxtəlif sahələrdən olan mütəxəssislər (məsələn, psixoloq, ümumi profilli müəllim, fizioterapevt, sosial işçi, profpatoloq) dəstək qrupu formalaşdırmalıdır. Onlar qarşılarına ümumi məqsəd qoyaraq şagird, onun ailəsi və sinif müəllimləri ilə birlikdə bütün qrup ilə işə cəlb olunmaqla qarşılıqlı əməkdaşlıq çərçivəsində çalışırmalıdır.
- Qiymətləndirmə əməkdaşlıq və çoxşaxəli iş prinsiplərinə əsaslanmalıdır. Bütün şagirdlərin ehtiyaclarını qarşılayacaq müxtəlifliyin əldə edilməsinin ən yaxşı yolu inklüziv təhsilə cəlb olunan bütün iştirakçıların qarşılıqlı əməkdaşlığı və ümumi tədris təcrübəsinin əldə edilməsinə yönəlmiş inklüziv prosesin dəstəklənməsidir. Qiymətləndirmə bu ümumi tədris prosesinə yardım etməlidir.

**7.2. Qiymətləndirmə növlərinin təsirləri**

Bəzi müəllimlər ənənəvi qiymətləndirmə strategiyalarının (summativ, sessiyanın və ya ilin sonunda olan yazılı və standartlaşdırılmış sınaqlar) təlimə, kurikuluma və şagirdlərə mənfi təsir etdiyini düşünürlər.

| | |
|---|---|
| Təlimə mənfi təsir | Ənənəvi testlər və imtahanlar şagirdlərin nəyi xatırladığını açıqlasa da, təlimin əsas məqsədini, mənasını və faydasını üzə çıxarmır. Bu cür qiymətləndirmə çox dar çərçivədə akademik bilikləri qiymətləndirilir, şagirdlər |

| | | |
|---|---|---|
| | | qısa imtahan dövründə etdiklərinə görə qiymət alırlar və verilən qiymət şagirdin nəyi bacardığını və nəyi bacarmadığını əks etdirmir. |
| Kurikuluma | mənfi | İmtahan işin məlumatları xatırlama və mexaniki əzbərləmə |

| | |
|---|---|
| təsir | üzərində qurulduğunu vurğulayır. Nəticədə müəllimləri daha geniş və yüksək səviyyəli dərs deməyə cəsarətləndirmək əvəzinə, uşaqlara sadəcə dar çərçivəli test etmə bacarığını aşılamağa yönəldirlər. Şagirdlər nəzərdə tutulan təlim hədəflərinə nail olmadan onlara imtahanları uğurla keçməkdə |
| Müəllimlərə mənfi təsir | kömək edəcək strategiyalar hazırlayırlar.<br>Test nəticələrinin məktəbləri təsvir və mühakimə etməkdə əsas mənbə olduğu üçün müəllimlər arasında “test sevər” təlim proqramı ictimai utanc və təhqirdən yayınma üçün bir vasitəyə çevrilmişdir. Nəticədə bir çox müəllimlər test nəticələrini yüksəltmək üçün hətta mübahisəli vasitələrdən də |
| Şagirdlərə mənfi təsir | istifadə edir.<br>Bu cür qiymətləndirmə prosesinin arzuolunmayan təsirlərindən biri də şagirdləri kateqoriyalara ayırmaqdır. Bu isə şüuraltında şagirdin nailiyyətlərinin məhdudlaşmasına səbəb olur. Müəllimin uşaqdan gözləntiləri az olması şagirdlər arasında özünəinamsızlıq hallarına gətirib çıxarır. Bütün şagirdləri daha çox işləməyə və öyrənməyə təşviq etmək əvəzinə, bu mühit onları ruhdan sala və sistemdən kənarlaşmalarına yol açа bilər. |

### 7.3. Qiymətləndirmə meyarları

Qiymətləndirmə meyarları müəllim və ya şagirdlərin özləri tərəfindən təlimin qiymətləndirilməsi üçün vasitədir. Sözügedən meyarlar təlimi dəstəkləyərək qiymətləndirmə standartlarını konkretləşdirir. İnklüziv siniflərdə qiymətləndirmə meyarları şagirdin fərdi təlim hədəflərinə uyğunlaşdırılmalıdır.

Qiymətləndirmə meyarları əsas üç elementdən ibarətdir:

- Təlimin məqsədini şərh edən (izah edən) meyarlar toplusu;
- Ən yüksək və ən aşağı səviyyələr arasındakı diapazon;
- Hər səviyyəni qeyd edən təsvirlər.

Riyaziyyat üzrə qiymətləndirmə meyarına dair nümunə

| Kateqoriya | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|
| Tamamlama | Mən bütün işləri tamamladım. | Mən işlərin çox hissəsini tamamladım. | Mən işlərin bəzilərini tamamladım. | Mən işlərin yalnız kiçik bir hissəsini tamamladım. |
| Səylər | Mən bütün işləri tamamlamağa çalışdım. | Mən bütün iş-lərin çox hissəsini tamamlamağa çalışdım. | Mən işlərin bəzilərini tamamlamağa çalışdım. | Mən işlərin yalnız kiçik bir hissəsini tamamlamağa çalışdım. |
| Anlama | Mən məsələni bütünlüklə anladım və həll etdim. | Mən məsələni, demək olar ki, anladım və həll etdim. | Mən məsələnin bir hissəsini anladım, lakin onu həll edə bilmədim. | Mən məsələni anlamadım. |
| Əsaslandırma | Məsələni həll etmək üçün yaxşı planım var və onu izah edə bilərəm. | Məsələni həll etmək üçün planım var və demək olar ki, onu izah edə bilərəm. | Məsələnin bir hissəsini həll etmək üçün planım var, lakin köməyə ehtiyacım var. | Məsələni necə həll edəcəyimi bilmirəm. |
| İzahat | Riyazi düşüncələrimi izah etmək üçün aydın şəkildə sözlər, rəqəmlər, şəkillər və ya qrafiklərdən istifadə edə | Məsələni necə həll etdiyimi göstərmək üçün sözlər, rəqəmlər, şəkillər və ya qrafiklərdən istifadə etdim. | Bəzi etdiklərimi izah etmək üçün sözlər, rəqəmlər, şəkillər və ya qrafiklərdən istifadə | Məsələni və ya həllini necə izah edəcəyimi bilmirəm. |

| | | | | |
|---|---|---|---|---|
| | bilirəm. | | etməyə çalışdım. | |
| Dəqiqlik | Cavabımın düzgün olmasına əminəm. | Zənnimcə, cavabım düzgündür. | Deyəsən, cavabım düzgün deyil. | Cavabımın düzgün və ya səhv olmasını bilmirəm. |

### 7.4. Qiymətləndirmə üsulları

İnklüziv siniflərdə tətbiq oluna biləcək bəzi qiymətləndirmə üsulları:

- Müşahidələr;
- Açıq suallar;
- Yoxlama işləri;
- İş portfoliosu;
- Biliklərə yiyələnməyə dair qeydlər;
- Şagird özünüqiymətləndirməsi;
- Yaşıdlar tərəfindən (eyni-səviyyəli) qiymətləndirmə;

| Nə? | Necə? |
|---|---|
| **Müşahidələr** | Uşaqların fəaliyyətlərinə dair dəqiq və qərəzsiz qeydiyyat aparılır. |
| **Açıq suallar** | Uşağın özünü ifadə etmək qabiliyyəti və konkret |
| **Yoxlama işləri** | vəziyyətdə necə davranacağını qiymətləndirmək üçün fəaliyyətlər zamanı açıq suallar verilir. Faydalı təlim imkanlarının təmin edilməsi üçün uşağın artıq nəyi bildiyini və nə edə biləcəyini aşkar etmək üçün qısa şifahi və yazılı sınaqlar. Bura sual-cavablar, yoxlama sualları və ya sinif testləri daxil edilir. |

| | |
|---|---|
| **Portfolio** | Portfolioya uşağın yerinə yetirdiyi tapşırıqlardan nümunələr daxildir (yazılı nümunələr – inşalar, hekayələr və hesabatlar; illüstrasiyalar – şəkillər, |

| | |
|---|---|
| | xəritələr, diaqramlar, riyazi cədvəllər və s.). Həmçinin uşaqların sinif şurasında öhdəçiliklər götürmək kimi qeyri-dərs fəaliyyətləri də qeyd edilə bilər. Portfolio uşağın nəyi və necə öyrəndiyini göstərir. Burada əsas diqqət nailiyyətlər üzərində cəmlənir. Məsələn, uşaq portfolioda nəyi qeyd etməyə qərar verə bilər. Habelə portfolio uşağın müəyyən zaman kəsiyində nailiyyətlərini qiymətləndirmək üçün istifadə edilə bilər (uşaqların nəticələrinin bir-biri ilə müqayisə edilməsinin əvəzinə). Portfolio təlim-təlim nailiyyətləri üzrə uşaq və valideynlər ilə müzakirələrin aparılması üçün əsas kimi çıxış edir. |
| **Biliklərə yiyələnməyə dair qeydlər** | Eynilə portfolio kimi uşağın biliklərə yiyələnməsini əks etdirən yazılı sənədlər və şəkilləri izah edən qiymətləndirmə formasıdır. Bu üsulda qiqqət səhv və ya zəif nöqtələr üzərində cəmlənmir. Burada təlim çox zaman hər bir uşaq üçün fərdi şəkildə olmaqla müxtəlif yollarla həyata keçirilir. Uşaqlar və valideynlər adətən uşağın təlim prosesinin sənədləşdirilməsinə |
| **Şagird özünüqiymətləndirməsi** | cəlb edilir. Əsas məqsəd şagirdlərin özünü mühakimə qabiliyyətinin inkişaf etdirilməsidir. Özünüqiymətləndirmə biliklərə yiyələnmə prosesi üzərində sahiblik hissini gücləndirərək şagird tərəfindən daha çox “sərmayə” qoyuluşuna səbəb olur. |
| **Yaşıdlar tərəfindən (eyni-səviyyəli) qiymətləndirmə** | Yaşıdlar tərəfindən qiymətləndirmə birgə öyrənmə texnikasının bir növü olmaqla şagirdlərin öz yaşıdlarının işlərini qiymətləndirməsi, eləcə də öz işlərinin yaşıdları tərəfindən yoxlanmasından ibarətdir. Özünüqiymətləndirmə kimi yaşıdlar tərəfindən qiymətləndirmə də biliklərə yiyələnmə üzərində sahiblik hissini gücləndirərək şagirdlərin bir-biri ilə |

| | |
|---|---|
| | təcrübə mübadiləsinə söykənən öyrənmə prosesinə əsaslanır. Şagirdlərin bir-birinə konstruktiv tənqidlərini bildirməsini dəstəkləmək və eyni zamanda prosesə yaxından nəzarət edərək konfliklərin yaranmasının qarşısını almaq çox böyük əhəmiyyət kəsb edir. |

### 7.5. Qiymətləndirmə prosedurlarının hazırlanması

**Variant A:**

| Qiymətləndirmə üsullarının siyahısı | Siz artıq bu üsullardan istifadə etmisiniz? | Sinifdə bu üsulun yoxlanılması üçün sizə nə kömək edəcək? | Bu üsul inklüziv siniflərdə biliklərə yiyələnmə prosesini necə dəstəkləyir? |
|---|---|---|---|
| | | | |

**Variant B:**

| Qiymətləndirmə üsullarının siyahısı | Bu üsul adi halda Azərbaycanda | Bu qiymətləndirmə üsulunun | Bu üsul inklüziv siniflərdə biliklərə yiyələnmə prosesini |
|---|---|---|---|

| | istifadə olunurmu? | üstünlükləri nədir? | necə dəstəkləyir? |
|---|---|---|---|
| | | | |

### 7.6. Qiymətləndirmə strategiyaları (Dərs planı)

| Təlim hədəfi | Qiymətləndirmə üsulu | Məqsəd **(Nə üçün bu üsulu seçdiniz? Məlumatları necə istifadə edəcəksiniz?)** | Uyğunlaşmalar **(Hər kəs bərabər şəkildə bu üsuldan faydalana biləcəkmi? Hansı uyğunlaşmalara ehtiyac duyulur?)** | Hazırlıq **(Bu üsulu tətbiq etmək üçün nəyin hazırlanmasına ehtiyac var? Hansı dəstəyə ehtiyac var?)** |
|---|---|---|---|---|
| | | | | |
| | | | | |
| | | | | |

**Uzunmüddətli qiymətləndirmə strategiyası**

| Hal-hazırda hansı qiymət-ləndirmə üsulları və strategi-yalarından istifadə olunur? | İnklüziv və formativ qiymətləndirmə istiqamətində addımlamaq üçün hansı dəyişikliklər mümkündür? | | | | Bu dəyişiklik nə üçün lazımdır? |
|---|---|---|---|---|---|
| | Gündəlik qiymətləndir-mədə dəyişikliklər | Həftəlik qiymətləndirmə də dəyişikliklər | Yarımillik qiymətləndirmə də dəyişikliklər | İllik qiymətləndirmə də dəyişikliklər | |

| | | | | | |
|---|---|---|---|---|---|
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |
| | | | | | |